QADININ HEKAYƏSİ 100

QƏNİRƏ PAŞAYEVA

# TARİXƏ ADINI YAZAN QADINLAR

III CİLD

QƏNİRƏ PAŞAYEVA

# TARİXƏ ADINI YAZAN QADINLAR

Az f-2011.323

III

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

BAKI - 2011

Məsləhətçi: **Aybəniz TURAN**

Redaktor: **Əkbər QOŞALI**

Qənirə Paşayeva
**TARİXƏ ADINI YAZAN QADINLAR** (III CİLD)
Bakı, ""OZAN"" nəşriyyatı, 2011, 444 səh.

Milli Məclisin deputatı, siyasi elmlər üzrə fəlsəfə doktoru Qənirə Paşayevanın **"TARİXƏ ADINI YAZAN QADINLAR"** kitabında ayrı-ayrı əməli fəaliyyət sahələrində (o cümlədən ədəbiyyatda, siyasətdə, iş dünyasında, dövlət quruculuğunda və s.) böyük işlər görmüş, *"ilk"*lərə (hətta qəhrəmanlıqlara!) imza atmış, tarixin müxtəlif dövrlərində yaşamış ünlü qadınların həyat və fəaliyyətləri haqqında məqalələr toplanmışdır. Bu məqalələrin əksər hissəsi 2010-2011-ci illər ərzində lent.az internet portalında (və portala istinadən bir sıra kütləvi informasiya vasitəsində) yayınlanmış, geniş oxucu rəğbətini qazanmışdır. Qeyd edək ki, müəllif bundan öncə ***"Nobel mükafatlı qadınlar"*** adlı kitabla da oxucuların görüşünə gəlmişdir.

Xanım millət vəkilinin **"TARİXƏ ADINI YAZAN QADINLAR"** kitabı üç cilddə nəşr olunub və dünyaca ünlü 100 qadını əhatə edir.

Müəllifin özünəməxsus üslub və peşəkarlıqla qələmə aldığı **"TARİXƏ ADINI YAZAN QADINLAR"** əsəri geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

470206206-76
P ----------------- 2011
On-047-11

© Q.Paşayeva, 2011

XX əsrin səciyyəvi xüsusiyyətlərindən biri dünya xalqlarının ictimai-siyasi həyatında qadınların fəallığının artmasıdır. Danılmaz faktdır ki, müharibələrin, silahlı münaqişələrin acı nəticələrinin əsas ağırlığı qadınların üzərinə düşür. Odur ki, onların sülh və əmin-amanlıq uğrunda, müharibələrə, silahlı münaqişələrə qarşı mübarizə yollarında böyük qətiyyət və əzmkarlıq göstərmələri tamamilə təbiidir.

***

Cəmiyyətdə qadınların üzərinə daim çox böyük vəzifələr düşür, onların yükü həmişə ağırdır. Ancaq qadınların da xüsusiyyəti bundan ibarətdir ki, onlar bu vəzifələri şərəflə yerinə yetirirlər və cəmiyyətdə həmişə olduğu kimi, indi də aparıcı rol oynayırlar.

**Heydər ƏLİYEV**
*Azərbaycanın Ümummilli Lideri*

# ÖN SÖZ

***Həyatın demək olar, bütün sahələrində olduğu kimi, tarixdə də əsasən kişilərə daha geniş yer verilmişdir. Kitablarda təsvir olunan tarixi şəxsiyyətlərin əksəriyyətini kişilər təşkil etdiyi kimi, bizim şəhər mərkəzlərində, eləcə də ictimai və özəl qurumlarda, ölkə parlamentlərində daha çox, kişilərin büst və heykəllərinə rast gəlmək mümkündür. Artıq bəşəriyyətin digər yarısının, qadınların keçmişdə və hal-hazırda cəmiyyətimizə verdikləri töhfələri qəbul etməyin vaxtı gəlib çatmışdır. Bu baxımdan da qadın məsələlərində liderlərdən biri olan Qənirə xanım Paşayevanın keçmiş və müasir dövrün 100 məşhur qadınına həsr olunmuş*** *(intellektual məhsul olan)* ***bu kitabını ərsəyə gətirməsinə çox sevindim.***

Birləşmiş Millətlər Təşkilatı qadınların statusunun yaxşılaşdırılması sahəsində indiyədək geniş təbliğat işləri aparmış və bu il də bu məqsədlə, beynəlxalq səylərin özülü olaraq *"BMT Qadınları"* qurumunun yaradılması kimi önəmli bir addımı atmışdır. BMT-nin Azərbaycandakı Rezident Əlaqələndiricisi olaraq, böyük məmnuniyyət hissi ilə xanım Paşayevanın bu dəyərli kitabı haqqında bir neçə söz demək istərdim. Fikrimcə, 100 qadın liderin nailiyyətlərinə dair gözəl nümunələr gənc qadınlarımızı daha da ruhlandıracaq və onlara öz potensiallarına güvənərək bəşəriyyətə xidmətlərində dəstək olacaqdır.

Sürətlə dəyişən bir dünyada qadın və kişilər arasındakı əməkdaşlıq və bərabərlik güclü ailənin və davamlı cəmiyyətin təməlində duran əsas meyarlardır. Halbuki, yanlış fikirlər qadınlara qarşı davamlı ayrı-seçkiliyə səbəb olur. Qadınlar tarix boyunca cəmiyyətlərdə qərarvermə səlahiyyətlərindən kənarlaşdırılmışlar. Həqiqətən də, bütün sosial qrupların daxilində qadınlar sistemli şəkildə ayrı-seçkiliyə məruz

qalırlar və bu da əsasən bir neçə sosial qrupun başqaları üzərində hökümranlıq etməsinə şərait yaradan idarəetmə sistemlərində mövcud olmaqdadır. Bunlar elə bir hakimiyyət strukturlarıdır ki, sonradan uyğunsuzluq, təcrid etmə, iztirab və münaqişəyə səbəb olur. Geniş gender ədalətliliyinə nail olunması daha sülhsevər, demokratik və rifahlı cəmiyyətlərin yaranmasına zəmin olacaqdır.

Son iyirmi ildə qadınların bacarıqları əsaslı şəkildə artmışdır. Təhsil və səhiyyə göstəricilərində gender boşluqları demək olar ki, ikiqat azalmışdır. Qadınların gözlənilən ömür müddəti kişilərlə müqayisədə 20% artmışdır. Yüksək fertillik əmsalı üçdə bir dəfəyədək, ana ölümü iki dəfə azalmışdır. Yenə də bir çox maneələrin qalmasına baxmayaraq, bu son iyirmi ildəki göstəricilər ümidvericidir. Bütün bunlar aydın şəkildə göstərir ki, 1990-cı illərdə göstərilən səylər, yerli və beynəlxalq konfranslar öz bəhrəsini verməkdədir.

Hələ də qalmaqda olan maneələrə diqqətin yönəlməsi üçün Minilliyin İnkişaf Məqsədlərinə istinad etmək istərdik. Həmin məqsədlərdən məhz üçüncüsü öz hüquqları çərçivəsində gender bərabərliyinin və qadınların səlahiyyətlərinin artırılmasının əsas vəzifə olduğunu vurğulayır və bu, digər yeddi məqsədin yerinə yetirilməsində də əsas komponent hesab olunur. Dünya statistikasının nəticələrinə görə, səhiyyə, təhsil, qidalanma səviyyəsi, siyası iştirak, qanuni hüquqlar, bərabər işə görə bərabər ödəniş və həyatın digər sahələrində qadınların sayı kişilərə nisbətən azlıq təşkil edir. Gender qeyri-bərabərliyi hələ də dünyanın bütün ölkələrində yayılmışdır.

Xüsusilə də inkişaf etməkdə olan ölkələrdə bizim qadınların potensialından tam bəhrələnmək məqsədilə müvafiq şəraitin yaradılması üçün əlimizdən gələni etməliyik. Əks halda, milli potensialın ancaq müəyyən hissəsininın istifadəsi, ölkələrimizin digər dünya dövlətləri ilə ayaqlaşmasına böyük əngəllər törədər ki, bu da sonda geridəqalma ehtimalı yarada bilər.

Məşğulluq səviyyəsinin yüksəldilməsi, sosial xidmətlərin genişləndirilməsi və qadınların səlahiyyətlərinin artırılması kimi sahələrdə Azərbaycan hökumətinin qəti səyləri təqdirəlayiqdir.

Millət vəkili, siyasi elmlər üzrə fəlsəfə doktoru və keçmiş müxbir Qənirə xanım Paşayeva Azərbaycanda qadın səlahiyyətlərinin artırılması sahəsində yorulmaz bir təbliğatçı olaraq qalır. Bu kitab siyasi və ictimai həyatda, tarix və ədəbiyyatda, incəsənət və elm sahələrində öz istedadlarına arxalanaraq tarixdə öz sözlərini demiş 100 görkəmli qadına həsr olunmuşdur və xanım Paşayevanın Nobel ödülü almış qadınlara həsr etdiyi öncəki kitabının davamı olaraq qadınlara vətəndaş cəmiyyəti, biznes, elmi fəaliyyət və dövlət xidmətində irəli getmələrini aşılayır.

Mən, qadınlar naminə BMT-nin apardığı təbliğata dəstək olaraq, Azərbaycanda qadınların səlahiyyətlərinin artırılması sahəsində verdiyi bu dəyərli töhfəyə görə xanım Paşayevaya öz dərin minnətdarlığımı bildirirəm.

**Fikrət AKÇURA**
*BMT-nin Azərbaycandakı Rezident Əlaqələndiricisi*



# BƏNZƏRSİZ HƏYAT YOLLARI

***Yer üzündə nəsil-nəsil yaşamış milyonlarla qadın sırasında, yalnız öz ömrü, bənzərsiz həyat yolu, yorulmaz fəaliyyəti ilə fərqlənənlər xalqının, bütövlükdə bəşəriyyətin tarixində silinməz iz qoyur, yaddaşlara əbədi həkk olunurlar.***

Şəxsiyyət zirvəsini, sözün əsl mənasında, fəth etmiş belə xanımların həyatı, onların əldə etdikləri nailiyyətlərlə, yaradıcılıq uğurları ilə tanış olduqca qürur hissi duyursan, onlara bənzəmək və ya onlara bənzər gənc xanımlar yetişdirmək arzusunda olursan.

Odur ki, bu gün də həmin qadınları daha yaxından tanımaq, həm də onları tanıtmaq yaşadığımız dövrün və gələcəyin liderlərini yetişdirmək baxımından böyük önəm kəsb edir. Bu çətin, eyni zamanda, şərəfli missiyanı öz üzərinə götürmək isə ən azı, həmin xanımların malik olduqları bacarıqlara, onların intellektinə, cəsarətinə, fədakarlığına üyğun yüksək keyfiyyətlər tələb edir.

Ömrü boyu öyrənmək və öyrətmək, insanlığa xidmət etmək eşqi ilə yaşayan, daim Vətən, el-oba naminə çalışan, axtarışda olan, xalq arasında böyük nüfuz qazanmış millət vəkili, geniş dünyagörüşlü publisist Qənirə xanım Paşayeva xeyirxah iş görərək həmin missiyanı yerinə yetirməyi öz üzərinə götürmüşdür.

"Tarixə adını yazan qadınlar" silsiləsindən olan sanballı qələm nümunələri onun aramsız axtarışlarının uğurlu tapıntıları kimi ərsəyə gəlmişdir. Bu yazıların qəhrəmanlarının hər biri çox böyük məsuliyyətlə, mən deyərdim, incəliklə seçilmişdir və bu da müəllifin ciddi araşdırmalarının nəticəsi, müxtəlif dillərdə mövcud olan çoxsaylı qaynaqların (bir çox hallarda, tarixi qaynaqların), arxiv materiallarının dərindən öyrənilməsinin məhsuludur.

Qədim Misir ehramlarının birində əbədi məskən tapmış fironun anası Hatşepsutdan tutmuş, İslam mədəniyyətinin müqəddəs sima-

ları, siyasi xadimlər, öz dövlətinə başçılıq etmiş dərin zəkalı diplomat xanımlar, öz tədqiqatları, kəşfləri ilə elm aləmini zənginləşdirən sayseçmə alimlər, Nobel ödülü laureatları, çeşidli sahələrdə şöhrət qazanmış, adları tarixə düşmüş qadınlar sırasından yüz nəfəri seçmək olduqca çətindir.

Zənnimcə, müəllif qarşısına qoyduğu məqsədə uğurla nail olmuş, maraqlı bir toplu ərsəyə gətirmişdir. Olduqca önəmlidir ki, bu yüzlüyün sıralarında ötən əsrin, eyni zamanda, bugünümüzün fövqəl şəxsləri, görkəmli simalar arasında Azərbaycan xalqının da tanınmış qadınları özünə yer tapmış, ayrı-ayrı yazılarda onların xoş əməlləri barədə dolğun məlumatlar verilmişdir.

Dördclddə toplanmış silsilə yazılarda bu xanımların hər birinin fitri istedadı, qeyri-adi uğurları, həm də bu uğur zirvəsinə aparan enişli-yoxuşlu yollarda üzləşdikləri çətinliklər, əzablar, eyni zamanda, ağır mübarizələrdən zəfərlə çıxmaları faktların dili ilə inandırıcı şəkildə əks etdirilmişdir.

Xanım millət vəkilinin oxuculara təqdim olunan bu kitabı (doğma dilimizdə yazılması etibarı ilə) yeniyetmələrə, gənc qızlara və qadınlara öz həyat yolunu seçməkdə, eyni zamanda, kişilərə zərif cinsin nümayəndələrinə qarşı rəftarlarını bərabərlik, qarşılıqlı hörmət prinsipi və dəstək üzərində qurmaqda yardımçı olacaqdır, deyə düşünürəm. - *"Tarixə adını yazan qadınlar"* bu cəhətdən də olduqca dəyərli vəsaitdir. Bu silsilə yazıları ilə Qənirə xanım öz xalqı qarşısında vətəndaşlıq borcunu bir daha yerinə yetirmişdir.

Bir cəhəti də xüsusi qeyd etmək yerinə düşərdi - Q.Paşayevanın görkəmli xatunlar, analar, tanınmış simalar haqqında ilhamla qələmə aldığı yazıların dili və üslubu səlis, anlaşıqlı və rəvandır.

İnanıram ki, bu toplu bilik xəzinəsi olan bir çox kitabxanada özünə layiqli yer tapacaq, o cümlədən orta və ali məktəblərdə yeniyetmələr və gənclər arasında yayılacaq, çoxlarının sevdiyi və dönə-dönə müraciət etdiyi vəsait olacaqdır.

Qadınlığı tərənnüm edən bu yeni, faydalı nəşr ümumən əhali arasında, eyni zamanda, qadın hərəkatı, gender problemləri, bütövlükdə insan hüquqları üzrə tədqiqatlar aparan araşdırmaçılar, həmçinin tələbələr, müəllimlər, alimlər və mütəxəssislər tərəfindən böyük maraqla qarşılanacaq, çoxsaylı oxucu auditoriyası qazanacaqdır.

**Elmira SÜLEYMANOVA,**
*professor*
*Azərbaycan Respublikasının*
*İnsan Hüquqları üzrə Müvəkkili*
*(Ombudsman)*








# Aun San Su Çji

«Dövrümüzün
50 qəhrəmanından biri
AZAD RUHLU

# «BİRMA XANIMI»



- **Bu mübariz qadının adı bütün dünyaya ün salıb. O, Myanmanın (Birmanın) siyasi xadimi, hərbi xuntaya qarşı müxalifətin lideri, Nobel Sülh ödülünün laureatıdır. "Nobel" ona *"İnsan haqları və demokratiya uğrunda apardığı mübarizəyə görə"* verilib.**
- **2007-ci ildə Kanada parlamenti onu ölkənin Fəxri vətəndaşı elan etdi. 2008-ci ildə ABŞ-ın yüksək təltifinə - Konqresin qızıl medalına layiq görüldü.**
- **Ünlü "U2" qrupu ona "Walk On" mahnısını həsr etmişdir.**
- **Belçikada yerləşən Vrije və Katolik Luvein Universitetləri ona Fəxri elmlər doktoru adını verib.**



*Qeyd edək ki, 2006-cı ildə Aun San Su Çjinin ailə üzvləri tərəfindən onun həbsxanadan çıxarılması üçün "Freedom Now Vaşinqton" adlı qeyri-hökumət təşkilatına müraciət edilmişdi. Təşkilat BMT-nin İxtiyari Həbs üzrə İş Qrupu ilə birlikdə onun üçün siyasi və ictimai işlər üzrə müdafiə hazırlamışdı. Nəhayət, demokratik qüvvələrin, ictimai təsisatların səyləri nəticəsində azad olunan Aun San Su Çji həbsdən azad olunan kimi bəyan etdi ki, ölkəsi və milləti üçün mübaizəsini bundan sonra da davam etdirəcək və heç bir təzyiq və təqibin onu yolundan döndərə bilməz!*

2003-cü ildə Azadlıq Forumu Su Çjiyə demokratiyanı təbliğ etdiyinə görə həbsxanada olduğundan peyklə *"İlin Azad Ruhu"* ödülünü verib (Bu ödül bir milyon dollar vəsaitlə dəstəklənir.).

Hər ilin iyun ayında ABŞ-da fəaliyyət göstərən "Birma Kampaniyası" qeyri-hökumət təşkilatı Su Çjinin şərəfinə dünyada "Özünü dustaq et!" adlı yüzlərlə tədbir keçirirdi. Təşkilatçılar 24 saat ərzində özlərini ev





dustağı edirlər. Bu tədbirə onlar dostlarını da dəvət edir, birlikdə Aun San Su Çjini yad edirdilər.



Britaniyanın *"Birma Kampaniyası"* qeyri-hökumət təşkilatı Myanmanın (Birmanın) mübarizəsi və Su Çji haqqında məlumatların yayılması işi ilə məşğuldur. 1999-cu ilin noyabr ayında o, İrlandiya və Dublində *"Şərəfli azad insan"* elan edildi. 2005-ci ilin noyabrında *"İnsanlara Bərabərlik"* qrupu Su Çjini başqa nüfuzlu qadınlarla birlikdə BMT-nin Baş katibi namizədləri siyahısına salmağı təklif etdi. Aun San Su Çji həm də Nelson Mandelanın təşəbbüsü ilə yaradılan Ümumdünya Liderlər Qrupunun fəxri üzvüdür. Xanım Çji həbs olunduğundan təşkilat hər görüşdə rəmzi mahiyyət daşıyan boş stul qoyurdu. 2006-cı ildə Aun San Su Çji Britaniyanın "New Statesman" jurnalında "Dövrümüzün 50 qəhrəmanı" siyahısında birinci yeri tutmuşdu. Onların arasında **Nelson Mandela, Noam Çomski, Bill Geyts** və **Bono** da var idi. Aun San Su Çji haqqında **Riçard Şannon** *"Birma xanımı"* adlı pyes yazmış və əsər Londonda səhnəyə qoyulmuşdur.



***



Aun San Su Çji Myanma (Birma) müxalifətinin lideri və keçmiş ***Demokratiya Naminə Uluslararası Liqa***nın Baş katibidir. Xanım Çji çox ağır həyat yaşamış, həmişə təzyiqlərə, təqiblərə məruz qalmış, tez-tez həbs edilmişdir. Ancaq aldığı zərbələr onu əqidəsindən döndərə bilməmişdir.

Onun "özkeçmişi" ilə tanış olanlar heyrətlənir. ***Myanmada (Birmada) demokratik müxalifətin lideri, xalqının Milli Qəhrəmanı***






olan bir insanın qızı uzun illər ev dustaqlığı taleyini yaşayıb. 1990-cı ildə parlament seçkilərində hakim xunta onun rəhbərlik etdiyi Liqanın qələbəsini tanımadı. Bununla belə, ard-arda gələn ev dustaqlığı onu yolundan döndərə bilmədi.

Onun inadkarlığı, fədakarlığı, yenilməyən azadlıq ruhu dünyanın diqqətini cəlb etdikcə mənsub olduğu ölkə daxilində təşviş hissləri da artırdı. Aun San Su Çji 1990-cı ildə **Trolfa Rafto** və **Andrey Saxarov** adına ödüllərin laureatı oldu, 1991-ci ildə isə, bəlli olduğu kimi, Nobel ödülünə layiq görüldü. O, milləti üçün fədakarlıqla mübarizə aparan bir LİDER, bir QADIN, milləti və dövləti üçün hər şeyini; həyatını belə qurban verməyə hazır olan ŞƏXSİYYƏTdir!

Aun San Su Çji 1945-ci il iyun ayının 19-da o zamankı Birmanın paytaxtı Ranqunda doğulmuşdur. O, Birma millətçilərinin, müstəqillik hərəkatının lideri, general **Aun Sanın** və tibb işçisi, sonralar isə ictimai xadim olmuş **Do Xin Çji**nin qızıdır. General Aun San Ranqunun Mərkəzi qospitalında müalicə edilərkən baş tibb bacısı Xin Çji ilə tanış olmuşdu. Onlar 1942-ci ildə ailə həyatı qurdular. Su Çji ailənin üçüncü övladı, Aun Sanın yeganə qızıdır. O, adının ilk iki hissəsini atasının, üçüncüsünü nənəsinin, dördüncü hissəsini anasının adından götürmüşdür. Su Çjinin iki qardaşı vardı. Kiçik qardaşı uşaq ikən suda boğulmuşdu, böyük qardaşı isə sonradan San-Dieqo şəhərinə köçmüş və ABŞ vətəndaşlığını almışdır. Aun San Su Çjinin atası Birmaya müstəqillik verilməsinə dair Böyük Britaniya ilə uğurla başa çatan danışıqlarda əsas simalardan olmuşdur.

Aun San Myanmanın (Birmanın) milli qəhrəmanıdır, onun müstəqilliyində önəmli rol oynayan şəxslərdəndir. Ranqun Universitetində təhsil alarkən marksizm və qandizm ideyaları ilə maraqlanmış, ölkəsini müstəmləkəlik-





dən azad etmək üçün mübarizəyə qalxmışdı. 1936-cı ildə siyasi baxışlarına görə universitetdən xaric olunan Aun San iki ildən sonra Birma Tələbə Birliyinə rəhbərliyə gətirilmişdir. 1937-ci ildə Aun San Birma xalqının milli azadlıq mübarizəsinə qoşulmuş, 1941-1947-ci illərdə Yaponiya və Britaniya imperiyasına qarşı milli azadlıq mübarizəsinə rəhbərlik etmişdir.

**Birma 1948-ci ildə müstəqillik qazandı, lakin Aun San o günü görmədi. Aun San 19 iyul1947-ci ildə siyasi rəqibi tərəfindən qətlə yetirildi. O vaxtdan etibarən iyulun 19-u Myanmada (Birmada) rəsmi bayram - müstəqillik uğrunda həlak olanların xatirə bayramı kimi qeyd olunur.**





Atasının ölümü onlar üçün böyük bir zərbə olsa da, ailə Aun Sanın başçılığı altında müstəqillik əldə etmiş Myanmanın (Birmanın) inkişafı və gələcəyi üçün çalışmaqda davam etdi.

Aun San Su Çjinin anası Do Xin Çji 1960-cı ildə Hindistanda və Nepalda səfir vəzifələrini icra edirdi. Su anası ilə birgə Dehlidə yaşayır və burada təhsil alırdı. Sonra o, təhsilini Britaniyanın Oksford şəhərindəki Sent Hyus kollecində davam etdirmiş, 1969-cu ildə fəlsəfə, siyasət və iqtisadiyyat bakalavrı dərəcəsini almışdı. Kollec təhsilini başa vurmasının ardından Nyu Yorka köçən Su Çji ailə dostlarının evində yaşayırdı. O, Amerikada 3 il yaşadı.

Aun San Su Çji 1972-ci ildə alim-orientalist **Maykl Arislə** ailə həyatı qurdu və onunla birlikdə Butana köçərək Xarici İşlər Nazirliyində çalışmağa başladı.

1973-cü ildə onlar Londona köçdülər. Bu zaman artıq **Aleksandr** adlı oğlanları dünyaya gəlmişdi. 3 ildən sonra ikinci övladları **Kim**



anadan oldu. Övladlarını tərbiyə etməklə yanaşı, Su Çji tədqiqatlarını da davam etdirirdi. 1980-ci illərin ortalarından Yaponiyanın və Hindistanın elmi mərkəzlərində çalışan Su Çji mükəmməl elmi tədqiqatların müəllifidir və o, elmlə davamlı məşğul olsa, böyük nəticələr əldə etmək qabiliyyətinə malikdir. Lakin o zaman ölkəsindəki siyasi durum onu narahat etməyə başlayırdı və çox keçmədən o, Myanmada (Birmada) hökumət əleyhinə mübarizəyə qalxan müxalifətin liderlərindən biri kimi siyasi həyata atıldı. Ölkəsindəki siyasi həyat isə çox riskli bir fəaliyyət sahəsi idi. - Müxalifətin keçirdiyi davamlı etiraz aksiyaları isə hərbçilər tərəfindən yatırılırdı.

...Su Çji atasının "özkeçmiş"i üzərində işləyir, həmçinin tədqiqat aparan həyat yoldaşına işlərində kömək edirdi. Aun Sanın "özkeçmiş"i 1984-cü ildə Kvinslend Avstraliya Universitetinin nəşri olan *"Asiyanın liderləri"* silsiləsində dərc edildi. Növbəti il Londonda Su Çjinin gənc oxucular üçün nəzərdə tutduğu Birma, Nepal və Butan haqqında kitabları həşr edildi. 1980-ci illərin ortalarında Su Çji xaricdə elmi araşdırmalarla məşğul olurdu. 1985-1986-cı illərdə o, bir alim kimi, Yaponiyanın Kiyoto Universitetinin Güney-Şərqi Asiya Tədqiqatları Mərkəzinə dəvət edildi. Bu vaxt oğlu Kim onunla qalırdı, Aleksandr isə Hindistanda, Hindistan Perspektiv Tədqiqatlar İnstitutunda işləyən atası ilə birlikdə idi. 1986-cı ildə Kim və Aleksandr Ranqunda nənələri Do Xin Çjini ziyarət etdilər və buddistlərin gələnəksəl rahibliyə girmə töreninin iştirakçısı oldular. 1987-ci ildə ailə Şimldə bir araya gəldi. Su Çji həyat yoldaşının çalışdığı institutda işə qəbul edildi. Elə həmin ildə onlar Böyük Britaniyaya qayıtdılar, Su Çji London Şərq Ölkələri və Afrika üzrə Tədqiqatlar məktəbində dissertasiya üzərində işə başladı. Yenidən, elmi tədqiqatlar üçün uyğun ortam yaranmışdı.





## Yenə meydan, yenə siyasət, yenə həbs...

Bu ərəfədə 1962-ci ildən Birmaya başçılıq etmiş general **Ne Vinin** hökumətinə qarşı çıxan tələbələr qüvvə toplayırdılar. Qarşıdurma 23 iyun 1988-ci ildə Ne Vin istefaya getdikdən sonra da davam etdi. Əhalinin narahatçılığının əsas səbəbi hökumətin milli valyutanın 80 %-ni dövriyyədən çıxarması idi. **Tan Şve** Ne Vinin davamçısı oldu. O, ölkənin demokratikləşdirilməsi çağırışına önəm vermədi və müxalifətin nümayişçilərinə qarşı güc tətbiq etdi. Minlərlə nümayişçi öldürüldü. Bu dövrdə Su Çji xalqın səsinə səs verməyə bilməzdi, o, müxalifət qüvvələrinin liderlərindən biri olaraq fəal mövqe tutmağa başladı - "elm masa"sını yenə meydanlar və tribunalar əvəz etmişdi... 15 avqust 1988-ci il də o, çoxpartiyalı seçkilərə hazırlıq işlərini həyata keçirəcək Azad Məsləhət Şurasını yaratmağa çağıran məktubla hərbi hökumətə müraciət etdi. 26 avqustda Su Çji Ranqunda, Şvedaqon buddist məbədinin qarşısında yüzlərlə adamın iştirakı ilə keçirilən mitinqdə çıxış etdi. Ərinin və oğlanlarının da iştirak etdiyi mitinqdəki çıxışında o, xalqını Birmada demokratik idarəetmə formasını dəstəkləməyə çağırdı.





18 sentyabr 1988-ci ildə Birmada hərbi xunta hakimiyyəti yaradıldı. Hərbi rəhbərlik ölkəni idarə etmək üçün Qanun və Asayişin Bərpası üzrə Dövlət Şurasını təsis etdi. Dörd nəfərdən artıq adamın siyasi məqsədlərlə toplanması qadağan edildi, müxalifətçilər həbs olundu.



Bununla belə, hərbçilər çoxpartiyalı seçkilərin keçiriləcəyini elan etdilər.

Sentyabrın 24-ü Demokratiya Uğrunda Milli Liqa Partiyasının (DUML) əsası qoyuldu. Su Çji onun təsisçilərindən biri və Baş katibi oldu. DUML-in fəaliyyət proqramında güc işlədilməyən mübarizə üsulları və vətəndaşların etiraz aksiyalarının keçirilməsi bəndləri əks olunurdu. Su Çji özü isə ölkənin müxtəlif ərazilərinə səyahət edir, hakimiyyətin qadağalarına baxmayaraq, çıxışlar edərək tərəfdarlar toplayırdı.

27 dekabr 1988-ci ildə Do Xin Çji vəfat etdi. Yanvarın 2-si keçirilən dəfn mərasimində Su Çji valideynlərinin yolunu davam etdirəcəyinə, hətta həyatı bahasına başa gəlsə də, Birmanın rifahına xidmət edəcəyinə söz verdi.

Hökumətin müqavimətinə rast gəlsə də, o, 1989-cu ildə siyasi kampaniyasını fəal şəkildə davam etdirirdi. Lakin fevralın 17-də Su Çjiyə seçkilərdə iştirak etmək rəsmi şəkildə qadağan edildi.

Hərbçilər DUML liderinin artan nüfuzundan ciddi şəkildə təşvişə düşmüşdülər və bu, 20 iyul 1989-cu ildə Su Çji və yardımçısı **Tin Oonun** heç bir ittiham irəli sürülmədən və məhkəmə qərarı olmadan ev dustağı edilməsi ilə nəticələndi. Öncə Su Çji həbsxanaya - onun evində həbs edilən tələbələrin yanına aparılması üçün aclıq aksiyasına başladı, lakin hökumətin məhbuslarla yaxşı davranacağına dair verdiyi sözdən sonra aclıq aksiyası dayandırıldı.

1989-cu ildə hərbi xuntanın qərarı ilə Birmanın adı dəyişdirilərək, rəsmi şəkildə, Myanma İttifaqı adlandırıldı, ölkənin paytaxtı Ranqunun yeni adı Yanqon oldu.





## "Nobel"ə layiq görüldü, almağa gedə bilmədi...

1990-cı ilin may ayında Aun San Su Çjinin başçılıq etdiyi Demokratiya Uğrunda Milli Liqa Partiyası Myanmadakı seçkilərdə qələbə qazandı. Bu partiya Myanma parlamentində 80 %-dən çox yerə sahib olsa da, hərbçilər hakimiyyəti müxalifətə vermək istəmədi və seçkilərin nəticələrini ləğv etdilər. Aun San Su Çji isə hərbi xunta tərəfindən ev dustağı elan olundu. 1991-ci ilin oktyabr ayında Aun San Su Çjiyə demokratiya və insan haqları uğrunda apardığı mübarizəyə görə Nobel ödülü verilsə də, hökumət ona ödülünü almaq üçün xaricə getməyə icazə vermədi. O, 1989-cu ildən 1995-ci ilədək ev dustağı oldu. 1995-ci ildə uluslararası təşkilatların və ictimaiyyətin xunta rejiminə təzyiqindən və aparılan danışıqlardan sonra ev dustaqlığından azad edilən Su Çji yenidən siyasi fəaliyyətini davam etdirməyə başladı. O, ölkəni tərk etmək imkanından istifadə etmədi. Çünki hərbi rejimin onun ölkəyə qayıtmasına imkan verməyəcəyindən ehtiyat edirdi. Bütün bu əziyyət və sarsıntılara əlavə olaraq, Su Çji 1999-cu ildə xərçəng xəstəliyindən əziyyət çəkən həyat yoldaşını itirdi. Aun San Su Çjinin həyat yoldaşı britaniyalı alım Maykl Aris 1999-cu ildə həyatla vidalaşdı. Xəstə ikən hərbi xunta ona həyat yoldaşı ilə son dəfə görüşmək üçün imkan vermədi.



2002-ci ildə BMT-nin xüsusi tapşırıqlar üzrə səfiri **Rəzəli İsmayılın** vasitəçiliyi ilə Su Çji yenidən xunta ilə danışıqlara girdi. Zahirən elə



görünürdü ki, danışıqlar uğurla keçir. Bu lider qadın 2002-ci ilin mayında azadlığa buraxılır. Su Çji, əvvəllər olduğu kimi, partiyasını dirçəltmək üçün ölkə ərazisinə səyahətlər etməyə başlayır. Lakin azadlıq uzun sürmür. 2003-cü ildə onun avtokorteji hakimiyyət tərəfdarlarının hücumuna məruz qalır. Bundan sonra o, yenidən ev dustağı edilir *(Sanki ev dustağı olmaq sanki onun alnına yazılmışdı)*. Su Çjinin tərəfdarlarının sözlərinə görə, bununla hökumət müxalifət qarşısında acizliyini, həmçinin ondan ehtiyatlandığını büruzə verirdi. Bir tərəfdə şöhrət, digər tərəfdə hərbi hakimiyyətin təzyiqləri. - Su Çji çətinliklərə mətanətlə sinə gərirdi...

2006-cı ilin may ayında Myanmaya BMT Baş katibinin müavini **İbrahim Qəmbəri** səfər etdi, bu, iki il ərzində BMT nümayəndəsinin ölkəyə ilk səfəri idi. Hökumət Su Çjinin Qəmbəri ilə görüşməsinə icazə verdi. Müşahidəçilər hesab edirdilər ki, görüşdən sonra o, tezliklə azadlığa buraxılacaq. Bununla belə, mayın 27-sində xanım Çjinin həbs müddətinin növbəti dəfə uzadıldığı elan edildi.

2007-ci ilin avqust ayında Yanqonda və Myanmanın digər şəhərlərində yanacağın qiymətinin kəskin şəkildə artmasına qarşı etiraz aksiyaları başladı. Bu aksiyalar sentyabr ayında kütləvi xalq iğtişaşlarına çevrildi. Nümayişçilərin başında ölkədə böyük nüfuza sahib olan budda rahibləri və Demokratiya Uğrunda Milli Liqanın fəalları dururdu. 2007-ci ilin payızında Myanmada Aun San Su Çjinin tərəfdarlarının fəal iştirak etdiyi hökumət əleyhinə kütləvi çıxışlar geniş vüsət aldı. Xunta hakimiyyəti öncə müxalifətə qarşı güc tətbiq etdi, lakin oktyabr ayında BMT-nin və uluslararası camiyənin təzyiqi nəticəsində hökumət Aun San Su Çji ilə danışıqlar aparmağa məcbur oldu, amma qısa zamanda onu dayandırdı və danışıqlardan imtina etdi.





## Dünya ayağa qalxır

Siyasi gərginliyin artması BMT Baş Assambleyasının nəzərlərini Myanmaya dikdi. Britaniyanın Baş naziri **Qordon Braun** Təhlükəsizlik Şurasını Myanmadakı durumla bağlı təcili toplantıya çağırdı. ABŞ Prezidenti **Corc Buş** birmalıların azadlıqlarına qovuşmalarına yardım etmək üçün dünya xalqlarına müraciət etdi və Amerika hökumətinin Myanma rəhbərliyi, onların tərəfdarları və qohumları barədə yeni sanksiyalar tətbiq edəcəyini elan etdi. Avropa Şurasının rəsmi açıqlamasında bildirildi ki, Myanma hökuməti nümayişçilərlə mübarizədə güc tətbiq edərsə, hökumətə qarşı sanksiyalar yenilənəcək və gücləndiriləcək. Xunta ilə yaxşı münasibətləri olan Koreya Xalq Respublikası və başqa ölkələrin nümayəndələri də Myanma hökuməti barədə narahatçılıqlarını bildirdilər.





2007-ci il sentyabr ayının əvvəllərində Amerika şou-biznes ulduzları - **Ancelika Hyuston, Cenifer Eniston, Dastin Hofman** və **Suzan Sarandon** Birma müxalifətini dəstəkləyən ərizəni imzaladılar. Onlar bütün xalqları BMT Baş katibi **Pan Gi Muya** Təhlükəsizlik Şurasının Myanmada durumu sabitləşdirməsinə dair tələb məktubu ilə müraciət etməyə çağırdı. Kinoaktyor **Cim Kerri** 20 sentyabr 2007-ci ildə Myanmanın müxalifət qüvvələrinin müdafiəsinə həsr olunmuş videosüjeti *YouTube* səhifəsində yayımladı.

Oktyabrın birinci yarısında hərbçilər və müxalifət qüvvələri arasında qarşıdurma hələ də davam edirdi. Hökumət toqquşmalarda ən azı

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası




on nəfərin həlak olduğunu bildirsə də, müxalifət qaynaqları ölənlərin sayının xeyli çox olduğunu açıqladı. Minlərlə insan, o cümlədən təqribən yüz rahib həbs olundu.

2007-ci il oktyabrın əvvəllərində Myanmaya gəlmiş İbrahim Qəmbəri xuntanın lıderləri ilə danışıqlar apardı. Hökumətin icazəsi ilə o, Su Çji ilə iki dəfə görüşdü. Onun bütün səylərinə baxmayaraq, xunta ilə müxalifət arasında dialoq baş tutmadı. Bundan sonra o, Myanmanın demokratikləşməsinin dəstəklənməsi məqsədilə regiondakı dövlətlərə turneyə çıxdı.

11 oktyabr 2007-ci ildə BMT Təhlükəsizlik Şurası Myanma hökumətinin nümayişçilərə təzyiq göstərməsini və müxalifətçilərin repressiya edilməsini pislədi, xuntanı siyasi məhbusları azad etməyə və müxalifət qüvvələri ilə dialoqa dəvət etdi. Lakin danışıqların ümidverici şəkildə başlanmasına baxmayaraq, ertəsi gün hərbi xunta Yanqona hərbi qüvvələr yeritdi.

2007-ci ilin noyabrında Myanma hökuməti Su Çjinin hərbi rejimə qarşı sanksiya ideyasını dəstəkləməsini bəhanə gətirərək, Qəmbərinin müxalifətlə danışıqlar təklifinə etiraz etdi. Halbuki dekabrda ölkədə *BMT və uluslararası camiyə ilə əməkdaşlığın* rəmzi olaraq, 8,5 min məhbus azadlığa buraxıldı. Eyni vaxtda Myanmanın yeni Konstitusiyası üzərində iş başlandı. Su Çji müzakirələrə buraxılmadı və onun hər hansı dövlət vəzifəsini tutmasına qadağa qoyuldu. Yeni Konstitusiyanın qəbul edilməsi ilə bağlı referendum Myanmada 2008-ci ilin may ayında keçirildi *(Myanmanın xunta rejiminin rəsmi məlumatların görə, vətəndaşların 90 %-i yeni Əsas Qanunun lehinə səs verdi)*. Referendum ərəfəsində, 2008-ci il aprel ayının sonlarında Qərb ölkələri yenə də Su Çjinin müdafiəsinə qalxdı: ABŞ Senatı onu *Konqresin qızıl* medalı ilə təltif etdi. Səsvermədən dərhal sonra... Su Çjinin həbs müddəti növbəti dəfə uzadıldı.





Onu azad etməkdən yenə də imtina etdilər. 2010-cu ilin sonlarına, daha doğrusu, 15 noyabra qədər... Sonuncu dəfə 7 il olmaqla, üstüstə 15 il ev dustaqlığına məhkum edilən Su Çji ağır həyat yaşadı, amma sınmadı, əyilmədi, mübarizəsindən və ideallarından bir an belə geri çəkilmədi!

Bir dəfə, növbəti həbs müddətinin bitməsinə az qalmış 53 yaşlı amerikalı **Con Uilyam Yettou** gölü üzüb keçərək Su Çjinin sahildə yerləşən evinə gəlmişdi. Bundan sonra müxalifət lideri həbs qaydalarını pozduğuna görə ittiham olundu. Su Çjinin işi üzrə məhkəmə 18 may 2009-cu ildə başladı; onu 5 illik həbs cəzası gözləyirdi. Mətbuat yazırdı ki, bir yadellinin müxalifət liderinin evinə qeyri-qanuni girməsi faktından Su Çjinin 2010-cu ildə keçiriləcək parlament seçkilərinə müdaxilə etmək imkanından məhrum edilməsi üçün istifadə oluna bilərdi. Bununla yanaşı, Su Çjinin seçkilərdə iştirakı qadağan edilmişdi. Belə ki, yeni konstitusiyaya müvafiq olaraq, səsvermədə xarici ölkə vətəndaşı ilə nigahda olan və ya övladları başqa ölkənin vətəndaşı olan şəxslər iştirak edə bilməzdi.





11 avqust 2009-cu ildə Su Çji üçillik islahedici işə təhkim olundu. Lakin xuntanın başçısı **Tan Şve** bu cəzanı 18 aylıq ev dustaqlığı ilə əvəz etdi. Hökm bir çox dünya lideri, o cümlədən BMT-nin Baş katibi Pan Gi Mu, ABŞ prezidenti **Barak Obama** və ABŞ Dövlət katibi **Hillari Klinton**, Fransa Prezidenti **Nikolya Sarkozi**, Böyük Britaniyanın Baş naziri Qordon **Braun** tərəfindən qınandı. Bununla yana-




şı, BMT Təhlükəsizlik Şurası hökmü pisləyən qətnamə qəbul edə bilmədi, çünki Çin, Rusiya, Vyetnam və Livan ABŞ-ın Su Çji ilə bağlı təklifinə qarşı çıxdı.

7 noyabr 2010-cu ildə Myanmada 20 il ərzində ilk parlament seçkiləri keçirildi. 13 noyabrda Su Çji həbsdən azad edildi. Hökumət onun fəaliyyətinə məhdudiyyət qoydu və onun siyasi karyeradan imtina etməsini tələb etdi. Eyni zamanda, Su Çjinin nümayəndələri bildirdilər ki, o bu tələblərin heç birini yerinə yetirmək fikrində deyil.

Sonuncu dəfə Aun San Su Çjinin həbsə məruz qalmasını pisləmiş Amerika Prezidenti Barak Obama bu hadisəyə öz mənfi münasibətini bildirdi. ***"Nobel ödülü laureatının 18 aylıq ev dustaqlığına alınması ədalətsizlikdir, bu, insan haqlarının universal prinsiplərini pozur"*** deyən Obama ölkə hakimiyyətini demokratik hərəkatın qocaman liderini və digər siyasi məhbusları azad etməyə çağırdı.

Britaniyanın Baş naziri Qordon Braun Su Çjiyə şəxsi məktubunda Myanmanın(Birma) diplomatik və iqtisadi cəhətdən təcrid edilməsi barədə xəbərdarlıq etdi. Uluslararası təzyiqlərin nəticəsində Myanma (Birma) hökuməti 2009-cu ildə öz taktikasını dəyişdi. Ciddi nəzarət altında Su Çjiyə DUML Partiyasının üzvləri ilə görüşmək icazəsi verildi.

## Ən gözəli Azadlıqdır, Azadlıq özü bir haqdır!

Nəhayət, Myanmanın hərbi hökuməti təzyiqlərə tab gətirməyib müxalifət lideri, 65 yaşlı, Nobel ödülü laureatı Aun San Su Çjinin azadlığa çıxmasına əngəl törətməkdən əl çəkdi. Belə ki, onun ev dustaqlığının müddəti başa çatırdı və hökumət bilirdi ki, ona yenidən cəza təyin edil-





məsi xalqın ciddi etirazına səbəb olacaq. Amma Su Çji həbsdə olduğu müddətdə heç zaman siyasi fəaliyyətdən əl çəkmək müqabilində azadlığa çıxmaq şərtilə razılaşmadı. O, ömrünün sonuna qədər ölkəsi və milləti uğrunda mübarizə aparacağına söz vermişdi. Myanmanın (Birmanın) müstəqilliyinə qovuşmasının əsas səbəbkarı olan Aun Sunun qızından bundan başqa nə gözləmək olardı?!

Müxalifət lideri Aun San Su Çji ev həbsindən ölkənin paytaxtı Yanqonda buraxıldı. Məlumatlara görə, şəhərin rəsmiləri liderin məhbus həyatını yaşadığı evini 15 ildən artıq mühasirəyə almış tikanlı məftilləri və hasarları sökdülər. Onun evinin ətrafında ***"Yaşasın Aun San Su Çji!"*** deyə qışqıran minlərlə insan toplaşmışdı. ***"Biz hamımız məqsədlərimizə çatmaq üçün birgə çalışmalıyıq!"*** - öz tərəfdarlarına müraciətində belə deyirdi yorulmaz mübariz!



"Amnesty İnternational" uluslararası müdafiə təşkilatı da Myanma (Birma) müxalifət liderinin azadlığa buraxılmasından məmnunluğunu bildirdi və həbsxanalardakı 2 mindən artıq siyasi məhkumun sərbəstliyə buraxılmasını tələb etdi.

Aun San Su Çji həyatının 20 ilinin, demək olar ki, böyük bir hissəsini öz evində dustaq kimi yaşamışdır. Azadlığa çıxdıqdan az sonra hava limanında jurnalistlərə müsahibə verən 65 yaşlı lider, nəhayət, oğlu ilə görüşəcəyi üçün çox xoşbəxt olduğunu bildirdi. Onlar sonuncu dəfə 2000-ci ildə görüşmüşdülər. Bundan sonra onun oğluna ölkə ərazisinə girmək qadağan olunmuşdu. Böyük oğlu Aleksandrla da son görüşündən 10 il keçirdi. Onun hələ görmədiyi nəvələri də var idi. Su Çji ölkədə son 20 il ər-




zində keçirilən ilk parlament seçkilərindən bir həftə sonra sərbəst buraxıldı. Seçkilər ciddi tənqidə məruz qaldı, dünya hərbi hakimiyyəti saxlamağa çalışanların qurduqları "siyasi tamaşa"nın şahidi oldu.

Çoxları düşünür ki, Aun San Su Çji Birmanı tərk etsə, onun bir daha ölkəyə qayıtmasına icazə verilməyəcək... O isə nə ölkəni, nə də xalqının ürəyindəki taxtını tərk etmək niyyətindədir. Ömrünün ən gözəl illərini ölkəsi və xalqı üçün ailəsindən ayrı salınmış vəziyyətdə, həbslərdə keçirmiş bu mübariz lider qadın bəyan edib ki, ölkəsinin demokratikləşməsi, xalqının azad yaşaması və inkişafı üçün ömrünün bütün qalan hissəsini də sərf edəcək və mübarizəsini davam etdirəcək! Ölkəsi və xalqı üçün mübarizəsi ilə TARİXƏ adını yazmış Aun San Su Çji TARİX yazmaqda davam edir! Bu TARİXin baş qəhrəmanı isə o özüdür!

O, həm də arxasınca bir cığır açmağı bacarmış bir **LİDER**dir. Minlərlə gənc qızın və qadının özünə inamla yürüyəcəyi bir cığır..

O, sözün əsl mənasında, **ÖRNƏK İNSAN, ŞƏXSİYYƏT və ZİYALIDIR! VƏTƏNİ, MİLLƏTİ NECƏ SEVMƏYİN GÖZƏL BİR ÖRNƏYİ!**





## Begüm Xalidə Ziya

# 37 il yaşadığı saraydan çıxarılan **prezident xanımı**, prezident...



- O, Banqladeşin **ilk qadın Baş naziri** kimi adını tarixə yazdı.
- O, 2001-2006-cı illərdə yenidən Baş nazir vəzifəsini tutaraq yeni bir ilkə imza atdı.
- Xalidə Ziya Banqladeş Milli Partiyasının (BMP) lideridir.
- "Forbes" dərgisinin dünyanın **"100 ən güclü qadın"ı siyahısında xanım Begüm Xalidə Ziyanın adı 33-cü yerdədir!**
- **Begüm Xalidə Ziya!** Qətlə yetirilmiş Prezident Ziaur Rəhmanın həyat yoldaşı olan Begüm Xalidə Ziya ölkənin dövlət müstəqilliyinin 35-ci ildönümündən başlayaraq, Banqladeşi 10 il (ən uzun müddət!) idarə etmişdir. O, 1991, 1996 və 2001-ci illərdə hər dəfə ayrı seçki dairəsindən parlamentə seçilmişdir. Bu, Banqladeş tarixində ilk belə hadisədir!

## Xanım Baş nazirin ölkəsini bir az yaxından tanıyaq

Paytaxtı Dəkkə şəhəri olan Banqladeş Xalq Respublikasının əhalisinin sayı 115 milyon nəfərdir. Ölkənin rəsmi dili benqal dilidir. Banqladeş əhalisinin əksəriyyətini (85%) müsəlmanlar təşkil edir. İkinci yeri (12.2 %) hinduizmə sitayiş edənlər, yerdə qalanını (0.6 % ) isə buddistlər tutur.

Güney Asiya ölkəsi olan Banqladeş quzeydən, güneydən və qərbdən Hindistanla, güney-şərqdən Myanma ilə, güneydən Benqal körfəzi ilə əhatə olunmuşdur.

Ölkədə çoxpartiyalı demokratik sistem hökm sürür. 1972-ci ildə təsis edilmiş Konstitusiya ilə idarə edilən ölkənin başçısı xalq tərəfindən 5 il müddətinə seçilir. Banqladeş parlamenti 330 üzvdən ibarətdir. Parlament də 5 ildən bir seçilir.





## Həyatının ilk illəri

**Begüm Xalidə Ziya** 15 avqust 1945-ci ildə Hindistanın Birbhum şəhərində İsgəndər Majumder və Taiyaba Majumderin ailəsində dünyaya göz açmışdır. Sonralar ailəsi ilə birlikdə Dinajpur Dairəsinə köçmüşdür. Ailəsi əslən Hindistanlıdır. Nənəsi isə Banqladeşin Feni şəhərindəndir. Xalidə ailəsinin ən kiçik övladıdır. Onun iki qardaşı və iki bacısı var: Səid İsgəndər - istefaya çıxmış hərbçi, Şamim İsgəndər - Biman Banqladeş Hava Yollarının mühəndisi, böyük bacısı Xurşud Cahan - əvvəllər Qadınların Müdafiəsi naziri olmuşdur. İkinci bacısı vəfat etmişdir.



Xalidə Ziya ilk təhsilini Dinajpurda Qızlar məktəbində almışdır. 1960-cı ildə, 15 yaşında ikən o, Ziaur Rəhmanla ailə həyatı qurmuşdur. Həmin vaxt Qərbi və Şərqi Pakistanda qüvvədə olan Azyaşlıların nikaha girməsinə məhdudiyyət qoyan 1929-cu il aktına görə evlilik yaşı 16 təyin edilmişdi. Sonralar Banqladeş Milli Partiyasının sədri və iki dəfə Baş nazir olmuş Xalidə Ziya orta məktəbin 8-ci sinfindən təhsilini yarımçıq qoymağa məcbur qalmışdır.



## Birinci xanım

Keçmiş prezident Xondaker Mostaq Əhməd, Şeyx Muyibur Rəhmanın ölümündən sonra Baş general Ziaur Rəhmanı Banqladeş Ordusunun Silahlı Qüvvələrinin komandanı tə-







yin etmişdir. O, sonradan Milli Partiyanı yaradaraq ölkədə sivil idarəetmənin əsaslarını qoymuş və demokratik seçkilər əsasında prezident seçilmişdir.

Prezidentin 30 may 1981-ci ildəki qətlindən önceki dövrlərdə Xalidə Ziya ölkənin ictimai-siyasi həyatında fəallıq göstərmirdi. Hətta 1975-ci ildə həyat yoldaşı hakimiyyətə gələndən sonra da o, vaxtının çox hissəsini övladlarını (iki oğlunu) böyütməyə həsr edirdi.

Prezident Ziaur Rəhmanın qətlindən sonra vitse-prezident Abdus Səttar onun yerinə keçdi və BMP-nin sədri oldu. Ancaq Qoşunların başçısı Hüseyn Mühəmməd Ərşad 1982-ci il mart ayının 24-də Abdus Səttarı devirdi. 1983-cü ilin mart ayında Abdus Səttar Xalidə Ziyanı BMP-nin sədr müavini təyin etdi. 1984-cü ilin fevralında isə Səttarın siyasətdən getməsi ilə keçmiş birinci xanım partiyanın birincisi - sədri oldu.

Begüm Xalidə Ziyanın rəhbərliyi altında 7 partiyadan təşkil olunan Alyans Ərşadın avtokratik rejiminə qarşı mübarizəyə başladı. 9 illik mübarizə ərzində Xalidə Ziya Ərşadın hakimiyyətinə qarşı heç bir kompromisə getmədi. Onun prinsiplərindən dönməyəcəyini görən hökumət qadağanedici qanunlardan istifadə edərək Xalidə Ziyanın hərəkatının qarşısını almağa çalışırdı. O, 8 il boyunca 7 dəfə həbs olundu. Ancaq bütün bunlara baxmayaraq, Begüm Xalidə Ziya Hüseyn Mühəmməd Ərşada qarşı mübarizəsini davam etdirdi.

Begüm Xalidə Ziyanın Alyansının genişlənmiş mübarizəsi nəticəsində 1990-cı il dekabrın 6-da Ərşad hakimiyyəti daha neytral hökumətə təhvil verdi. 1991-ci il fevralın 27-də keçirilmiş seçkilərdə isə Xalidə Ziyanın rəhbərliyi ilə BMP qələbə çaldı. Begüm Ziya üç ardıcıl parlament seçkilərində fərqli seçki dairələrindən namizədliyini vermiş və bütün yerlərdə qalib gəlmişdir. Bu, ölkənin parlament tarixində ilk belə hadisədir!







## Baş nazir kürsüsündə!

BMP tərəfindən təşkil olunmuş hökumət 1991-ci ildə Konstitusiyaya əlavələr edərək, parlament sistemini bərpa etdi. 1991-ci il fevralın 27-də neytral hökumət bütün ölkə ərazisində azad, ədalətli və həqiqətən, demokratik seçkilər təşkil etdi. Xalidə ziyanın rəhbərlik etdiyi BMP seçkilərdə qələbə qazandı. O, parlamentin səs çoxluğu ilə Banqladeşin ilk qadın Baş naziri oldu! Hakimiyyətdə olduğu müddətdə **Begüm Xalidə Ziya hökuməti təhsil sahəsində, özəlliklə, pulsuz və icbari ilk təhsil, qızlar üçün onuncu sinfə qədər pulsuz təhsil, qadın tələbələr üçün təqaüd (verilməsi), habelə, təhsil üçün ərzaq proqramının həyata keçirilməsi sahəsində konkret addımlar atdı.** Bundan başqa, onun hökuməti ölkənin yol infrastrukturunda önəmli yer tutan **Camua körpüsünün tikintisini başladı.** O, regional əməkdaşlıq üçün Güney Asiya Assosiasiyasının canlandırılmasında çox böyük rol oynadı. Hökumət, həm də hərbi xidmətə getmək üçün yaş həddini 27-dən 30-a qaldırdı.













## Növbəti seçkilər, növbəti qələbə...

Xanım Begüm Xalidə Ziyanın rəhbərlik etdiyi BMP 15 fevral 1995-ci il seçkilərində yenidən qələbə çaldıqdan sonra o, ikinci dəfə Baş nazir oldu. Ancaq seçkilər müxalifət tərəfindən boykot edildi. Bununla da, parlament seçkilərin yenidən təşkil edilməsi üçün buraxıldı. 1996-cı il iyunun 12-də keçirilən seçkilərdə BMP digər bir qadın lider Şeyx Hasinanın Auvami Liqasına uduzdu. (Faktdan başqa fakt yoxdur, doğrudur, xanım liderin partiyası məğlub olmuşdu, ancaq burada da onun lehinə işləyən bir fakt vardır: bu da xanım Baş nazirin demokratiya prinsiplərinə sadiqliyi idi)

## Yıxılmadım ayaqdayam...

Hakimiyyətə qayıtmağa çalışan BMP 1999-cu ildə keçmiş rəqibi Catiya, ***"Cammati-İslami-Banqladeş"*** və ***"İslami Oikya Jot"*** partiyaları ilə **4 partiyalı Alyans yaratdı.** Ancaq Əl-Bədər və Əl-Şəms qruplarını yaradan "Cammati-İslami-Banqladeş" Partiyası ilə Xalidə Ziyanın əməkdaşlığı 1971-ci ildə müəyyən qüvvələr tərəfindən tənqid edildi. Lakin 4 partiyalı Alyans **2001-ci il seçkilərində 2/3 səs çoxluğu ilə qələbə çaldı və Xalidə Ziya yenə də Baş nazir oldu!** Onun təxminləri doğrulmuşdu...

Amma hakimiyyət bu mərhələdə bir sıra problemlərlə üzləşdi. Xüsusilə, korrupsiyaya







qarşı mübarizə sahəsində lazımi nəticələrin əldə edilməməsi, bəzi iqtisadi-sosial problemlər, ölkədəki siyasi gərginlik və s. baş naziri ciddi çətinliklərlə üz-üzə qoydu. Amma təbii ki, bütün bunlara baxmayaraq əldə edilən uğurlar da az deyildi. 2006-cı il oktyabrın 27-də xanım Ziyanın hakimiyyəti sona çatdı. Növbəti gün onu kimin əvəz edəcəyi barədə yayılan söz-söhbətlər Dəkkə küçələrində iğtişaşlarla müşayiət olundu. Onun yerinə adı hallanan şəxsi qəbul etmək istəməyən kütlə sakitləşmək bilmirdi. Həmin gün axşam prezident açıqlama verdi ki, Ali Məhkəmənin sabiq Baş hakimi səhhəti ilə əlaqədar Baş nazir vəzifəsinə iddialı deyil. Bununla da, hazırkı prezident İacuddin Əhməd Baş nazir təyin edildi.





## Həyatının sonrakı illəri

Qalmaqallı daxili və xarici təzyiqlərdən sonra İacuddin Əhməd hökumətin başçısı vəzifəsindən uzaqlaşdı. Yanvarın 22-nə təyin olunmuş seçkilər təxirə salındı. Yeni hökumət antikorrupsiya ilə mübarizədə Ziyanın BMP-sinə mənsub olan nazirləri hədəfə aldı.

Ziyanın oğlu Tariq Rəhman 2007-ci ilin martında korrupsiyaya görə həbs olundu, digər oğlu Rəhman Koko da həmin ilin aprelində





məsuliyyətə cəlb edildi. Hər hansı siyasi fəaliyyətin qarşısını almaq məqsədilə hökumət siyasətçilərin Ziyanın malikanəsinə girişinə qadağa qoydu.

Həmin dövrdə Banqladeş Birləşmiş Xəbərlər Agentliyi adını çəkmədiyi ailə mənsubunun sözlərinə istinad edərək, Ziyanın Səudiyyə Ərəbistanına sürgün olunacağının gözləndiyini açıqladı. Eyni zamanda, qardaşı Seyid İsgəndər dövlət nümayəndələri ilə onun ölkədən çıxmasına icazə verilməsi üçün danışıqlar aparırdı. "Yeni xalq" qəzetinin 17 aprel hesabatında göstərildi ki, Xalidə Ziya, həqiqətən də, kiçik oğlunun azadlığa buraxılması qarşılığında sürgünə getməyə razılaşmışdı. Həmçinin, hesabatda qeyd olunurdu ki, Səudiyyə Ərəbistanı Xalidəni və onun ailə üzvlərini hörmətli qonaqlar kimi qarşılamağa hazırdır. Ancaq sürgün barədə olan bütün məlumatlar hökumət tərəfindən təkzib edildi.

2007-ci il iyulun 17-də Antikorrupsiya Komitəsi Ziyaya əmlakı barədə bir həftə ərzində məlumat verməsi ilə əlaqədar xəbərdarlıq etdi. O, sentyabrın 27-də Dinkal nəşriyyatının xidmət haqqını ödəmədiyi üçün məhkəməyə çağırıldı. Sentyabrın 2-də məhkəmə qərarından sonra Ziya, oğlu və digər 11 nəfər korrupsiya ittihamı ilə həbs olundu. Onun həbsindən sonra Saifur Rəhman və Hafizuddin Əhməd partiyaya rəhbərlik etməyə başladılar. Ancaq Ziyanın tərəfdarları ona qarşı irəli sürülən ittihamlarla razılaşmadılar. Xalidə Ziya özü də buna görə məhkəməyə müraciət etsə də, onun müraciəti qəbul olunmadı.

Ziyanın oğlu Ərafat Rəhman Koko 2008-ci ilin avqustunda, Tariq Rəhman həmin ilin sentyabrında azadlığa buraxıldılar. Xanım Ziya özü isə məsuliyyət daşıdığı 4 məsələdən ikisinə görə zaminə buraxılmadı. Onun vəkilləri digər iki məsələ ilə bağlı yenidən məhkəməyə müraciət edəcəklərini bəyan etdilər. O, ona qarşı irəli sürülən ittihamları qəbul etməyərək bunun ona qarşı siyasi təzyiq olduğunu, rəqiblərinin bu cür ittihamlarla onu nüfuzdan salmaq, siyasi səhnədə fəaliyyətini məhdudlaşdırmaq məqsədi güddüyünü bəyan etdi və yolundan dönməyəcəyini, ölkənin siyasi həyatından çəkilməyəcəyini, sonadək mübarizə aparacağını dedi.





**13 noyabr 2010-cu ildə o, Banqladeş Baş Məhkəməsinin qərarına görə 37 il yaşadığı Dəkkə sarayından çıxarıldı.** 2.72 akr əraziyə malik olan bu ev Banqladeş Ordusunun Silahlı Qüvvələrinin komandanına, sonra isə komandan Baş general Ziaur Rəhmana məxsus olmuşdur. O, Banqladeşin prezidenti seçildikdən sonra da həmin evdə qalırdı. Bu qərar ölkədə birmənalı qarşılanmadı. Ölkə müxalifətinin əsas simalarından biri olan Xalidə Ziyanın tərəfdarları buna etiraz edərək, bunu siyasi təzyiq kimi qiymətləndirdilər.

Belə... Daha bir qadın ömrünə - siyasət yollarında keçən qadın ömrünə, özü də təbii bir axınla onu qoynuna alan və irəli aparan yolun yolçusunun ömrünə bələdçilik etməyə çalışdıq. **Bacardıqmı?** - Bunu oxucular deyəcək. Ancaq biz qəhrəmanımızın öz adını ölkəsinin tarixinə, Güney Asiyanın tarixinə, bu vəsilə ilə dünya tarixinə yazdırmağı bacardığını çəkinmədən deyə bilərik. Bu ömürdə sizə tanış olan nə qədər məqamlar var idi: qan-qada, həbs-sürgün, dolanbac yollar və zirvə!.. Zirvədən sonra isə ikinci zirvə yoxdur! - Zirvədən sonra yol ancaq aşağı aparır: ya zirvədə qalmağı bacarmalısan, ya da geriyə yol səni gözləyir...





***Onun, ailəsinin taleyi, ilk növbədə, Bhuttoların, Qandilərin taleyinə çox oxşayır.*** ***Amma bu, məhz oxşarlıqdır, təkrar deyil! Nə o kiminsə ömrünü təkrar etmədi, nə də kimsə onun ömrünü təkrar etməyəcək!*** **Hər kəs öz alın yazısını yaşayır...**



## Tansu Çillər













Tansu Çillər!

*Xanım siyasətçi Türkiyə ictimai-siyasi həyatında, heç şübhəsiz, dövlətin yüksək mövqelərinə çıxmış qadın siyasətçi "ilk"ləri ilə, yaraşıqlı, məğrur xanım-xatun kimliyi ilə, özəlliklə də populyar sözləri ilə yadda qalıb. O sözlərdən bəzilərini xatırlamağa çalışaq:*

- "Can verərəm, ancaq bir çınqıl daşını belə vermərəm!" *(1996-cı ildə, bəlli Kardak böhranı əsnasında deyib)*;
- "Bu terrora mütləq son qoyulacaq..." (Baş nazir olduğu dövrdə terrora qarşı mübarizədə dönməzliyini bu sözlərlə vurğulamışdı);
- "Dövlətin gücünü ana şəfqətinə bükərək gətirəcəyik..." *(Bu onun terror aktlarının tez-tez törədildiyi yerlərdən olan Şırnaqda dediyi sözdü)*;
- "Yaşamaq haqqından daha müqəddəs bir insan haqqı yoxdur...";
- "Elə isə, haydı Türkiyəm, irəli!" (Mitinqlərdəki çıxışlarını həmişə bu sözlərlə başa vururdu);
- "Bu kartelçi media bir gün mənim haqqımda yaxşı nəsə yazsa, bilin ki, bacınız təslim olub...";
- "Alnım açıq, başım dik dayanmışam. Başımı göyə dəyəcək qədər dik saxlamışam. Bir qara nöqtəm olsaydı, bunlarla bu qədər mübarizə apara bilərdimmi?"
- "Çillərə nə üçün bu qədər iftira atırlar? Cavab verim... Çünki Çillər öz partiyasını satmadı. Çünki Çillər öz mübarizəsini satmadı. Çünki Çillər demokratiya şəhidlərinin sümüklərini sızıldatmadı."
- "Bir Cənabi-Allahın, bir də uca türk millətinin önündə əyilərəm, başqa heç kimin önündə əyilmərəm." (Bu sözləri bəzi media quruluşları ilə çəkişməsi zamanı dilə gətirmiş, sonuncu sözü isə sonrakı çıxışlarında da tez-tez təkrar etmişdi. Partiya başqanlığından istefa edərkən də "Bu sözün gərəyini yerinə yetirirəm" demişdi);
- "O bayraq enəcək, o əsgər gedəcək..." (Kardak böhranı əsnasında yunan hökumətini geri çəkilməyə vadar edən qətiyyəti nəticəsində 24 saat içində yunan bayrağı Kardak adalarından endirilmiş və yunan əsgərləri adaları tərk etmişdi)...
- Və bunun ardınca "Bayraq enməz, azan kəsilməz!" gəlir... - Necə deyərlər, enəsi bayraq enməli, ucalası bayraq ucalmalıdır! Çillər dəqiq bilirdi: *"Bayraqları bayraq yapan üstündəki qandır, Torpaq, əgər uğrunda ölən varsa Vatandır!"*
- Adı "Tan" və "Su"yun birləşməsindən yaranan xanım siyasətçi (bəlkə də inersiya ilə!) hər iki sözün gərəkdirdiyi çalışmalarda bulunmuş, öz türk xanım-xatınlığını zədələməmiş; hələ-hələ bu sözlərin birliyinin verdiyi enerjini şəkilləndirmişdir!
- Adında "Tan"dan ("Dan") gələn "günəş doğmadan öncəki alaca qaranlıq" (başqa açımı ilə "qutlu"), "Su"dan gələn "rəngsiz, qoxusuz sıvı", (başqa açımı ilə "irmaq, çay") anlamlarını daşıyan Çillər bütün (bəyənilən, bəyənilməyən) yönləri ilə bahəm xarizmatik lider, unudulmaz siyasətçi ünvanını qazanmışdır. Onun adındakı "Su"nun bir anlamı da "Dəmir və çeliyə (polada) verilən





sərtlik"dir. Bəlkə də təsadüf deyil ki, Türk Silahlı Qüvvələrinin 1995-ci ildə həyata keçirdiyi, özünün dediyi kimi, "Sakaryadan[1], hətta ...Plevnədən[2] bu tərəfə ən böyük quru əməliyyatı" olmuş "Çelik-1" hərəkatı[3] məhz onun hökumət başçısı olduğu dövrdə gerçəkləşdirilib. Və o dövrdə Türkiyə Cümhurbaşqanı olan ünlü dövlət xadiminin soyadı DƏMİRəl idi!.. Dəmir və çeliyi ...su sərtləşdirir!**

- **Onunla jurnalist fəaliyyətim dövründə bir neçə dəfə görüşmək, söhbət etmək imkanım olmuşdu. O, adını tarixə təkcə Türkiyənin ilk qadın Baş nazir kimi yazmadı, bir çox İLKləri ilə də yazdı. Onunla söhbət etmiş bir şəxs kimi deyə bilərəm ki, çox maraqlı Siyasətçi, Şəxsiyyət, İctimai-siyasi xadim, Lider və QADINDIR Tansu Çillər!**

* * *

Türkiyəli ünlü dövlət xadimi, siyasətçi və iqtisadçı Tansu Pənbə Çillər 1946-cı ilin 24 mayında İstanbulda anadan olub. Koalisiya hökumətlərinin tərkibində Baş nazir, Baş nazirin müavini və Dövlət İqtisadiyyat naziri kimi yer aldığı dövrlər ərzində Türkiyədə orta hesabla 4,9 % həcmində iqtisadi inkişaf qeydə alınmış və ölkənin ümumi istehsalı dünya

1. Qurtuluş Savaşı illərində aparılmış ünlü Sakarya döyüşü (23 avqust-13 sentyabr 1921-ci il) nəzərdə tutulmuşdur.
2. 1877-78-ci illər Rusiya-Türkiyə müharibəsində, indiki Bolqarıstanın Plevnə şəhəri uğrunda gedən döyüşlər nəzərdə tutulmuşdur.
3. "Çelik-1" hərəkatı terrorçulara qarşı həyata keçirilən ən böyük hərbi əməliyyatlardan biri olub.





istehsalı cəminin 11,21/1000-dən 12,37/1000-nə yüksəlmişdir.

1954-cü ildə keçirilən seçkilərdə Cümhuriyyət Xalq Partiyasından millət vəkilliyinə namizəd olmaq üçün Biləcik valisi vəzifəsindən təqaüdə çıxan, müsəlman gürcü mənşəli **Hüseyn Necati Çillər** və **Müəzzəz Çillər** cütlüyünün yeganə övladı olan Tansu Çillər, Fındıqlıda İsmət İnönü adına ibtidai məktəbdə təhsil almağa başlayıb. Daha sonra (1953-cü ildə), atası Necati bəyin Biləcik valisi təyin edilməsiylə, təhsilini Biləcikdəki Ədəbalı ibtidai məktəbində davam etdirib. Demokrat Partiya, məktəbin adını dəyişdirmişdi. Beləliklə, Tansu Çillər ibtidai təhsil haqqında şəhadətnaməsini İsmət İnönü adına ibtidai məktəbdən deyil, Namiq Kamal adına ibtidai məktəbdən almış olur.

Amerikan Qız Kollecindən məzun olan Tansu Çillər, daha sonra Robert Kollecinin iqtisad şöbəsini bitirib. Magistratura təhsilini Nyu-Hempşir universitetində, doktorantura təhsilini Konnektikut Universitetində başa vurub. Elmi tədqiqatlarını Yel Universitetində davam etdirərək 1978-ci ildə dosent, 1983-cü ildə professor olub. Tansu Çillər, iqtisadiyyatla bağlı 9 kitabın müəllifidir.

* * *

Başda Boğaziçi Universiteti olmaqla, müxtəlif universitetlərdə dərs deyən Çillər, 1990-cı ilin noyabr ayında Doğru Yol Partiyasının (DYP) üzvü kimi siyasətə daxil olmuşdur. **1991-ci ildə keçirilən seçkilərdə İstanbuldan millət vəkili seçilən Çillər, DYP ilə Sosial-Demokrat Xalqçı Partiyanın koalisiya qurduğu və Süleyman Dəmirəlin Baş nazir olduğu kabinetdə, Dövlət İqtisadiyyat naziri vəzifəsini tutmuşdur.**



Süleyman Dəmirəl, Türkiyə Respublikasının IX prezidenti seçilərək Baş Nazir postundan gedəndən sonra DYP sədrliyinə namizəd olan Çillər, partiyanın Baş məclisinin 13 iyun 1993-cü ildə keçirilən növbədənkənar iclasında ən çox səs toplayaraq sədr seçilmiş və ardından da Türkiyənin ilk qadın Baş Naziri olmuşdur. **Tansu Çillər 25 iyun 1993-cü ildən 6 mart 1996-cı il-**













**ə qədər - Türkiyə Respublikasının 50-ci, 51-ci, və 52-ci, hökumətləri dövründə Baş nazir postunu tutmuşdur.**

Baş Nazir olduğu dövrdə Kürdistan Fəhlə Partiyasına (PKK/KFP) qarşı aparılan aşağı gərginlikdəki hərbi əməliyyatlardan razı qalmamış, bu üzdən Türk Silahlı Qüvvələrinin modernləşdirilməsinə kömək göstərmiş, ayrıca, PKK-nın ABŞ hakimiyyəti tərəfindən terrorçu təşkilat kimi tanınmasına nail olmuşdur. Avropa Birliyi ilə Gömrük müqaviləsini imzalamış və gələcək illərdə Türkiyənin avtomobil sənayesi məhsulları sayəsində ixracatını xeyli artırmasını təmin etmişdir.

Türkiyə Respublikasının bütün vətəndaşlarına Avropa İnsan Haqları Məhkəməsinə fərdi qaydada müraciət etmək hüququnu verərək, xəzinə fondu və dövlət meşə fondu tərəfindən açılan məhkəmələr nəticəsində mülkləri əllərindən alınan və ya cəzaçəkmə müəssisələrində işgəncəyə məruz qaldığını iddia edən vətəndaşların ədalət axtarışlarına yeni yol açmışdır (tanımışdır).

İddialara görə, 1995-ci ildə keçirilən seçkilərdən öncə Tansu Çillər, terrorçubaşı, uşaq qatili Abdulla Öcalanın (PKK-nın ilk sədri) məhv edilməsi haqqında əmr vermiş, fəqət müəyyən qüvvələr bu əmrdən xəbər tutaraq PKK-nı məlumatlandırmış və əməliyyatın uğurla nəticələnməsinə mane olmuşdur. Bundan əla-



və, həmin - ona qarşı olan qüvvələr, PKK-nın cinayətin məsuliyyəti öz üstünə götürməsi şərtiylə Baş nazir Tansu Çillərə sui-qəsd təşkil etməyi də adı çəkilən partiyaya təklif etmişdir.

Tansu Çillər, 1996-cı ildə Rifah Partiyası (RP) ilə DYP-nin əmələ gətirdikləri koalisiya hökumətində Xarici İşlər naziri və Baş nazirin müavini olmuşdur. **1997-ci ildə baş verən Susurluq skandalından sonra 28 fevral tarixində hökumətə qarşı "postmodern çevriliş" baş tutmuşdur.** 3 noyabr 2002-ci ildə keçirilən növbədənkənar parlament seçkilərində DYP, parlamentdə təmsil edilmək üçün lazım olan minimum səsi toplaya bilmədiyi üçün Tansu Çillər partiyanın sədrliyindən istefa vermiş və aktiv siyasət səhnəsindən çəkilərək öz yerini Mehmet Ağara vermişdir. Tansu Çillər, İstanbuldan Türkiyə Böyük Millət Məclisinin XIX, XX və XXI çağırış deputatı olmuşdur.

**Tansu Çillər, Özər Uçuran Çillər ilə evli və iki uşaq anasıdır. Çillər ingilis və alman dillərini bilir.**

## Hər sözü bir batman...

** 1995-ci il seçkilərindən öncə Anavətən Partiyası (ANAP) ilə koalisiya müzakirələri davam edərkən, ANAP lideri Məsud Yılmaza **"Bəli, cənab Yılmaz, görək dərsinizə hazırlaşıbsınızmı?"** dedi və Yılmaz bu sözdən əsəbiləşərək müzakirələri kəsdi.*

** 1995-ci il seçkilərindən öncə, hər fürsətdə **"Məsud Yılmaz qaçdı", "Məsud Yılmaz qaçır", "Məsud Yılmaz qaçar", "Birdən Məsud Yılmaz qaçsa"** cümlələrini tez-tez təkrar edərək, Yılmazı özündən çıxardı.*



** "Rifahyol"un (Rifah Partiyası ilə Doğru Yol Partiyası arasındakı koalisiya hökuməti) qurulduğu ilk günlərdə belə demişdi: **"Biz ixlasla gəldik."***

** "İndi bizdən soruşurlar: "Nə üçün Rifah Partiyası ilə koalisiya*











*hökuməti qurdunuz?" Bizdən bunu soruşanlar, tarixin və taleyin onlara vermədiyini qızıl sinidə qabaqlarına qoyaraq qurdurduğumuz ANAYOL (Anavətən Partiyası ilə Doğru Yol Partiyası arasında qurulan koalisiya) hökumətinin nədən çökdüyünü izah etməlidilər."*

* ***"Rifah partiyası ilə koalisiyaya girərək "adil sistem"i çökdürdülər deyilir. Əgər mən koalisiyaya girməsəydim, ilk seçkilərdə tək başlarına iqtidara gələcəkdilər."***

## "Susurluğ"a susmadı...

* ***"Bu millət uğrunda, ölkə uğrunda, dövlət uğrunda güllə atan da, gülləylə vurulan da bizim tərəfimizdən həmişə ehtiramla yad ediləcək. Onlar şərəfli adamlardı."*** *(Bu sözləri 1996-cı ildə Baş nazirin müavini olarkən, Susurluq qalmaqalı haqqında dedi)*

## Çillər daha nə dedi? Çillər nə demədi ki!?.

* ***"İpim cibimdə, gəzirəm."*** *(Daha sonra müxtəlif platformalarda bu sözü tez-tez təkrar etdi.)*

**Məsud Yılmazın "AB-yə gedən yol*





*Diyarbəkirdən keçir" sözünə cavab olaraq:* ***"Klavdiya Rotun ağzıyla danışır.*** *AB layihəsini marjinallaşdırır. AB-yə* ***"bəli"****, ancaq Türkiyənin Yuqoslaviyaya çevrilməsinə* ***"xeyr"*** *deyirik."*

* *"Haqsızlıqdan danışırlar. Heç kimə qarşı, Türkiyənin qadın Baş Nazirinə qarşı edilən qədər haqsızlıq edilməyib."*

* *Partiya başqanlığından istefa etdiyi qurultayda sözün yaxşı mənasında yenə öz ampulasındaydı: "Bütün məsuliyyəti öz üstümə götürürəm. Məsuliyyəti heç kimlə bölüşmürəm. Heç bir bəhanənin arxasında gizlənmirəm. Çünki bu dövləti idarə edənlər və bu dövləti idarə etmək iddiasında olanlar, heç bir bəhanənin arxasında giz-lənmək imtiyazına sahib deyil. Uğur qazansaydıq, hamımızın uğuru olacaqdı. Ancaq məsuliyyətin hamısını mən öz üstümə götürürəm. Heç kimə qarşı kinim yoxdu. Heç kimdən də inciməmişəm. Ancaq meydanlarda dediyim bir söz var idi. O sözü hər fürsətdə təkrar edəcəm:* ***"Bir Cənabi-Allahın, bir də uca türk millətinin önündə əyilərəm, başqa heç kimin önündə əyilmərəm."*** *Bu gün də millətin qərarı qarşısında əyilirəm." (Çillərin bu sözlərinə orada toplaşanlar "Çillər, sən bizim hər şeyimizsən") deyə cavab vermişlər).*

* *O, əmindi ki, "Xidmətlərimizi, vicdanlar sussa da, tarix hayqıracaq." (Bu sözləri də partiya başqanlığından istefa verdiyi qurultayda).*

* *...Və yenə həmin Qurultay, yenə Çillər və yenə həyəcan, yenə coşğu... - Çillər bu sözləri ağlayaraq deyir (qulaq asanlarını da yaşa boğur və hər kəs ayağa qal-xaraq onu alqışlamağa başlayır):* ***"Ömrümün ən böyük qüruru, ən böyük şərəfi bu əsil və soylu ailənin, bu əfsanəvi mübarizənin başqanı olmaqdı. Bu şərəfi son nəfəsimə qədər qəlbimin ən dərin guşəsində saxlayacağam."***





## Nə TAN, nə SU - TANSU!

Nəhayət keçmiş partiyasının içində baş qaldıran müxaliflər onu 2005-ci ildə yenidən siyasətə dəvət edəndə verdiyi cavab yenə özünəməxsus idi: "Mən anayam, bölən olmaram, birləşdirən olaram."

## Çillər "Anıtqəbir" dəftərinə nə yazdı?!.

***"Uca öndər, ulu və böyük Atam!"***

"Dünyəvi dövlət olan Türkiyə Cümhuriyyətinin və demokratiyanın keşikçiləri olaraq, 16-cı ilimizdə hüzurunuzdayıq... Mübarizəmiz ...65 illik bir mübarizədir. Millətçilik və çağdaşlıq yolunda ...tam 40 ildir irəliləyirik. Bu ölkənin sementi olmağın bəxş etdiyi sevinci duyuruq. Biz bu ölkənin sementiyik. Bizimlə kərpicləri yapışdıracaqlar, divar hörəcəklər, bina tikəcəklər, içimizə girəcəklər..."

***"Sənin prinsiplərinin işığı altında partiyamızın 17-ci ilini qeyd edir və ehtiramımı bildirirəm. Hələlik..."***

**Əziz Oxucu!** *"Anıtqəbir" dəftərinə çox ünlü insanlar çox dəyərli, saygı dolu sözlər yazıb. Ancaq, insaf naminə, hər sözdə, hər fikirdə bu - Tansu Çillərin son sözünün həyəcanı, nisgili, ...vədi varmı?!. Özü də bir, cəmi bircə sözdə toplanıb bu qüdsiyyət, ülviyyət...* ***Tanrı böyük Atatürkə "HƏLƏLİK" deməyi ona - Tansu Çillərə nəsib etdi..!***







## Böyük Hindistan və Əsl Məhəbbət nağılının qəhrəmanı

- **O, nüfuzlu "Forbes" dərgisi tərəfindən 2004-cü ildə dünyanın 3-cü ən güclü qadını, 2007-ci ildə isə dünyanın 6-cı ən güclü qadını elan olundu! 2010-cu ildə isə "Forbes" onu dünyanın ən nüfuzlu adamları siyahasına daxil etdi.**
- **O, 2007-ci və 2008-ci illərdə "Tayms" dərgisinin dünyanın 100 ən nüfüzlü insanı sıyahısında ön sıralarda yer alıb.**
- **O, "Newsweek" dərgisinin 2008-ci ildə tərtib etdiyi dünyanın ən nüfuzlu şəxslərinin siyahısında 17-ci yeri tutmuşdu.**

***Bu LİDER QADIN Hindistanın keçmiş baş naziri İndira Qandinin gəlini, keçmiş baş nazir Raciv Qandinin italiyan əsilli həyat yoldaşı, Hindistanın ən güclü və nüfuzlu partiyalarından olan Milli Konqresinin prezidenti, hakimiyyətdə olan Birləşmiş Proqressiv Alyansın sədri, bütün dünyada tanınmış ictimai-siyasi xadim olan Sonia Qandidir! (Sonia Gandhi)***

*Onun həyatı sözün əsl mənasında? bir Hind nağılı, bir Hind filmidir. Hindistan dövlətinin siyasi həyatında uzun illərdir ki, böyük rol oynayan **Sonia Qandi** əslən italyandır. O, 1946-cı ilin 9 dekabrında İtaliyanın Veneto bölgəsində doğulub. **Stefano** və **Paolanın** sevimli qızı Sonianın uşaqlıq illəri ailəsi ilə birlikdə Turin yaxınlığında yerləşən Orbassanoda keçmişdir. (Atası 1983-cü ildə vəfat etmiş, anası və iki bacısı isə hələ də Orbassano yaxınlığında yaşayırlar).*

***Qatı katolik ailəsində böyümüş Sonia təhsilini də katolik məktəbində alıb.** 1964-cü ildə 18 yaşlı Sonia Kembricə ingilis dili öyrənməyə gedir və bu addımı onun bütün həyatını dəyişir. Bir tanışlıq onun həyatını*





*elə dəyişir ki, İtaliyada olduğu zaman bunu heç ağlına belə gətirə bilməzdi... Təsəvvü belə udə bilməzdi ki, həyatının böyük bir hissəsini başqa bir ölkənin, başqa bir dini-mədəni mühitin və dünyanın ən ünlü nəsillərindən biri **Nehru-Qandi** sülaləsinin bir parçası olaraq yaşayacaq... Bir görüş, bir tanışlıq onun bütün həyatını dəyişdi. Tale, Qismət ona ömrünün ən maraqlı (və gerçəklik dolu) nağılını yaşatdı: **"film kimi həyat"** ifadəsini ona doğma qıldı. O, sevgi və öhdəliyin, kədər və sevincin, faciə və uğurların qırmızı xətlərlə keçdiyi filmin qəhrəmanı oldu...*





*Sonia 1965-ci ildə Kembric Universitetinin Triniti Kollecində oxuyan **Raciv Qandi** ilə tanış olur (Adını Hindistan tarixinə qızıl hərflərlə yazmış **Cəvahirlər Nehrunun** nəvəsi, **İndira Qandının** oğlu). Bu tanışlıq, Böyük Hindistan və ya Əsl Məhəbbət nağılının əsasını qoyur. Bu, elə böyük bir məhəbbət idi ki, Sonia onun arxasınca öz ailəsindən çox uzaqlara - Hindistana gedərək bütün həyatını ömürlük olaraq bu ölkəyə bağlayır. **Hindistan (-sevgilisinin vətəni!) sözün əsl mənasında onun Vətəninə çevrilir!***

*Bu ilk baxışdan, ilk tanışlıqdan yaranmış dəlicəsinə bir sevgi idi. Sonia təkcə gözəlliyi ilə fərqlənmirdi, onu fərqli qılan bir çox özəlliklərə sahib idi və Raciv Qandi ilk baxışdan bu gözəl italyan qızının onun taleyinə yazıldığına inandı. Sonia da ona aşiqdi. O, qarşısındakı uca boylu oğlana (böyük və mənalı gözləri, insanı özünə cəlb edən təbəssümü ilə babası Cəvahirləl Nehrunu xatırladan) Raciv Qandiyə elə ilk baxışdan aşiq olmuşdu və elə ilk tanışlıqdan bu adamla bütün həyatını paylaşmağa hazır idi.*







*Fərqli mədəni-dini və sosial mühitdə böyümələri onları qorxutmurdu. Onlar bu barədə heç düşünmürdülər də... Onlar üçün əsas olan yaşadqları böyük sevgi idi.*

*Onlar Hindistana getmək və orada gələnəksəl hind toyu etmək qərarına gəldilər. Sonianın bu qərarından xəbər tutan valideynləri ondan İtaliyaya, evlərinə dönmələrini tələb etdilər. Əslində, Raciv Qandinin ailəsi də başlanğıcda bu evliliyin lehinə deyildilər. Onlar Racivin bir xarici ilə deyil, bir Hindistanlı ilə evlənməsində maraqlı idilər. Amma gec idi... Gənclər qərarlarını vermişdilər və sevgilərində ailələrinə güzəştə gedəsi deyildilər...*

***

1968-ci ildə Raciv Qandi və Sonia ailə qururlar və Sonia həmin dövrdə Baş nazir olan qaynanası İndira Qandinin evinə köçür. 21 yaşlı Sonia qırmızı rəngli gözəl sari geymişdi və gələnəksəl hind gəlinləri kimi bəzənmişdi. Onu dostları da bu cür çətin tanıya bilərdilər... Gözəl italiyan qızı hind gəlini kimi "müsibət" görünürdü və Racivin yanında, onun ailəsində, Hindistanda özünü çox xoşbəxt hiss edirdi.

Yeni bir həyat, yeni bir başlanğıc, yeni bir Vətən, yeni bir mədəniyyət... Amma onu heç nə qorxutmurdu. Çünki yanında sevdiyi və onu çox sevən bir insan var idi.

Nehru ailəsinə aid olmalarına baxmayaraq, onlar siyasətdən uzaq olmağa çalışırdılar. - Raciv hava yollarında pilot işləyir, Sonia isə ailəsinin qayğısına qalırdı. Hindistanın siyasi həyatında ailəni qardaşı Racivin Sancay Qandi təmsil edirdi. Bu gün nə qədər qəribə səslənsə də, Sonia uzun müddət siyasətə maraq göstərməmiş, üstəlik, Racivin də siyasətə qoşulmasının əleyhinə olmuşdu. Məlumatlara görə, hətta siyasətə qoşulduğu təqdirdə ondan boşanacağı barədə həyat yoldaşına xəbərdarlıq da edibmiş. Raciv Qandi illər sonra buna cavab olaraq deyirdi: ***"Sonia məni itirəcəyindən qorxurdu."*** Tariq Ali adlı müəllif yazır ki, Sonia bir dostuna - ***"Racivin siyasətlə məşğil olmağındansa, uşaqlarının küçədə dilənməyinə razı olaram"*** deyib...





Yeni Hindistanın lideri Mahatma Qandinin qətlə yetirilməsi səhnəsi ona çox təsir etmişdi və o, hesab edirdi ki, Hindistanda siyasətçi olmaq insanın həyatı üçün təhlükəlidir. O, rahat bir ailə istəyirdi və böyük sevgi bəslədiyi həyat yoldaşı Racivi siyasətə qurban vermək istəmirdi.

Əslində, Sonia hisslərində, rahatsız olduğu məsələlərdə haqlı idi. Çünku məhz siyasət üzündən o, çox əziyyətlər çəkəcək, qurbanlar verəcək, həyat yoldaşını, dəli kimi sevdiyi insanı - Raciv Qandini vaxsız itirəcəkdi...





1977-ci ildə İndira Qandi hakimiyyətdən uzaqlaşdırılanda Raciv Qandi ailəsi ilə birlikdə qısa müddətə xaricə köçməli oldu. Amma yenə də siyasətlə məşğul olmadı. O, siyasətə yeganə qardaşı Sancay Qandinin təyyarə qəzasında həlak olmasından sonra, 1982-ci ildə qoşuldu. Raciv Hindistan siyasi tarixində böyük rol oynamış ailənin artıq yeganə davamçısı idi! O, siyasətdən qaçmağa çalışmış, siaysət ondan qaçmamışdı... Ancaq Sonia yenə də mümkün olduqca siyasətdən uzaq qalmağa çalışırdı.

***

1984-cü ildə Hindistan kimi Qandilər ailəsinə də böyük faciə üz verdi. Baş nazir İndira Qandi sui-qəsd nəticəsində həlak olmuşdu. Anasının faciəli ölümündən sonra Raciv Qandi (Nehru-Qandi sülaləsinin yeganə varisi kimi) Hindistanın Baş naziri elan olundu. Ümumiyyətlə, Sonia Qandinin ictimaiyyətdə görünmə-



si qaynanasının sui-qəsdindən və ərinin Baş nazir olmasından sonra başladı. Baş nazirin arvadı kimi o, rəsmi törənlərdə əri ilə birlikdə iştirak edir, Baş nazirlə birlikdə səfərlərə gedirdi. Amma Sonia Qandi həyat yoldaşının Baş nazirliyi dövründə yenə siyasətə qoşulmur, incəsənətlə məşğul olur və artıq özünü bir parçası hesab etdiyi Hindistanın incəsənət örnəklərini qorumağa çalışırdı.

Cəmi 3 il sonra Sonia eşidəcəyi yeni bəd xəbərlə bir daha sarsılacaqdı və onun Raciv Qandını itirəcəyi qorxusu bundan sonra gerçək kabusa dönəcəkdi. 1987-ci ildə Raciv Qandi ona qarşı təşkil edilmiş sui-qəsddən xilas ola bilsə də, artıq Soniaya olan olmuşdu... Raciv Qandinin onu sakitləşdirmək, təskinlik vermək cəhdləri də uğurlu alınmırdı. Sonia hiss edirdi ki, nəsə baş verəcək və o, Racivi hər an itirə bilər.

O, Raciv Qandinin ölkədaxili səfərlərində onunla getməyə başladı. Baş nazir insan kütlələri ilə görüşən zaman fotoaparatların yaddaşına, Sonianın həyat yoldaşına heyranlıqla baxdığı və ətrafa narahatlıqla göz gəzdirdiyi anları köçəcəkdi...

1991-ci ildə Hindistanda, Sonia da növbəti sarsıntını yaşayacaqdı... O, siyasətdən uzaq saxlamaqla qorumaq istədiyi və böyük məhəbbətlə sevdiyi həyat yoldaşı Raciv Qandini itirdi. Raciv sui-qəsdlə qətlə yetirildi!

O, oğlu Rahul və qızı Priyanka ilə birlikdə dünyalar qədər sevdiyi həyat yoldaşının yandırılan cənazəsinin yanında dayanıb ona baxır və vidalaşırdı... Bu çox dəhşətli vida səhnəsi idi. Hətta fotolara keçən bu vidalaşma səhnəsində, Sonianın duruşundan, üzünün, gözlərinin ifadəsindən nələr hiss etdiyini bu gün də görmək və hiss etmək çətin deyil...

Bu Sonia üçün həyatın bir mərhələsinin başa çatması demək idi... O, düz yeddi il əvvəl də Racivlə birlikdə İndira Qandinin hind gələnəklərinə uyğun yandırılan cənazəsinin yanında dayanmışdı və elə həmin zaman onun içərisinə Racivi böyük siyasətdə itirəcəyi qorxuları daha da





artmışdı... Hiss etdiyi başına gəlmişdi... Sonia böyük məhəbbəti ilə vidalaşırdı və ona elə gəlirdi ki, artıq həyat onun üçün bitib. Vaxtı ilə onu eşq odunda yandıran əziz insanın doğrudan-doğruya yanmasına tamaşa edirdi...

Raciv Qandinin ölümündən sonra o, ictimaiyyət arasına çıxmadı, müsahibə verməkdən imtina etdi. Onun ölümündən sonra gələnəksəl olaraq Soniaya Konqres Partiyasının lideri olmaq təklif olundu. Ancaq o, buna etiraz etdi. O, həmçinin ona təklif olunan Baş nazirlik kürsüsündən də imtina etdi. Həyat yoldaşının qətlindən sonra Sonianın Baş nazir postundan imtina etməsi Konqresin **Nraşima Raonu** Baş nazir seçməsi ilə nəticələndi. Ancaq növbəti illərdə Konqresdə davam edən ziddiyyətlər, çoxlarının partiyanı tərk etməsinə və Konqresin çoxlu fraksiyalara bölunməsinə səbəb oldu. Partiyanı dağılmaqdan xilas etmək üçün **1997-ci ildə partiyaya qoşulan italiyan əsilli hind gəlini** 1998-ci ildə partiyanın lideri oldu. Cəmi bir il sonra isə o, artıq müxalifətin lideri idi!

Fermerlərə və işsizlərə yönəlik seçki kampaniyası Konqres Partiyasına seçkilərdə qalib gəlməyə kömək etsə də, partiya parlamentdə mütləq çoxluğu əldə edə bilmədi. Buna görə partiya Birləşmiş Alyans Partiyası adlanan koalisiya yaratdı və Hindistan siyasətindəki gücünü bu minvalla özünə qaytarmağa başladı.

Onun hind dilində danışması və tez-tez hind məbədlərini ziyarət edərək dualar etməsi sadə hindlilərin gözündə onu daha da yüksəldirdi. Bir çoxları onun italiyan əsilli olması barədə artıq heç düşünmür, bunu anlamsız sayırdılar. Gələnəksəl hind geyimləri geyməsi, hind dilində danışığı, bir sözlə, bütün hərəkətləri ilə





Sonia artıq Hindistanın və hind mədəniyyətinin bir parçası idi. O, getdikcə İndira Qandiyə oxşayırdı (və ya buna çalışırdı). **Geyim tərzi, çıxışlarındakı hökmran(lıq) və təsirli intonasiya, partiyaya ciddi nəzarət üsulları ilə İndira Qandini xatırlatmağa başlayırdı...**

O, Konqresdə davamlı şəkildə 10 il prezdent olmasına görə rekord sahibidir!

## 2004-cü il seçkiləri və sonrası

Sonia Qandi 2004-cü il seçkilərində fəal surətdə kampaniyaya başladı. Onun şüarı çox sadə idi - **"Adi İnsan"!..** Seçkilərdə böyük fərqlə Milli Demokratik Alyansa (MDA) qalib gələn xanım siyasətçi mayın 15-də yekdilliklə çoxpartiyalı koalisiya hökuməti tərəfindən Hindistanın Baş naziri seçildi.

Seçkilərin nəticələrindən sonra məğlub olmuş MDA lideri **Suşma Svarac**, Sonianın əcnəbi əsilli olmasına diqqət çəkərək, onun Baş nazir təyin ediləcəyi təqdirdə saçlarını qırxaraq küçələrdə yatacağına and içdi. MDA, onu Baş nazirlik postundan uzaqlaşdırmaq üçün hüquqi səbəblərin olduğunu iddia edirdi. Amma bu iddialar əsassız oldu. Onu Hindistan vətəndaşlıq aktının 2-ci bölməsinə görə məhkəməyə versələr də, Ali Məhkəmə bu şikayətlərə baxmaqdan imtina etdi.

Amma o, Qandilərə layiq addım atdı və hər kəsə ilk öncə özünü deyil, Hindistanı, onun sabitliyini düşündüyünü sübut etdi. Yenə qurbanlar verərək!.. O, Baş nazir olmaqdan imtina etd! Onun bu qərarı partiya üzvləri üçün də, elə Hindistan üçün də əsl sensasiya idi. O, açıqlamasında deyirdi: ***"Mən daxilimdən gələn səsi eşitməyə qərar verdim. Bu gün o səs mənə deyir ki, mən bu vəzifədən imtina etməliyəm. Sizdən xahiş edirəm, məni başa düşəsiniz və mənim qərarımı qəbul edəsiniz. Mən qərarıma yenidən baxmaq niyyətində deyiləm."*** Onun səsi uzun illərdən bəri ilk dəfə idi ki, bir az titrəyirdi. Amma o, qərarının səbəblərini izah etmədi... Onun bu açıqlaması həm partiya üzvləri, həm də sadə tə-







rəfdarları arasında şok yaratdı. Üç saat ərzində onlar liderlərini Baş nazir olmağa razı salmağa çalışsalar da nəticə əldə edə bilmədilər. Parlamentin və evinin qarşısına toplaşan tərəfdarları isə onu bu addımı atmamağa çağırırdılar. Hətta sadə tərəfdarlarından biri əlindəki silahı göstərərək Sonia Qandinin tərəfdarlar qarşısına çıxıb Baş nazir olacağı ilə bağlı vəd verməyəcəyi təqdirdə özünü öldürəcəyini bildirdi. Əli silahlı çılğını tərk-silah etmək mümkün oldu, amma Sonia Qandini qərarından döndərmək mümkün olmadı. Bəzi ekspertlər Sonia Qandinin Baş nazirlikdən könüllü imtinasının onun əcnəbi kökənli olmasından irəli gəldiyini, yəni ölkədə siyasi ziddiyyətlərin yarana biləcəyindən narahatçılıq keçirməsi ilə izah etdilər. Belə düşünənlər deyirdi ki, Hindistanda onun Baş nazir olmasının tərəfdarları ilə yanaşı, əlehydarları da var və bir çox siyasətçilər yaxud sadə vətəndaşlar, əcnəbi kökənli olmasına vurğu edərək onun Hindistanın Baş naziri olmasını doğru saymadıqlarını bildirirdilər.



Və nəhayət, Sonia Qandi Baş nazir postunda görmək istədiyi şəxsin adını açıqladı. O, Baş nazir vəzifəsini yerinə yetirməyi yaxın tərəfdarlarından biri və partiyanın veteranlarından sayılan **Manhoman Sinqhə** tapşırdı. Bu çox uğurlu bir seçim idi. Hindistanın iqtisadi islahatlara və inkişafa, yoxsulluqla daha geniş mübarizəyə böyük ehtiyacı vardı. O, öz yerini Hindistanın iqtisadi möcüzələrinin atası sayılan Manhoman Sinqə verdi, o isə Sonia Qandinin bu etimadını ən yüksək səviyyədə doğrultdu. Onun Baş nazirliyi ilə Hindistanın inkişafı üçün ciddi addımlar atılmağa başlandı.





2006-cı ilin martında Sonia Qandi Lok Sabhadan (Parlamentin aşağı palatası) və Milli Məsləhət Şurasından istefa verdiyini açıqladı (Sanki illər öncəki "siyasət qorxusu" onu yenidən sarmışdı). Ancaq bir neçə ay sonra o, tərəfdarlarının təkidi ilə yenidən vəzifəsinə qayıtdı.

## Diqqətcil, qənaətcil və ürəyiyumşaq Sonia

Sonia Qandidə bir zahidlik sifəti (keyfiyyəti) də var desək, yanlış olmasın gərək. O, parlamentin bütün üzvlərinə də bunu məsləhət görür. Məsələn, Dehlidən Mumbaya "qənaətcil klass"da (ekonomi klass) səyahət edərək onlara mütəvazilik örnəy oldu. (Ünlü xanım bu sadə hərəkəti ilə 10 000 rupiyə qənaət etmişdi.) Parlament üzvlərinin maaşlarının 20 faizinin susuzluqdan əziyyət çəkən hindlilərə verilməsi təşəbbüsünün də müəllifidir xanım Qandi.

**Sonia Qandi Baş nazir olmasa da onun Hindistandakı çox yüksək nüfuzu dünyada da bəllidir.** Hindistana səfər edən dünya liderləri onunla görüşməyə böyük önəm verirlər. Çünki o, bu gün də Hindistan siyasətində böyük təsiri olan LİDERdir. **Hindistanın ilk qadın prezidenti, Pratiba Patilin** seçilməsində də onun dəstəyinin böyük rol oynadığı hər kəsə bəllidir!

Bütün bu qısa özətlədiyimiz yanaşmaları da kifayət edir, deyək ki, Sonia Qandi daşıdığı soyadın energetikasını öz üzərində hiss etdiyinin; Nehru ailəsinin gəlini olduğunun; özü Qərbli olsa da, qədim bir Şərq ölkəsində yaşadığının, habelə, partiya başçısı olmaqla yanaşı, məhz qadın olduğunun fərqində olan bir nəcib insandır.

Qəhrəmanımızın oğlu Raul Qandi (1970) 2004-cü ildə parlamentə seçilib. Onu Hindistan siyasətində Nehru-Qandi sülaləsinin, Raciv Qandinin varisi olaraq görənlərin sayı kimi, onun nüfuzu da həm partiya həm də ölkə daxilində getdikcə artır. O, ailənin davamçısı kimi indi anası ilə çiyin-çiyinə həm parlamentdə, həm partiyada, həm də ölkə siyasətində aktiv iştirak edir.











Qızı Priyanka Qandi (1972) isə heç bir dövlət orqanına seçkilərdə iştirak etməmiş, sadəcə olaraq Konqresin kampaniya meneceri kimi çalışmışdır.

Sonia Qandi vaxtı ilə həyat yoldaşının siyasətə qatılmasına (atılmasına) qarşı idi. Sonra necə ki, özü siyasətin içinə girdi (və siyasi olimpin zirvəsinə qalxdı); göründüyü kimi, indi də övladlarını (soyadlarında "Qandi" sözü keçən, Cəvahirləl Nehrunun geninin, İndira Qandinin südünün vücudlarında dönüb dolaşması, italyan kodları ilə zənginləşərək yeni bir şəkillənmə qazanması baxımından portretləri tamamlanan övladlarını) da siyasətdən kənar tuta bilməmişdir...

## İntellektual Qərb qızı, eşqli Şərq qadını

Beləliklə, onun - İtaliyada doğulub, İngiltərədə oxuyub, Hindistanda hakimiyyətə gələn bir qadının həyat hekayətini vərəqləməyə çalışdıq. Bu həyat hekayəti nə deyir? İlk növbədə, özünəözgü tərzdə siyasətdən uzaq dura-durə, siyasətlə, başqa sözlə, əldə edilməsi mümkün olana yiyələnmək bacarığı ilə Milli



Konqresin rəhbəri olmağı bacaran bir siyasi xadimdir o! O, ünlü hind ictimai-siyasi və dövlət xadimi, Baş nazir İndira Qandinin gəlini olmaq etibarı ilə bir praktik məktəb keçmiş; habelə, Kembricdə nəzəri məktəb keçməklə öncədən, ictimai-siyast inkişafının möhkəm bazasını yaratmışdı.

**O, Qərbli qızı, Şərqli gəlini (qadını) mənəvi keyfiyyətlərini daşımaqda, onları harmoniyaya tabe tutmaqdadır!**

O, incəsənətlə, ümumən mədəniyyətlə maraqlanmaqla zərifliyini, xanımlığını; idarəçi, rəhbər kimliyi ilə, keçdiyi məktəbləri ən yaxşı yönləri ilə şəkilləndirməkdə, təzahür etdirməkdədir!

Onun yuxarıda sadalanan keyfiyyətləri, ilk növbədə, Qandi, Nehru isimlərinin haqqını verməyə çalışdığını göstərməkdədir, deyə düşünürəm. Nəzərə çarpan nöqsanları ilə də təbii bir mənzərə canlandıran xanım Sonia Qandi(nin) həqiqətini, mədəniyyətlər buluşması; fərqli düşüncələrin (ümumən həyata, dünyaya fərqli fəlsəfi yanaşmaların) kəsişmə nöqtəsində axtarmaq lazımdır, bəlkə... **Hər halda, o, Hindistanlı olmağı bacardığını** *(-ən azından bir italyanın ola biləcəyi ən maksimum səviyyədə Hindistanlı olmağı)* **göstərməkdədir! Bu isə** *(Sonia Qandi "özkeçmiş"i mısalında)* **alqışa layiqdir!**







- O, İndoneziyanın ilk (və hələlik yeganə) qadın Prezidenti olub.
- O, "Forbes" jurnalının 2004-cü il üzrə "Dünyanın ən güclü 100 qadını" siyahısında 8-ci yeri tuturdu. Jurnalın 2008-ci il üzrə siyahısında da o, dünyanın 100 ən güclü qadını sırasında idi.
- O, müsəlman dünyasında ölkəyə rəhbərlik edən (Prezident və ya Baş nazir) 5-ci qadın kimi adını TARİXƏ yazıb.
- Meqavati, ya da indoneziyalıların deyimiylə, "İbu Mega" ("Meqa Ana") adlandırılan bu qadın İndoneziyanın sabiq prezidenti, tanınmış siyasi lider, müxalifətin rəhbəri Diah Permata Megavati Setiavati Sukarnoputridir (Diah Permata Megawati Setiawati Soekarnoputri).
- İndoneziyanın ilk Prezidenti Sukarnonun qızı olan xanım Sukarnoputri, müstəqillikdən sonra anadan olmuş ilk indoneziyalı liderdir. O, 1945-ci ildə İndoneziyanın müstəqilliyini elan etmiş ölkənin ilk prezidenti Əhməd Sukarnonun qızıdır. Meqavati Prezident Sukarno ilə (onun 9 arvadından biri olan) Fatmavatinin evliliyindən dünyaya gəlib. O, Sukarnonun ikinci övladı və ilk qızı idi. Uşaqlığı paytaxt Cakartadakı "İstana Merdeka"da, yəni Prezident Sarayında keçən Meqavati 19 yaşında olarkən Sukarnonun hakimiyyəti hərbi hakimiyyətlə əvəz edildi və ailəsi siyasətdən uzaqlaşdırıldı. Sukarno siyasi və dövlət xadimi olmasına baxmayaraq, vəfat etdikdən sonra ailəsinə çox az miras qoymuşdu. Meqavati özü də həyatı boyu təvazökarlığı ilə seçilib, bu da ona yoxsulların rəhbəri imicini qazandırıb.



- Meqavati, Bandunqdakı Pacacaran Universitetində kənd təsərrüfatı üzrə təhsil almağa başlasa da, atasının hakimiyyətdən getməsindən sonra universiteti tərk etməli olub. Gələcək Prezidentin keçmiş Prezident atası 1970-ci ildə vəfat etdi. Bir qədər sonra isə Meqavati İndoneziya Universitetinə daxil oldu. Lakin o, burada cəmi iki il oxuyub (psixologiya üzrə), universiteti tərk etdi.
- ...İllər sonra ailə dostları Mark MakDonald mətbuat açıqlamasında "Sukarnonun uşaqlarının nə pul, nə təhsil, nə də işi var idi" deyərək, duruma aydınlıq gətirəcəkdi. Buna səbəb isə Suxarto hərbi hakimiyyəti idi.
- Meqavati, inanclı müsəlman olsa da, Cavani prinsiplərinə (İndoneziyanın yerli inancı) də inanır.
- Meqavati Sukarnoputrinin bir ifadə, ünvan (ad) kimi etimologiyası da maraqlıdır. Bu "Sukarnonun qızı" anlamını daşıyır və soyadı deyil. Cavalılar adətən soyaddan istifadə etmirlər. Onu sadəcə Meqavati (yaxud Meqa) kimi çağırırlar ki, bu da "buludu olan", "yağış buludu" (meghavati) anlamına gəlir. O, anadan olan vaxt yağış yağırmış.



## Kiçik bir Meqa lətifəsi

İbu Meqanın danışdığı bir lətifə, daha doğrusu, lətifələrdən biri oxucularımız üçün də maraqlı olar deyə, ona burada yer verməyi uyğun bildik: **İl 1959, aylardan aprel. İndoneziya lideri Sukarno, o vaxtkı Cümhurbaşqanı Cəlal Bayarın dəvəti ilə Türkiyəyə gəlir. Gəlməzdən öncə də 12 yaşındakı qızı Meqavatidən soruşur: "Qızım, nə istərsən, sənə nə gətirim Türkiyədən?" Qız da istəməyə şey tapır... Qızının istəyi ilə Sukarno, Türkiyədən Cakartaya iki dənə Van pişiyi ilə dönür.** *(Odur ki, bir Vanlı tanışımızın, "bizim pişiyimiz İndoneziyaya çox adamdan qabaq gedib", yaxud "İndoneziyadakı ən yaxşı pişiklər Van pişiklərindən törəmədir" - dediyini eşitsəniz, təəcüblənməyin...)*

***

Meqavatinin çətin günləri atasının devrilməsindən sonra başladı. Bir neçə dəfə siyasi səbəblərlə bağlı olaraq oxuduğu universitetdən ayrılmaq zorunda qalan Meqavati özəl həyatında da sıxıntılar yaşadı. İlk həyat yoldaşı olan pilot-zabit (leytenant **Surendro Supcarso**), atası Sukarno ilə eyni ildə (1970-ci ildə), İrian Cayada təyyarə qəzasında həlak oldu. İki il sonra Misirli diplomat **Həsən Camalla** evləndi, ancaq bu evlilik də çox qısa sürdü.

Meqavati bugünkü həyat yoldaşı **Tofiq Kiemas** ilə 1973-cü ildə ailə qurub. Onların hazırda 3 övladı var - Məhəmməd Rizqi Pramata, Məhəmməd Prananda və Puan Maharani.

O zamanlar Meqavatinin siyasi arenada iştiraka hazır olmasını göstərən heç bir təcrübəsi yox idi. 1979-cu ildə o, 3 dostu ilə birlikdə dəbdəbəli otellərə xidmət göstərən gül dükanı açdı və ...əldə edilən gəlirləri yoxsul uşaqlara xərcləməyə başlamışdı. Baxmayaraq ki, özünün və ailəsinin bu pullara böyük ehtiyacı var idi. Çünki onlar varlı deyildilər, atası onlara var-dövlət qoymamışdı. Özü kasıb olsa da Meqavatinin qəlbi zəngin idi və o, qazandığı pulları yoxsullarla bölüb





yeməyi daha üstün tuturdu. Onun evdar qadın obrazı vardı - qohum-qonşusu onu belə qəbul etmişdi. Lakin əsas adam evin içindəki - həyat yoldaşı onun obrazını başqa cür təsəvvür edirdi. Ərinin təkidi ilə, atasının hakimiyyətdən getməsindən 20 il sonra (1987-ci ildə), o, Milliyətçi və Xristian Partiyalarının qarışığı olan İndoneziya Demokratik Partiyasına (İDP) qoşularaq, parlamentə üzv seçildi. Prosesləri itilləyən olay isə 1986-cı ildə Suxarto hakimiyyətinin Sukarnonu taıması olmuşdu. İDP bu tanıma faktınlan sonra ictimai fikri, sosial tələbatı göz nündə tutaraq, 1987-ci il seçkilərində ukarnoyönümlü kampaniya başlatmışdı. Meqavatinin ərinin təsiri ilə siyasətə atılması, İDP-yə qoşulması və Nümayəndələr Palatasına namizədliyinin irəli sürülməsi, bax, bu zəmində gerçəkləşmişdi. İDP Meqavatini partiyaya qəbul etməklə öz imicini yüksəltmişdi. Meqavatinin böyük natiqlik bacarığının olmamasına baxmayaraq, respublikanın qurucusunun qızı olması onu tezliklə məşhurlaşdırdı. Nəhayət, seçkilərin rəsmi nəticələri açıqlandı: İDP sonuncu yeri tutsa da, Meqavati Nümayəndələr Palatasına seçildi. ..Tilsim sınmışdı.







## Demokratik Partiyanın mübariz katibi

Meqavati növbəti seçkilərdə Nümayəndələr Palatasına seçilə bilməsə də İDP-nin üzvü kimi siyasi fəaliyyətini davam etdirdi. 1993-cü ilin dekabrında İDP Milli Konqres keçirdi, ancaq həmişə olduğu kimi hökumət



müxalifətin itaətkarlığını təmin etmək üçün Konqresin işinə mane olmağa çalışırdı. Konqresin işə başlama vaxtı yaxınlaşdıqca katibliyə namizədlərin adları açıqlandı. Onlardan biri son zamanlar hökumətə qarşı çıxan əvvəlki katib Suryadi, ikincisi isə hökumətin yaxın dostu olan və hökumət tərəfindən dəstəklənən Budi Harcono idi. Üçüncüsü isə Meqavati idi. Bu ortamda Meqavatinin namizədliyi o qədər dəstək qazanmışdı ki, onun seçilməsi sadəcə bir formallıq idi.

**Meqavati siyasətə 40 yaşında gəldi.** O dönəm Suxarto rejiminə qarşı çıxan müxaliflər, Sukarnonu bir simvol olaraq istifadə etmək istəyirdilər. Bunun ən yaxşı yolu da qızını yanlarına çəkməkdi. Meqavati yaxşı bir siyasətçidə olması gərəkən bir çox özəlliyə sahib olmasa da, anadolulular demiş, ***"babasının qızı"***ydı və gedərək siyasəti öyrənməyə başladı. Siyasəti öyrəndikcə yüksəldi və İndoneziya Demokratik Partiyasının (PDI - Partai Demokrasi İndonesia) başqanlığına seçildi.

Bunu hiss edən hökumət Meqavatinin seçilməməsi üçün manevrlər etməyə başladı. Konqres işinə başladıqda hökumət katiblik seçkilərini ləngitməyə çalışırdı. Bununla yanaşı, hökumət Konqresin toplaşma vaxtının sonuna qədər katibini seçməyəcəyi təqdirdə onun vaxtının uzadılmayacağını bildirdi. Konqresin sonuna bir neçə saat qalmış, Konqres binasının ətrafına qoşunlar toplaşmağa başladı. Konqresin sonuna 2 saat qalmış Meqavati mətbuat konfransı çağırdı. Mətbuat konfransında o, çoxluğun dəstəyini qazandığı üçün partiyanın de-fakto katibi olduğunu açıqladı. Siyasi təcrübəsinin az olmasına baxmayaraq, o korrupsiyadan uzaqlığına, Sukarnonun qızı olduğuna və insani keyfiyyətlərinə görə rəğbət qazanmışdı. Onun başçılığı altında İDP şəhərdəki kasıb əhalinin, şəhər və kənddə yaşayan orta sinfin dəstəyini qazandı.



***

Hökumət Meqavatinin seçilməsinin qarşısını ala bilmədiyi üçün qəzəblənmişdi. 1994-cü ildə İDP tərəfindən Meqavatinin katibliyi ratifikasiya olunsa da, hökumət onu heç vaxt qəbul etmədi. 1996-cı ildə hökumət Medan şəhərində Xüsusi Milli Konqres çağırdı. Bu Konqresə Meqavatinin əleyhdarları toplaşaraq, Suryadini yenidən DP-yə katib seçdilər. Təbii ki, Meqava-i cəbhəsi də, öz sırasında, hökumət tə-əfindən çağırılmış Konqresi tanımadı ə İDP iki düşərgəyə - Meqavati tərəf-arlarına və əleyhdarlarına bölündülər.



Ardından Suryadinin İDP-nin Cakar-adakı baş qərərgahını tutacağı barədə ədələr başladı. Bu təhlükə 1996-cı il iyulun 27-də gerçəkliyə çevrildi. Suryadi tərəfdarları qərargaha hücum etdi və Medandakı konqresdən bəri orda qərarlaşmış Meqavati tərəfdarlarının haqlı müqaviməti ilə rastlaşdılar. Meqavati tərəfdarları binanı öz əllərində saxlaya bildilər. Hökumət işə qarışdı, üsyan çıxdığı və yatırıldığı elan edildi. Üsyanın faktu-rası Demokratik Partiyaya kəsildi. Hökumət Suryadinin katibliyini rəsmi olaraq qəbul etdi və Meqavatinin 1997-ci il seç-ilərində iştirakına qadağa qoydu.

Siyasi cəhətdən məğlub olmasına bax-ayaraq, Meqavati mənəvi qələbə və oxlu tərəfdaş qazandı. 1997-ci il seçkilə-ndə Meqavati və onun tərəfdarları hökumət tərəfindən fəaliyyətinə icazə verilən irləşmiş İnkişaf Partiyasını dəstəklədilər. Onun populyarlığı o qədər çox idi ki, hakimiyyət nun siyasi karyerasını dayandırmaq üçün çoxlu cəhdlər tdi, amma buna nail ola bilmədi. Meqavati Sukarnoputı Suxarto diktatura rejiminin sonunun başlanmasında ən fəal rol oynadı!



## İslahatlar dalğası

1997-ci ildə Tailandda başlayaraq qısa müddətdə bütün Şərqi Asiyanı saran iqtisadi böhran İndoneziyanı da bürüdü. Böhran ölümcül bir girdab halında İndoneziyanı içinə çəkərkən yaranan sosial partlama (artıq 1998-ci ilin yanvarında yerli valyutanın (rupinin) deflyasiyaya uğraması, artmaqda olan korrupsiyaya qarşı ictimai qəzəbin kulminasiya nöqtəsinə çatması və s.) ölkəni 33 ildir dəmir bir yumruqla idarə edən Suxartonu yerindən etdi. 1998-ci ilin mayında o, prezidentlikdən istefa verdi və vitse-prezident B.J.Habibi prezident səlahiyyətlərini icra etməyə başladı.

İndoneziya seçkilərə hazırlaşmağa başladı. Ölkədə artıq yeni bir dönəm başlayırdı və bu dönəmdə islahatçı qrupun ən qüvvətli səslərindən biri Meqavati olmuşdu. Olayları diqqətlə izləyən, üzərindəki qadağalardan azad olmuş Meqavati siyasi mövqeyini möhkəmləndirməkdə idi. 1998-ci ilin oktyabrında onun tərəfdarları konqres çağıraraq, özlərini Suryadinin İDP-dən fərqləndirmək üçün Meqavatinin İDP-sini İndoneziya Demokratik Mübarizə Partiyası (İDMP) adlandırdılar. Meqavati partiyanın sədri və prezident seçkilərinə namizəd oldu.

Meqavatinin İDMP-si Abdurahman Vahidin Milli Oyanış Partiyası və Amien Rainin Milli Mandat Partiyası ilə birləşərək, islahat hərəkatının aparıcı qüvvəsinə çevrildi. Ancaq geniş dəstək qazanmalarına baxmayaraq onlar hakimiyyətə keçmək üçün daha uyğun vaxtı - 1999-cu ilin seçkilərini gözlədilər.

1999-cu il seçkiləri yaxınlaşdıqca, hamı ümid edirdi ki, **Meqavati, Vahid** və **Amien** prezident Habibiyə qarşı siyasi koalisiya yaradacaq. 1999-cu ilin mayında İndoneziyanın siyasi və dini xadimi **Alvi Şihab** hər üç nümayəndəni evində təşkil etdiyi mətbuat konfransına dəvət etdi. Ancaq son anda Amienə etibar edə bilməyəcəyini deyən Meqavati konfransa qatılmaqdan imtina etdi.



Parlament seçkiləri 1999-cu ilin iyun ayında keçirildi və Meqavatinin partiyası səslərin yüzdə 33%-ni alaraq sandıqdan zəfərlə çıxdı. 1999-cu ilin oktyabrında gerçəkləşdirilən dövlət başçısı seçimlərində isə Meqavatiyə qarşı olan qrup (Birləşmiş İnkişaf Partiyası və başqaları), "söz qurtarandan sonrakı söz"lə - "İndoneziyanın qadın dövlət başçısı istəmədiyi" kimi bir şüarla kampaniya apardı. Təəssüf ki, bu cür kampaniyalar müəyyən qədər də olsa rol oynadı və Meqavatinin Prezident olması üçün onun tərəfdarlarına cəmi bir neçə səs çatmadı. Nəticədə dövlət başçısı postunu **Abdurrahman Vahid qazandı, Meqavati isə Vitse-prezident oldu.**



## Meqavatinin vitse-prezidentliyi

Vitse-prezident kimi Meqavatinin parlamentdə hakimiyyəti güclü idi. 2000-ci ilin avqustunda Konqresin illik sessiyasına kimi artıq çoxları Vahidin həm prezident, həm də administrator kimi təsirli olmadığını düşünürdü. Vahid buna cavab olaraq, Meqavatiyə hökumətə gündəlik nəzarət səlahiyyəti verdi. Vitse-prezidentliyi dövründə Meqavati Sukarnoputrinin populyarlığı daha da artdı. O, korrupsiya və işsizliyə qarşı proqram həyata keçirməyə başladı, tələbələrin və işçilərin vəziyyətlərinin yaxşılaşdırılması ilə ciddi məşğul oldu, ölkədəki sosial problemlərin həlli istiqamətində ciddi addımlar atdı. Bu arada, 2000-ci ildə ilk İDMP Milli Konqresi Mərkəzi Cavada, Semaranqda keçirildi və Meqavati ikinci dəfə partiyanın sədri seçildi.



## Vahidlə "qeyri-vahid" münasibətlər və prezidentliyə yüksəliş

Meqavatinin Vahidlə münasibətləri ziddiyyətli idi. 2000-ci ilin avqustunda yeni kabinet dəyişiklikləri zamanı açıqlamalar onun iştirakı olmadan həyata keçirilmişdi. Digər tərəfdən isə Vahidə qarşı siyasi təzyiqlər artdıqda Meqavati prezidenti müdafiə etdi. 2001-ci ildə isə Meqavati özünün prezident seçilmə ehtimalının artdığını görüb, Vahiddən uzaqlaşmağa başladı. Bu barədə heç bir şərh verməsə də özünü prezidentliyə hazırlamağa başlamışdı.

## Prezident qızı Prezident

2001-ci il iyulun 23-də Xalq Assambleyası toplandı. Assambleya üzvləri Vahidi səsbirliyi ilə vəzifəsindən uzaqlaşdıraraq, Meqavatini prezident seçdilər. Sukarnonun 36 il öncə tərk etməyə məcbur edildiyi kresloya artıq qızı oturacaqdı. Xarici müşahidəçilər deyirdilər: "O, İndoneziyanın ilk prezidenti olan atasından ona keçmiş bir xarakterlə indoneziyalılara ilahi təsir gücünə malikdir".

## Meqavatinin ən böyük uğuru siyasi sabitliyi bərqərar etməsi oldu

Meqavati Sukarnoputri hakimiyyət başına keçərkən, "korrupsiya bəlasıyla əlləşən İndoneziyada təmiz bir isim başa gəldi" - deyilirdi. Meqavatinin vəzifəyə başladığı ilk dövr son dərəcə diqqətəlayiq ad-





dımlarla yadda qalıb. Beynəlxalq çevrələr İndoneziyanın gələcəyi üçün məhz Meqavati ilə ümidlənməyə başlamışdılar.

**Meqavatinin vəzifəyə gəlməsindən bir ay sonra Nyu-York və Vaşinqtonda məlum 11 sentyabr olayları yaşandı. ABŞ Prezidenti Buşu Ağ Evdə ziyarət edərək "keçmiş olsun" diləklərini yetirən ilk lider Meqavati idi...**

O, 2002-ci ildə Şərqi Timorun İndoneziyadan müstəqilliyini əldə etməsi ilə bağlı törənə qatıldığına görə də beynəlxalq ictimaiyyətin diqqət mərkəzində idi.



## Meqavatinin ölkəsi necə bir ölkədir?

İndoneziya əhali baxımından Çin, Hindistan və ABŞ-dan sonra dünyanın ən böyük dördüncü ölkəsidir. İndoneziyanın 220 milyonluq əhalisinin yüzdə doxsanı müsəlmandır. Bu da İndoneziyaya dünyanın ən çox müsəlman əhalisinə malik olan ölkə özəlliyini qazandırır. Son bir neçə il içərisində bəzi radikal və din pərdəsi altında gizlənən təşkilatların terror hücumlarına şahid olmuşsa və daha öncə də din adı altında etnik çatışmalar yaşamışsa da İndoneziya təməldə dünyəvi bir ölkədir.

208 milyard dollarlıq iqtisadiyyatı ilə Cənub-Şərqi Asyanın ən böyük iqtisadiyyatına sahib olan İndoneziya zəngin təbii qaynaqlara və böyük bir insan gücünə sahibdir. Bölgədəki bütün ölkələr böyüyən iqtisadiyyatları üçün neft idxal edib yüksələn qiymətləri həyəcanla izlərkən, İndoneziya bölgənin tək neft ixracatçısıdır.



İndoneziyanın coğrafi mövqeyi də çox əlverişlidir. Avropa ilə Şərqi Asya arasındakı dəniz ticarəti bütünlüklə İndoneziyanın boğazlarından keçir. Bu baxımdan İndoneziya, dünya ticarətində ciddi rola sahibdir. Turizm deyildiyində də İndoneziya, böyük bir potensiala sahib ölkə olaraq göz önünə gəlir. Sadəcə Bali adası deyil, təqribən 17.000 adadan təşkil olunmuş ölkənin digər bir çox bölgələri də dünyanın dörd yanından turist çəkməkdədir.

Bir türkiyəli jurnalistin İndoneziya səyahətindən sonra yazdığı, diqqətimi cəlb edən məqalədən iki cümləni Sizinlə paylaşıram: *"Bu ölkəni daha yaxından izləməliyik, çünki on il sonra İndoneziya çox fərqli bir mövqedə olacaq. Uyuyan div oyanacaq".*

2004-cü ildə Meqavati yenidən seçkilərə qatıldı. Lakin ikinci turda **Susilo Bambanq Yudhoyonoya** məğlub oldu. Ölkədə geniş yayılmış işsizliyə qarşı mübarizədə insanların gözlədiyi nəticələrə nail olunmaması, iqtisadi problemlər və silahlı qruplaşmalardan gələn təhlükələr onun İndoneziya ictimaiyyəti arasında reytinqinin azalmasına səbəb olmuşdu. Əhalisi və yoxsullarının sayı çox, iqtisadi problemləri geniş olan İndoneziya əhalisi ondan daha çox şey gözləyirdi. Onların hamısını isə cəmi bir neçə il içərisində yerinə yetirmək çox çətin idi. Baxmayaraq ki, qısa vaxt ərzində o, ölkənin problemlərinin həlli, iqtisadi inkişafı istiqamətində, beynəlxalq aləmdə nüfuzu və rolunun artması istiqamətində çox işlər görmüşdü, seçkidə məğlub olan zaman indoneziyalılardan incimədi, əksinə, üzr istəyərək bir İLKə imza atdı.



**Bu möhtəşəm ölkə, gəlinən nöqtənin çox daha artığını bacara bilərdi. Bacarılmadımı?!** Korrupsiyanın üzərinə gedildi, amma bu mövzuda hakimiyyətlə xalqın əl birliyi, ürək birliyi tam təmin olunmayınca, edilənlər zamanında kök atmadı, üzdə qaldı və bir çox hallarda təkrar səpinə ehtiyac yarandı! İndoneziya demokratiyası hələ yeniyetmə yaşındadır və yeni-yeni inkişaf etməyə başlayır...





Onun bəlkə də ən çox alqış alan hərəkəti 2004-cü ildə seçkiləri uduzduqdan sonra bu ifadələri dilə gətirməsi oldu: *"Tamamlaya bilmədiyimiz işlərin olduğunu və düzəltməmiz gərəkən zəifliklərimizin mövcudluğunu inkar edə bilmərəm. Bütün bu zəifliklər və bitirə bilmədiyimiz işlər üçün ən içdən üzrxahlığımı qəbul etməyinizi rica edirəm".*



Bacara bilmədikləri üçün xalqından üzr diləyən bir lider! Baxmayaraq ki, "İbu Meqa" ("Meqa Ana") adını vəzifədə olarkən qazanmışdı, ancaq elə bil indicə, dövlətin məsuliyyəti yükündən təsirlənmiş siyasətçi qəlbi getmiş, yerinə şəfqətli ana qəlbi gəlmişdi!



Amma, yenə də ölkəsi, onun inkişafı üçün yorulmadan çalışmaqda davam edir. **2006-cı ildə Childrens Hunger Fund tərəfindən Uşaqların Çempionu mükafatına** *(the Childrens Champion Award)* layiq görülüb.




2009-cu il seçkilərində Prezident Susilo Bambang Yudhoyonoya yenidən məğlub olmasına baxmayaraq, müxalifətin lideri kimi Meqavati Sukarnoputri İndoneziyada demokratiyanın inkişafı, korrupsiyaya qarşı daha aktiv mübarizə, ölkənin iqtisadi-sosial problemlərinin həlli, terrorizmə qarşı mübarizə istiqamətində böyük səylə çalışmaqda və xidmət göstərməkdə davam edir. Onun ən böyük xidmət-

lərindən biri isə əhalisinin əksəriyyətini müsəlmanların təşkil etdiyi İndoneziya cəmiyyətində ilk qadın prezident olaraq qadınların liderliyinə, ölkədə rəhbər postları tutmasına qarşı etimad mühitini yaratmasıdır!

**O, bir cığır açıb...** Bu yolla gedəcək İndoneziyalı qızları və qadınları indi ən azı bir zamanlar ona qarşı yürüdülən "İndoneziya qadın prezident istəmir" kimi qara piar kampaniyaları gözləmir. Çünki o, prezident kimi fəaliyyətində bir qadının heç də bir kişidən pis prezident olmadığını indoneziyalılara sübut etməklə, bu cür çirkin kampaniyaların gələcəkdə də qadınların qarşısına bir əngəl kimi çıxması ehtimalını tamamilə azaltdı. **Adını İndoneziya və dünya tarixinə yazmış Meqavati Sukarnoputri isə dayanmaq niyyətində deyil. O, hələ görəcəyi çox işlərin olduğunu deyir...**







Dilma Vana Russeff

# BRAZİLİYANIN İNQİLABÇI QADIN PREZİDENTİ





O, tutulduğu **xərçəng xəstəliyi** ilə mübarizədə də, **rəqibləri ilə** siyasi mübarizədə də qalib gəldi...

- **Dilma Vana Russeff** *(D.V.Rousseff)*! O, adını ölkəsinin və dünyanın TARİXİNƏ **Braziliyanın ilk qadın prezidenti** kimi yazdı!
- 14 dekabr 1947-ci ildə *Minas Gerais ştatında, Bel-Orizontda* (Belo Horizonte) dünyaya gəlmiş Dilma Vana Russeff ibtidai sinfə rahibə məktəbində başlamışdır. 1962-ci ildə isə dövlət məktəbinə keçən Dilma orta təhsilini burada davam etdirmişdir.
- Atası *Pedro Russeff (bolqarca Petr Rusev)* bolqar əsilli hüquqşünas, anası *Dilma Jane da Silva* braziliyalı müəllimə idi. Petr Rusev 1920-ci ildən Bolqarıstan Kommunist Partiyasının fəallarından olmuş, bu səbəbdən - siyasi əqidəsinə görə təqib olunmuş və təqiblərdən qurtulmaq üçün Fransaya köçmək məcburiyyətində qalmışdı. Sonra - 1930-cu ildə o, Pedro Russeff adı ilə Braziliyaya köçür amma tezliklə Buenos Ayresə (Argentinaya) gedir və bir müddət orada yaşayır. Bir neçə il sonra o, yenidən Braziliyaya (Sao Paulo) qayıdır və həyatını həmişəlik bu ölkə ilə bağlayır. Bizneslə məşğul olan Pedro Russeff Uberaba bölgəsinə səyahət zamanı tale onu gənc müəllimə Dilma Cane da Silva ilə görüşdürür və görüş onların ailə həyatı qurmasına qədər inkişaf edir. Bu evlilikdən onların İqor adlı oğulları, Dilma Vana və Zana Lucia adlı qızları dünyaya gəlir.
- Evləndikdən sonra onlar Bel-Orizontidə yaşayırlar. Əmlakçılıqla məşğul olan Pedro Russeffin işləri yaxşı gedirdi və ailə maddi cəhətdən yaxşı yaşayırdı. Uşaqlar orta təhsil almaqla yanaşı, piano və fransız dili dərsləri də alırdılar. Əcəlin hökmü ilə 1962-ci ildə dünyasını dəyişən Pedro Russeff özündən sonra ailəsinə çox da böyük olmayan miras qoydu.







## Diktaturaya qarşı mübarizə

Dilma Prezident **Juan Qulart**ın devrildiyi 1964-cü il hərbi çevrilişindən sonra siyasətlə maraqlanmağa başlamışdı. 1965-ci ildə Dilma Mərkəzi Dövlət Ali Məktəbinə daxil olur. Məktəb o illərdə ölkədəki hərbi diktaturaya qarşı alovlu çıxışlar edən tələbələri ilə tanınırdı. 1967-ci ildə o, Braziliya Sosialist Partiyasının 1961-ci ildə təsis etdiyi fraksiyaya (Politica Operaria-POLOP) daxil oldu. Daha sonra Dilma Russeff hərbi diktaturaya qarşı silahlı mübarizə ideyasını dəstəkləyən daha radikal fraksiyaya - *"Milli Qurtuluş Komandası"na (Comando de Libertacao National, COLİNA)* qoşulmuşdu. 1968-ci ildə "Milli Qurtuluş Komandası"nın lideri və Mərkəzi Dövlət Ali Məktəbində Dilmaya Marksizmi öyrədən Apolo Herinqerə görə Dilma bu qərarı fransız solçu filosofu **Regis Debray**ın o zaman Latın Amerikalı gənclər arasında kifayət qədər yayılmış "İnqilab daxilində










inqilab" əsərinin təsiri altında vermişdi. Bu dövrdə o, Sosialist Partiyasının üzvü **Klaudio Qaleno Linhareslə** tanış olmuşdu və bu da onun 1968-ci ildəki evlilik həyatına başlanğıc vermişdi... (Lakin onların evliliyi müəyyən səbəblərdən uzun sürmədi.)

Dilma silahlı mübarizədə birbaşa iştirak etmir, daha çox *Həmkarlar İttifaqı üzvlərinin marksizm müəllimi* və *"Piket"* ("Tre Piquet) qəzetinin redaktoru kimi tanınırdı. Bununla belə o, silahla davranmağı öyrənmişdi, partizan taktikasına bələd idi. Fəaliyyətlərinə görə onlar daim hərbi diktatura tərəfindən təqib olunurdular və tez-tez yerdəyişmək məcburiyyətində qalırdılar. 1969-cu ildə Dilma və Qaleno Rio de Janeyroya köçmək məcburiyyətində qaldılar. Burada Dilma təşkilatın üzvlərinə silah və pul çatdırılması işinə baxırdı. Qaleno isə Porto Alegreye gizli işlərə nəzarət etməyə göndərildi. Gizli görüşlərin birində Dilma Braziliya Kommunist Partiyasının əsas simalarından biri, vəkil Karlos Araujo ilə tanış olur. O, Latın Amerikasına çox səyahət etmiş, Fidel Kastro, Çe Gevara kimi ünlü inqilabçılarla görüşmüş, Braziliyada diktaturaya qarşı silahlı çatışmalarda iştirak etmişdi. 1969-cu ildə onun rəhbərlik etdiyi qruplaşma "Colina" ilə birləşdi və yeni *"Silahlı İnqilabi Avanqard"* (VAR) təşkilatı yaradıldı. Dilma Russeff və **Karlos Araujo** onun əsas liderləri sırasında idi. Bu inqilabçı təşkilata qarşı cinayət işi açan və üzvlərini təqib edən prokuror və polis rəisləri Dilmanı *"İnqilab Janna Darkı"* adlandırırdılar və vurğulayırdılar ki, məhz o, təşkilatın əsas lider və *"beyin mərkəz"* lərindən biridir. O və inqilabçı dostları hərbi diktatura üçün əsl təhlükə mənbəyinə çevrilmişdi. Onların hərbi diktaturanı devirmək istiqamətində fəaliyyətlərinin ölkə içində özünə getdikcə daha çox dəstək qazanması hərbi diktatura rejiminin onlara qarşı sərt mübarizəsi ilə nəticələndi. Təşkilatı təqib edən hərbi diktatura Dilmanı partlayış planlarına və silahlıların maliyyələşməsi üçün bank qarətlərinə cavabdeh şəxs kimi ittiham edirdi. 1970-ci ildə onu həbs etdilər. Dilmanı 22 gün boyunca döydülər, işgəncə verdilər, elektrik cərəyanına qoşdular. Lakin o, təşkilat üzvlərinin adını vermədi. Dilma 2 il 2 aylıq həbs cəzasına məhkum olundu və 18 il müddətinə siyasi hüquqlardan məhrum edildi.

1972-ci ildə həbsxanadan çıxan Dilma on kiloqram zəifləmişdi və səhəttində ciddi problemlər yaranmışdı. Həbsdən çıxdıqdan sonra o, Porto Aleqredə yerləşdi və orada həbsxanada olan **Karlos Araujonu** ziyarət etdi. Dilmadan bir neçə gün sonra həbs edilən Araujo da 1974-cü ildə azadlığa buraxıldı. Azadlıqdan sonra hər ikisi "yalnız yaşamaq azadlığı"ndan azad olmaq qərarına gəlib evləndilər... 1977-ci ildə dünyaya gələn yeganə övladı, qızı **Paula** ona ikinci evliliyindən yadigardı.



## Siyasi kariyera yollarında



Dilma *Rio Grande do Sul Federal Universitetinin iqtisadiyyat bölməsinə* daxil oldu. Lakin artıq tələbə hərəkatlarında iştirak etmədi və təhsilini 1977-ci ildə başa vurdu. 70-ci illərin sonlarında Dilma ştatın iqtisadi














sahələrində işləyirdi. Onun siyasi fəaliyyəti isə tək leqal müxalifət partiyası olan "Demokratik Hərəkat"la bağlı idi. O, partiyanın Sosial və Siyasi araşdırmalar İnstutunda toplantılar təşkil edirdi. Sao Pauloda bir qəzet onu "ictimaiyyətə sızan 97 inqilabçıdan biri" adlandırırdı.

80-ci illərin əvvəllərində ikipartiyalı sistemin ləğvindən sonra Dilma və Karlos Araujo Leonel Brizola ilə birləşərək Demokratik İşçi Partiyasını təsis etdilər. Uğurlu siyasi ittifaq alınmışdı, artıq 1985-ci ildən etibarən Dilma bələdiyyə orqanlarında yer tuturdu. 1985-ci ildə o, Porto Alleqre bölgəsinin meri seçkilərində Karlos Araujo ilə birlikdə Alceu Collaresin seçki kompaniyasının böyük bir hissəsini öz üzərinə götürdü. Alceu Collares mer seçildikdən sonra Dilma Russeff Porto Alleqre ştatının bələdiyyəsində maliyyə işləri üzrə katib kimi öz kariyerasına başladı. Alceu Collares 1988-ci ildə vəzifəsindən ayrılan zaman Dilma Russefin bacarıqlı, dürüst və fəaliyyəti şəffaf bir şəxsiyyət olduğunu vurğulayırdı. 1990-cı ildə Alceu Collares qubernator seçildikdən sonra Dilma Russefi İqtisadiyyat və Statistika qrumuna rəhbər təyin etdi. 1993-cü ildə isə o, Rio Qrand do Sul ştatının Energetika və Nəqliyyat katibi vəzifəsinə təyinat alır. Alceu Collaresin səlahiyyə müddəti bitdikdən sonra Dilma Russef yenidən İqtisadiyyat və Statistika qurumuna qayıtdı.





1998-ci ildə Demokratik İşçi Partiyasının dəstəyi ilə Zəhmətkeşlər Partiyası Rio Qrand do Sul ştatında qubernator seçkilərini qazanır və Dilma yenidən ştatın energetika və nəqliyyat katibi təyin olunur. Artıq bir müddət sonra onun uğurlu fəaliyyəti ictimaiyyətin diqqətini və rəğbətini qazanmışdı. Onun dövründə əyalətin elektrik təchizatı və xidməti 46% artmışdı.

Dilmanın Zəhmətkeşlər Partiyasının lideri **Luiz İnacio Lula da Silva** ilə tanışlığı məhz bu dövrə təsadüf edir. Silva 2003-cü ildə prezident seçkilərini qazanınca Dilma Russeffi öz hökumətində Energetika naziri vəzifəsinə təyin edir. Praqmatik bir siyasətçi olan Dilma Russeff Braziliyanın enerji təminatını yaxşılaşdırmaq, enerji çatışmazlığını sürətlə həll etmək üçün özəl sektora böyük önəm verir. O, özəl sektorun xüsusi rol oynadığı enerji istehsalı siyasətini irəli sürür. Eyni zamanda, tutduğu vəzifə gərəyincə, özəl sektorla danışıqlarda dövlətin maraqlarını yüksək səviyyədə qoruyurdu. Dilma Russeff Petrobas neft axtarma platformalarının Braziliyada qurulmasına rəhbərlik edərək 30.000 yeni iş yerinin yaranmasına nail oldu. Neft axtarmada Petrobas tərəfindən istifadə edilən təchizatın 65%-i ölkə içərisində emal və istehsal edilməyə başlanıldı. 2003-cü ildə o, "Luz para Todos" ("Hər kəs üçün elektrik) proqramını irəli sürdü və həyata keçirməyə başladı. Proqram ilk öncə ölkənin şimal-şərq bölgəsi başda olmaqla o vaxtadək elektrik enerjisi ilə təmin edilməmiş 2 milyon kənd evini elektriklə təmin etməyi hədəfləyirdi. O, istədiyinə nail oldu. Bu, əslində, Braziliya üçün önəmli bir uğur idi və ictimaiyyət arasında onun nüfuzunu daha da artırdı. Dilma Russeff 2008-ci














ildə proqramı daha da genişləndirərək 2010-cu ilə qədər əlavə 1,17 milyon evin də elektrik enerjisi ilə təmin ediləcəyini bəyan etdi. Bir sözlə, Braziliyanın ucqar əyalətlərinin elektrik təchizatı ilə təmin olunması proqramı onun adı ilə bağlıdır. Seçimində yanılmadığını görən Luiz İnacio Lula da Silva 2005-ci ildə Dilma Russeffi daha yuxarı vəzifəyə - Prezident Administrasiyasının rəhbəri təyin edir. O, Braziliya tarixində bu vəzifəyə təyin edilmiş ilk qadın idi! Dilma Russeffin çətinliklərlə mübarizə və texnik problemləri sürətlə həll edə bilmə qabiliyyəti Prezident Lulanın seçimində xüsusi rol oynamışdı. O, sabiq Energetika naziri kimi, həm də Braziliyanın "Petrobras" neft şirkətinin Direktorlar Şurasının üzvü idi və ölkənin enerji təminatı ilə bağlı fəaliyyətini davam etdirirdi.

13 iyun 2010-cu ildə Dilma Zəhmətkeşlər Partiyasının prezidentliyinə rəsmi namizəd idi. Öz platforması kimi, o, mövcud hökumətin siyasətini davam etdirəcəyini səsləndirdi.

İctimai sorğunun nəticələrinə görə, nüfuz baxımından, əsas rəqibi, Sao Paolo ştatının qubernatoru **Joze Serranı** geridə qoymuşdu. Artıq səsvermənin ilk mərhələsində müşahidəçilər Dilma Russeffin qələbə qazanacağından əmin idilər. Dilma Russeff seçki kompaniyası zamanı əhali ilə görüşlərində prezident olacağı təqdirdə Latın Amerikasının ən







böyük ölkəsi olan Braziliyanın inkişaf açarı olan böyük infrastruktur layihələrini başa çatdıracağına, təhsil sistemini daha da inkişaf etdirəcəyinə, yoxsulluğu aradan qaldıracağına söz verdi. O həmçinin Prezident Lulanın 20 milyon Braziliyanı yoxsulluğun pəncəsindən xilas etmiş, milyonlarla iş yeri yaratmış, acınacaqlı vəziyyətdə olan infrastrukturun və məktəblərin inkişaf etdirilməsinə, sərbəst rəqabətə söykənən iqtisadi siyasəti zədələmədən sosial rifahın yüksəldilməsinə nail olunmuş sosial və iqtisadi proqramlarını davam etdirəcəyini də bəyan etdi.

**Braziliyada prezident seçkiləri 3 oktyabr 2010-cu ildə keçirildi.**

## Braziliyaya keçmiş partizan qadın rəhbərlik edir!

Həyat təzadlı səhifələri ilə insanları daima təəccübləndirir. Gənclikdə Dilma Russeff Braziliya diktaturasına qarşı mübarizə aparırdı. 3 oktyabr 2010-cu ildə isə o, Braziliyanın Prezidenti seçildi. Həm də, bu ölkənin **ilk qadın prezidenti!** Bolqar immiqrantının qızı Braziliyada nüfuz qazandı və xalq ona etimad göstərərək, özünə rəhbər seçdi!



**Dilma Russeff,** Prezident kimi ilk açıqlamasında xalqın etimadını yüksək dəyərləndirdiyini vurğulayaraq, bu sözləri dedi: ***"...Çox xoşbəxtəm. Braziliyalılara təşəkkür edirəm və mənə duyduqları etimada layiq olmağa söz verirəm."*** O, ölkədə yoxsulluğun ortadan qaldırılması istiqamətində verdiyi vədi yerinə yetirmək üçün yorulmadan çalışacağını bir daha bəyan etdi.

Ekspertlər Dilma Russeffin qələbə qazanacağına o qədər əmin idilər ki, Röyter agentliyinin xəbər verdiyi kimi, informasiya bazarı Braziliyadakı prezi-













dent seçkilərini hadisə kimi qiymətləndirmədi. 192 milyonluq Braziliya xalqının böyük hissəsi Dilma Russeffin qələbəsini təbii (gözlənən) olay kimi qarşıladı.

Dilmanın siyasi arenada sıçrayışında öncəki Prezident Luiz **İnacio Lula da Silva**nın onun namizədliyini dəstəkləməsi də böyük rol oynamışdı. Konstitusiyaya müvafiq olaraq, üçüncü dörd illik müddətə prezident seçilə bilməyən Lula da Silva Dilma Russeffi dəstəkləmişdi.

Keçmişdə ayaqqabı təmizləyicisi olan Lula da Silva 8 il Braziliyaya başçılıq etmişdi. O, bu ölkənin tarixində reytinqi 80%-i keçən ən ünlü prezidentdir. Braziliyanın ən populyar prezidenti olaraq bilinən Lulanın 8 illik iqtidarı dövründə ölkə iqtisadi böhrandan sürətlə çıxaraq dünyada siyasi və iqtisadi sahədə çox önəmli bir ölkə vəziyyətinə gəlmişdi. Ölkə içərisində bu qədər böyük nüfuza malik bir liderin dəstəklədiyi namizədin seçkilərdə qələbə qazana biləcəyinə heç kəsin şübhəsi yox idi.

Latın Amerikası üzrə *Oksford Tədqiqatlar Mərkəzinin direktoru professor* **Timoti Pauer** *"The Daily Telegraph" qəzetinə verdiyi müsahibəsində əlavə etmişdi ki, braziliyalılar xarizmatik sabiq prezidentin Dilma Russeffi dəstəklədiyini biləndən sonra onun daha qızğın tərəfdarı olmuşdular. Braziliyalıların çox hissəsi yaşam şərtlərinin yaxşılaşdığına görə Lula da Silvaya borcludur. Onun hakimiyyəti illərində əhalinin yoxsulluq səviyyəsi 50%-dən 25%-ə endi. Üstəlik,* ***Braziliya 2014-cü il Futbol çempionatını və 2016-cı il Olimpiya oyunlarını öz torpaqlarında keçirmək haqqını əldə etdi ki, bu braziliyalılar üçün hər hansı iqtisadi nailiyyətdən heç də az dəyərli deyildir.***

**Dilma Russeffin başçılıq etdiyi Braziliya inkişaf yolundadır. Buraya yerli və xarici yatırımçıların axını davam edir. Braziliya iqtisadiyyatı son 20 ildə görünməmiş sürətlə inkişaf edir.**

## Xanım liderin şəxsi həyatından fraqmentlər

2009-cu ildə Dilmada limfatik düyünlərin xərçəngi xəstəliyi aşkar edildi. Xoşbəxtlikdən xəstəlik hələ erkən mərhələdə idi. 4 ay xərçəngə qarşı kimyəvi üsulla müalicə aldı, nəticədə saçlarını itirdi. O vaxtdan Dilma Russeff pariklə gəzməyi öyrəndi.

**Dilma Russeff güclü qadındır. O, güclü olduğunu təkcə siyasi meydanda sübut etmədi, bu gün həm də seçicilərinə xərçəng xəstəliyinin öhdəsindən necə gəldiyini iftixarla danışır.**

Dilma tarixlə maraqlandığını, operanı çox sevdiyini deyir. Sevimli aktrisası **Fernanda Monteneqro**dur.

Dilma iş aludəçisi və adlı-sanlı mütəxəssis kimi ad çıxarmışdır, həmçinin səbirlə dinləmək qabiliyyəti onu başqalarından fərqləndirir. Lakin iş həyatında qazandığı uğurlar onu şəxsi həyatında müşayiət etmədi. Dilma 2000-ci ildə, ikinci həyat yoldaşı Karlos Araujodan da ayrıldı.









***

*Braziliya dedikdə, ağlımıza ilkin olaraq,* ***futbol, kofe*** *və* ***rəqs*** *gəlir desək, yanlış olmaz deyə düşünürəm. Biz qəhrəmanımızın futbol oynamağa, kofe içməyə və rəqs etməyə münasibətini bilməsək də, onun peşəkar siyasətçi olduğunu qəbul edirik. Və bir qadın siyasətçi olaraq daha çox insancıl bir kurs izləyəcəyinə (izlədiyinə) inanırıq. Necə ki, onun vədləri, öhdəlikləri də məhz bu yöndə fəaliyyət prioritetlərindən xəbər verirdi... Bu kursa (insancıllığa!) sadiqlik onun işıqlı simasından və simasına yansımış ruhundan da görünür məncə...*



*Üstəlik, o, adını* ***TARİXə*** *yazmağı bacarmış qadınlardan biri olaraq bir cığır açıb.* **Milyonlarla gənc qızı və qadını uğura səsləyən bir cığır...**







Linda Vaçner

# «Bunu indi et!»

- **Onu xaraktercə ən sərt kişi rəhbərlərinə bənzədirdilər.**

- **O, sərt, lakin ədalətlidir!**

**Linda Vaçner *(Linda Joy Wachner)*** bütün gənc qızların arzuladığı hər şeyə sahib oldu. O, gənc ikən xəyalında canlandırdıqlarını həyata keçirməyə nail ola bildi. Onun uğurlarının arxasında çox güclü enerji, möhkəm iradə və "A" kateqoriyalı işçi etikası dayanır. Linda Vaçner ***heç nəyə fikir vermədən yalnız irəliyə*** doğru addımlayırdı. İndi isə o, kişilərin çoxluq təşkil etdiyi bir sahədə nüfuzlu korporasiya rəhbəridir!

Dünyanın ən böyük və nüfuzlu beş yüz kampaniyasına nəzər salsaq onların sahibi olan çox az qadın görə bilərik. Linda Vaçner məhz gələnəksəl olaraq kişilərin meydanı sayılan biznesdə qadının nələrə qadir olduğunu nümayiş etdirdi! O, bunu öz qətiyyətliliyi, israrlılığı, məqsədyönlülüyü və tükənməz enerjisi sayəsində bacara bildi.

Hər şey Linda 11 yaşında gipsə düşdüyü vaxtdan başladı... Həmin vaxt Linda özünə söz verdi ki, nə vaxtsa şəxsi kampaniyasını yaradacaq. O, nəinki öz arzusunu həyata keçirdi, hətta ondan artığına nail oldu, belə ki, rəhbərlik etdiyi "Warnaco" indi Amerikanın ən nəhəng şirkətlərindəndir!

Xanım Vaçner uğura qıraqdan çox da önəmli görsənməyən kiçik bir yardım sayəsində nail olmuşdur. Onun arzusu vardı və o yorulmadan işləyir, arzusunu həyata keçirməyə can atırdı. Linda çoxlarından cəsarətli idi və qarşısına çıxan adamların çoxu iflasa uğramasının səbəbini anlamırdı. O, məqsədə doğru ildırım sürəti ilə gedirdi. Bu enerjili qadın öz işini məvacib-qiymət, vergi-gəlir, səhm-qazanc nisbəti üzərində qururdu. - Vaçner şöhrəti bu möcüzəli barometri ilə ölçürdü, onunla işləyənlər də bunu yaxşı bilirdilər.

"Fortune" jurnalının 15 yanvar 1992-ci il sayında Linda artıq "Amerikanın ən çox uğur qazanmış iş qadını" adlandırıldı! Ümumilikdə, 1991-ci ildə Linda Vaçnerin gəliri təqribən iyirmi üç milyon dollar təşkil edirdi. Bu mükəmməl rəhbər ciddi rəqabət şərtləri altında kampaniyaya başçılıq etməyi, onun işini kökündən dəyişdirməyi və alıcı bazarını cəlb etməyi bacaran ilk qadın oldu! "Warnaco"nun başçısı kimi, Vaçner kampaniyanın borclarını ödədi və səhmlərini 75%-ə qədər artırdı. ***O, qənaətlə yığdığı 10 milyon dolları dövriyyəyə buraxdı və 1993-cü ildə həmin məbləğ yetmiş iki milyon dollara qədər artdı.*** 40 il ərzində kiçik ticarətdən bu sahədə kariyeranın zirvəsinə qədər yüksələn Vaçneri, haqlı olaraq yaradıcı zəka hesab edirlər!

* * *

**Linda Coy Vaçner** 3 fevral 1946-cı ildə Nyu-Yorkda, Forest Hilzdə (valideynlərinin yaşlı vaxtında) dünyaya gəlmişdir. Atası **German**, Nyu-Yorkda xəz ticarəti ilə məşğul olurdu, anası **Şirli** isə evdar qadın idi. Linda ailənin ikinci övladı idi. Bacısı ondan 18 yaş böyük olduğundan ailənin bütün diqqəti ona yönəlmişdi. Lindanın ata-anasının onunla çox erkən yaşlarından böyük kimi rəftar etdiklərini deyirdi. Milliyyətcə yəhudi olan valideynləri onda çox dəyərli bir xüsusiyyət - özünəsaygı tərbiyə etmişdilər. Ailənin tək kiçik yaşlısı olduğu üçün Linda vaxtını böyüklərin əhatəsində, ya da tənhalıqda keçirirdi. Nəticədə o, müstəqil yaşamağı bacaran, heç kimin mənəvi dəstəyinə ehtiyacı olmayan bir şəxsiyyətə çevrildi. Ata-anası tez-tez onun nə qədər mükəmməl olduğunu, heç bir zaman səhv edə bilməyəcəyini deməklə, Lindaya özünəsaygı hissini təlqin edirdilər.



Lindanın on bir yaşı olanda sinif yoldaşlarından biri oturacağı onun altından çəkmişdi. Bu hadisə onun bütün həyatını dəyişdi. Özü bu barədə belə deyir: ***"Həmin bədbəxt hadisə nəticəsində onurğa sütunumda əməliyyat aparıldı və mən on üç yaşıma qədər gipsdə qalmalı oldum".*** Xəstəxanadan çıxdıqdan sonra Linda daha iki il hərəkətsiz qal-



dı. O, həmin günləri belə xatırlayırdı: *"Mən özümü çox tənha hiss edirdim, gələcəyi görəcəyimə əmin olmadan yalnız gələcək barədə düşünürdüm. Sonralar bəzən çox yorulanda hələ də üzərimdə həmin ağırlığı hiss edirdim."*

Vaçner uşaqlıqdan çalışqanlığı ilə seçilirdi. O, məqsədinə çatmaq üçün amansız gerçəkliyin tələb etdiyi hər şeyi edirdi. Beləcə o, irəliyə doğru addımlayırdı. Linda 16 yaşında orta məktəbi bitirdi və Bufalo Dövlət Kollecinə daxil oldu. İş administrasiyası sahəsi üzrə ixtisaslaşdı. İşləməyə həvəs Vaçnerdə hələ təhsil aldığı illərdə yaranmışdı, oxuduğu zamanlar o, tətildə Nyu-York univermağında işləyirdi. Təhsildən daha çox ictimai işlərdə fəallıq nümayiş etdirən Vaçner, həmçinin, dekan ofisində işləyir, imtahanlara nəzarət edirdi. Tennis oynamağı, xizəkdə sürüşməyi çox sevirdi.

Linda 1966-cı ildə, 20 yaşında olarkən kolleci bakalavr dərəcəsi ilə bitirdi və tikiş sənayesinə aid məhsulları pərakəndə satmaqla karyerasını qurmağa başladı. Amma bu, hələ az idi: "öz sahəsi"ndə karyera qurmaq kifayət deyildi. Linda uşaqlıq arzusunu - öz şəxsi şirkətini qurmaq istəyini həyata keçirmək üçün əlindən gələni edirdi.

Vaçner bütün yaradıcı insanlar kimi hər şeyi "sıfır"dan başladı. Onu Nyu-York ticarət şirkətinə həftədə 90 dollar müqabilində alıcı assistenti kimi götürdülər. **- Lindanın ilk "vəzifə"si, menecment dili ilə, bazarın öyrənilməsi üzrə nümayəndə olsa da, əslində o, buyruqları yerinə yetirən sıravi işçi idi.** Lindaya həvalə edilən ilk tapşırıq univermağın bir mərtəbəsinin daimi alıcılarının müəyyənləşdirilməsi olmuşdu. Bu, onun heç zaman unutmayacağı qiymətli bir təcrübə oldu, çünki iş əsnasında Linda alış-verişin əsas məqamlarını seyr edirdi. İlk işində Linda alıcı sorğusunun iş üsulunu mənimsədi və hansı məhsulun hansı şəraitdə yaxşı satıldığını müəyyənləşdirməyi öyrəndi.

1967-ci ildə Hyuston Foley univermağının açılışında iştirak etmək və orada alıcı assistenti olmaq üçün Vaçner böyük bir məsafə qət etməli oldu. O yenə də vaxtının çoxunu univermağı öyrənməyə və alıcıların ehtiyaclarını müəyyən etməyə sərf etdi. Tədricən o, ilyarım vaxt ərzində istifadəçi sorğusu üzrə ekspert kimi təcrübələrini təkmilləşdirdi. 1969-cu ildə "Macy`s" şirkəti Vaçneri alt paltarları satıcısı kimi işə götürdüyü üçün o, yenə də Nyu-Yorka qayıtdı. Artıq öz sahəsində Linda Vaçnerin - həyatı təkərlər üstündə keçən gənc xanımın adı hallanmağa başlamışdı, belə ki, o, yeni tapşırıqları tərəddüdsüz alır və heç bir işi yerinə yetirməkdən çəkinmirdi. O, hər işi öz məqsədinə gedən yolun qaşınılmaz aşamaları kimi qəbul edir, onu hədəfindən ayıran (yaxınlaşdıran!) Zaman və Məsafədən qorxmurdu... Vaçner özünün ilk məqsədlərindən birinə 22 yaşında çatdı: o, Manhettenin 34-cü küçəsində yerləşən "Macy`s" univermağının topdansatış üzrə ən gənc əməkdaşı oldu. 1969-cu ildən 1974-cü ilə qədərki beş il ərzində Vaçner "Macy`s" univermağının geyim əşyaları üzrə eksperti kimi çalışdı.

"Macy`s"dakı işi ilə bağlı Mayamidən Nyu-Yorka uçan Linda, gələcək həyat yoldaşı **Seymur Appelbaumla** tanış olur. Bu tanışlıq onların ailə həyatı qurmasına gətirib çıxarır. Appelbaum Vaçnerin həyat bələdçisi olur. O, indiyə qədər həyat yoldaşını çox böyük ehtiramla xatırlayır: "Həyat yoldaşım ilk şəxs idi ki, qarşıya qoyduğum bütün məqsədlərə çatacağıma inanırdı. Mən bu barədə düşündüm və ona inanmaq qərarına gəldim."



Appelbaum Vaçneri karyera qurmağa həvəsləndirirdi. 1974-cü ildə Vaçner "Warnaco" şirkətində işə girdi. O, qadının biznesdə rolu barədə təsəvvürləri alt-üst edərək, 1975-ci ildə şirkətin tarixində ilk qadın vitse-prezident oldu. Şirkətin prezidenti yeni vəzifəyə təyin etdiyi zaman: *"Siz xidmətdə kifayət qədər irəlilədiniz. Bundan artığını gözləməyin!"* demişdi. Prezident Vaçnerə eyhamla bildirdi ki, qadın-rəhbər kimi o, bu vəzifədən yuxarı qalxa bilməyəcək. Lakin belə



məhdudiyyət Linda üçün deyildi. On bir il sonra rəqabət nəticəsində şirkətin rəhbərinə çevrilən Linda "intiqam"ını alacaqdı...

Vaçner "Warnaco"da reklam şirkətinin müdiri **Meri Uelslə** tanış oldu. "Warner" firmasının hesablarını müstəqil şəkildə idarə edən Uels sadə makinaçılıqdan Medison-Avenyunun zirvəsinə qədər gəlmişdi. Məhz bu özəlliyinə görə o, Vaçnerə bənzəyirdi. Vaçner kimi o da açıq sözlü, sərt və inadkar idi. Biznes sahəsində Vaçnerin bələdçisi olan Uelsi o, həyatına düşən ilk işıq hesab edirdi: ***"O, mənim gələcəyimə inananlardan idi."*** Belə də oldu. Uels Linda Vaçneri "Max Factor" şirkətinin təsisçisi, "Norton Simon"un sədri **Devid Mahouniyə** təqdim etdi. 1979-cu ildə Mahouni 33 yaşlı Vaçnerə, "Max Factor" şirkətinin əsas ofisi - Los-Ancelesdə yerləşən Amerika bölməsinin prezidenti vəzifəsini təklif etdi. Çoxmilyonlu kapitala malik şirkətə rəhbərlik etmək üçün bu... çox gənc yaş idi. Üstəlik, Vaçnerin prezidentlik təcrübəsi də yox idi. Bununla belə, yeni vəzifə onun arzularının açarı oldu. Vaçnerin fikrincə, bu, onun biznes aləminə nüfuzlu şəxs kimi daxil olmasında həqiqi sıçrayış oldu. Vaçner deyirdi: ***"Mənə bir çox insan kömək etdi. Lakin Devid Mahouni məni "Max Factor" şirkətinin prezidenti təyin etdi, bu, böyük nailiyyət idi."***

## Xanım Vaçnerin *"Max Factor"* yürüyüşü

*"Max Factor"* şirkətinin ildə 16 milyon dollar kəsiri olurdu. Vaçner başladığı ilk iş ilində geriləməni dayandırdı, ikinci ildə isə itkini 5 milyon dollara qədər azaltdı! Növbəti iki ildə o, sözün əsl mənasında, qəhrəmanlıq göstərərək, durumu dəyişdi: Gündən-günə artan kəsir gündən-günə artan gəlirə çevrildi! Şirkət *"Max Factor"*un 1984-cü ildə üç ödül alan "Le Jardin" yeni ətirini alıcılara təqdim etdi. Vaçner idarəetmə sistemində etdiyi dəyişikliklər və möhkəm xarakteri sayəsində uğur qazanmışdı. Şirkət heyətini köhnə işçilərdən kütləvi şəkildə təmizlədiyinə görə ona **"Baltalı qadın"** ləqəbi verilmişdi...





Məhz "Max Factor"da işlədiyi dövrdə Linda Vaçner menecment sahəsinə aid özünün **"Bunu indi et!"** prinsipini tətbiq etməyə başladı. Onun fikrincə, hər rəhbərin bir məktəbli kimi, problemləri və yeni imkanları qeyd edəcəyi gündəliyi olmalıdır. "Bunu indi et!" prinsipi şirkətin əsas şüarına çevrildi və bütün ofislərinin xatirə lövhələrinə yazıldı. "Max Factor"da işləyərkən o, sərt təlimatlar verən və hər bir şeyə ciddi nəzarət edən rəhbər kimi tanınırdı. Vaçner onun arxasınca nə deyəcəklərindən qorxmurdu. Bəziləri onu bacarıqlı hesab edir, digərləri gördükləri "ən pis menecer" adlandırırdı. Vaçnerin iş üslubunun qurbanlarından biri deyirdi: ***"Onun xarakteri ən sərt kişi-rəhbərin xarakterinə bənzəyir."***

"Max Factor" şirkətindəki işi barədə Vaçner özü: ***"Şirkəti iflasdan qurtarmaq üçün onu kökündən dəyişmək istəyirsinizsə, sərt, lakin ədalətli olmalısınız"*** deyirdi. Vaçnerin iş üslubu - işə son dərəcə dəqiq ümumi nəzarətdən ibarətdir. Onu nəticə maraqlandırır. Əgər nəticə onu qane etmirsə, buna görə məsuliyyət daşıyan əməkdaş dərhal işdən azad olunmalıdır.



"Max Factor"dakı fəaliyyəti Vaçnerə kapital yığmaq, həyatının mənası olan şəxsi şirkətini yaratmaq üçün əməliyyatları öyrənmək işində təcrübə qazanmaq imkanı verdi. Vaçnerin qəlbində bəslədiyi arzu 1984-cü ildə həyata keçdi. O, şirkəti almaq üçün Nyu-Yorkdakı investisiya şirkətindən 280 milyon dollar götürməyə nail oldu. Buna etiraz edən Direktorlar Şurası satış qərarını ləğv etdi. Vaçner istefa verdi. O, səhmlərin nəzarət paketini əldə etmək üçün bu əməliyyatı müstəqil şəkildə həyata keçirməyi qərara aldı. Vaçner və daha iki investisiya şirkəti "Rev-



lon" şirkətinin səhmləri üçün 905 milyon dollar təklif etdi. Sövdələşmənin baş tutmasına az qalmışdı ki, "Pantry Pride" şirkətinin rəhbəri Ronald Pelmen onları qabaqladı və "Revlon"u 1,8 milyard dollara satın aldı. Lakin Vaçner geri çəkilmək istəmirdi. O, "Drexel Burnum Lambert" bank investisiya şirkətini "Warnaco"nu almaqda ona kömək etməyə razı saldı. Beləcə o, şirkətin sadə satıcısından vitse-prezidentinə qədər yüksəldi. Vaçner 500 milyonu şirkətin borcunun ödənməsi hesabına başa gələn 550 milyon dollarlıq səhmə sahib oldu. Bu hərtərəfli düşünülmüş addım idi...

Belə ticarət hələ görünməmişdi, ilk dəfə idi ki, "Fortune" jurnalının reytinqinə görə 500 nəhəng şirkətdən birinin nəzarət paketinin sahibi qadın idi. Vaçner riskli bir işə başlamışdı: gələcəkdə hərəsi 4,66 dollar dəyərində daha 1,3 milyon səhmin alınmasını nəzərdə tutan razılaşma ilə birlikdə şirkətin 770 min səhmini almaq üçün bütün sərvətini - 10 milyon dollarını ortaya qoymuşdu. ***"Mən malik olduğum hər şeylə risk etdim. Çünki o şirkəti almalı idim. Mən bütün pullarımı konveyerə qoydum"*** - Linda "Ms" jurnalına müsahibəsində deyirdi.

Vaçner kampaniyanı aldı, rəhbərlik etdiyi növbəti beş il ərzində məhsulun həcmini 30%-dək, qazancını isə 145%-dək artırdı və bu hesabla da borcunu 40%-dək azaltdı. 1991-ci ilin oktyabrında o, yenə də səhm aldı. Çox keçmədi ki, Vaçnerin 25 dollara aldığı səhmlərin qiyməti 35 dollara qalxdı. Nəticədə bu riskli iş ona mənfəət qazandırdı. Vaçner qoyulmuş sərmayənin cəmi 10%-ni təşkil edən sərvəti ilə risk etmişdi. 1993-cü ildə onun gəliri 100 milyon dollara çatdı. Lindanın ildə 3 milyon dollar gəlir əldə etməsinin səbəbi o idi ki, o, hələ də möcüzəvi iş tərzini davam etdirirdi. Onun ailəsi yox idi, lakin çəkinmədən bildirirdi ki, şirkət onun ailəsidir. 1992-ci ildə "Cosmopolitan"a verdiyi müsahibəsində şəxsi həyatı barədə suala Vaçner belə cavab verir: ***"Biznesin mənim həyatımda birinci yerdə dayandığını qəbul edən şəxsi tapmaq qeyri-mümkündür."***





* * *

Vaçner "Warnaco"nun məhsullarının və əməkdaşlarının qoruyucu mələyinə çevrildi. Şirkətin gəlirinin 60%-ni alt paltarlarının, 32%-ni kişi geyimlərinin və 8%-ni müxtəlif ticarət məhsullarının istehsalından gələn qazanc təşkil edirdi. "Warnaco"nun məhsulları yaxşı tanınır, çünki onlar "Valentino", "Scaasi", "Ungaro", "Bob Mackie", "Blanche", "Fruit of the Loom" şirkətlərinin, həmçinin "Warner & Olga" alt paltarı şirkətinin sifarişlərini qəbul edirdi. Kişi geyiminin istehsalı "Christian Dior"run, gödəkçələr "Hathaway", "Chaps"ın, idman geyimləri "Golden Bear", "Puritan" və "Valentino"nun idi. (Şirkət özəl şirkətlər üçün də geyim istehsal edir.)

Linda Vaçner öz məqsədinə çatdı. "Fortune"jurnalının reytinqinə daxil olan şirkətlərdən birinə o, 45 yaşında rəhbərlik etməyə nail oldu. İndi o, tarixə şirkət rəhbəri olaraq düşmüş üç qadından biridir: Meri Key Eş ("Mary Kay Cosmetics"), Ketrin Qrehem ("Washinghton Post") və Linda Vaçner ("Warnaco").

Linda Vaçnerin növbəti hədəfi sərfəli qiymətə malik geyim istehsal etməkdir. Bu, onun sözləridir: "Geyim əldə etmək də koka-kola almaq kimi asan olmalıdır." Bu, zəhmət tələb edən, lakin zəhmətə dəyən bir işdir. Səhmdarlar da Linda Vaçnerin tərzini bəyənirlər, çünki o, hər zaman gərəkli işlər haqqında danışır, məsələn, vergi verdikdən sonra qalan gəlir barədə.

**Gipsdə olarkən, balaca Linda özünə söz vermişdi ki, nə vaxtsa o, Triboro körpüsündən təcili tibbi yardım maşını ilə deyil, şəxsi kadillakında keçəcək. Linda verdiyi sözü yerinə yetirmək üçün yaşadı. İndi o istəsə, limuzin istehsal edən şirkəti ala bilər.**

Vaçner tərzi "patoloji nəzarət"in klassik örnəyidir. Rahat olması üçün onun ətrafda baş verən hər bir şeydən xəbəri olmalı, şirkətin bütün işlərinə nəzarəti özü həyata keçirməlidir. Uşaqlıqda keçirdiyi tənhalıq və özünə qapanma sonralar onda şöhrət qazanmaq istəyinə çevrilmişdir. Onun özünü qiymətləndirməsi biznes sahəsindəki uğurlarına bağlıdır. Nəyin bahasına olur-olsun udmaq istəyən Vaçner, bu tip

insanlara xas olan "sürət xəstəliyi"nə tutulmuşdur. Tez-tez da-nışmaq, cəld hərəkətlər etmək, hətta yeməyi də sürətlə yemək Vaçnerin tərzidir. Sakitlik onun üçün deyil. Nitqi qısa və konkret olur. Vaçner məzuniyyətə çıxdıqda və yaxud sadəcə televizor izlədikdə özünü günahkar hesab edənlərdəndir. O, televizor seyr etməklə iş jurnalının yoxlanmasını bir araya sığışdırır, sahildə günəş şüalarını isə şirkətin büdcəsi üzərində işləməklə qəbul edir. Vaçner həmişə tələsir, hətta yerində oturduqda belə...

Vaçner işlərini ofisdə başa çatdırmağa çalışırdı, lakin iş o yerə çatmışdı ki, ümumiyyətlə, ofisi tərk etmək istəmirdi. O deyirdi: ***"Artıq evə özümlə iş aparmıram, işlərimi bitirənə qədər kabinetimdə oluram. Məsələ burasındadır ki, bəzən, ümumiyyətlə, ofisdən getmirəm."***

Xanım Vaçner dedi-qodu etməyi xoşlamır, gərəksiz söhbətlərdən qaçır. Bütün görkəmli şəxsiyyətlər kimi, o da yalnız qələbə əzmi ilə yaşayır. Düzdür, biznes sahəsində o, rəqəmlərlə işləsə də, istehsalın yaxşı gedib-getmədiyini intuisiya ilə hiss edir.

Vaçner yeni açılmış müəssisələrin ehtiyac və imkanlarına anlayışla yanaşır. Yeni-yeni zirvələr fəth etmək ona xüsusi zövq verir. O, hətta özünün riskə olan marağına meydan oxuyaraq, təyyarə sürməyi də öyrənmişdir. Lakin Manhettendəki ofisində oturan Linda Vaçneri pilotluq həvəskarı hesab etmək olmaz. O, çağdaş bir şəhərdə şirkət rəhbəridir, onun biznesdə və həyatda hərəkət tərzi möhkəm iradəli və dözümlü olmaqdır. Məhz bu özəlliklər ona kişilərin hakim mövqe tutduğu sahədə uğur qazanmağa imkan vermişdir. Linda Vaçner başqalarının hisslərinə önəm vermr, çünki qarşısına qoyduğu məqsəd hər şeydən üstündür. *(Vaçnerin zəif nöqtəsi də vardır: çalışan qadınlara qarşı özünəməxsus mərhəmət hissi onun sərt görkəminə bir qədər yumşaqlıq qatır. Bəzən o, şirkətin uşaqlı qadın işçilərinin əmək haqqını uzadılmış iş günlərində artırır.)*

* * *

Vaçner karyeranı hər şeydən üstün tutan tipik yaradıcı şəxsiyyətdir. O, peşəsi xatirinə analıqdan da imtina etmiş, 1983-cü ildə həyat





yoldaşı vəfat edəndən bəri "Warnaco"dakı fəaliyyətini hər kəsdən və hər şeydən üstün tutmuşdur. Linda Vaçner 59 yaşı Seymur Appelbaumla ailə həyatı quranda 27 yaşın içindəydi. Appelbaum onun həyat yoldaşı, sevgilisi, ən etibarlı dostu - bir sözlə, ona ən yaxın bir adam idi. Lindadan 31 yaş böyük olan Seymur Appelbaum 1983-cü ildə, 71 yaşında vəfat etdi. Sonralar ailə qurmadığına görə təəssüf hissi keçirirdi. Evlilik illərdə Linda həyat yoldaşının həmişə ürək ağrısından əziyyət çəkdiyinin şahidi olurdu. Linda, ***"Həmişə düşünürdüm ki, xəstə atanın övladının olması doğru olmaz. Mən necə də yanılmışam! İndi həyatı paylaşdığım bir övladım olsaydı çox yaxşı olardı!"*** -deyirdi. Və 1992-ci ildə "Working Woman" jurnalına verdiyi müsahibədə analıqdan imtina etməsinin səbəbini belə açıqlayırdı: "Düşünürəm ki, mənim həm uşaq tərbiyə edib, həm də bizneslə məşğul olmağa kıfayət qədər vaxtım olmazdı."

Vaçner 1990-cı ilin iyununda çıxan "Cosmopolitan" jurnalına verdiyi müsahibədə öz həyat fəlsəfəsini qısaca şərh etməyə çalışdı: "Mənə elə gəlir ki, mən şirkəti öz ailəm etmişəm." O, həmişə öz işinin düşgünü olmuşdur. Linda demək olar ki, yatmırdı və o qədər işləyirdi ki, kıminləsə vaxt keçirmək, əylənmək yadına belə düşmürdü. Sadiq qaldığı bir ənənəsi vardı - Milad bayramında və Şükran günündə xizəklə sürüşmək. O, bütün yeni iş ortaqlarına: ***"Biznes hər şeydən əvvəldir"*** deyir.

Lindanın 23 yaşında ikən atasını, 1981-ci ildə yeganə bacısı Barbaranı, nəhayət, 1987-ci ildə anasını itirdi.

Bu zəhmətsevər şəxsiyyət qələbəyə olan inamı sayəsində yüksək zirvələri fəth etdi. O, yalnız qələbə qazanmaq üçün yaşayır, hisslərinə aldanmır və rəqiblərinə fürsət vermir. Uğur qazanmış rəhbər və zəngin qadın imicinə malik olan Vaçnerin uğurları onun düşmənlərinin sayını artırdı. Keçmiş şirkət rəhbərlərindən biri deyirdi: ***"Linda qarşısına çıxan hər kəsi "əzib keçdi". O, finiş lentinə birinci çatmaq üçün ağıla gələn hər şeyi edər".*** Korporasiyadakı ilk rəhbəri isə onu belə səciyyələndirirdi: ***"O, sözünü birbaşa deyir. Mənə elə gəlir ki, onun açıqsözlülüyü və dürüstlüyü insanları qorxudur."***




## Xanım işadamı haqqında daha bir neşə söz

Başladığı hər bir işi çox asan və mükəmməl şəkildə yerinə yetirən Vaçnerin biznes aləminə böyük təsiri oldu. Onun bayram və bazar günlərini də daxil etdiyi iş tərzini çoxları başa düşmür. Vaçnerin uğurları ona zənginlərə xas olan vərdişləri həyata keçirməyə imkan verdi: o, xizək sürmə fanatıdır; Aspendə (Kolorado) çağdaş kottecləriin sahibidir; Los-Ancelesdə və Nyu-Yorkda evləri var.

Qeyri-adi iş planına malik olan Linda Vaçner onun qarşısıalınmaz tempinə uyğunlaşa bilməyən rəhbərlərə acımır.

İllik gəlirinin 3 milyon dollar olması Vaçneri Amerikanın ən yüksək maaşlı rəhbərlərindən biri və dünyanın ən yüksək maaşlı rəhbər-qadını etdi. Vaçnerin 23 milyon dollarlıq gəliri 1991-ci ildə Uol-Stritin rəhbərliyini heyrətə saldı. O, keşməkeşli həyat yolunda çətinliklərlə qarşılaşdı, zərbələr aldı, lakin bu, onun məqsədə çatmaq istəyinin qarşısını ala bilmədi.

***Məqsədə çatmağın həzzi, görünür, ancaq həyatında bunu bacarmış adamlara tanışdır! Əziz oxucum, bu tanışlıq üçün - məqsədə çatmaq üçün xanım Linda Vaçnerin həyatı ilə tanışlıq bəlkə də sənin həyatında bir rol oynadı...***








**«HƏR ŞEY UNUDULUR»**
**amma**
**«HEÇ NƏ YADDAN ÇIXMIR»**

- O, tibb elminə böyük töhfələr verməklə, fizologiya və təbabət üzrə Nobel ödülünə layiq görülməklə (2004) adını dünya tarixinə yazdı!
- O, Nobel ödülünə **"İybilmə reseptorları və iybilmə orqanlarının sensor sistemlərinin təşkilinin uğurlu tədqiqinə"** görə layiq qörülüb!
- Bu böyük ALİM, İCTİMAİ-SİYASİ XADİM, Amerika bioloqu Linda B.Bakdır!

**Linda B.Bak** (Linda B. Buck) soyuq bir qış günündə - 29 yanvar 1947-ci ildə Sietldə(Seattle), Vaşinqtonda elektrik mühəndisi ailəsində doğulub. Onun valideyinləri XIX yüzilin sonlarında ayrı-ayrı ölkələrdən Amerikaya gəlmiş mühacirlərdir. Anası İsveç mühacirlərindən, atası isə İrlandiyadan gəlmişdi. Orta məktəbi bitirən kimi Linda Sietldə Corc Vaşinqton adına Universitetin eyni vaxtda iki fakültəsinə (mikrobiologiya və fiziologiya) daxil oldu və universiteti 1975-ci ildə uğurla bitirdi.









Ali məktəbi bakalavr dərəcəsi ilə bitirən Linda Bak, immunologiya üzrə doktor dərəcəsini 1980-ci ildə Texas Universitetində, Dallasdakı Güney-Qərb Tibb Mərkəzində alır. Müxtəlif universitetlərdə, laboratoriyalarda çalışan Linda Bakın əldə etdiyi nailiyyətlərin sırası çox genişdir. O, öz doktorluq işini müdafiə etdikdən sonra üzərində işlədiyi elmi işi **Riçard Aksellə** (Rijhard Axel) birgə Kolumbiya Universitetində hazırladı. **Fəlsəfə doktoru, bioloq Linda Bakın İybilmə sistemi üzərində apardığı iş ona dünya şöhrəti qazandırdı.**



1991-ci ildə dərc edilmiş önəmli işlərində xanım Bak və Aksel iybilmə reseptorlarını klonlaşdırırlar və onların *"G protein reseptorları"* (G protein-coupled receptors) ailəsinə aid olduğunu sübut edirlər. Siçovulun DNK-sını analiz edərək onlar belə bir qənaətə gəlirlər ki, məməlilərə aid olan genomda iybilmə reseptorları üçün təxminən minə qədər müxtəlif gen mövcuddur.

Bu tədqiqat iybilmə mexanizmlərinin genetik və molekulyar analizinin üzünə qapı açdı. Sonrakı işlərində Linda Bak və Riçard Aksel reseptorun hər bir iybilmə neyronunun yalnız reseptorun iybilmə zülalının bir növünü əks etdirdiyini və həmin reseptoru əks etdirən bütün neyronlardan olan çıxışın iybilmə şişinə yığıldığını göstərdilər.

## Qocalma mexanizmlərini və uzunömürlülüyü öyrənən alim

Onda tədqiqatlara ilkin maraq, feremonların və ətirlərin burunda aşkar edildikləri və onların beyində necə təsvir edildiklərini öyrəndikdən sonra yaranmışdır. O, həmçinin qocalma mexanizmləri və uzunömürlülük problemləri ilə də məşğul olub. O, **Fred Hatçinson** (Fred Hutchinson) adına Mərkəzə gəlməzdən əvvəl Harvardın Hərbi Tibbi Mərkəzində neyrobiologiya üzrə professor vəzifəsində çalışmışdır.

**O, Nobel ödülünə 2004-cü ildə (Riçard Aksellə birgə) "iybilmə reseptorları üzərində işlərinə görə" gərəkçəsi ilə, fiziologiya və təbabət üzrə layiq görüldü.**

** Feromonlar-heyvanların ekzokrin vəzlərinin (yaxud xüsusi hüceyrələrin) yaratdığı kimyəvi maddələrdir; bu fərdlər vasitəsilə xarici mühitə çıxmaq və həmin növdən olan digər fərdlərin davranışına, bəzən isə boyuna və inkişafına təsir etmək mümkündür. Feromonlar özəlliklə həşəratların həyatında önəmli rol oynayır. Həşəratların koloniyasının tərkibini və onun üzvlərinin spesifik fəaliyyətini tənzimləyir. Feromonlar və onların kimyəvi analoqları ziyanverici həşəratlara qarşı mübarizədə istifadə edilir.*

*** Odorant (latın sözü olan odor - qoxu (iy) sözündən götürülüb) - xarakterik qoxu vermələri üçün qaza və ya havaya əlavə edilən maddədir. Odorant bir qayda olaraq tərkibində sulfid olan birləşmədir. Tərkibinə görə odorantlar merkaptanlara (etilmerkaptan, kalodorant və s.) və sulfidlərə (duetilsulfid, dimetilsulfid və s.) bölünür. Məişət qazının odorlaşdırılması onun sızmasını müəyyən etmək imkanı verir*









Bu alimlər iyləri alaraq protein yaradan genlər ailəsini kəşf etmişlər. ***İnsanlar və ümumilikdə məməlilər minlərlə müxtəlif dad və iyi aşkar edə bilirlər. Onlar reseptorlara müəyyən kimyəvi reaksiyaları və fizioloji təsirləri stimullaşdırmaqla feremonlar kimi təsir göstərirlər. İybilmə sisteminin həlletmə bacarığı güclüdür. Hətta odorantın strukturunda azca dəyişiklik ətrin qəbul edilməsini dəyişdirə bilər, məsələn, sitrus ətrindən tər qoxusunadək...***

Məməlilər bu qədər böyük miqdarda qoxuları necə aşkar edə bilirlər və beyin onların xüsusiyyətlərini necə qavramaya çevirə bilir? -Bu sualları tədqiq etmək üçün Linda Bak molekulyar və genetik vasitələrin vəhdətindən istifadə etmişdir. İlk öncə, molekulyar səviyyədə bir sıra reseptorlar müəyyən edən alim sonra reseptorların beyinlə əlaqəsini tədqiqata cəlb etmişdir.

## Onun tədqiqatının "özünəməxsus elmi sirləri"

***Tədqiqatların nəticələri 1000 reseptorun on minlərlə rəngarəng qoxuları necə ayıra bilməsini izah edir.*** Linda Bak və həmkarları hətta odorantın kimyəvi strukturunda cüzi dəyişikliklərin reseptorların müxtəlif kombinasiyalarının aktivləşməsinə

gətirib çıxartdıqlarını göstərirlər. Məhz buna görə də oktanolun qoxusu sitrus rayihəsi haqda fikirləşməyə vadar edirsə, oktan turşusunun oxşar birləşdirmə qoxusu isə daha çox tər iyini xatırladır. Həmçinin aşkar olunmuşdur ki, maddələrin böyük miqdarı reseptorların böyük toplumuna təsir göstərir. Əgər bir və həmin maddənin konsentrasiyası nəzərəçarpan dərəcədə fərqlənirsə, bu onun qəbuledilmə variasiyasını izah edir. Məsələn, ***indol yüksək konsentrasiyada çürüntü iyi verir, onun yüngül rayihəsi isə çiçək ətri yaradır.***



Məməlilərin ayrı-ayrı neyronları odorant toplumu ilə və kalsium ionlarının yerləşməsini müəyyən etməyə imkan yaradan üsulun köməkliyi ilə işlənmişdir və bunun sayəsində tədqiqatçılar əsəb hüceyrələrinin konkret odoranta cavab olaraq necə stimullaşdığını görə bilirdilər. Odorant molekulu öz reseptoruna bağlanan zaman əsəb hüceyrələri buna kalsium kanallarının açılması ilə reaksiya verir, bu zaman kalsiumun ion axını hüceyrənin içərisinə yönəlir. Sonra bu axın







əsəb siqnalı kimi akson üzrə ötürülən elektrik cərəyanına çevrilir.

İşlənmiş üsul kalsiumun ion axınının miqdarını ölç-



mək imkanı verir. Onun köməkliyi ilə iybilmə sistemindəki qoxuların kodlaşdırılmasındakı kombinator sxemindən istifadə olunduğu müəyyən edilmişdir.

***O, Sietldə Fred Hatçinson adına Onkologiya Mərkəzinin elmi tədqiqat şöbəsində çalışırmaqla yanaşı, eyni zamanda, Vaşinqton Universitetində və Howard Hughes adına Elmi Tədqiqat Tibb İnstitutunda fiziologiya və biofizika üzrə professor vəzifəsini də daşıyır.***

***Xanım alim həmçinin 2004-cü ildə ABŞ-ın Milli Elmlər Akademiyasında ixsisasına uyğun vəzifəyə təyinat alıb.***

Linda Bakın laboratoriyası burun nahiyəsində reseptorların aşkarladığı ətri və feremonların beyin tərəfindən hansı şəklə salındığını və qavrandığını tədqiq edir. Dediyimiz kim, o və həmkarları həm də qocalmaya səbəb olan mexanizmləri və ömrün uzadılmasını tədqiq edirlər ki, bu da alimin **ELM VƏ İNSANLIQ** adına daha böyük düşüncələrindən, səylərindən xəbər verir.

Bu böyük alim, şəxsiyyətli ziyalı bəşəriyyət üçün misilsiz çalışmalarını bu gün də davam etdirir və öz əzmkarlığı ilə seçilir.

O, milyonlarla insanın qəlbinə işıq salmaqda davam edir, milyonlarla insanın sağlamlığı üçün gününü laboratoriyalarda, masa arxasında,



bir sözlə Elmdə, Elmə, İnsanlığa xidmətdə keçirir.

Adını tarixə yazmış bu alim qadının kəşfləri onun ömrünü də sonsuzluğa qədər uzadacaq! ELM və BƏŞƏRİYYƏT heç zaman fədakarlıqları unutmur və cavabsız qoymur. Linda Bak adı yüzillər sonra da bu günkü qədər təzə-tər xatırlanacaq, yad ediləcək, sayğı ilə anılacaq...

**"Hər şey unudulur, qoxunuz əsla" fikrini ömrünü qoxubilmə reseptorları və qoxubilmə orqanlarının sensor sistemlərinin təşkilinin tədqiqinə sərf etmiş alimin əməllərinə şamil edərək demək istərdim: "Hər şey unudulacaq, alın təri axıtdığınız Elmi yenilikləriniz, fədakarlığınız əsla!"**





# Şirin Ebadi

## İlk «NOBEL»li müsəlman qadın





## İranın oyandığına inanan, İnqilab və inam haqqında şəhadət və dəlillər gətirən cəsur qadının yaşam öyküsü

- **O, İranda yerli məhkəməyə (Tehran şəhər məhkəməsinə) rəhbərlik edən ilk qadın hakim olub!**
- **O, bütövlükdə İranda ilk hakim qadın kimi adını tarixə yazıb!**
- **O, Nobel ödülünə layiq görülmüş ilk müsəlman qadındır!**

***“İnsan haqları, özəlliklə, İranda qadın və uşaq hüquqları uğrunda demokratıyanın inkişafı naminə apardığı mücadiləyə görə”*** Nobel ödülünə layiq görülmüş bu cəsarətli, qorxmaz, ağıllı, prinsipial qadın, bütün dünyada tanınmış ünlü insan haqları müdafiəçisi, hüquqşünas, adını TARİXə əbədiyyən yazmağı bacarmış **Şirin Ebadidir!**



Onun 2006-cı ildə





yazdığı ***“İran oyanır: İnqilab və inam haqqında şəhadət və dəlillər”*** *(Iran Awakening: A Memoir of Revolution and Hope)* əsərini böyük maraqla oxumuşdum. Əslində bu cəsarətli qadının bütün kitabları, o cümlədən 2000-ci ildə nəşr olunan ***“İranda insan hüquqları tarixi”*** *(History and Documentation of Human Rights in Iran)*, ***“Uşaq hüquqları. İranda uşaq haqlarının araşdırılmasının hüquqi aspektləri”*** *(The Rights of the Child. A Study of Legal Aspects of Children's Rights in Iran)* adlı kitabları da sözün əsl anlamında, oxunmağa dəyər kitablardır. Adıkeçən əsərlər İranı daha yaxından tanımaq, orada insan haqları sahəsində durumu görmək üçün çox maraqlı araşdırmalardır.

Gəlin Şirin Ebadinin “özkeçmiş”ini onun özünün söylədiklərindən öyrənək: ***“Mən 1947-ci il Həmədan şəhərində doğulmuşam. Valideynlərim ali təhsilli ziyalı və İslam dininə etiqad edən insanlar olmuşlar. Mən dünyaya gələndə***











*atam Məhəmməd Əli Ebadi Həmədan şəhəri Notarial İdarəsinin rəisi vəzifəsində çalışırdı. O, ticarət hüququ üzrə ilk professorlardan biri və bir neçə kitabın müəllifi idi. Atam 1993-cü ildə dünyasını dəyişdi.*

*Mənim ali təhsilli iki bacım və bir qardaşım var. Onlar kimi mən də uşaqlıqda qayğı və sevgi ilə əhatə olunmuşam. Anam bütün həyatını bizim tərbiyəmizə sərf etmişdi. Bir yaşım olanda ailəmlə Tehrana köçdük və o vaxtdan sonra paytaxtda yaşamağa başladım. İbtidai təhsili Firuzkuhi məktəbində aldım və sonra isə təhsilimi orta məktəbdə davam etdirdim. 1965-ci ildə Tehran Universitetinin hüquq fakültəsinə daxil oldum. Hüquq dərəcəmi üç il yarıma əldə etdim və dərhal da Ədliyyə Departamentinə qəbul imtahanı verdim. Məhkəmə hökmü verilməsi üzrə 6 aylıq təcrübə keçdikdən sonra rəsmən 1969-cu ilin mart ayından hakim qismində çalışmağa başladım. Hakim vəzifəsində çalışdığım zaman təhsilimi davam etdirdim və 1971-ci ildə Tehran Universitetinin mülki hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirərək doktorluq dərəcəsi aldım".*



1975-ci ildə Şirin Ebadi Tehran şəhər məhkəməsinə başçı təsdiq edildi və bununla da İranda yerli məhkəməyə rəhbərlik edən ilk qadın hakim ünvanını qazanmış oldu! Və girişdə dediyimiz kimi, o, bütövlükdə İranda ilk qadın hakim olub!.

1979-cü ildə İranda İslam İnqilabı baş verdi. Bundan sonra Şirin Ebadi vəzifəsindən istefa verməyə məcbur oldu. 1979-cu il İslam İnqilabından sonra mühafizəkar din xadimlərinin ***"İslam dini qadınların hakim olmağına mane olur"*** kimi əsassız iradını əsas götürənlər Şirin





Ebadinin də vəzifəsini sədrlik etdiyi sahədə məhdudlaşdırdılar və o, məhkəmə katibi vəzifəsinə keçirildi. Lakin o və digər hakim qadınlar etirazlarını davam etdirdilər və etirazlar nəticəsiz qalmadı - onlar ***"qanun üzrə ekspert"*** vəzifəsinə gətirildilər. Bununla belə Şirin Ebadi vəziyyətin dəyişməsinin prinsipial xarakter daşımadığını görüb, son nəticədə vaxtından öncə təqaüdə çıxmağa icazə istədi.

Hakimiyyətə gələn din rejimin qaydalarına görə, qadın kişilərlə bir yerdə vacib sayılan qərarların çıxarılmasında iştirak edə bilməzdi. Bu səbəbdən də Şirin Ebadi 10 ildən çox müddət ərzində öz ixtisası üzrə - yəni, hüquqşünas işləyə bilmədi. O bu illər ərzində kitab və məqalələr yazmağa başladı. Bu yaradıcılığı da ona geniş şöhrət qazandırdı.

Şirin Ebadi "İran oyanır" kitabında yazır ki, ***mən hakim vəzifəsindən kənarlaşdırıldıqdan 23 il keçməsinə baxmayaraq mən yenə də öz fikrimdə qalıb deyirəm: din, İslamın bərabərlik və demokratiya ruhunda şərh olunması***





***inamın əsl ifadəsidir. Qadını din yox, seçici diktat sıxışdırır. Mənim yazdığım kitabın özəyində İranda dəyişikliklərin daxildən əmin-amanlıqla baş verəcəyinə yəqinlik və inam durur.***

Nəhayət, 1990-cı ildə Şirin Ebadi Tehran Universitetində müəllim kimi çalışmağa müvəffəq oldu. O, 1991-ci ilin sonundan başlayaraq İran toplumunda mötədil-liberal meyillərin gücləndirilməsində önəmli rol oynadı. Onun İranın ictimai həyatında qadınların rolunun artırılması yolunda apardığı təbliğat Məhəmməd Hatəminin 1997-ci il prezident seçkilərində qalib gəlməsinin vacib faktoru oldu. Bəyannamələri dəfələrlə rədd edildiyi üçün, Şirin Ebadinin 1993-cü ilə qədər vəkil kimi işləməyə ixtiyarı olmadı. Halbuki o vaxta qədər onun vəkillik şirkəti də var idi.

Xanım Ebadi uşaq və qadınların hüquqi statusunun möhkəmləndirilməsi üçün kampaniyalarda yaxından iştirak edir.

Şirin Ebadi vəkil kimi 1990-cı illərdə İranın bir sıra önəmli məhkəmə proseslərində iştirak edib. O dövrlərdə xüsusilə müxalif baxışlara malik İran ziyalılarının qətli ilə bağlı bir neçə məhkəmə işində həlak olanların ailələrinin maraqlarının müdafiəsinə qalxmışdı. 2000-ci ildə belə proseslərdən birinin gedişatı zamanı Şirin Ebadi Prezident Məhəmməd Hatəminin ətrafında olan siyasətçilərin qətlinə sifariş verən dini liderlərin əməlini sübuta yetirən bir ifadənin videoyazısını açıqladı. Əmir Fərhad İbrahimin verdiyi bu ifadəni açıqladığına görə Şirin Ebadi özü 5 il həbs cəzasına məhkum edildi. Doğrudur, sonralar bu hökm rədd edildi. Bundan sonra Şirin Ebadi İranın bəzi mətbuat orqanlarının nəşrinin qadağan olunması







ilə bağlı bəzi məhkəmə işlərində bir hüquq müdfiəçisi kimi çıxış etdi.

## Dissidentlərin və tələbələrin hüquqlarını müdafiə edən Şirin Ebadi

Şirin Ebadi tanınmış bir vəkil kimi İranda böyük səs-küyə səbəb olan, siyasi motivlərlə həbs edilən şəxslərin məhkəmə prosesində hüquq müdafiəçisi kimi iştirak etmişdir. Bir vəkil kimi onun ün qazanmasına səbəb liberal və dissidentlərin məhkəmə problemləri ilə bağlı işlərini aparması olmuşdur.

O, dissident və siyasi xadim olan **Darius Fərəuharın** ailəsi üçün vəkillik etdi. Onun həyat yoldaşı **Pərvanə İskəndəri** də həmin vaxtda öldürülmüşdü. Bütün şübhələr Prezident Hatəmi tərəfindən aparılan müəyyən liberal dəyişikliklərin əleyhdarlarının üzərində cəmləşirdi. Onların qətlində İran Kəşfiyyat Nazirliyinin əməkdaşlarının əli olduğu ehtimal olunurdu *( Bu idarənin rəhbəri **Səid İmami** məhkəmənin qərarı çıxanadək zin-*







*danda intihar etmişdi).*

1999-2000-ci illərdə bir sıra qətillərin qurbanlarına çevrilmiş yazıçı və ictimai xadimlərin ailələrini müdafiə edən Şirin Ebadi, eyni zamanda, tələbələrin hüquqlarının müdafiəsi uğrunda mübarizə apararaq dəfələrlə İran rejiminə qarşı çıxmışdı. 1999-cu ildə Tehran Universitetində tələbələrin etiraz aksiyalarına qarşı hakimiyyətin tətbiq etdiyi güc nəticəsində tələbələr arasında ölənlər və yaralananlar olmuşdu. Bu məsələ ilə bağlı keçirilən istintaqda Şirin Ebadi bir hüquqşünas kimi öz fəal iştirakı ilə yaddaş qalmışdı.

O, həmişə təqib olunanların, qanunsuzluqla üzləşənlərin yanında olmağa, onların səsini eşitməyə, səsinə səs verməyə çalışıb. Təsadüfi deyil ki, Bəhai təriqətinə mənsub olan insanların təqib olunduqlarını gördükdə onların müdafiəsinə qalxmaği özünə borc bilən məhz o idi.

Gənclərin müdafiəçisi kimi çıxış edən Şirin Ebadi nəticədə hakimiyyət tərəfindən ona qarşı irəli sürülən saxta ittihamlarla həbsə məruz qaldı.

Şirin Ebadi dinə deyil, dini fanatizmə qarşı mübarizə aparıb. O, həmişə yazdığı məqalələrdə və verdiyi müsahibələrdə özünün İslam dininə olan məhəbbətini, sədaqətini qeyd edirdi. Amma dini fanatizmə qarşı öz sərt mövqeyini ortaya qoymaqdan da çəkinmirdi *(Ümumiyyətlə, vəkilliyə başladığı ilk gündən başlayaraq üzləşdiyi ardıcıl təzyiqlər onu usandırmamış, öz amalından döndərə bilməmişdir)*!

***

Şirin Ebadi İranda fəaliyyət göstərən iki hüquq müdafiəsi təşkilatını təsis etmişdi: onlardan biri uşaqların hüquqlarının qorunması üzrə İran Cəmiyyəti, digəri isə Hüquq Müdafiəsi Mərkəzi idi. Hazırda cəmiyyətin 500-dən artıq fəal üzvü vardır.







## Nobel Sülh ödülü onundur

Şirin Ebadi geniş fəaliyyətinə görə 2003-cü ildə uluslararası Nobel ödülünə layiq görüldü. Ödül ona demokratiyanın inkişafı və insan haqlarının, özəlliklə də İranda qadın və uşaqların hüquqları uğrunda mübarizəyə görə verilib.

Ebadi islam və fundamental insan hüquqları arasında heç bir ziddiyyət görmür", - Komitənin sədri Ole Danbold Myees belə demişdir.

Bu xəbər - onun Nobel Sülh ödülünə layiq görülməsi İranda heç də birmənalı qarşılanmadı. Sadə İran vətəndaşları bu qərarı sevinc və sevgiylə qarşıladılar. Dövrün İran Prezidenti Məhəmməd Hatəmi özünü nə qədər təmkinli aparsa da, onun açıqlamalarından belə bəlli oldu ki, Şirin Ebadiyə Nobel ödülünü verməklə İrana siyasi təsir etmək istəyirlər. Mühafizəkarlar isə tam bu fikirdə idilər ki, bu, İrana təzyiqdir. Amma İranda dəyişiklik istəyənlər, rejimə











qarşı müxalif olanlar və ən vacibi isə mükafatı təqdim edənlər bu fikirlərlə razılaşmırdılar. Onlar bəyan edirdilər ki, Şirin Ebadinin fəaliyyəti Nobel mükafatına tam layiqdir və insan haqlarının yorulmaz müdafiəçisi kimi onun gördüyü işlər İranla bərabər dünya üçün də vacib və əhəmiyyətlidir.

## Nobel ödülündən sonrakı həyatı

O, İranın daxili işlərinə hər hansısa xarici müdaxiləni pisləyərək, vətənində insan hüquqları uğrunda mübarizənin elə İran əhalisinin özü tərəfindən aparılmasının vacibliyini vurğulayır. O, açıq şəkildə söyləyir ki, ölkədə insan haqları uğrunda mubarizə iranlıların özü tərəfindən aparılmalıdır.

Şirin Ebadi müntəzəm olaraq müsəlman toplumunda qadın və uşaqların müdafiəsi naminə mübarizə aparır. O, İslamda islahatların tərəfdarı olaraq, dini azadlığın, söz azadlığının tərəfdarı kimi çıxış edib, insan hüquqlarının müdafiəsi uğrunda mübarizə aparır. Qadın və uşaqların hüquqları daxil olmaqla, qaçqınların hüquqları uğrunda da fəal mübarizə aparan Şirin Ebadinin fikrincə, toplum o zaman sivilizasiyaya qovuşar ki, orada yaşından və cinsindən asılı olmayaraq hər kəsin hüququna hörmət olunsun.

Bir çox hüquq müdafiə təşkilatlarının, özəlliklə də qaçqınların, uşaqların və qadınların hüquqları uğrunda hərəkatların fəxri üzvü olan bu fədakar qadın İranda Uşaq Hüquqlarının Müdafiəsi Assosiasiyasını təsis et-









mişdir.

Xanım Ebadi 2006-cı ildə digər Nobel Ödülçüləri ilə birgə "Qeyri-adi təcrübə bərabərlik, ədalət, sülh uğrunda mübarizədə" məqsədi ilə Nobelçi qadınlar Təşəbbüs Qrupunu təsis etdi. İki ildən sonra bu qurum İran hökumətinin Ebadiyə və onun hüquq təşkilatına qarşı təqib və hədələrini bir daha mühakimə etdi.

Şirin Ebadi 2009-cu ilin yanvarında İranda insan haqlarının Uluslararası kompaniyasında söylədi ki, ***"mənə nə qədər təzyiq göstərsələr də mən İranı tərk etməyəcəyəm".*** O, fikrinə davam edərək, bu yoldan dönməyib daha irəli gedəcəyini söylədi.



Şirin Ebadi 2009-cu ildə İranda keçirilən prezident seçkiləri zamanı baş verən pozuntuları, ölkə müxalifətinə qarşı, seçkilərin nəticələrinə etiraz edən insanlara qarşı rejimin təzyiqlərini, təqiblərini, həbs edilmələrini və qətlə yetirilmələrini pislədi. O, yenə də haqsızlığa, ədalətsizliyə məruz





qalanların yanında və rejimə qarşı etiraz edənlərin önündə dayananlardan biri idi. O, hətta bu məqsədlə Brüsseldə keçirilən etiraz aksiyalarında da iştirak edərək **Mahmud Əhmədinejadın** Prezident seçilməsini tanımamağa çağırdı. İran hökuməti **Nobel Sülh ödülü laureatı Şirin Ebadiyə 2003-cü ildə təqdim olunan medalı və diplomu, eləcə də bəzi digər əşyaları saxlanıldığı bank şöbəsindən müsadirə etdirdi.** Bu barədə Osloda yerləşən Nobel Komissiyasına məlumat daxil olmasından sonra sərt açıqlamalar verildi. Norveç Xarici İşlər naziri baş verənlərdən şoka düşdüklərini vurğulayıb: ***"Bu, hansısa ölkənin hökumətinin Nobel ödülünü müsadirə etməsi ilə bağlı ilk faktdır."*** *"France Presse"* agentliyi hətta Tehranın diplomatik nümayəndəliyinin təmsilçisinin Norveç Xarici İşlər Nazirliyinə çağırılması və ona etiraz bildirilməsi barədə məlumat yaydı.




Şirin Ebadi isə bəyan etdi ki, heç bir təzyiq və təqib onu yolundan, prinsiplərindən və arzularından çəkindirə bilməz. Onun arzusu İranı demokratik, insan hüquq və azadlıqlarına hörmət edilən, qadın hüquqlarının geniş təmin olunduğu, dini etiqadından və etnik mənsubiyyətindən asılı olmayaraq hər kəsin rahat yaşaya bildiyi, azad və ədalətli seçki mühitinin olduğu ölkə kimi görməkdir. Və o, ümid edir ki, onun arzuları nə vaxtsa reallaşacaq. Buna gedən yol isə bu düşüncə və arzunu paylaşan İran vətəndaşlarının onun reallaşması üçün heç nədər qorxmadan və çəkinmədən





daha çox çalışmasından, fikir və etirazlarını daha ucadan səsləndirməsindən keçir.

Şirin Ebadi bir çox Qərb universitetlərinin, eləcə də Böyük Britaniya, Amerika, Kanada və sair ölkələrdə yerləşən elm öcaqlarının fəxri doktorudur.

## Xanım Ebadinin əsas ictimai çalışmalarına bir baxış

— *UNİSEF-in Tehrandakı ofisinin bir sıra tədqiqat layihələrinə rəhbərlik edib;*

— *Uşaqların hüquqları və insan hüquqları sahəsində pulsuz vəkillik xidməti göstərib;*

— *Dörd hüquq müdafiəçisi ilə birgə İnsan Hüquqlarının Müdafiəsi Mərkəzinin həmtəsisçisi olub;*

— *İnsan hüquqlarına dair onlarla universitet və elmi konfransda, seminarda mühazirə oxuyub;*

— *Söz azadlığı ilə bağlı ittiham edilmiş və ya hökm oxunmuş bir neçə jurnalisti və onların ailəsini təmsil edib;*













— *Uşaqlara qarşı hər növ zorakılığın qarşısının alınması haqda qanunun qəbul edilməsi barədə İslam Məşvərət Məclisinə təklif irəli sürmüş, nəticədə qanun layihəsi müzakirəyə çıxarılıb və 2002-ci ilin yayında qəbul edilib.*

## Onu da əlavə edək ki,

Xanım Ebadi 1996-cı ildə Human Rights Watch-un rəsmi müşahidəçisi olub. Onun **"Uşaq hüquqları"** kitabı işıq üzü gördüyü ilin yekununda, yerli Mədəniyyət və İslam Dəyərləri Nazirliyi tərəfindən **"İlin Kitabı"** elan edilib. 2001-ci ildə isə ***"İnsan hüquqları sahəsində göstərdiyi çalışmalara görə"*** Norveçin **Rafto İnsan Hüquqları Fondunun** ödülü ilə təltif olunub.

Hazırda Şirin Ebadi pedaqoji çalışmaları ilə yanaşı, sevimli vəkillik və insan hüquqları müdafiəçisi kimi fəaliyyətini də davam etdirir. Onun cəsarətli, qorxmaz və yorulmaz fəaliyyətinə isə ölkəsində çox ehtiyac var, özü də lap çox...

**İşıq üzü görmüş kitabları:**
"Cinayət hüququ"ndan "Qadınların hüquqları"nadək...

— *"Cinayət hüququ", Tehran-1972 (İran Milli Bankı tərəfindən dərc edilmişdir).*
— *"Uşaq hüquqları. İranda uşaq haqlarının araşdırılmasının hüquqi aspektləri", 1987.*
— *"Tibbi hüquq", Tehran-1988.*
— *"Gənc fəhlələr", Tehran-1989.*
— *"Memarlıq hüququ", Tehran-1991.*





— *"Qaçqınların hüquqları", Tehran-1993.*
— *"İranda insan hüquqları tarixi", Tehran-1993.*
— *"Adət-ənənə və çağdaşlıq", Tehran-1995.*
— *"Uşaqların müqayisəli hüququ", Tehran-1997.*
— *"Qadınların hüquqları", Tehran-2002.*





## Ailəsi

Şirin Ebadi evlidir. Həyat yoldaşı mühəndis-elektrikdir. İki qızı var. Böyük qızı Kanadada elekommunikasiya üzrə doktoranturada təhsil alır. Digər qızı isə Tehran Universitetinin hüquq fakültəsinin tələbəsidir. Deməli ki, ailədə gələnəklərin davam etməsi yönü və imkanı mövcuddur. Kim bilir, bəlkə, xanım Ebadinin bu gün tələbə olan qız övladı da sabahın "Nobel"çisi olacaq! Hər halda, doğulduğu və yaşadığı ölkədə, pozulan çox qanun, hüquqları müdafiə edilməsi çox insan var...







***

Mən bu sətirləri yazarkən *(daha öncə çap olunmuş məqaləni yeni kitab üçün təzədən işlədiyim zaman)* İranda insan hüquqları ilə bağlı durum *(ümumən İrandakı ölkəiçi durum)* dünyanın diqqət mərkəzinə gəlib. Bu sətirlərin müəllifi, tam bu günlərdə, guya **"İslam dövlət"**i olan İranın, İslam abidələrini, məscidləri dağıdan, insanları məhz müsəlman(türk) olduqları üçün qətl edən düşmən Ermənistanla getdikcə güclənən iqtisadi-siyasi əlaqələrinə etiraz edərək Milli Məclisin tribunasından güneyli soydaşlarımıza müraciət edib. Deməli ki, xanım Ebadilərin arzuladığı azad, demokratik rejim qurulmayınca, bizim *(ümumən dünyanın)* İrandan gözlədikləri xəyal olaraq qalacaq! **İranın ehtiyac duyduğu mənəvi tələbatlar, yeni Şirinlər doğuracaq! - Acıları yenmək üçün!**







- **O, Filippinin ilk (və hələlik yeganə) qadın vitse-prezidenti oldu.**
- **O, Korazon Aqinodan sonra ölkəsinin tarixinə ikinci qadın Prezident kimi adını yazdı.**
- **O, hələ parlamentdə senator olduğu 9 il ərzində ölkəsi üçün böyük iqtisadi önəm daşıyan 55 qanun layihəsinin müəllifi olmuşdu.**
- **O, "Forbes" jurnalının 2005-ci ildə *"dünyanın ən güclü qadınları"* siyahısında 4-cü yeri tuturdu.**
- **O, "Forbes" jurnalının 2006 və 2009-cu ildə *"dünyanın ən güclü qadınları"* siyahısının ön sıralarında dayananlardan biri idi.**
- **O, Filippin tarixində Ferdinand Markosdan sonra Filippinin ən uzun müddət vəzifədə qalan prezidenti kimi də adını tarixə yazıb.**
- **Bu qadın Filippinin keçmiş prezidenti Diosdado Makapaqalın qızı, qədim Luzon İmperiyasının Lakandula liderlərinin birbaşa sələfi, bütün dünyada tanınan Filippin prezidenti Mariya Qloriya Makapaqal-Arroyodur!**

**Mariya Qloriya Arroyo** **(Maria Gloria Macapagal-Arroyo)** 1947-ci ildə Manila, San-Xuanda siyasətçi Diosdado Makapaqal və Evangelina Macaraeq Makapaqalın ailəsində dünyaya gəlib.

Həyatının ilk illərini Lubaoda, Pampanqada atasının əvvəlki nikahından olan uşaqları ilə birlikdə keçirib. 4 yaşından İliqan şəhərində nənəsi ilə birlikdə yaşamağa başlayıb. Burada 3 il qaldıqdan sonra isə 11 yaşına kimi Mindanao və Manila şəhərləri arasında, necə deyərlər, get-gəldə olub. O, ingilis və ispanca ilə yanaşı, taqaloq və Kapampangan, İlokano, Cebuano kimi bir neçə digər Filippin dillərində də mükəmməl danışır.





1961-ci ildə Arroyo 14 yaşında olarkən atası prezident seçilir və o, ailəsi ilə birgə Maniladakı Prezident Sarayına köçür. 1964-cü ildə məktəbi fərqlənmə ilə bitirir. Arroyo iki il Bill Klintonla qrup yoldaşı olduğu Corctaun Universitetində təhsil alır. O, həmçinin 1968-ci ildə Assumption Kollecindən iqtisadiyyat üzrə fərqlənmə ilə bakalavr dərəcəsini almışdır.

Amerikadan Filippinə döndükdən sonra Mariya Arroyo 1978-ci ildə Ateneo Manila Universitetində iqtisadiyyat üzrə magistr və 1985-ci ildə Filippin Universitetindən iqtisadiyyat üzrə doktorluq dərəcəsi almışdır.

1968-ci ildə Mariya hüquqşünas və biznesmen olan Xose Migel Arroyo ilə ailə qurur. Onların üç övladı olur - Xuan Migel (1969), Evangelina Lurdes (1971) və Diosdado İqnasio Xose Maria (1974).

1977-87-ci illərdə o, Filippin Universitetində, Maniladakı Ateneo Universitetində (Ateneo de Manila University) və müxtəlif universitetlərdə dərs demişdir. Arriyo həmçinin Assumption Kollecində İqtisadiyyat fakültəsinin dekanı olmuşdur.





Onun siyasi karyerası ölkənin ilk qadın prezidenti Korazan Akinonun (Corazon Aquino) adı ilə bağlıdır. Belə ki, 1987-ci ildə Prezident Korason Aqino iqtisadiyyat professoru olan Arroyonu Ticarət və Sənaye departamentinin katibi köməkçisi işinə dəvət edir. İki il sonra o, katibin müavini vəzifəsini tutur. Bir qədər sonra isə Hazır geyimlərin və Tekstilin İxracı Şurasının icraçı direktoru olur. Ötən yüzilliyin səksəninci illərində artıq çoxları etiraf edirdi ki, Arroyonun fəaliyyəti ölkəsində tekstil sənayesinin güclü inkişafına təkan vermişdir.








Baxmayaraq ki, onun atası vaxtı ilə ölkənin prezidenti olmuşdu, Arroyo 1992-ci ilə qədər aktiv siyasət səhnəsində görünməmişdir. 1992-ci ildə o, ilk dəfə və üç illik müddətə Filippin senatına seçilir. 1987-ci il Konstitusiyasına görə, ən çox səs toplamış 12 namizəd 6 illik müddətə, daha 12 nəfər isə 3 illik müddətə seçilirdilər. Səsvermənin nəticələrinə görə, 13-cü yeri tutan Arroyo 3 il müddətinə senator seçildi.

1995-ci ildə Qloriya 16 milyon səslə yenidən senator seçilir və bu dəfə altı illik müddətə bu vəzifədə qalır. Parlamentin işində çox aktiv iştirak edən Arroyo, qanunverici hakimiyyətdə təmsil olunduğu müddətdə 400 qanun layihəsinin hazırlanmasında, müzakirəsində fəal iştirak etmiş, iqtisadi önəm daşıyan 55 qanun layihəsinin isə bilavasitə müəllifi olmuşdur.

Arroyo, 1998-ci ildə prezidentliyə namizədliyini vermək istəsə də, Prezident Fidel Ramos onu fikrindən daşındıraraq hakim partiyaya üzv və vitse-prezidentliyə namizəd olmağa dəvət etdi. Bu seçkilərdə Arroyo, Edqardo Anqaradan iki dəfə çox səs toplayaraq vitse-prezident seçildi.

Hakim partiyanın prezidentliyə namizədi Senatın spikeri Xose De Venesia, vitse-prezidentliyə namizədi isə Mariya Arroyo oldu. O, 13 milyon səslə rəqibi senator Edqardo Anqara qalib gəlsə də, hakim partiyanın prezidentliyə namizədi Xose De Venesia (Jose de Venecia) rəqibi, ünlü aktyor Cozef Estradaya məğlub oldu. 1998-ci il iyunun 30-da Mariya Arroyo vitse-prezidentlik vəzifəsinə başladı. O, Filippinin ilk (və hələlik yeganə) qadın vitse-prezidenti oldu. Prezident Estrada onu həm də Sosial Rifah və İnkişaf departamentinin rəhbəri vəzifəsinə təyin etdi.

Burada onun əsas işi yoxsullara köməklə bağlı hökumətin sosial proqramının yerinə yetirilməsinə nəzarət idi. Ancaq 2000-ci ildə o, istefa verdi, korrupsiyada ittiham olunan Prezident Estradadan uzaqlaşdı. Prezident Estradanın korrupsiyada günahlandırılması ilə bağlı olaraq xanım





Arroyo açıq şəkildə Filippin cəmiyyətinin müxalif kəsiminə dəstək verdi.

Estradanın yanvarın 16-na təyin olunmuş məhkəməsi baş tutmadıqda yanvarın 17-də yüzminlərlə filippinli küçələrə axışdı. Artıq bu etirazlar Filippin cəmiyyətinin bütün təbəqələrinə yayılmışdı. Nəhayət, 20 yanvar 2001-ci il tarixində Ali Məhkəmə Estradanı prezident səlahiyyətlərindən məhrum etdi. Ordu və polis onu dəstəkləməkdən imtina etdi. Həmin gün Arroyo Ali Məhkəmə tərəfindən Filippinin 14-cü prezidenti elan edildi.

Estrada Prezident Sarayını tərk etdikdən bir müddət sonra Mariya Qloriya Arroyonun prezidentliyinin legitimliyini sual altına almağa cəhd etdi. Belə ki, Estrada rəsmi şəkildə istefa vermədiyini deyirdi. Baxmayaraq ki, Estrada Arroyonu prezident kimi qəbul etmədi, ancaq Ali Məhkəmə onun hakimiyyətə gəlməsinin legitim olmasına qərar verdi. Beynəlxalq ictimaiyyət də onun Filippinin qanuni prezidenti olduğunu qəbul etdi. Ölkənin sükanı ikinci dəfə qadına tapşırılmış oldu!





## Prezident qızı Prezident!

**Birinci müddət (2001 -2004 )**

Arroyonun prezidentliyinin ilk zamanlarında ölkə sanki iki yerə bölünmüşdü: bir tərəfdə onun tərəfdarları, o biri tərəfdə isə Arroyonun legitimliyini tanımayan keçmiş Prezident Cozef Estradanın tərəfdarları. Filippin müxalifəti yalnız 2004-cü ildə keçirilən prezident seçkilərindəki qələbəsindən sonra onun legitimliyi ilə bağlı söz-söhbəti yığışdırdı. Buna qədər isə Fi-





lippin və Arroyo narahat günlər yaşadı. Onun qarşısında dayanan əsas məsələ hökumətdə islahatlar aparmaq və korrupsiyasının qarşısını almaq idi. Amma o, bu işi çox çətinliklərə sinə gərərək irəli aparmalı olurdu.

2001-ci ilin aprelində Estrada və oğlu, senator Cinqqoy ölkəni talan etmələrinə görə həbs edildilər. Ancaq Estrada tərəfdarları bunu qəbul etməyərək, küçələrə axışıb onun azadlığa buraxılmasını tələb etdilər. Bu, onun hakimiyyəti dövründə ilk güclü siyasi etiraz idi. Hakimiyyətinin ilk dövrlərində Mariya Qloriya Arroyo, Estrada tərəfdarları ilə mübarizə aparmalı oldu. Etirazçılar Prezident Sarayının qabağına toplaşaraq Arroyonu onların tələbinə cavab verməyə çağırdılar. Etirazçılar sakitləşmək bilmirdilər, ölkədə iğtişaşlar başlamışdı. Mariya Qloriya Arroyo bununla əlaqədar olaraq ölkədə qiyam olduğunu bildirdi. Bir çox etirazçılar və ona müxalifətdə olub, etirazçılar sırasına qoşulan bir neçə tanınmış siyasi lider də həbs edildi. Manilada keçirilən iki böyük aksiyadan sonra prezident ölkədə fövqəladə vəziyyət elan etdi. Etirazlar səngiyəndən sonra, Arroyo fövqəladə vəziyyəti ləğv etdi. Bununla da Arroyonu hakimiyyətdən uzaqlaşdırmaq məqsədi daşıyan hərəkat uğursuzluqla nəticələndi.

## Oakvuud...

2003-cü il iyulun 27-də o, başqa bir qiyamla üzləşdi. Bu dəfə 300-dən çox hərbçi tərəfindən Makati şəhərinin biznes mərkəzində yerləşən alış-veriş mərkəzi və mehmanxana qarət edilərək ələ keçirildi. Bu qiyamı edənlərin önündə Dəniz Hərbi Qüvvələrinin baş leytenantı Antonio Trillanes və kapitan Qari Alixano da daxil olmaqla, hərbi qüvvələrin yüksək vəzifəli altı nümayəndəsi var idi. 22 saatdan sonra onlarla hakimiyyət qüvvələri arasında danışıqlar başladı və onlar Filippin hərbi qüvvələrin-





də islahatların aparılmasını tələb etdilər. Bununla yanaşı, Dəniz Hərbi Qüvvələrinin baş leytenantı Antonio Trillanes və kapitan Qari Alixano qiyamı özlərinin planlaşdırdığını bəyan edərək, bu etirazda iştirak edən digərlərinin öz işlərinə qayıtmaları müqabilində məhkəmə qarşısında dayanmağa hazır olduqlarını bildirdilər. Böhran bitdikdən sonra hökumət bu tələbləri uzun müddət yerinə yetirmədi, çünki qiyamda sabiq Prezident Estradanın əli olduğu ehtimal edilirdi. Qiyamın təşkilatçısı kimi sabiq prezidentin köməkçisi həbs edildi. Prezident Arroyo bu qiyamı araşdırmaq üçün Felisiana komissiyasını yaratdı. Komissiyanın rəyində qeyd olunurdu ki, Oakvuud qiyamı (Oakvuud qiyamı öz adını baş verdiyi otelin adından götürmüşdü) planlaşdırılmış bir hərəkat idi və məqsədi Arroyo hökumətini devirmək cəhdi idi.

2003-cü ilin avqustunda Arroyonun həyat yoldaşı Xose Migel prezidentə müxalifətdə olan (2004-cü il seçkilərində həm də rəqib) senator Panfilo Lakson tərəfindən korrupsiyada ittiham olunmağa başladı. Senator bəyan etdi ki, "Coze Pidal" adlı bank hesabı vasitəsilə prezidentin həyat yoldaşına müxtəlif qaynaqlardan pullar köçürülür. Bundan başqa, senator Panfilo Lakson, Xose Migeli xanım prezidentə xəyanətdə də ittiham etdi. O bəyan etdi ki, Xose Migel Viktoria Toh adlı bir qadınla gizli münasibətdədir. Onun bu ittihamlarının heç biri sübuta yetmədi. Buna baxmayaraq, ittihamlar Arroyoya bir qadın olaraq ciddi təsir etdi, onu məyusluğa bürüdü. Hətta onun həyat yoldaşına qəzəbli olduğu barədə filippinlilər arasında söhbətlər yayıldı. Bir neçə həftədən sonra mətbuat konfransında xanım Arroyonun həyat yoldaşı ona bir dəstə çiçək verərək, hər kəsə aralarında soyuqluq olmadığını göstərdi. Lakin bu söhbətlər onun populyarlığına öz mənfi təsirini göstərmiş oldu.

## Turizm iqtisadiyyatının sıçrayışı



Hələ 2001-ci ildə prezidentliyi elan edildikdən dərhal sonra Arroyo yeni siyasətini xalqa bəyan etdi. Bu siyasət Turizm İqtisadiyyatı adlandırıldı. Bu siyasətlə hökumət daha



uzun həftəsonlarını elan etdi. *(Məsələn, iyunun 12-si Filippinin müstəqillik günü əgər həftənin 3-cü gününə düşürsə, o, həftənin 5-ci və ya 1-ci gününə keçirilir, bununla da həftəsonu artırılır.)* Bu siyasətlə o yerli turizmin inkişafına təkan vermək istəyirdi. Onun bu addımını tənqid edənlərin də olmasına baxmayaraq, artıq 2002-ci ildə bu siyasət özünün müsbət nəticələrini verməyə başladı. Arroyonun bu siyasəti həyata keçirməkdə əsas məqsədi - filippinlilərin öz ailələri ilə daha çox vaxt keçirməsi və yerli turizmin Filippin iqtisadiyyatına təkan verməsi idi.

## 2004-cü il: Arroyo fikrini dəyişir...

1987-ci il Konstitusiyasının VII maddəsinə əsasən, Filippin prezidenti ancaq bir dəfə seçilə bilər. Ancaq həmin maddə yenə də qeyd edir ki, əgər prezidentin davamçısı 4 ildən çox prezident olmamışsa, onda o, ikinci dəfə prezident seçilə bilər. Arroyo bu kateqoriyaya daxil olsa da, 2002-ci ilin dekabrında 2004-cü ildə ikinci dəfə prezidentliyə namizədliyini irəli sürməyəcəyini açıqladı; hakimiyyətdəki sonuncu aylarını insanlara xidmətə və iqtisadiyyatın inkişafına həsr edəcəyini dedi.

2003-cü ilin oktyabrında Arroyo fikrini dəyişdi və elan etdi ki, 2004-cü ilin mayında prezident seçkilərində iştirak edəcək. O izah edirdi ki, "bizim gələcəyimizə xidmət edən cəmiyyəti dəyişməyin vaxtı çatıb." Bu qərarından sonra tənqidçilər onu sözünü tutmamaqda günahlandırırdılar. Lakin o, tərəfdarlarının da dəstəyi ilə fikrini dəyişmədi və namizədliyini irəli sürdü.

Onun əsas rəqibi ünlü aktyor və sabiq Prezident Estradanın yaxın dostu Fernando Po oldu. Ancaq Po öz intellektual səviyyəsinə görə Arroyoya uduzurdu. Çünki o, heç orta məktəbi də tam bitirməmişdi. Onun digər rəqibləri, senator Raul Roko, senator Panfilo Lakson və Eduardo Villanueva idi. İlk günlər Arroyonun reytinqi Podan aşağı idi. Amma az son-





ra onun reytinqi önə keçdi. Çünki onu hakim partiya ilə yanaşı, Filippindəki ünlü Katolik Kilsəsi və ona çox sadiq olan, böyük və nüfuzlu Sebu və Pambanqa kimi şəhərlər dəstəkləyirdi. Eyni zamanda İraqdan Filippin hərbi qüvvələrinin geri çağırılması barədə qərarı da onun populyarlığının artmasına təsir etdi.

## Bir Vətəndaşın dəyəri...





2004-cü ilin iyulun 20-də Prezident Arroyo İraqa göndərilmiş kiçik saylı Filippin hərbi kontingentinin geri çağırılması barədə qərar qəbul etdi. Buna səbəb Angela De La Kruz adlı Filippin vətəndaşının İraqda koalisiya əleyhinə olan silahlı qruplar tərəfindən girov götürülməsi oldu. Prezident İraqdan hərbi qüvvələri qərarda göstərilən vaxtdan da öncə geri çağırdı. Çünki Filippin vətəndaşını girov götürən silahlı dəstə açıqlamışdı ki, rəsmi Manila öz kontingentini İraqdan nə qədər tez çıxararsa, Angela De La Kruzu sağ qurtarmaq imkanına sahib ola bilər. Həmin vaxt Prezident Arroyo ***"...Əgər söhbət Filippin vətəndaşının həyatından gedirsə, o zaman bizim üçün özünü dünyaya göstərməkdənsə, öz vətəndaşımızın həyatı daha vacibdir"*** - deyə öz fikrini bildirdi. Arroyo bu qərarı ilə bağlı tənqidlərə də məruz qaldı. Özəlliklə, ABŞ və İraqla bağlı koalisiyanın bir çox üzvləri tərəfindən... Məsələn, bu qərarı əsas tənqid edənlərdən biri, Avstraliyanın baş naziri Con Hovard deyirdi: ***"Sizin ölkənizə qarşı terrorçular tərəfindən olunan hadisə İraqda mübarizəni davam etdirməkdən sizi çəkindirməməlidir. Bu, sizin yerinə yetir-***



*məli olduğunuz beynəlxalq öhdəlikdir".* Arroyo bu açıqlamaya cavabında yenə öz vətənpərvər ampluasında idi (...və haqlı idi): *"...ABŞ hökuməti və İraq müharibəsi Koalisiyası mənim vətəndaşlarımın həyatı üçün heç bir öhdəlik yerinə yetirməyiblər".*

Müstəqil sayıcıların, beynəlxalq müşahidəçilərin də proqnozlaşdırdığı kimi, 2004-cü ilin 10 may seçkilərində Arroyo rəqibi Poya qalib gələrək ikinci dəfə 6 illiyə Prezident oldu. Müxalifət nümayəndələri seçkilərdə qanun pozuntularının olduğunu iddia edirdilər. Ancaq bütün bunlara baxmayaraq, 2004-cü il iyun ayının 23-də Konqres Arroyonu prezident, Noli de Kastronu isə vitse-prezident elan etdi.

### İkinci müddət

2004-cü il iyunun 24-də, seçkidən təxminən 1 ay sonra Konqres onun seçkilərdəki qalibiyyətini təsdiq etdi. Bu, onu Filippinin hakimiyyətdə ən uzun müddət qalan 4-cü prezidentinə çevirdi. İyunun 30-da Arroyonun andiçmə törəni keçirildi. Sebu adasında inaqurasiyasını keçirməklə o, ölkəsinin tarixində adada andiçmə törəni keçirən birinci Prezident kimi düşdü. Bu, Arroyonun, seçkilər dövründə ona böyük dayaq durmuş Sebu sakinlərinə jesti (təşəkkürü) kimi qiymətləndirildi.

Seçki qalmaqalı: **biri "qalma" deyir, biri "qal" deyir...**

Milli Tədqiqatlar Bürosunun direktoru Samuel Onqun, 2004-cü ilin may seçkilərindən sonra - iyunun 10-da keçirdiyi mətbuat konfransında Arroyonun Seçki komissiyasından olan rəsmi şəxslə Poya qalib gəlmək üçün əlavə 1 milyon səs qazanmaq barədə gizli danışıqlarını ortaya çıxaran lent yazıları barədə açıqlamaları qalmaqala səbəb oldu. O, seçki komissiyasının rəsmisi ilə bu barədə danışdığını boynuna alsa da, seçkilərə heç bir təsir göstərmədiyini və ədalətli seçkilər nəticəsində hakimiyyətə gəldiyini dedi.

İyulun 8-də onun hökumətində olan 10 nəfər təyin edilmiş şəxs istefa verərək, prezidentdən də bu addımı atmasını istədilər. Həmin gün Liberal Partiyası və Arroyonun keçmiş müttəfiqi olan sabiq prezident Korason Aqino da onu istefaya çağıranlara dəstək verdi. Lakin Arroyo bütün ittihamları rədd etdi və istefa vermədi. Onu dəstəkləyənlər arasında olan sabiq prezident Fidel Ramos Arroyoya öz dəstəyini davam etdirdi və ona dərhal Konstitusiya dəyişikliklərini həyata keçirməyi məsləhət gördü. Bu dəyişiklik Filippinin unitar prezidentlik sistemindən federal parlamentli sistemə keçməsini nəzərdə tuturdu. 2005-ci ilin sentyabrında bir qrup millət vəkilinin və senatorun Arroyoya qarşı impiçment addımı da uğursuzluqla nəticələndi. Nümayəndələr Palatasının üzvləri 51 səsə qarşı 158 səslə Arroyonun impiçmentinə "yox" dedilər. Bununla da Arroyonun impiçment məsələsini nümayəndələr palatasından keçirib senata aparmaq istəyənlərin planı uğursuzluğa düçar oldu. Bunun səbəblərindən biri, bəzi müxalif qüvvələrin palatadakı üzvlərinin son anda fikrindən daşınaraq Arroyo əleyhdarlarına deyil, prezidentə dəstək vermələri oldu. Nümayəndələr palatasının prezidenti dəstəkləməsinə və ölkədə iqtisadi inkişafa baxmayaraq, müxalifət ona qarşı sərt tənqidlərini davam etdirirdi.







## Fövqəladə vəziyyət

2006-cı il fevralın 24-də General Denni Limin başçılığı ilə hərbi çevriliş cəhdi oldu. General Lim və onun bəzi tərəfdarları həbs olundu. Arroyo ölkə, boyu fövqəladə vəziyyət elan etdi. Arroyoya görə bu addım ölkədə hərbi üsyanı yatırmaq, qeyri-qanuni zorakılığı dayandırmaq, sülh və stabilliyi qorumaq məqsədi ilə atılmışdı. Fövqəladə vəziyyət 1 həftə davam etdi. Polis və hərbi qoşunlar nümayişləri yatırdı. General Lim və başqa bəzi tanınmış dövlət xadimləri həbs olundu.

2007-ci ildə prezident Qloriya Arroyo, korrupsiyaya görə ömürlük həbsə məhkum edilmiş sabiq prezident Cozef Estradanı əfv etdi. 70 yaşdan yuxarı bütün məhkumların amnistiyası çərçivəsində azadlığa buraxılan sabiq prezident bunun əvəzində ölkədə keçiriləcək heç bir seçkilərdə iştirak etməyəcəyi ilə bağlı öhdəlik götürdü.





## İqtisadi baxışları, iqtisadi nəticələri

Arroyo ölkəsinin iqtisadi inkişafını öz prezidentliyinin prioriteti elan etmişdi. Onun prezidentliyi dövründə iqtisadi inkişafın ümumi daxili məhsulda payı 2001-2005-ci illər arasında ortalama 4,6% olub. Bu keçmiş prezidentlər Aqinonun (3,8%), Ramosun (3,7%) və Estradanın (2,8%) dövründəki göstəricilərlə müqayisədə çoxdur. Arroyonun prezidentliyi dövründə ölkədəki inflyasiya da Markosdan sonrakı prezidentlər dövründə müşahidə olunan ən aşağı inflyasiyadır (5,3%).

Xanım Prezident iqtisadiyyatla yanaşı, təhsil islahatlarının, ölkədə təhsilin inkişafının da prioritetlərinə daxil olduğunu elan edib. O, Türkiyəyə rəsmi səfəri zamanı Türk iş adamlarını Filippinə yatırımlar qoymağa çağırmaqla yanaşı, ölkəsində Türk məktəblərinin artırılmasını da xahiş etdi. O, bu məktəblərin Filippinin təhsilinə müsbət təsiri ilə yanaşı, mədəniyyətlər və sivilizasiyalararası dialoqun genişlənməsinə də öz töhfəsini verəcəyini vurğuladı.

## Şəfqətli Arroyo

2009-cu ildə *"Ketsana"* tropik qasırğası zamanı güclü selbasma zamanı Qloriya Arroyo bəyan etdi ki, prezidentin sarayı qan itirmiş insanları qəbul etməyə hazırdır. Prezident minlərlə insanın ev-eşiyini itirdiyi bu fəlakət zamanı zərər çəkənlərə gərəkən yardımın ediləcəyini vəd etdi və vədinə də əməl etdi.







## Rəsmi Manilanın Mindanao problemi

Qloriya Arroyo İslam Konfransı Təşkilatının baş katibi İkmələddin İhsanoğlu ilə görüşündə, rəsmi Manilanın müsəlman dünyasında böyük nüfuzu olan bu təşkilatda müşahidəçilik statusu əldə etmək istəyini açıqladı. *(Filippin bu təşkilatda müşahidəçilik statusu üçün 2004-dən müraciət etsə də, hələlik müsbət nəticə yoxdur.)* Rəsmi Manila üçün bu istiqamətdə əsas problem Mindanao əyalətində yaşayan müsəlman moro əhalisi ilə barışıq əldə edilməsidir. Qeyd edək ki, artıq uzun illərdir, Filippin hökuməti ilə bu əyalətdəki müsəlman icması arasında gərginlik var və təşkilatın vasitəçiliyi ilə tərəflər arasında danışıqlar davam edir.

***

Ümumiyyətlə, Filippin Prezidentinin xarici siyasət sahəsində çoxvektorlu (balanslaşdırılmış) siyasət izlədiyi görünməkdədir. Bu, bir yandan etnik yapısı zəngin olan Filippinin daxili siyasətinin tamamlayıcı faktoru kimi; digər yandan Filippində marağı olan dövlətlərin, beynəlxalq qurumların maraq dairələrinin kəsişməsinin mümkün olduqca ən ziyansız variantının seçilməsi faktoru kimi özünü göstərir. Digər yandan xanım Prezidentin gənclik illərindən Qərblə, özəlliklə ABŞ-la təmasları; Qərb mədəniyyəti, Qərb dəyərləri ilə ölkəsinin mədəni dəyərlərinin uzlaşdırılması cəhdləri diqqəti cəlb edir.

2009-cu il iyulun 3-də elan olundu ki, Arroyo süd vəzilərində aşkar olunmuş şişlə əlaqədar biopsiya testindən keçmişdir. Onun mətbuat katibi Kerq Remond biopsiyanın nəticələrinin mənfi olduğunu açıqladı. Katib "Manila Bülleteni"ndə Arroyonun buna görə əməliyyat olunduğu barədə məlumatları təkzib etdi.

Beləliklə, Mariya Qloriya Arroyo haqqında bir oçerkdə, bir "tanıtım yazı"sında daha nələri demək olar? Onun daha hansı yönləri ələ alına bilər? İlk növbədə, onu deyək ki, xanım Arroyo adı, məhz insani özəllikləri, yaraşıqlı xanım kimliyi ilə; bir çoxlarının gözlədiyinin əksinə,




yalnız yumşaq davranışları ilə deyil, əsasən sərt qərarları ilə yaddaşlara hopacaq. Onun bir çox qərarlarını (sırf) bir qadının qərarları kimi təhlil etmək, bəlkə də, düzgün olmazdı. **Unutmaq olmaz ki, o, dövlət başçısı səlahiyyətlərini (kimliyini) daşıyır, məsuliyyət sahibidir!** Onun ***hər sözü, hər hərəkəti rezonans doğurur*** *(yaxud doğura bilər)*. Önəmli dövlət vəzifələri daşıyana qədərki *(özəlliklə, prezident olana qədərki)* **Arroyonun** həyat ritmi, işlərinin ahəngi *(eləcə də olaylara baxış bucağı)* indikindən, heç şübhəsiz ki, fərqlənirdi. Onu necə var, eləcə də qəbul etmək, dəyərləndirərkən də bütün gerçəklikləri göz önündə tutaraq dəyərləndirmək lazımdır! **Bu gerçəkliklərin içində bütün yuxarıda vurğuladığımız məqamlarla yanaşı, onun hiss və həyəcanları, Filippin üçün döyünən qəlbi də var!**





## Şeyx Hasina Vazed

# Divana çəkilən, haqlı çıxıb hakimiyyətə gələn Şeyx qızı



- **Şeyx Hasina Vazed Banqladeşli siyasətçi və bu ölkənin hazırkı Baş naziridir! (Sheikh Hasina Wazed)**
- **1981-ci ildən bəri Banqladeşin əsas siyasi partiyalarından biri olan Avami Liqasının prezidentidir!**
- **Şeyx Hasinanın partiyası 2008-ci il seçkilərində Banqladeş Milli Partiyası (BMP) Alyansına qalib gəlmiş və o, yenidən ölkənin Baş naziri olmuşdur!**

## Film kimi bir həyat...

Şeyx Hasina Vazed Banqladeşin qurucusu və ilk prezidenti Şeyx Mucibur Rəhmanın beş övladından ən böyüyüdür. 1947-ci il sentyabrın 27-də anadan olub. O, 1968-ci ildə dünyaca ünlü nüvə alimi **Vazed Miahla** ailə həyatı qurmuşdu. Vazeh Miah 9 may 2009-cu ildə vəfat edib. Onların iki övladı var - Sacib Vazed Coy və Saima Vazed Hüseyn Putul. Onların hər ikisi ABŞ-da yaşayır.

***



Şeyx Hasina Vazedin siyasi karyerası Elden Universitetində çalışqan tələbə kimi fəaliyyəti ilə başlamışdır. 1966-67-ci illər ərzində o,





Universitet Tələbələr Birliyinin prezidenti olmuşdur. Onun rəqibi isə daha sonralar Avami Liqasına qoşulan və Şeyx Hasinanın kabinet üzvü olan **Motiya Çovdhuri** olmuşdur.

Hasina Dəkkə Universitetində Avami Liqasının bir qolu olan Çatra Liqasının üzvü idi. Azadlıq müharibəsi dövründə (1971-ci ildə) gənc ana olan Hasina anası, qardaşları və bacısı ilə birlikdə ev dustağına çevrilmişdi. Bu dövrdə Şeyx Rəhman Qərbi Pakistanda həbsdə idi.

***

Onun siyasi və şəxsi taleyi 1975-ci il avqustun 15-də anası və üç qardaşının qətlə yetirilməsindən sonra dəyişdi. Bu dövrdə o, bacısı Şeyx Rəna ilə birlikdə Qərbi Almaniyada xoşməramlı səfərdə idi. Hasina bundan sonra Birləşmiş Krallıqda, sonra isə Hindistanda mühacirətdə oldu və ancaq 1981-ci il mayın 17-də Banqladeşə qayıtmağa icazə ala bildi.

Hindistanda mühacirətdə olarkən Şeyx Hasina Banqladeş Avami Liqasının prezidenti seçildi. Ölkəsinə qayıtdıqdan sonra bir neçə dəfə həbsdə oldu. Onun partiyası **Xalidə Ziyanın** BMP-si ilə birlikdə hərbi idarəçiliyə qarşı mübarizədə əsas rol oynayırdı. 1984-cü ilin fevralında və noyabrında o, yenidən ev dustağı oldu. 1985-ci ilin martında o, üç aylıq ev dustağına çevrildi. 1990-cı ildə Hasinanın partiyası digər 8 partiya ilə alyansa qoşularaq Erşad rejimini ləğv etdi.







## Xanım Şeyx müxalifət lideri kimi

Avami Liqası 1986-cı ilin parlament seçkilərində Hasinanın başçılığı altında iştirak etmişdir. Hasina 1986-1987-ci illərdə müxalifət lideri kimi ön planda olur.

Uzunmüddətli hərbi rejimdən sonra 1991-ci ildə keçirilmiş ilk demokratik seçkilərdə Banqladeş Milli Partiyası qalib gəldi və Hasinanın Avami Liqası ən böyük müxalifət partiyası oldu. BMP-dən olan Xalidə Ziya isə Banqladeşin ilk qadın baş naziri oldu.

1994-cü ildə keçirilən ikinci seçkilərdən sonra Banqladeşdə siyasət özünəməxsus yeni çalarlar qazanmağa başladı. Həmin seçkilər zamanı Hasinanın partiyasının bir üzvünün ölməsi nəticəsində Avami Liqası həmin yeri BMP-yə verməli oldu. Müxalifət partiyaları, o cümlədən, Avami Liqası bu seçkilərdə BMP-nin fırıldaq etdiyini iddia edərək, seçkilərin yenidən təşkil olunmasını tələb etsə də, Xalidə Ziya bu tələblərə cavab vermədi.





Müxalifət liderləri bunun əleyhinə etiraz aksiyaları keçirdilər. Hökumət isə onları iqtisadiyyata ziyan vurmaqda günahlandırdı. Uzun müddət parlamentdə iştirak etmədiklərinə görə, 1995-ci il seçkilərində Avami Liqasından olan bir çox nümayəndə öz yerini itirdi. Parlamentdə yerlərin demək olar ki, hamısı BMP tərəfindən tutuldu. Hasina buna etiraz edərək seçkilərdə yenə fırıldaq edildiyini iddia etdi və 1 il sonra, 1996-cı il iyunun 30-da hakim Habibur Rəhmanın başçılığı altında yenidən seçkilər keçirildi.





## Şeyx Hasina Baş nazir olur

1996-cı il seçkilərində Avami Liqası 146 yer qazandı. Catiya Partiyası və daha bir neçə müstəqil deputatdan gələn dəstəklə onların tutduğu yerlərin sayı 150-yə çatdı ki, bu da çoxluq təşkil etmək üçün kifayət idi. Hasina Banqladeşin Baş naziri vəzifəsinə seçildi. O, Milli Birlik hökuməti yaradacağına söz verdi. BMP-dən bəzi şəxslər bu hökumətə qoşulsa da, yenə də iki əsas partiya arasındakı məsafə qalmaqda idi. Hasinanın Hakim Şəhabuddin Ahmedi prezident postuna gətirməsi onun müxalifətə olan münasibətində xoş məramın olmasından xəbər verirdi.

Yeni hökumətin ən böyük nailiyyəti Hindistanla Banqladeş arasında Fərrakə su anbarı ilə bağlı razılığın əldə edilməsi oldu. Müqaviləyə görə, Banqladeş bu anbardan saniyədə 930 m3 su ala bilirdi. Daha sonra Banqladeş daxilində problemlərin həll edilməsi üçün ölkənin güneyində, dağlarda fəaliyyət göstərən üsyançı qruplaşmalarla müqavilə imzaladı. Müqavilədən sonra yenə güney dağları Banqladeşin ən təhlükəli ərazisi olaraq qalsa da, gərginlik nisbətən azalmışdır.

Şeyx Hasinanın hakimiyyətinin sonuncu





ilində "Transperensi İnternəşl" Banqladeş hökumətini dünyanın ən çox korrupsiyaya uğramış hökuməti elan etdi. Öncəki illərdə Banqladeşin ilk beşlikdə olmasına baxmayaraq, sonuncu açıqlama ölkədə çaxnaşmaya səbəb oldu və Hasina hökumətinin uğursuzluğundan xəbər verdi. Müxalifət Hasinanın istefaya getməsini və seçkilər elan edilməsini tələb etdi, ancaq Hasina buna etiraz etdi. Bununla da o, **Banqladeş tarixində hakimiyyətdə sona qədər qalan ilk Baş nazir oldu.**

2001-ci il seçkilərində Avami Liqası məğlubiyyətlə razılaşmalı oldu. Onlar parlamentdə yerlərin ancaq 62-ni tuta bildilər, BMP-nin alyansı isə 200-dən çox yerə sahib oldu. Şeyx Hasina və Avami Liqası buna etiraz edərək, seçkilərin saxtalaşdırıldığını iddia etdi. Ancaq beynəlxalq ictimaiyyət seçkilərin nəticələrindən və BMP-nin hökuməti təşkil etməsindən razı qalınca, bu iddialar öz məzmununu itirmiş oldu...

Bu vaxtdan sonra Avami Liqası parlamentdə davamlı fəaliyyət göstərə bilmədi. Hasina hakim partiyanın müxalifətə kifayət qədər zaman vermədiyini iddia etdi. 2003-cü ilin sonlarında Avami Liqası özünün hökumət əleyhinə ilk hərəkatını başladaraq, 2004-cü ilin aprelindən öncə bu hökumətin süquta uğradılacağını elan etdi. Ancaq bu baş vermədi və partiyaya, həmçinin də Hasinanın özünə böyük zərbə vurdu.

## İddialar: öncə Hasinadan, sonra Hasinaya qarşı...

Müxalifətdəki ikinci dönəm fəaliyyəti dövründə Hasina ona qarşı sui-qəsd cəhdləri və bir neçə partiya üzvünün qətli ilə üzləşməli oldu.



2007-ci ilin 22 yanvar seçki-





ləri ziddiyyətlə nəticələndi. Avami Liqası nəzarətçi hökumətin seçkilərin nəticələrini Ziyanın və BMP-nin xeyrinə həll edəcəyini iddia etdi. Hasina prezident İacuddin Əhmədin hakimiyyətdən getməsini tələb etdi və seçkilərin boykot ediləcəyini elan etdi. Ayın sonunda ölkədə fövqəladə vəziyyət elan olundu və həm Əhməd hakimiyyətdən getdi, həm də seçkilər təxirə salındı.





2007-ci il aprelin 9-da Banqladeş polisi Hasina əleyhinə soyğunçuluq cəhdləri üzrə təhqiqata başladı. 1998-ci ildə o, enerji zavodu tikmək istəyən sahibkardan rüşvət istəməkdə günahlandırılırdı. Polis rəsmilərinin açıqlamalarına görə, **Faruq** adlı sahibkar Hasinaya bu məsələylə bağlı 441 milyon ABŞ dolları ödəyib.

Aprelin 11-də o, yenə təqsirləndirildi - bu dəfə müxalif partiya tərəfdarlarından dördünün ölümünə şərait yaratdığına görə günahlandırıldı. Həmin vaxt o, Birləşmiş Ştatlarda idi.

Prezident administrasiyası onun ölkəyə qayıtmasının qarşısını almaq üçün aprelin 17-də hava yollarından Dəkkəyə qayıtmasına imkan verməməsini istədi. Aprelin 18-də hökumət Hasinanın ayın 23-nə planlaşdırılmış səfərinə qadağa qoyaraq, bu qayıdışın ölkədə qarışıqlığa səbəb olacağını bildirdi. Bu, hələ müvəqqəti tədbir idi. Həmin gün Hasina Dəkkəyə qayıtmaq üçün Londonda təyyarəyə minərkən onun qarşısı alındı. Hasina ona qarşı irəli sürülmüş iddiaların saxta olduğunu iddia edərək, özünü məhkəmədə müdafiə edəcəyini bildirdi. Aprelin 25-də











onun ölkəyə girməsinə qadağa aradan qalxdı.

2007-ci il mayın 7-də Hasina Dəkkə hava limanında yerə endi və bura onu qarşılamaq üçün minlərlə insan axışdı. O, müxbirlərlə söhbətində iqtidarın ona qarşı sərgilədiyi siyasətin böyük yanlış olduğunun, ancaq bu səhvin aradan qaldırılmasını da müsbət addım kimi qiymətləndirdiyini açıqladı.

***

2007-ci ilin iyulunda Hasina evində polis tərəfindən həbs olundu və Dəkkədə məhkəmə qarşısına çıxarıldı. O, soyğunçuluqda ittiham olundu və həbsxana binasına gətirildi. Avami Liqası bu arada yayımladığı açıqlamada həbsi "siyasi əsaslı həbs" kimi qiymətləndirdi.

İyulun 17-də antikorrupsiya komissiyası Hasinaya (o cümlədən ölkənin digər böyük partiyasının sədri Xalidə Ziyaya) bildiriş göndərək, bir həftə müddətində malik olduğu mülk və əmlak barədə məlumat tələb etdi.

İyulun 30-da Dəkkə məhkəməsi Şeyx Hasinanın soyğunçuluq faktı üzrə təşkil olunmuş məhkəməsini təxirə saldı və sübutlarla onun azad edilməsi əmrini verdi. Sentyabrın 2-də Antikorrupsiya Komitəsi Hasinanı rüşvət almaqda günahlandırdı (bu, Ziyanın da eyni əsaslarla günahlandırılması gününə təsadüf edirdi).

2008-ci il yanvarın 13-də o, bacısı Şeyx Rəna və Şeyx Səlim soyğunçuluq faktları ilə bağlı məhkəməyə çıxarıldılar. Fevralın 6-da məhkəmə onun fövqəladə vəziyyət elan olunmayana qədər edilmiş cinayətə görə indiki qanunlarla mühakimə olunmasının qeyri-mümkünlüyünü irəli sürərək, davaya son qoydu. 2008-ci il, iyunun 11-də Hasina səhhəti ilə bağlı problemlərə görə azad edildi və eşitmə, görmə və arterial təzyiqdən müalicə olunması üçün ABŞ-a yola düşdü...











## 2008-ci il seçkiləri: vəd verdi, qalib gəldi!

2008-ci ilin noyabrında Hasina dekabrın 29-a planlaşdırılmış seçkilərdə partiyasına başçılıq etmək üçün Banqladeşə qayıtdı. Dekabrın 11-də Hasina mətbuat konfransında partiyasının seçki manifestini elan etdi.

Həmin manifestdə o 2021-ci ilə kimi "Rəqəmsal Banqladeş" yaradacağına söz verdi. ...Və Hasinanın Avami Liqası seçkilərdə nəzərəçarpacaq üstünlüklə qalib gəldi!

Hasinanın Partiyası parlament seçkilərində Xalidə Ziyanın lideri olduğu partiyaya qalib gəldi. Onun partiyası Pakistanda 1971-ci il seçkilərinə xas şəkildə qalib gəldi. Partiya parlamentdəki 299 yerdən 230-na sahib oldu!

2009-cu il yanvarın 6-da o, ikinci dəfə Baş nazir kimi and içdi. Qeyd edək ki, Perezident administrasiyası ilə müqayisədə daha aşağı mövqedə olsa da, Baş nazir postu Banqladeşdə ən güclü icraedici vəzifədir.

Begüm Ziya isə seçkilərin nəticələrinə etiraz edərək, kinayə ilə Mərkəzi Seçki Komissiyasına "parlament seçkilərini səhnələşdirməsinə görə" təşəkkür etdi. Ancaq xarici və yerli seçki müşahidəçiləri seçkiləri azad, ədalətli və düzgün hesab etdilər.

***

Baş nazir Şeyx Hasina Vazid Dünya Qadın Liderləri Şurasının üzvüdür. O, beynəlxalq şəbəkə çərçivəsində qadınlar üçün vacib olan bir çox məsələlər üzərində kollektiv fə-





aliyyət aparmaq məqsədi ilə yüksək səviyyəli qadın liderləri səfərbərliyə almaq, məqsədəmüvafiq nəticələr qazanmaq sahəsində özünəməxsus rol oynamaqdadır. Eyni zamanda, Şeyx Hasina seçkilər ərəfəsində banqladeşlilərə verdiyi sözü, ölkəni sürətlə inkişaf etdirəcəyi ilə bağlı vədini yerinə yetirmək üçün yorulmadan çalışır və artıq bu istiqamətdə uğurlar da əldə edir. Banqladeş bölgənin böyük ölkələrindən və güclərindən biri olaraq getdikcə daha da inkişaf edir. **Təzyiqlərə, əziyyətlərə, həbslərə baxmayaraq, geri çəkilməyən, prinsipləri və ideallarının arxasınca gedə bilən güclü QADIN BAŞ NAZİR ŞEYX HASİNANIN rəhbərliyi altında...**











■ O, **ABŞ-ın 3-cü xanım, ümumilikdə 67-ci dövlət katibi**dir.

■ O, hazırda Barak Obama Administrasiyasının ən fəal və populyar üzvlərindəndir.

■ O, 2001-ci ildən 2009-cu ilədək Nyu-Yorkun Senatoru olub. 1993-cü ildən 2001-ci ilədək ABŞ-ın Birinci Xanımı olub. 2008-ci il prezident seçkilərində ən populyar prezidentliyə namizədlərdən biri olub. Onun ömrü bir sıra "İLK"lərə səhnə olub! Bu, Hillari Dayen Rodhemdən - Hillari Klintondan (Hillary Diane Rodham Clinton) başqası deyil!

■ O, 1995-ci ildən 2000-ci ilə kimi - Birinci Xanım olduğu dövrlərdə qəzetdə həftəlik məqalə çap etdirirdi. Bu, onun səyahətləri zamanı tanış olduğu qadınlar, uşaqlar və ailələr; bir sözlə, təcrübələri barədə idi.

■ 1996-cı ildə Klinton "Uşaqların bizə verdiyi dərslər" adlı kitabında Amerika uşaqları üçün yeni bir baxış ortaya çıxardı. Kitab "Nyu York Tayms" qəzetinin bestseller siyahısına daxil oldu, nəşrin audio variantı isə 1997-ci ildə Qremmi ödülünə layiq görüldü.

■ "Əziz corablar, əziz dost: Birinci ev sevimlilərinə uşaqların məktubu" (1998) və "Ağ Evə dəvət: Tarixlə bir evdə" (2000) kitabları onun Birinci Xanım olduğu dövrlərdə çap olundu. 2001-ci ildə o, "Biatrisin keçisi" uşaq kitabına giriş sözü də yazdı.

■ 2003-cü ildə Klinton 562 səhifəlik "Yaşanan tarix" adlı "özkeçmiş"ini nəşr etdirdi. Yüksək satışlar əldə olunacağını gözləyərək "Simon və Şuster" nəşriyyatı əvvəlcədən Klintona rekord sayıla biləcək miqdarda qonorar (8 milyon ABŞ dolları) ödədi. İşıq üzü gördüyü ilk ayda kitabın rekord sayıla biləcək - 1 milyon (!) nüsxəsi satıldı və üstəlik, 12 başqa dilə çevrildi. Kitab (audio versiyası ilə birgə) Qremmi ödülünə layiq görüldü.








■ Hillari Klintonun fikir və mülahizələri ilə bərabər, onun haqqında düşüncələr mediada tez-tez geniş (və belə deyək, spektral şəkildə) yayınlanmışdır.

■ Xanım Klinton haqqında 50-dən çox kitab və elmi məqalə yazılıb. 2006-cı il sorğularına əsasən bəzi mühafizəkar nəşrlər onun əleyhinə "Madam Hillari - Ağ Evə gedən qaranlıq yol", "Onu dayandırmaq olar?", "Hillari Klinton ABŞ-ın növbəti prezidenti olacaq, əgər..." kimi cəlbedici ad daşıyan kitabları çap etdirdilərsə də, onlar Hillari və Bill Klintonların memuarları qədər populyarlıq qazanmadı...

■ Prezidentliyə namizədliyinin ilk aylarında "Taym" dərgisi üz qabığında Hillari Klintonun böyük şəklini və hər iki tərəfində "Onu sevirəm" və "Ondan zəhləm gedir" yazılarını çap etdi (!?).

■ "Newsweek" məcmuəsinin redaktoru Con Miçem, xanım Klinton və Amerika ictimaiyyəti arasında münasibətləri təhlil edərkən deyirdi: ***"Hillari Rodham Klintonun on illərlə gündəmdə olmasına baxmayaraq, o ən çox tanınan və eyni zamanda, Amerika siyasətində ən az başa düşülən simalardan biridir."***

■ Dövlət katibi olduqdan sonra xanım Klintonun imici Amerika ictimaiyyəti arasında daha da yüksəldi və o, dünyanın hörmət edilən ünlü simalarından birinə çevrildi. (O, daima yüksək reytinqə malik olub. 2010-cu ildə Klinton Amerikanlar tərəfindən ən çox pərəstiş edilən şəxs hesab olundu.)




■ Xanım Klinton kariyerası boyu, səhiyyə, qadın və uşaqlarla iş sahəsində göstərdiyi xidmətlərə görə ABŞ-ın və bir sıra nüfuzlu beynəlxalq təşkilatın ödüllərinə layiq görülüb.







## Arkanzasın Birinci Xanımı ABŞ-ın Birinci Xanımı oldu

Əziz oxucu, gəl, indi də bir qədər geriyə - XXI yüzilliyin birinci onilliyindən XX yüzilliyin 60-cı illərinə, Vaşinqtondan Arkanzasa qayıdaq.

Hillari Klinton ilk dəfə diqqəti 1969-cu ildə, Uellesli Kollecində məzuniyyət törənində söylədiyi nitq ilə cəlb etdi. 1973-cü ildə Yeil (Yale Law School) Universitetinin Hüquq fakültəsini bitirdikdən sonra hüquqşünas kariyerasına başladı.

1974-cü ildə Arkanzas ştatına köçmüş Hillari Dayen Rodhem, 1975-ci ildə Bill Klintonla evləndi. 1977-ci ildə Arkanzas Qadın və Uşaqlar üçün Vəkillər Təşkilatının həmtəsisçisi və 1978-ci ildə Hüquqi Xidmətlər Korporasiyasının ilk qadın sədri oldu.

1979-cu ildə Rose Hüquq Firmasında tərəfdaş kimi xidmət göstərərək, iki dəfə Amerikanın 100 ən nüfuzlu hüquqşünası siyahısında yer aldı! Qeyd edək ki, o, bu firmanın tərəfdaşları arasında da ilk qadın idi!

Həyat yoldaşı Bill Klintonun Arkanzasın qubernatoru olduğu 1979-81-ci və 1983-92-ci illərdə Arkanzasın birinci xanımı kimi o, ştatın təhsil sistemində bir sıra uğurlu islahatlar aparılmasına nail oldu və Val Mart (Wal-Mart) mağazalar şəbəkəsinin, digər bir sıra korporasiyaların idarə heyətinin üzvü olmuşdur.

O, 1993-2001-ci illərdə Prezident Bill Klintonun həyat yoldaşı kimi **ABŞ-ın birinci xanımı fəxri "titul"unu** daşıdı. Xanım Klinton Nyu York ştatına köçdükdən sonra (2000-ci ildə) senator seçildi (bu







seçkili orqanda üzvlüyü 2009-cu ilədək davam etdi). Bu, Amerika tarixində **Birinci Xanımın** dövlət orqanına seçilməsi baxımından bir ilk idi!

O həm də ştatı təmsil edən ilk qadın senator idi! Senatda çalışdığı ilk illərdə o, Buş Administrasiyasını, İraqda müharibəyə başlamaq haqqında Qətnamə də daxil olmaqla bir sıra önəmli (siyasi) məsələlərdə dəstəkləyirdi. Lakin vaxt keçdikcə administrasiyanın İraqda apardığı siyasətə (və ən çox da ölkədaxili məsələlərlə bağlı yürütdüyü siyasətə) qarşı çıxdı.

2006-cı ildə Senator Klinton böyük səs çoxluğu ilə yenidən Senator seçildi.

***

1994-cü ildə onun Birləşmiş Ştatların **Birinci Xanımı** kimi başlıca təşəbbüsü olan Səhiyyə planı ABŞ Konqresi tərəfindən qəbul edilmədi. Lakin 1997-ci və 1999-cu illərdə xanım Klinton Uşaqların Səhiyyə Sığortası Dövlət Proqramının, Övladlığa Götürmə və Sağlam Ailə, habelə Himayədarlıqdan Azadolma Aktının yaradılmasında böyük rol oynadı!



Birinci Xanım olduğu illərdə o, Amerika ictimaiyyətində özünəməxsus canlanma yaratmağa və ictimaiyyətin mənəvi dəstəyini qazanmağa nail oldu. 1996-cı ildə Ağ Evdə baş vermiş əmək mübahisəsi ilə bağlı federal məhkəmə qarşısında ifadə verən Hillari Klinton bununla da məhkəmə qarşısında ifadə verən ilk Birinci Xanım oldu (lakin





həyat yoldaşının hakimiyyəti dövründə bu və ya bir sıra digər məhkəmə araşdırmaları zamanı ona qarşı heç vaxt ittiham irəli sürülmədi)...

2008-ci ildə prezident seçkiləri zamanı Hillari Klinton cüzi fərqlə Senator Barak Obamaya uduzdu.

**Onu da vurğulayaq ki, xanım Klinton Prezident kabinetində Dövlət Katibi kimi xidmət göstərən ilk (keçmiş) Birinci Xanımdır. Necə deyərlər, ad bəlli, yer bəlli, nəticə bəlli: yenə o, yenə ilk, yenə uğur!**

## Ata evinin birinci övladı

**Hillari Dayen Rodhem** 1947-ci ilin oktyabrın 26-da İllinoyis ştatında, Çikaqoda doğulub. O, öncə Çikaqoda, üç yaşından isə Park Ridge-də böyüyüb. Uels və ingilis mühacirlərin uşağı olan atası **Hyu Rodhem** tekstil sahəsində kiçik biznes sahibi olub. İngilis, şotland, fransız, Kanada və Uels əsilli (bir sözlə, beynəlmiləl ruhlu!) anası **Doroti Emma Rodhem** isə evdar qadın idi. Onun Hyu və Toni adlı, yaşca ondan kiçik iki qardaşı var.

Hillari Park Ridge məktəbində müəllimlərinin sevimlisi idi. Özü də o, bu sevgi-sayğını yalnız yaxşı oxumaqla deyil, həmçinin üzgüçülük, beysbol və digər idman növləri ilə məşğul olmaqla, habelə ictimai işlərdə çalışqanlığı ilə qazanmışdı. O, hələ məktəbdə oxuyarkən bir sıra mükafatlar qazanmağa başlamışdı. Hillari orta məktəbdə oxuyarkən Məktəb Şagird Şurasının üzvü idi və Milli Şərəf Cəmiyyətinə seçilmişdi. Təsadüfi deyildi ki, o, məktəbi "fərqlənmə" ilə bitirmişdi (1965-ci il).

Onun anası qızının azad peşəkar kariyera sahibi olmasını istəsə də, atası qızının imkanlarının gender baxımından məhdudlaşmamasını istəyir, xanımının istəyinə ehtiyatla yanaşırdı.







Siyasi cəhətdən mühafizəkar ailədə böyüyən Hillari 1960-cı il seçkiləri zamanı (hələ 13 yaşında olarkən), Güney Çikaqodakı təbliğ-təşviq işinə maraq göstərdi, toplantılara yaxından kömək etdi və elə burada da Respublikaçı **Niksona** qarşı seçki fırıldağının şahidi oldu... Bu fırıldaq, bu şahidlik yeniyetmə qız olaraq ona mənəvi təsir göstərsə də "hər ziyanda bir xeyir var" həqiqətindən çıxış edərək deyək ki, bu hal onun mətinləşməsində, gözünün açılmasında rol oynadı. Sonralar o, 1964-cü il seçkilərində Respublikaçı namizəd Berri Qoldvaterin seçki kampaniyasında könüllü kimi çalışdı - artıq 17 yaşı vardı, müəyyən təcrübəsi və müəyyən yetkinliyi də öz yerində...

Hillarinin siyasi baxışlarının formalaşmasında ona, Qoldvaterin *"Mühafizəkarın Vicdanı"* adlı klassik əsərini təqdim etmiş tarix müəlliminin və sonralar 1962-ci ildə **Martin Lüter Kinqlə** tanışlığına səbəb olmuş Metodist Kilsəsinin gənclərlə işə məsul keşişinin böyük təsiri olmuşdur.



## ...O mehriban, o əziz tələbəlik illəri

Artıq yuxarıda da vurğuladığımız kimi, Hillari Dayen Rodhem 1965-ci ildə Uellesli Kollecində siyasi elmlər üzrə təhsil almağa



başladı. Birinci kursda oxuyarkən o, Kollecin Gənc Respublikaçılar Təşkilatının prezidenti olub. O, hələ orta məktəb illərindən mənimsədiyi "seçki təcrübəsi"ni Con Lindsey və Edvard Brukun seçki kampaniyalarına yaxından köməklik göstərməklə yenidən şəkilləndirib, sərgilədi. Ancaq sonralar Amerika Vətəndaş Hüquqları Hərəkatı və Vyetnam müharibəsi ilə əlaqədar olaraq bu vəzifədən uzaqlaşan Hillari, Kilsə Keşişinə məktubunda özünü "beyində mühafizəkar, qəlbdə liberal" adlandırırdı.

1960-cı illərdə siyasi sistemə qarşı hökm sürən radikal cərəyanın əksinə olaraq, o, bu sistemdə dəyişiklik etmək yolları arayırdı. Üçüncü kursda oxuyarkən o, demokratlardan olan Yugin Makkartinin müharibə əleyhinə seçki kampaniyasını dəstəkləyirdi. Martin Lüter Kinqin qətlə yetirməsinə etiraz əlaməti olaraq o, kollecin bütün qaradərili tələbə və professor heyətini toplayaraq, iki günlük tətil keçirdi *(...Və bir ağ dərili gözəlin qaradərililərə, demokratik dəyərlərə bu şəkildə yaxınlaşması onun haqqında xoşməramlı düşüncələrə də səbəb oldu. Tələbə yoldaşları bir gün onun Amerikanın ilk qadın prezidenti ola biləcəyini düşünürdülər...).*

...O, 1968-ci ildə Mayamidə respublikaçıların Milli Qurultayında iştirak etdi, ancaq Niksonun seçki kampaniyasında üstüörtülü irqçiliyin olduğunu hiss edərək, Respublikaçılar Partiyasını tərk etdi - həm də həmişəlik!

Fakültə yoldaşlarının təkidi ilə o, kollec tarixində ilk dəfə olaraq "müraciət nitqi" ilə çıxış etdi. Yeddi dəqiqə davam edən çıxış sürəkli alqışlarla qarşılandı. Alqışlar öz yerində, lakin çıxışında, ondan öncə çıxış etmiş Senator Edvard Bruku tənqid etməsi "Life" jurnalında öz əksini geniş şəkildə tapdı.... İllinois və Nyu England qəzetləri də onun haqqında yazdı və İrv Kupcinetin televiziya tok-şousunda çıxış etdi.

Həmin yay o, yolunu Alyaskadan salaraq Maunt Makkinli Milli Parkında - ümidvaram, təəccübünüzü kontrol edərsiniz - qab yudu və Valdezdə balıq emalı vətəgəsində qızıl balıq təmizlədi...

1969-cu ildə Hillari, siyasi elmlər fakültəsini humanitar elmlər üzrə bakalavr dərəcəsi ilə bitirdi.





O, Kolleci bitirdikdən sonra Yeil Universitetinə daxil oldu. Universitetdə oxuduğu dövrlərdə o, Yeil Hüquq və Sosial Fəaliyyət İcmalında redaksiya heyətində işlədi. İkinci kursda oxuduğu zaman universitetin Uşaq Təhsil Mərkəzində uşaq beyninin inkişafının ilkin mərhələlərinin öyrənilməsinə dair aparılan tədqiqatlarda assistent kimi çalışdı.O, Yale-New Haven xəstəxanasında uşaq məsələləri ilə məşğul oldu və New Haven hüquq xidmətində yoxsullar üçün könüllü hüquqi xidmətlər göstərdi.

1970-ci ilin yayında o, Marian Vrayt Edelmanın Vaşinqton Tədqiqat Layihəsində işləmək üçün qrantla ödülləndirilir, burada o, Miqrasiya Əməyi üzrə Senator Volter Mondalın Altkomitəsinə təyin olunur. Sözügedən Komitədə Hillari miqrant fəhlələrin yerləşmə, sanitariya, səhiyyə və təhsil problemlərini araşdırdı. (Edelman sonralar tanınmış bir hamiyə çevrildi.)

O, 1970-ci ildə ABŞ-ın Konnektikut ştatının Senatına namizədliyini irəli sürmüş Cozef Dafiinin namizədlik kampaniyasında siyasi məsləhətçi Anne Veksler tərəfindən işə dəvət olundu. Hilları Klinton sonralar Veklerin siyasi sahədə ona ilk iş yeri təklif etmiş şəxs olduğunu xatırlayacaqdı...

Hillarinin Yeildə hüquq üzrə təhsil alan **Billə** tanış olduğu 1971-ci ilin yayında Kaliforniyada hüquq firmasında təcrübəyə başlayır. Firma Konstitusiya hüquqları, vətəndaş azadlığı və radikal məsələlərin dəstəklənməsi sahəsində təcrübəyə malik bir qurum kimi tanınırdı. Hillari burada uşaqların himayəsi məsələsi üzərində işləməyə başladı. Bill də yay planlarını təxirə salaraq, onunla Kaliforniyaya getdi. Onlar yenidən təhsillərini davam etdirmək üçün Nyu Hevinə (New Haven)





qayıtdılar. Növbəti yay Hillari və Bill Texasda Demokratların prezidentliyə namizədi **Corc Makgovernin** 1972-ci ilin uğursuz prezident namizədliyi kampaniyasını keçirirlər.

Hillari 1973-cü ildə Yeil Universitetini hüquq doktoru kimi başa vurur. Universiteti bitirdikdən sonra Bill Klinton ona evlənmək təklif edir, lakin Hillari bu təklifi qəbul etmir. O, Yeil Uşaq Araşdırmaları Mərkəzində uşaqlar və təbabət mövzusunda təhsilini davam etdirir. Onun ilk "Uşaq Hüquqları" elmi məqaləsi Harvard Təhsil İcmalında 1973-cü ilin sonunda dərc edildi. Yeni uşaq hüquqları hərəkatını müzakirə edərək o, "uşaq vətəndaşlar"ın "gücsüz şəxsiyyətlər" olduğunu bildirmiş və uşaqlara doğulandan həddi-buluğa çatanadək hüququ olmayan varlıqlar kimi baxılması əleyhinə olduğunu sərgiləmişdir. Məqalə çox populyar oldu və təsadüfi deyildi ki, məqaləyə o dövrdə tez-tez istinad edilirdi.

## Ailə həyatı və hüquq kariyerası

O, Uşaqların Müdafiə Fondunda vəkil, Karnegi Uşaqlar Şurasında, o cümlədən, Nümayəndələr Palatası Məhkəmə Komitəsində Uaterqeyt münaqişəsi zamanı məsləhətçi kimi çalışdı. (1974-cü il). Komitə ciddi fəaliyyət göstərirdi. Yalnız onu deməklə kifayətlənək ki, Komitənin işi, sonda Niksonun (1974-cü ilin avqustunda) istefa verməsinə gətirib çıxardı...

Elə o zamanlar Hillari Rodhemin parlaq siyasi kariyerasının ola biləcəyini düşünən Demokrat Partiyanın təşkilatçısı məsləhətçisi Betsi Urayt, gələcək kariyerasında ona dəstək olmaq üçün Texasdan Vaşinqtona köçdü. O, Hillaridə gələcək senator və ya prezident ola biləcək potensialı görürdü. Bu dövrlərdə Bill Klinton ona israrla evlilik təkliflərini davam etdirməkdə, o isə yenə də Klintonun evlilik təkliflərini rədd etməkdə idi. Lakin Vaşinqtonda hüquq imtahanından kəsildikdən və əksinə, Arkanzasda imtahanından keçdikdən sonra Hillari qəti qərarlılıq göstərdi. O, sonralar bu barədə yazırdı: ***"Mən bu dəfə ağlımı yox, ürəyimi dinlədim."*** Hillari Vaşinqtonda daha parlaq kariyeranı tərk edərək, Bill Klintonla birlikdə Arkanzasa köçdü və burada Arkanzas Universitetində (Bill Klintonla birlikdə) cinayət hüququndan dərs deməyə başladı. Fakültədə dərs deyən ilk iki qadından biri oldu.







Universitetdə ciddi və ötkəm müəllim kimi tanınan Hillari Universitetin hüquqi yardım kurslarının ilk direktoru oldu. Bill Klinton həmin il Nümayəndələr Palatasına Arkanzasdan namizədliyini irəli sürmüşdü və seçki kampaniyası üzərində işləyirdi. Hillari, yenə də evlilik barədə qərarını gerçəkləşdirməyə tələsmirdi; çünki qürurlu Hillari bununla kariyerasının başqasının adı altında kölgələnəcəyindən narahat idi...

...Nəhayətdə olan oldu. Markesin üslubu ilə desək, "Gözlənilən bir evliliy"in tarixi başladı... Hillari sonda evliliyə razı oldu və gənc cütlük 1975-ci ildə Fayettevildə ev aldı. Onların toyu 1975-ci il oktyabrın 11-də oldu. O, peşəkar fəaliyyətini "özü kimi" davam etdirmək üçün Rodhem soyadını saxlayacağını bildirirdi. Klinton 1974-cü ildə seçkilərdə qalib gələ bilməsə də, 1976-cı ildə Arkanzasın baş prokuroru seçildi və cütlük birlikdə ştatın paytaxtında Litl Roka köçdülər. Hillari burada da uşaq hüquqları sahəsində işini davam etdirirdi.



O, 1977-ci ildə "Uşaq qanunları - tərk edilmiş və unudulmuş" adlı məqalə-



lərlə çıxış etdi. Amerikanın Vəkillər Assosiasiyasının sədri sonralar deyəcəkdi: "Onun məqalələri olduqca önəmli idi, ona görə yox ki, onlar mahiyyət baxımından tamamilə yeni idilər, ona görə ki, onlar yenicə başlanğıcı qoyulan bir təfəkkürün formalaşmasına kömək edirdilər". Tarixçi **Qarri Uils** onu "son iki onilliyin önəmli alim-aktivistlərdən biri" adlandırdı. Konservatorlar isə əksinə, onun nəzəriyyələrinin ənənəvi valideyn nüfuzunu darmadağın edəcəyi; uşaqların valideynlərinə qarşı cəfəng məhkəmə iddiaları irəli sürmələrinə gətirib çıxaracağı fikrində idilər (və onun məqalələrinin hüquqi baxımdan "dağıdıcı" nəzəriyyə olduğuna israr edirdilər).

O, elə həmin ildə Arkanzas Uşaq və Ailə Vəkilləri Assosiasiyasını təsis etdi. Prezident Cimmi Karter (Hillari onun 1976-cı ildə İndianada keçirilən səyyar kampaniyasının direktoru olmuşdu) onu Hüquqi Xidmətlər Korporasiyasının idarə heyətinə təyin etdi və Hillari bu vəzifədə 1981-ci ilin sonunadək çalışdı. O, 1978-81-ci illərdə heyətin ilk qadın sədri kimi fəaliyyət göstərdi. Özü də çox uğurlu. Hillari Klinton təşkilatın büdcəsini 90 milyon ABŞ dollarından 300 milyon (!) ABŞ dollarına qaldıra bildi. Ayrıca, Hillari Prezident Reyqanın Fondun gəlirlərini azaltmaq və istiqamətini dəyişmək cəhdlərinə də uğurlu göstərdi.

Həyat yoldaşının 1978-ci ildə Arkanzasın qubernatoru seçilməsindən sonra 12 il müddətində ştatın Birinci xanımı oldu. O, 1979-cu ildə Rose Hüquq firmasının tam hüquqlu tərəfdaşı oldu. 1978-ci ildən Ağ Evə Birinci Xanım kimi köçənə qədər onun onun illik gəliri həyat yoldaşından daha çox idi.) 1980-ci ilin fevralın 27-də onların yeganə övladları Çelsi dünyaya gəldi.

O, 1982-ci ildə həyat yoldaşının seçki kampaniyasında iştirak etmək üçün hüquq firmasından məzuniyyət götürdü və seçicilərin şübhələrinə son qoymaq üşün Klinton soyadından daha tez-tez istifadə etməyə başladı. Xanım Klinton seçkilərdən sonra yenidən Hüquq firmasına ge-







ri döndü. O, məhkəmə işlərinə tez-tez qatılmasa da, firmaya çoxlu müştəri yığa bildiyinə görə daha çox qazanmağa başladı. O, təhsil, uşaqların hüquqları və bir çox istiqamətlər çox geniş fəaliyyət göstərirdi və 1983-cü ildə İlin Arkanzas Qadını, 1984-cü ildə ilin Arankzas anası adını aldı. Xanım Klinton həm də ştatda hakimlərin təyin olunmasına təsir göstərə bilirdi.

1990-cı ildə Bill Klinton qubernatorluğa namizədliyini vermək istəmədikdə Hillari bunu özü etməyi qərara aldı, lakin seçicilər arasında keçirilən özəl sorğular bunun yaxşı fikir olmadığını göstərincə də fikrindən daşındı. Və nəhayət, Bill Klinton yenidən namizəd oldu və yenidən qubernator seçildi.

## 1992-ci ilin seçki kampaniyası

Bill Klinton 1992-ci ildə Demokrat Partiyasından namizədliyini irəli sürdükdən sonra Hillariyə ölkədə diqqət daha da artdı. Ancaq Nyu Hempşir seçkilərindən qabaq Klintonun arkanzaslı müğənni ilə nikahdankənar münasibətləri olması barədə mətbuatda yazılar çıxdı. Buna cavab olaraq cütlük "60 Dəqiqə" verilişinə çıxıb açıqlamalarda bulundu. Bill Klinton deyilənləri təkzib etsə də, ailəsinə bundan mənəvi zərər dəydiyini bildirdi. Cütlüyün bu addımı Bill Klintonun seçki kampaniyasının yenidən dirçəlməsinə səbəb oldu. Bill Klinton seçki zamanı öz kampaniyasında həyat yoldaşının nüfuzunu, onun geniş ictimai fəaliyyətini və qadın arasında reytinqini nəzərə alaraq, ***"birinin dəyərinə ikisini əldə et"*** kimi ifadələrdən istifadə edirdi.





## Birinci Xanımın təfəkkür siyasəti



**Bill Klinton 1993-cü ilin yanvarında Prezidentlik fəaliyyətinə başladı və Hillari Klinton ABŞ-ın Birinci Xanımı oldu.** O, Ağ Evə daxil olmazdan öncə şəxsi kariyerası olan, habelə, Ağ Evin Birinci Xanımlara məxsus şərq hissəsində deyil, Qərb hissəsində öz şəxsi ofisi olan ilk Birinci xanımı idi.

Ağ Evə müxtəlif vəzifələrə təyinatlarda yaxından iştirak edən Birinci Xanım, Ağ Ev tarixində ən nüfuzlu Birinci xanım kimi yadda qalib. O, Amerika tarixində Eleonor Ruzveltdən sonra açıq-aydın səlahiyyətə, nüfuza, gücə malik olan Prezident xanımı kimi tanınırdı.

Bəzi tənqidçilər Birinci Xanımın ictimai həyatda, siyasətdə mərkəzi rol oynamasını uyğunsuz hesab etsələr də, tərəfdarları hələ Bill Klintonu Prezident seçərkən həyat yoldaşının fəal olacağından xəbərdar olduqlarını ifadə edirdilər. İctimaiyyətin bəzi nümayəndələri isə onun Ağ Evə gəldikdən sonra dəyişən xarici görünüşünü, imicini müzakirə edirdi və bu, onun 1998-ci ildə "Vogue" dərgisinin üz qabığında çıxan şəkli ilə bir daha öz təsdiqini tapmış oldu.

1993-cü ilin aprel ayında atasının ölümündən məyus olan Hillari Amerikanın *"yuxu xəstəliyinə düçar olmuş ürək"*lərini oyatmaq və *"yeni yüzilə keçən cəmiyyəti silkələmək"* üçün açıq şəkildə özünü Metodist nəzəriyyələrdə, liberal dini siyasi fəlsəfədə və "Tikkun"un redaktoru Maykıl Lemersin *"təfəkkür siyasəti"*ndə tapmağa çalışırdı.







## Səhiyyə və digər qanun təşəbbüsləri

O, istər **Birinci xanımlıq dönəmində**, istərsə ondan öncə və sonrakı dönəm çalışmalarında öz təşəbbüskarlığı ilə seçilib.

Prezident Klinton 1993-cü ildə Hillarini Milli Səhiyyə İslahatlarına başçı təyin etdi. O, bununla Hillarinin Arkanzasdakı təhsil islahatında göstərdiyi uğurlu nəticənin davamına ümid edirdi. Bu islahat çərçivəsində xanım Klintonun təklif etdiyi Səhiyyə planı geniş müzakirələrə səbəb oldu və bəziləri bunu "Hillarycare" adlandırmağa başladı. Bəzi əleyhdarları hətta kəskin çıxışlar edirdi və 1994-cü ilin iyul ayında sözügedən plana yardım məqsədi ilə keçirilən səyahət zamanı o, gülləyədavamlı gödəkcə geyinməyə belə məcbur oldu...

Onun bütün xoşgörülü çabalarına, habelə Demokratların hər iki palataya nəzarət etmələrinə baxmayaraq, "Plan" nə Senatda, nə də Nümayəndələr Palatasında yetərincə səs toplaya bilmədi və 1994-cü ilin sentyabr ayında rədd edildi. Xanım Klinton sonralar bu məğlubiyyəti "Yaşanan tarix" kitabında siyasi təcrübəsizliyi ilə əlaqələndirsə də, digər faktorların da az rol oynamadığını yazırdı. Olaylar ictimai fikrə təsirsiz ötüşmürdü.



Birinci Xanımın fəaliyyətinin ilk ilində 50 faizdən yuxarı olan reytinqi 1994-cü ilin aprel ayında 44 faizə, 1994-cü ilin sentyabr ayında isə 35 faizə düşdü. Bir çox analitiklər və tədqiqatçılar "Plan"ı Demokratların məğlubiyyətində əsas



faktor hesab edirdilər. Opponentləri hələ də başqalarının buna oxşar "Plan"larına "Hillarikeir" kimi təhqiredici damğa vurmaqda davam edirdilər. Beləliklə, bəlli gedişatı göz önündə tutan Ağ Ev, Hillari Klintonun siyasi səhnədə rolunu azaltmağı məqsədəuyğun saydı.

Baxmayaraq ki, 1994-cü il seçkilərində respublikaçılar Birinci Xanımın Səhiyyə planını əsas təbliğat mövzusuna çevirdilər və bununla da Nümayəndələr Palatasında 53 yer, Senatda isə 7 yer qazanaraq, hər iki palatada tam üstünlük əldə etdilər.

1997-ci ildə o, senatorlar Ted Kenedi və Orrin Hatçla birlikdə "Uşaqların Səhiyyə Sığortası" Dövlət Proqramının təbliğatına başladı. Proqramın məqsədi valideynləri tərəfindən səhiyyə sığortası ilə təmin edilə bilməyən uşaqlara dövlət dəstəyi idi. O, bütün ölkə ərazisində uşaqların xəstəliklərə qarşı peyvənd olunmasını, yaşlı qadınların isə döş xərçənginin qarşısının vaxtında alınması üçün mamoqram etdirilməsini önərirdi.

O, Milli Səhiyyə Təsisatlarında prostat vəzi xərçənginin və uşaq astmasının müalicəsi üçün tədqiqat işlərinə maliyyə yatırımının artırılmasına nail oldu. Birinci Xanım həmçinin Körfəz Savaşı sindromu kimi tanınan Körfəz savaşı veteranlarının düçar olduqları xəstəliklər haqqında hesabatların araşdırılması üzərində çalışırdı.

O, baş prokuror Canet Reno ilə birlikdə Ədliyyə Departamentində Qadınlara Qarşı Zorakılıq Mərkəzini təsis etdi. 1997-ci ildə özünün Birinci Xanım kimi ən böyük uğuru hesab etdiyi "övladığa götürmə və sağlam ailə" Aktını, 1999-cu ildə "Himayədarlıqdan azad olma" Aktını irəli sürdü.

Hillari Klinton Birinci Xanım kimi Ağ Evdə bir çox konfranslar təşkil etdi. O, "Uşaqlara qayğı" (1997), "Erkən uşaq inkişafı və öyrənməsi" (1997), "Uşaqlar və yeniyetmələr" (2000), "Gənclər" (2000) və "Xeyriyyəçilik" (1999) barədə ilk Ağ Ev konfranslarına təşkilatçılıq etdi.





Xanım Klinton bu dövr ərzində 79 ölkəyə səfər etməklə, ona qədər ən çox səyahət edən **Birinci Xanım kimi tanınan Pat Niksonu geridə qoydu.** 1995-ci ildə Güney Asiyanın 5 ölkəsinə qeyri-rəsmi səfər etməklə, Hindistan və Pakistanla münasibətləri inkişaf etdirməyə çalışdı. Heç şübhəsiz ki, bu, onun daha sonrakı diplomatiya kariyerasında önəmli rol oynadı. 1995-ci ildə Pekində keçirilən IV Dünya Qadınlar Konfransında çıxış edən Klinton, dünyada, eləcə də Çin Xalq Respublikasında qadınlara yönəlik zorakılıq aktlarına qarşı çıxaraq, qadın hüquqlarının insan hüquqlarından ayrı müzakirə olunmasının qəbuledilməzliyini vurğuladı. O, 1990-cı illərdə dünyanın, Taliban rejiminin Əfqan qadınlarına münasibətinə (münasibətsizliyinə!) qarşı çıxış edən ən görkəmli lider qadınlarından biri idi.

Söz vaxtına çəkər deyirlər, mən bu sətirləri yazarkən, televiziya kanalında, xanım Klinton (ABŞ-ın dövlət katibi olaraq) Haitiyə şəfqət səfərinə (onun vərəm əleyhinə kampaniyaya dəstəyinə) həsr olunmuş süjet yayımlanır. İllər dəyişir, situasiyalar dəyişir, Hillari Klintonun daşıdığı dövlət və ictimai vəzifələr dəyişir, amma onun qadın, xanım kimliyindən irəli gələn şəfqət missiyası dəyişmir, daha doğrusu, müsbət işarə ilə dəyişir!

Yenidən xanım Klintonun "Birinci Xanım"lıq dönəminə qayıdaq. Hillari Klinton qadınların öz ölkələrinin siyasi həyatında yaxından iştirakını dəstəkləyən "Canlı Səslər" uluslararası təşəbbüsünün də müəllifi idi *(Deməliyik ki, onun təşəbbüsləri, təklifləri bir çox nəticələr doğururdu. Məsələn, adı keçən təşəbbüsün və Klintonun şəxsi səfərlərinin nəticəsi olaraq, qadınlar Quzey İrlandiya sülh prosesində səslərini eşitdirməyə başlamışdılar.)*.



***

1998-ci ildə Prezident Klintonun Ağ Evdə təcrübə keçən Monika Levinski adlı gənc xanımla münasibətlərinin olması iddiaları qalmaqa-



la səbəb oldu. Bu da nəticədə Prezident Klintonun məhkəməyə cəlb olunmasına gətirib çıxardı. Olaya münasibət bildirən Hillari Klinton qalmaqalın həyat yoldaşının rəqibləri tərəfindən təşkil olunmuş bir plan olduğunu açıqladı. Klintonla Levinski arasında münasibətlər təsdiqləndikdən sonra o, ictimaiyyətə açıqlamasında ailəsinə sadiq qalacağı barədə məlumat verərək, necə deyərlər, soyuqqanlı bir qətiyyət sərgilədi (ancaq gizli məlumatlara görə, bir ara nikahlarının davam etməsinin (mümkünlüyünün) sual altında olduğunu da dilə gətirmişdir).

Bu hadisədən sonra Hillariyə, onun açıqlamalarına müxtəlif ictimai reaksiyalar gəlməyə başladı. Bəzi qadınlar onun ailə məsələsinin ictimai şəkildə müzakirə olunmasına qarşı güclü dayanışına həsəd aparır; bəziləri onu ərinin hərəkətlərinin qurbanı adlandırır; bəziləri isə öz kariyerası naminə belə bir nikahı davam etdirməsinə görə Hillarini qınayırdılar. Ancaq rəy sorğularında onun reytinqi 70%-ə qədər artdı ki, bu da Hillarinin Birinci Xanım olduğu müddətdə ən yüksək göstərici idi. Daha sonra, Hillari öz xatirələrində, bu evliliyi davam etdirməsinin səbəbi barədə yazırdı: ***"Məni heç kim Bill qədər başa düşə və güldürə bilməz. Bu qədər illər keçməsinə baxmayaraq, mən hələ də Bill qədər maraqlı, onun qədər həyat (və eşq) dolu insan tanımıram".***

Onun bu açıqlaması ən azı iki baxımdan diqqətəlayiqdir. Birincisi, topluma, ikincisi, həyat yoldaşının özünə mesaj verməsi, onunçün nələrin, hansı hisslərin daha ön planda olması (bildiyini bilib də, öz ləyaqət və qürurunu əzmli şəkildə saxlamağı bacarması) anlamında... Digər yandan, üslubu (ifadə tərzi), olayı mürəkkəblilikdən çıxarıb da, sadə müstəvi üzərinə çıxarması ilə ("...güldürə bilməz!" şəklində)...







## Ənənəvi vəzifələrdə yeni təcrübə

Klinton tarixi yerləri və əşyaları qorumaq və federal fondların özəl fondlara köçürülməsini təşkil etmək məqsədilə ***"Amerikanın Sərvətlərini Qoruyaq"*** Proqramının təsisçisi olub. O, Ağ Ev Millenium Şurasının başçısı olmuş, Millenium Axşamları təşkil edib. O, Jaklin Kennedi bağında yığılıb qalmış çağdaş Amerikan heykəllərini "Heykəllər bağı"nda bir yerə toplamağa nail oldu və bu onun təşəbbüsü və təşkilatçılığı ilə həyata keçirildi.

Amerikan incəsənət xadimləri tərəfindən bağışlanmış əl işlərinin Ağ Evdəki "Ştatlar otağı"nda nümayişini də o, təşkil edib. Bundan əlavə, xanım Klinton, James Monroe dövrü üçün önəmli olan *"Mavi otağ"*ı təmir etdirib; *"Saziş otağı"*nı XIX yüzillikdəki görünüşünə, *"Xəritə otağı"*nı isə II Dünya müharibəsi zamanındakı görünüşünə uyğun yenidən bərpa etdirib. Xanım Klinton Ağ Evdə Müqəddəs Patrik Gününə həsr olunmuş qəbul, Çinin rəsmi şəxslərinin şərəfinə təşkil olunmuş dövlət səviyyəsində nahar, dövlət məktəblərində musiqi təhsili üçün maliyyə vəsaitinin yığılması məqsədi güdən konsert, XXI əsrin gəlişi münasibəti ilə yeni ilin, yeni yüzilliyin qeyd olunması *(habelə, 2000-ci ilin noyabr ayında Ağ Evin iki yüzilliyi münasibəti ilə nahar)* kimi böyük miqyaslı tədbirlərə sahiblik edib.

## 2000-ci ilin Senat seçkiləri



1998-ci ilin noyabrında, uzun müddət Nyu Yorkdan senator olan **Daniel Patrik Moynihan** vəzifədən gedəcəyini elan etdi. Demokratlardan olan nümayəndələr, o



cümlədən **Çarlz Rangel** xanım Klintonu bu vəzifə üçün öz namizədliyini irəli sürməyə çağırdı. Bu qərarı aldıqdan sonra Klintonlar, necə deyərlər, bu işin üsulu gərəyincə, Nyu York şəhərinin quzeyində özlərinə yeni ev aldılar. Və xanım Klintonun timsalında daha bir "ilk" - Birinci xanımın dövlət orqanına seçkilərdə namizədliyini irəli sürməsi faktı meydana gəlmiş oldu.

Öncə Klintonun rəqibinin Nyu Yorkun meri **Rudi Ciuliani** olacağı gözlənilsə də, 2000-ci ilin mayında Ciuliani səhhəti ilə bağlı namizədliyini geri götürməli oldu və Klintonun rəqibi Respublikaçı Rik Lazio oldu. Rəqibləri onu heç vaxt Nyu Yorkda yaşamadığına və əvvəllər ştatın siyasi həyatında iştirak etmədiyinə görə ittiham edirdilər. Kampaniyası dövründə Klinton ştatın hər bir əyalətini kiçik qruplarla gəzərək problemlərlə tanış olurdu. O, diqqəti öncəliklə ştatın əsasən "Respublikaçı" olan quzey əyalətlərinə cəlb etdi. Klinton burada iqtisadi vəziyyəti 200 000 iş yeri açmaqla düzəldəcəyi vədini verirdi.

Onun planına vergiləri azaltmaqla iş yerlərinin və özəlliklə də texnika sahəsində yatırım qoyuluşunu artırmaq daxil idi. O, kollec ödəmələrinə görə şəxsi vergilərin azaldılması təklifi ilə çıxış etdi. Bu seçki kampaniyasına Lazio, Klinton və Ciulianinin xərcləri, birlikdə rekord həddə çatmışdı: 90 milyon ABŞ dolları! 2000-ci il noyabrın 7-də Klinton seçkilərdə Lazionun 43% səsinə qarşı 55% səs toplamaqla qalib gəldi və 2001-ci il yanvarın 3-də ABŞ senatoru kimi and içdi.





## Senator (birinci müddət)



Senata daxil olduqdan sonra xanım Klinton, hər iki partiya nümayəndələri ilə münasibətləri yaxşılaşdırmağa başladı. O Senatda 5 komissiyada - Büdcə Komissiyası (2001-2002), Silahlı Xidmətlər Komissiyası (2003-cü ildən sonra), Səhiyyə, Təhsil, Əmək və Pensiya Komissiyası (2001-ci ildən sonra), habelə, "Yaşlanma üzrə xüsusi komissiya"da fəaliyyət göstərib. O, həm də Avropa Təhlükəsizlik və Əməkdaşlıq Komissiyasının üzvü idi.

2001-ci il 11 sentyabr hadisələrindən sonra Nyu York şəhərində və ştatında təhlükəsizlik sahəsini inkişaf etdirmək məqsədi ilə yeni maliyyə qaynaqları axtarmağa başlayan xanım senator Dünya Ticarət Mərkəzinin bərpası üçün lazım olan 21 milyon ABŞ dollarının yığılmasında çox vacib rol oynadı. Hillari 11 sentyabr hadisəsinin şahidləri olmuş insanların sağlamlıq durumlarının araşdırılmasında yaxından iştirak etdi. 2001-ci ilin oktyabr ayında terrorizmə qarşı mübarizənin gücləndirilməsinə yönəlmiş ABŞ Vətənpərvərlik Aktına səs verən senatorların sırasında o da vardı.

## Xanım Klinton: əleyhinə, lehinə...

***O, ABŞ-ın 2001-ci ildə başlamış məlum Əfqanıstan hərbi əməliyyatlarının, 2002-ci ilin oktyabrında isə o vaxtkı prezident Corc Buşun İraq müharibəsi Qətnaməsinin lehinə səs verib.***

İraq müharibəsi başlandıqdan sonra Klinton İraqa və Əfqanıstana səfər edərək oradakı ABŞ hərbiçilərinin durumu ilə yerindəcə tanış oldu. 2005-ci ildə o, İraqdan qoşunların qısa müddət ərzində çıxarıl-




ması ilə razılaşmasa da, Buş Administrasiyasının **"işimizi sona yetirənədək orda qalacağıq"** fikri ilə də razı deyildi. Onun bu mövqeyi qoşunların dərhal çıxarılması fikrini dəstəkləyən Demokratik Partiya üzvlərinin ciddi narazılığına səbəb olurdu. Klinton veteranlara sağlamlığa görə müavinətin artırılması fikrini dəstəkləyir və bir neçə hərbi bazanın bağlanması əleyhinə çıxırdı.

Xanım Klinton Prezident Buşun vergi azalmaları barədə iki önəmli qanun layihəsinin əleyhinə səs vermiş, o cümlədən, Con Robertsin ölkənin Baş hakimi təyin olunmasının və Samuel Alitonun ABŞ Ali Məhkəməsinə təyinatının əleyhinə səs verir. 2004 və 2006-cı illərdə o, eynicinsli şəxslərin nikaha daxil olmasını qadağan edən Federal Nikah barədə dəyişikliyin əleyhinə səs verənlərdən biri olur.

## 2006-cı ilin seçki kampaniyası

2004-cü ildə o, yenidən namizədliyini irəli sürəcəyini elan etdi. Respublikaçılar Partiyasından olan Vestçester Qraflığının əyalət prokuroru **Cianin Pirro** zəif təşkil olunmuş kampaniya nəticəsində öz namizədliyini geri götürdü. Klintonun seçkilərdə əsas rəqibi respublikaçı **Con Spenser** oldu. O, 7 noyabr 2006-cı ildə səslərin 67%-ni toplamaqla Spenserə qalib gəldi. Bu həmin ilki seçkilərdə qalib gəlmək üçün toplanmış ən yüksək səs idi. O, seçki kampaniyasına 36 milyon ABŞ dolları (!) pul xərcləmişdi.







## Senator (ikinci müddət)

Xanım Hillari Klinton 2007-ci ildə Prezident Buşun İraqdan qoşunları çıxarmaq üçün lazım olan pul ehtiyatlarını xərcləməsinə imkan verən qanun layihəsinin lehinə səs versə də, sonda layihə Buşun özü tərəfindən veto qoyularaq arxivə göndərildi.

O, 2007-ci ildə general Deyvid Petrausun İraqdakı vəziyyət barədə Konqresə Hesabatına cavab olaraq bu hesabata inamsız olduğunu dilə gətirdi, həmin ilin may və iyun aylarında Təhlükəsiz Sərhədlər, İqtisadi imkan və İmmiqrasiya islahatları üzrə Aktın lehinə bir neçə dəfə səs versə də, Akt Senatdan keçmədi.

2007-ci ilin mart ayında ABŞ prokurorlarının işdən çıxarılması ətrafında yaranan səs-küyə cavab olaraq, xanım Klinton Baş Prokuror Alberto Qonzalesi istefa verməyə çağırdı.

2007-2008-ci illlər maliyyə böhranının pik səviyyəyə çatması ilə ABŞ maliyyə sisteminə yardım layihəsini dəstəkləyən Hillari Klinton 700 milyard dollarlıq ***"Təcili İqtisadi Balanslaşdırma Akt"***ının (2008-ci il) lehinə səs verdi. Akt senatdan 74 - 25 səslə keçdi.

## 2008: dəyişiklik istəyi təcrübədən üstün oldu




Klinton ABŞ prezidentliyinə namizədliyə 2003-cü ilin əvvəllərindən hazırlaşırdı. 2007-ci il, yanvarın 20-də o, veb-səhifəsi vasitəsi ilə prezident seçkilərinə namizədliyini irəli sürdüyünü açıqladı və əlavə etdi: ***"Mən gəlirəm və mən qalib gələcəm!"*** O zamana qədər heç bir qadın əsas partiya tərəfindən ABŞ prezidentlyinə namizəd göstərilməmiş-



di! (seçilməmişdi).

Sonralar açıqlanan hesabatlardan bəlli olmuşdur ki, Klinton cütlüyünün sərvəti 50 milyon ABŞ dolları təşkil edir və onlar 2000-ci ildən bəri 100 milyon ABŞ dolları qazanmışlar. Bu vəsaitin çox hissəsi Bill Klintonun kitablarından, çıxışlarından və digər fəaliyyətlərindən əldə edilmişdir.

O, 2007-ci ilin birinci yarısında Demokratlardan olan namizədlər arasında liderliyi qoruyub saxlamışdı. Sorğular onun əsas rəqiblərinin İlinoyisdən olan senator Barak Obama və Quzey Karolinadan olan senator Con Edvards olduğunu göstərirdi. Klinton və Obama ilin seçki ehtiyatlarını rekord həddə çatdırdılar. 2007-ci ilin oktyabr sorğularının nəticələrinə görə ilkin seçkilərin keçiriləcəyi 6 ştatda Klinton öz rəqiblərini geridə qoyurdu. Oktyabrın sonunda Klintonun Obama, Edvards və digər rəqibləri ilə debatının nəticələri o qədər güclü olmadı.

Obamanın seçki kampaniyasının şüarı olan "Çeync" ("Change" - "Dəyişiklik"), Klintonun "Ekspiriyens" ("Experience" -"Təcrübə") şüarından daha qüvvətli səslənməyə başlayınca, Klinton artıq dekabr ayında sorğu nəticələrinə görə öz yerini itirməyə başladı...

2008-ci ilin ilkin seçkilərində o, yanvarın 3-də Ayovada 3-cü oldu. Sorğular Nyu Hempşir ştatında da onun məğlub olacağını göstərsə belə, bu dəfə (yanvarın 8-də) Nyu Hempşir ştatında Obamaya qalib gəldi. Bunu çoxları onun qadınlar tərəfindən rəğbət görməsi ilə əlaqələndirirdilər. Yanvarın 26-da Güney Karolina seçkilərində Obama qalib gəldi. **Edvards** seçkilərdən çəkildi və Klintonla Obama mübarizəni uzun müddət davam etdirdilər. Super Çərşənbə axşamı seçkilərində Klinton ən böyük ştat-









ların-Kaliforniya, Nyu York, Nyu Cersi və Massaçusetsin səslərini qazansa da Obama daha çox ştatda qalib gəldi və demək olar ki, onlar ümumi səsləri yarıya böldülər. Xanım Klinton Super Çərşənbədə qalib gələcəyinə inansa da seçkilərin yenidən davam etdirilməsi üçün maliyyə və təşkilatçılıq cəhətdən buna hazır deyildi. O, bu dəfə internet üzərindən çağırışlar edərək, seçki kampaniyasına pul toplamağa başladı. Onun rəqibi Obama də boş durmurdu və təsadüfi deyil ki, fevral seçkilərində nəzərəçarpacaq dərəcədə irəliyə çıxdı. Obama əsasən Afro-Amerikalıların, tələbələrin (ümumən, gənclərin), savadlı seçicilərin daha çox olduğu ştatlarda, Klinton isə ispan-amerikalı, ortayaşlı, işçi sinif və universitet təhsili almayan seçicilər çox olan ştatlarda yaxşı nəticələr göstərirdi. Ancaq demokratların bəzi tanınmış nümayəndələri ikili arasında gedən mübarizənin, sonuncu (əsas) seçkilərdə respublikaçı Con Makkainə qarşı mübarizədə qalibi pis vəziyyətə sala biləcəyindən narahat idilər.

...Aprelin 22-də o, Pensilvaniyada qalib gəldi. Ancaq daha sonrakı günlərdə İndiana və Quzey Karolinadakı məğlubiyyət xanım Klintonun əsas seçkilərdə namizədlik şansına tamamilə son qoydu. Buna baxmayaraq, o, ***"Uduzmağı qəbul etmək olar, ancaq işi yarımçıq qoymağı qəbul edə bilmərəm"*** deyərək, yenə də seçkiləri davam etdirirdi. Bundan sonra xanım Klinton, daha bir neçə ştatda qalib gəlsə də nəticədə, Obama qədər səs toplaya bilmədi.



İyunun 3-də, sonuncu seçkilərdə Obama namizəd olmaq üçün kifayət qədər nümayəndə qazandı. İyunun 7-də seçiciləri qarşısında çıxış edən Klinton kampaniyasının




sona yetdiyini açıqlayaraq, ***"Mübarizəmizi davam etdirərək məqsədlərimizə çatmaq üçün bütün enerjimizi, gücümüzü və ehtirasımızı toplayıb Barak Obamanın seçilməsinə kömək etməliyik"*** - dedi.

Xanım Kilonton 2008-ci il Demokratların Milli Konvensiyasında Obamanın ünvanına ruhlandırıcı fikirlər deyərək, həmin ilin payızında tez-tez onun kampaniyasını dəstəkləmək üçün çıxışlar edirdi. "...Ehtirasımızı toplayıb..." ifadəsini işlətsə də, xanım Klinton rəqiblikdən əməkdaşlığa keçidi özünəməxsus soyuqqanlılıqla gerçəkləşdirdi və biz deyərdik, illərdir formalaşdırdığı imicinə sadiq qaldı. Ardından isə Ağ Ev gəlirdi...



## Yenə Ağ Ev: bu dəfə dövlət katibi kimi...

2008-ci il, noyabrın ortalarında Prezident seçilmiş Barak Obama Klintona Dövlət katibi vəzifəsini təklif etdi və bu məlumat noyabrın 21-də rəsmi şəkildə təsdiqləndi. Hər şey hadisələrin məntiqinə uyğun gedirdi. Dekabrın 1-də Barak Obama rəsmi şəkildə Klintonun





Dövlət katibliyinə namizədliyini irəli sürdü. Hillari Klinton Senatı tərk etmək istəməsə də, yeni vəzifənin onun üçün "həm çətin, həm də maraqlı" olacağını qeyd etdi.



2009-cu il, yanvarın 13-də Senatın Xarici Əlaqələr Komitəsində təsdiqlə bağlı dinləmələr başladı və iki gün sonra 16:1 səs çoxluğu ilə Klinton Dövlət katibi vəzifəsinə təsdiq olundu. Bu zaman artıq Hillari Klintonun reytinqi 65%-ə çatdı. 2009-cu il yanvarın 21-də Klinton Senatda 94:2 səslə dəstək alaraq ABŞ-nın Dövlət Katibi oldu.

Yeni vəzifəsinin ilk günləri Hillari Klinton dünya liderlərinə zəng edərək, ABŞ xarici siyasətinin istiqamətinin dəyişdiyini bildirməkdə idi. O, qlobal iqtisadi böhran məsələsində Dövlət Departamentinin, uluslararası münasibətlərdə (özəlliklə də İraqda) ABŞ diplomatik missiyasının rolunun artırılmasının vacibliyini qeyd edirdi. O, uluslararası münasibətlər üçün büdcənin artırılmasına çalışırdı və Obama Administrasiyası 2010-cu il dövlət büdcəsində Dövlət Departamenti və digər uluslararası proqramlar üçün büdcəni 7% artırdı. 2009-cu ilin martında Əfqanıstana daha 20 000 qoşun göndərilməsi barədə müzakirələrdə Klinton vitse-prezident Joe Baydenə üstün gəldi.

Hilllari Klinton öz vəzifəsi üçün çox ambisiyalı olan islahatlara başladı. Bu, (əvvəllər Müdafiə Departamentində də istifadə olunmuş oxşar prosesdən istifadə edərək) Dövlət Departamentinin xaricdəki missiyaları üçün spesifik məqsədlər təyin etməyi nəzərdə tuturdu. Həmin ilin sentyabrında o, həyat yoldaşı Bill Klintonun "Klinton Qlobal Təşəbbüsü"nün illik toplantısında Qlobal aclıq və ərzaq təhlükəsizliyi təşəbbüsünün əsasının qoyulduğunu açıqladı. O, ABŞ-ın Pakistandakı reputasiyası-

nı xilas etmək məqsədi ilə orada tələbələrlə, jurnalistlərlə və qəbilə başçıları ilə görüşlər keçirdi. Həmin ayda ondan siyasi gələcəyi barədə soruşulduqda belə cavab verdi: ***"Mən bir də heç vaxt prezidentliyə namizədliyimi irəli sürməyəcəyəm"***. Və (öz siyasi üslubuna sadiq qalaraq) əlavə edirdi: ***"Heç vaxt. Heç vaxt!"***

2010-cu ilin yanvar ayında etdiyi çıxışında Klinton Dəmir Pərdə, eləcə də Azad və azad olmayan İnternet arasında müqayisə apardı. Çinin rəsmiləri buna mənfi reaksiya verdi və ilk dəfə idi ki, Amerikanın yüksək rütbəli şəxsi interneti ABŞ xarici siyasətinin yayılması üçün əsas vasitə hesab etdiyini gündəliyə gətirirdi. Hillari Klinton Administrasiya daxilində komanda üzvü, kənarda isə onun aktiv müdafiəçisidir.

Bəlkə bu yerdə xatırlamağımız uyğun olardı, o, qızı Çelçinin 2010-cu ilin 31 iyulunda keçirilən (və mətbuatın diqqət mərkəzində olan) toy mərasimi ərəfəsində, Koreya, Vyetnam, Pakistan və Əfqanıstana səfər etdi. Sanki nümayişkaranə şəkildə demək istəyirdi: Ailə ailədir, iş də iş!.. İsrail-Fələstin münaqişəsi ilə bağlı dondurulmuş sülh danışıqlarının 2010-cu ilin sentyabr ayında bərpasında Hillari Klinton ciddi rol oynasa da uzun illərdir davam edən bu münaqişənin həlli istiqamətində hələ də ciddi uğurlar əldə etmək mümkün olmayıb. 2010-cu ilin noyabr ayında başlayan WikiLeaks saytının Dövlət Departamentinin ABŞ-ın və xarici diplomatların hesabat və qiymətləndirmələrindən ibarət məxfi məlumatlarını açıqlamasından sonra Hillari Klinton ABŞ-ın bu cür vəziyyəti aradan qaldırmaq tədbirlərinə rəhbərlik etdi ( edir də deyə bilərik).







## Daha çox liberal, bir az moderat, bir az da mühafizəkar...



2005-ci ilin mayında keçirilən sorğularda respondentlərin 54%-i Klintonu liberal, 30%-i moderat, 9%-i isə mühafizəkar adlandırdı.

"Milli Jurnal"da (National Journal) nəşr olunmuş nəticələrə uyğun olaraq o, 2006-cı ildə 32-ci ən liberal, 2007-ci ildə isə 16-cı ən liberal senator kimi göstərildi.

Prinston Universitetinin (Princeton University) politoloqu Coşua D.Klintonun (Joshua D. Clinton) və Stanford Universitetinin politoloqları Simon Cakmən (Simon Jackman) və Duq Riversin (Doug Rivers) 2004-cü ildə apardıqları təhlil nəticəsində ən liberal Senator hesab edilmişdir. O, çoxlu sayda yerli və beynəlxalq mükafatların sahibidir.



## ...Və sonda

Hillari Klinton bu gün dünyanın "superdövlət"i adlandırılan ABŞ-ın xarici siyasət idarəsinə başçılıq edən isim, dünya lider qadınlarının gəlmiş-keçmiş və bugünkü ən ünlü şəxsiyyətlərindən biridir. **O, adını TARİXə əbədi yazmış qadınlardan biridir...** Onu bugünkü uğurlarına gətirən yol



asan başa gəlməyib. Çətinliklər, əziyyətlərdən sınmamaq, geri çəkilməmək, arzu və ideallarının arxasınca yorulmadan getməyin nəticəsi idi böyük siyasətdə, dünyada və tarixdə özünü təsdiq edə bilmək və adını TARİXƏ əbədiyyən yazmaq!

Bir **Lider Qadından**, bir **Başarılı Qadından** və bir də **Cazibədar, Xarizmatik Qadından** bəhs etdim. Onunla nədəsə (nə barədəsə) mübahisə etmək, razılaşmamaq olar, amma, necə deyərlər, ***"brend"***ə çevirdiyi Hillari Klintonluğunu gözardı etmək, danmaq əsla olmaz!

**Uğurlar, xanım Klinton!**





Fransuaza Barre-Sinussi

# FRANSUAZA DÜNYAYA SƏS SALAN FRANSIZ QIZI







- **O, XX yüzilin ən təhlükəli balasını - QİÇS virusunu kəşf edən qadın kimi adını tarixə qızıl hərflərlə yazdı!**
- **1983-cü ildə apardıqları tədqiqatların nəticəsində professor Lyuk Montanye ilə birgə O - Barre-Sinussi insan immunçatışmazlığı virusunu (HİV/QİÇS/AİDS) kəşf etdiyinə görə Nobel ödülünə layiq görüldü!**

Onun bu kəşfi bəşəriyyət üçün ən böyük xidmətlərdən sayılır. Bu kəşf dünyanı vahiməyə salan QİÇS-lə ciddi mübarizənin əsasını qoydu - dünya səhiyyəsini bəlli bir problemlə bağlı qeyri-müəyyənlikdən müəyyənliyə çıxardı. Təsdüfi deyil ki, **Fransuaza Barre-Sinussi** (Françoise Barre-Sinoussi) 1996-cı ildə planetin 100 ən nüfuzlu qadınının sırasına daxil oldu!

Fransız virusoloqu, 2008-ci ildə tibb və fiziologiya sahəsində (Lyuk Montanye ilə birgə) Nobel ödülü almış Fransuaza Barre-Sinussi 30 iyul 1947-ci ildə Parisdə anadan olmuşdur. 1972-ci ildə Parisdə Sorbon Universitetini bitirib. Bundan sonra Paster İnstitutunda oxuyaraq, virusologiya sahəsində fəlsəfə doktoru elmi dərəcəsi alıb. 1975-76-cı illərdə ABŞ Milli Elm Fondunda doktorluqsonrası təcrübə dövrü keçmişdir. Barre-Sinussinin tədqiqatı müəyyən virus qrupu - retroviruslar haqqında idi.

1983-cü ilin yanvar ayında Paster İnstitutunun bir qrup tədqiqatçısı professor **Lyuk Montanyenin** başçılığı altında ilk dəfə yeni - əvvəllər bəlli olmayan virus aşkarladı. Ona Lifadenopatiya Birləşmiş Virusu adı verildi və onun QİÇS-lə əlaqəli olması fərziyyəsi irəli sürüldü.





1983-cü ildə apardıqları tədqiqatların nəticəsində professor Lyuk Montanye ilə birgə Barre-Sinussi insan immunçatışmazlığı sindromuna yol açan virusu (QİÇS virusu, HİV) kəşf etdi. Onların bu kəşfi bəşəriyyət üçün ən böyük xidmətlərdən sayılır. Yuxarıda da vurğuladığımız kimi, bu kəşf dünyanı vahiməyə salan QİÇS-lə ciddi mübarizənin əsasını qoydu!

Jurnalistlərin *"Virusu kəşf etdiyiniz gün haqqında danışın"* xahişinə xanım Barri-Sinussi belə cavab vermişdi: "Onun kəşf edildiyi gün haqqında danışmaq qeyri-mümkündür. Buna həftələr, aylar sərf olunub. İş bir neçə mərhələdən ibarət idi. Öncə biz virus daşıyıcısı olan ilk xəstədə virusun aktivliyini müəyyən etdik. Bu aktivlik HİV-in də aid olduğu retroviruslara oxşayırdı. Sonra limfositlərin tədricən məhv olmasını müşahidə etdik. Aşkar edilənlər QİÇS-in əlamətlərinə bənzəyirdi. Üçüncüsü - ən uzun müddətli və vacib mərhələ virusun elektron mikroskopla müşahidə edilməsindən ibarət idi. Böyük səbr tələb edən bu çətin işi **Şarli Doqe** həyata keçirdi: morfologiyasındakı müəyyən fərqləri çıxmaqla retroviruslara çox bənzəyən virus hissəciklərini yaradan limfositləri izləmək vacib idi. Bu hissəciklər o vaxt bəlli olan yeganə insan retrovirusu - HTLV-yə bənzəmirdi. Nəhayət, biz çarpaz reaksiya alınıb-alınmayacağını yoxlamaq üçün reaktivlərimizi HTLV reaktivləri ilə qarışdırdıq. Cavab "yox" oldu. Bu zaman biz yeni virus tapdığımızı anladıq. Zamanla HİV tədqiqatları mənim əsas məşğuliyyətimə çevrildi və mən illərdi ki, vaxtımın çox hissəsini bu işə sərf edirəm."





Barre-Sinussi və Lyuk Montanye immunçatışmazlığının erkən mərhələsində xəstənin







limfositlərinin hansısa virusu yaratdığını aşkar etdilər. Onlar həmin virusu xəstənin qanında xəstəliyin ən son mərhələsində tapdılar. Tədqiqatçılar kəşf etdikləri retrovirusu lentivirus ("ləng" virus) adlandırdılar və onun morfologiyasını, biokimyəvi və immunoloji özəlliklərini xarakterizə etdilər. QİÇS immunsistemi, ən əsası da limfositləri məhv edir. Bu kəşf QİÇS-in biokimyəvi mexanizmini anlamaq və onun antivirus terapiyasını işləyib hazırlamaq üçün ilkin zəmin oldu!

Bu kəşf xəstəliyi nəzarətdə saxlamaq üçün diaqnostik testlərə ehtiyac olduğunu aşkara çıxardı. Barre-Sinussi xəstəliyin anadan uşağa keçməsi və xəstənin anadangəlmə müdafiəsi üzərində işləyirdi. O, 200-dən çox elmi əsərin həmmüəllifidir. 250-dən çox uluslararsı konfransda çıxış edən və gənc tədqiqatçıların yetişdirilməsində böyük əməyi olan Barre-Sinussi bir neçə elmi cəmiyyətlə, Pastor İnstitutunun komitələri və digər QİÇS təşkilatları ilə də fəal əməkdaşlıq edir. O, həmçinin Ümumdünya Səhiyyə Təşkilatının və UNAİDS-HİV-in məsləhətçisi beynəlxalq dərəcəsinə layiq görülmüşdür. Eyni zamanda, xanım Barre-Sinussi QİÇS və Hepatit Tədqiqatları üzrə Milli Agentliyin Güney-Şərqi Asiya Departamentinə başçılıq edir.

1980-ci ildən bəri Barre-Sinussi inkişaf etməkdə olan ölkələrdə xəstəliklə mübarizə sahəsində mütəşəkkil iş aparmışdır. O, belə ölkələrdə nizam-intizamla işləyən şəbəkələr təşkil etmişdir. Barre-Sinussi profilaktik tədbirlərdə və müalicədə inkişaf məqsədilə əsas tədqiqatlar və tibbi tədqiqatlar arasında daimi əlaqənin yaradılması üzərində çalışır.

Barre-Sinussi 1975-ci ildən 1986-cı ilədək Parisdə Tibbi Tədqiqatlar üzrə Milli İnstitutda tədqiqat işləri aparmışdır. 1986-cı ildən etibarən institutun elmi-tədqiqat işləri onun başçılığı altında aparılır, o, Retroviruslu Biologiya şöbəsinin rəhbəridir. Barre-Sinussinin komandasının tədqiqat proqramı QİÇS infeksiyası (meymunlarda immunitet çatışmazlığı virusu, SIV-simian immunodeficiency virus) requlyasiyası problemi üzərində cəmlənmişdir.

Bu xəstəlikdən indiyədək tam şəkildə sağalmanın mümkün olmamasına baxmayaraq, bir çox xəstələr üçün pis diaqnoz hələ ölüm hökmü de-





mək deyildir! Son vaxtlar yaradılmış dərman preparatları sayəsində QİÇS xəstəliyinə tutulmuş insanlar bir neçə onilliklər yaşaya bilərlər!

Dediyimiz kimi, bu kəşfin nəticəsi idi ki, 1996-cı ildə Fransuaza Barre-Sinussi planetin 100 ən nüfuzlu qadınları siyahısına daxil oldu! (Bu siyahı "Times" qəzeti tərəfindən hazırlanmışdı.) Barre-Sinussi QİÇS tədqiqatları sahəsindəki xidmətlərinə görə milli və uluslararası statuslu onlarla ödülə layiq görülüb!

Çağdaş dünyanın ən böyük bəlaları arasında ön sıralarda gələn QİÇS-lə mübarizə sahəsində inqilabi dəyişikliyin və yeni bir mərhələnin əsasını qoyan misilsiz elmi kəşfinə görə bütün dünya ona və bu işi həyata keçirən insanlara minnətdar olacaq.






Qeyd edək ki, HİV/QİÇS epidemiyası geniş miqyas alaraq planetdə yayılmaqda davam edir. Dünya üzrə yalnız 2006-cı il ərzində 4,3 milyon şəxs immunçatışmazlığı virusuna yoluxmuşdur, onlardan 530 000 nəfəri uşaqlardır. UNAİDS-in məlumatlarına əsasən, hazırda planetimizdə HİV infeksiyası ilə yaşayan insanların sayı 40 milyonu ötmüşdür ki, onlardan da 2,3 milyonu uşaqlardır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ekspertlərinin rəyinə əsasən, yer kürəsində yayılmağa başladığı 25 il ərzində QİÇS-dən 25 milyon insan vəfat etmişdir. Yalnız 2006-cı il ərzində QİÇS-dən dünyasını dəyişmiş insanların sayı 2,9 milyon olmuşdur ki, onlardan da 380 000 nəfəri uşaqlardır.

Bütün bu acı faktlar və rəqəmlər Fransuaza Barre-Sinussinin bəşəriyyət qarşısında nə qədər böyük xidmətlər göstərdiyini daha aydın şəkildə əks etdirir.

Xanım Barre-Sinussinin kəşfindən sonra





İmmunitet çatışmazlığı xəstəliyinin yayılmasının qarşısını almaq üçün ÜST ekspertləri QİÇS üzrə könüllü test yoxlamalarını və testlərin nəticələri "müsbət" alınan şəxslərin təcili müalicəsini təklif etdilər. Barre-Sinussi bu təklifi irəli sürənlər və dəstəkləyənlər arasındaydı. 15 yaşından başlayaraq insanların sürətli və könüllü yoxlanması və xəstələrin təcili müalicəsi təklifi *"The Lancet"* jurnalında dərc edilən məqalədə bir qrup alim tərəfindən irəli sürüldükdən sonra bu ideyanın dəstəkçilərinin sayı da çoxalmağa başladı.

Barre-Sinussi İsveç radiosunun elmi redaksiyasına müsahibəsi zamanı öz fikirlərini bu sözlərlə ifadə etdi: ***"QİÇS testlərinin və xəstəliyin ilkin mərhələlərdəki müalicəsinin köməyi ilə biz infeksiyanın yayılmasını xeyli dərəcədə azalda bilərik."***

Bilavasitə müalicə ilə məşğul olan mütəxəssislər qeyd edirlər ki, bu gün tətbiq olunan QİÇS müalicə metodları virusun aktivliyini aşağı salır. Bu da nəticə etibarı ilə virusun yayılmasını xeyli azaldır. Müəlliflər "The Lancet" jurnalında dərc olunan məqalədə göstərirlər ki, Güney Afrikada xəstəlik haqqında məlumatlara riyazi modellər tətbiq edərək, QİÇS-in yoluxma riski ən yüksək olan əhali qrupları arasında kütləvi test (və xəstələrin müalicəsini) aparmaqla 2016-cı ilə qədər min xəstədən yalnız birinin ölümlə üzləşməsi kimi aşağı göstəricini əldə etməyin mümkünlüyünü hesablamışlar.

Tədqiqatçıların fikrincə, modellərin hazırlanması və tətbiq edilməsi, əlbəttə ki, bahalıdır və ilkin mərhələlərdə 1,7 milyard dollara başa gələ bilər. Amma yoluxanların sayının azalması nəticəsində xərclərin daha sonrakı mərhələdə azalma ehtimalı vardır.

QİÇS-in kəşfindən sonra dünyanı ciddi narahat edən bu bəlaya qarşı mübarizəni genişləndirmək məqsədi ilə BMT-nin QİÇS-ə dair Ümumi Proqramı (UNAİDS-HİV) artıq kifayət qədər geniş yayılmış QİÇS-lə mübarizəyə dünyanın tanınmış adamlarını cəlb etdi. Nüfuz və təsir gücünə malik olan belə insanlar bu təhlükəli xəstəliyin yayılmasına qarşı mübarizəyə həsr olunmuş siyasi və sosial kampaniyalara rəhbərlik edirlər.





BMT-nin QİÇS-ə dair Ümumi Proqramı (UNAİDS-HİV) immunçatışmazlığı virusunun yayılmasının qarşısının alınması üzrə komissiyanı təsis etdi. Komissiyanın tərkibinə dünyada ün qazanmış siyasətçilər, idmançılar və ictimai xadimlər daxil oldu. Yeni təşkilatın məqsədi HİV profilaktik proqramlarının dəstəklənməsinə yönəlmiş çalışmalara rəhbərlik etməkdir.

Fransuaza Barre-Sinussiyə təşkilata rəhbərlik etmək təklif olunanda o, buna məmnuniyyətlə razılaşdı. İnsan immunçatışmazlığı virusunun araşdırılması sahəsində Nobel ödülü laureatı Fransuaza Barre-Sinussi və həmin ödülün digər laureatı, aparteidlə mübarizənin öncüllərindən biri Desmond Tutu komissiyanın həmsədrləri seçildilər. Yeni təşkilatın heyətinə sabiq ölkə başçıları - Çilidən Mişel Baçelet, Fransadan Jak Şirak, eləcə də uluslararası təşkilatların keçmiş sədrləri - MAQATE-nin rəhbəri Məhəmməd əl-Baradey, *"Amnesty International"*a rəhbərlik edən Ayrin Xan və UNAİDS-in keçmiş icraçı direktoru Piter Piot, tanınmış basketbolçu Mecik Conson, Afrika Birliyinin sədri Jan Pinq və *"Facebook"* sosial şəbəkəsinin yaradıcılarından biri Kris Xyuz kimi ünlü şəxslər daxil oldu.



UNAİDS açıqlamasında hər gün 7000 insanın yoluxduğu HİV infeksiyasının planetdə sürətlə yayıldığı bildirildi. HİV infeksiyasının profilaktikasına çox az diqqət ayrılmasına daha çox nəzər salınmasının vacibliyi vurğulandı. UNAİDS-in açıqlamasında, yüksək səviyyəli komissiyanın yaradılmasının, bu tendensiyanın əksini həyata keçirməkdə yardımçı olacağı böyük ümidlə vurğulandı.

Paris Paster İnstitutunun həkimləri Fransu-





aza Barre-Sinussini "HİV infeksiyasının anası" adlandırırlar. Xanım Barre-Sinussinin tibb və fiziologiya sahəsində Nobel ödülü alması hər kəsdə nikbin əhval-ruhiyyə yaratdı. Onu bu ödülə gətirən yol isə HİV sahəsində apardığı düz 25 illik yorulmaz fəaliyyətdən, tədqiqatlardan keçmişdi. O, bu gün də QİÇS-lə mübarizə yollarını araşdıranların önündə gedir.

Xanım Barre-Sinussi həyatının iki mərhələdən ibarət olduğunu deyir: 1983-cü ildən əvvəlki və sonrakı mərhələ. O, etiraf edir ki, özünü bütövlükdə virusun tədqiqinə və onun insan bədəni ilə qarşılıqlı təsirinin öyrənilməsinə, həmçinin inkişaf etməkdə olan ölkələrlə əməkdaşlığa həsr etmişdir. Həyatının ikinci mərhələsindən (1983-cü ildən) 30 ilə yaxın vaxt keçməsinə baxmayaraq, Barre-Sinussi immunçatışmazlığı virusunun sirrinin tam çözüləcəyinə inanır. Onun fikrincə, ilk iş və ilk nəticə HİV infeksiyasının kəşfidir. Bundan əlavə, xəstəliyi müəyyən edən testlərin işlənib hazırlanması, bunun da sonucunda yoluxmuş qan sahibinin donorluğuna yol verməmək, xəstələrin immunitetinin qaldırılması məqsədilə müalicə təyin etmək xəstəliyin qarşısının alınmasına doğru atılan addımlardandır.

HİV-in kəşfi, araşdırılması və çoxalması vasitələrinin incələnməsi 1990-cı illərin sonlarından geniş yayılan *"triterapiya"* adlı antivirus molekullarının işlənib hazırlanmasına şərait yaratdı. Triterapiya hətta sağalmayacaq xəstələrə də müsbət təsir göstərir. Antivirus molekulları bədəndə virusların sayını azaltmağa və xəstənin immun sisteminin bərpa olunmasına (əlbəttə ki, müəyyən qədər, lakin yenə də bərpa olunmasına!) imkan verir.

Jurnalistlərin *"Epidemiyanın miqyası gündən-günə artır. İnsanlar bu xəstəliyə yoluxur və ölürlər. Nə üçün sizə ödül məhz belə bir zamanda təqdim olunmuşdur?"* - sualını xanım Barre-Sinussi belə cavablandırır: ***"Əlbəttə, bir virusun kəşf olunması az idi. Kəşfin bütün bəşəriyyət üçün yararlı olacağına əmin olmaq lazım idi. İndi bu əminlik var və xəstəliyin müalicəsi bəllidir. Artıq HİV-i müəyyən etmək və yoluxmuş insanlara yardım etmək mümkündür. Müalicəni təyin etmək üçün mütəmadi olaraq testlərə nəzarət etmək lazımdır. Düşünürəm ki, o ixtiranın önəmini məhz indi dərk etmək lazımdır. Axı, uluslararası təşkilatlar, bütün dünya ictimaiyyəti qarşıya məqsəd qoymuşdur - ehtiyacı olan hər bir insan üçün müalicəni əlverişli şərtlərlə etmək! İndi xəstələrin cəmi 30%-i bunu etmək imkanına malikdir. Nobel ödülü zəngin dövlətlərin hökumətlərinin maliyyə yardımı göstərməsinə çağırış olacaq. Mübarizənin bu qızğın çağında ruhdan düşmək olmaz. Elm aləmində qeyri-rəsmi müsabiqə davam edir, hər kəs HİV əleyhinə dərmanı tapmaq üçün yarışır və onların maddi marağı da yoxdur. Bu qeyri-rəsmi yarış alimləri müsbət nəticələr əldə etməyə təşviq edir."***







Bu sahədə uğurlar isə getdikcə daha da artır... Ümid gündən-günə təkmilləşən dərman preparatlarına və kifayət qədər asan qorunma vasitələrinədir. QİÇS-ə yoluxanlar üçün dərmanlar hazırlanır. Onları qəbul edən xəstələr özlərini yaxşı hiss edir. Əlbəttə ki, ağırlaşmalar olur, əgər xəstəyə yaxşı qulluq edilərsə və o, düzgün müalicə alarsa, virus daşıyıcısı olsa belə, xoşbəxt və uzun bir ömür sürə bilər.

Bir neçə il öncə BMT yoxsul ölkələrin QİÇS, vərəm və malyariya kimi epidemiyalardan əziyyət çəkən sakinlərinin problemləri ilə məşğul olan Dünya Fondunu yaratdı. Yoxsul və zəngin ölkələrdə xəstəliklərlə mübarizəyə BMT, Dünya Fondu və nüfuzlu, nəhəng dövlətlər nəzarət edir. Onların təqdim etdiyi vasitələr sayəsində yoxsul və zəngin dövlətlər arasındakı tarazlığı saxlamaq mümkün olur.

HİV infeksiyasının tədqiqi ilə bağlı təcrübə-





lər ona yaxın virusla yoluxa bilən Afrika meymunları üzərində aparılmışdır. Yoluxmuş meymunlar özlərini çox yaxşı hiss edirlər, virusun mövcudluğu xəstəliyin inkişafına səbəb olmur. Tədqiqatçılar bunun səbəbini müəyyənləşdirməyə çalışırlar.

Tədqiqatlar göstərir ki, hətta müalicə almadıqda belə HİV infeksiyasına yoluxmuş anaların uşaqlarının da bu virusa yoluxma ehtimalı çox azdır. Həkimlər uşaqları bu virusdan nəyin müdafiə etdiyini müəyyənləşdirmək üçün araşdırmalar aparırlar. HİV infeksiyasının daşıyıcısı olan hamilə qadın dünyaya sağlam övlad gətirə bilər. Lakin unutmaq olmaz ki, risk hər zaman vardır.

Fransuaza Barre-Sinussi 1998-ci ildən Paster İnstitutundakı şəxsi laboratoriyasındakı çalışmalarını davam etdirir. 2008-ci ildən bəri o, anadangəlmə HİV infeksiyasının requlyasiyası problemi ilə məşğul olur.

Xanım Barre-Sinussi tibb sahəsinə verdiyi töhfələrə görə, milli və uluslararası düzeydə dəfələrlə təltif olunmuşdur. 2006-cı ildə Fransuaza Barre-Sinussi Fransanın ən yüksək ordeni - Fəxri Legion Ordeni ilə təltif edilmişdir. 2009-cu ildə Tuleyn Universitetinin Fəxri doktoru adını almışdır.

***Onun 2012-ci ildə Uluslararası QİÇS Cəmiyyətinin prezidenti olacağı gözlənilir.*** Biz bu sətirləri yazarkən həmin olacağa (gözləntiyə) hələ bir il qalır. Onun adıkeçən Cəmiyyətəin prezidenti olacağına ümidvarıq. Ümidvarıq ki, bu kitabı istər 2012-ci ildə, istərsə də ondan sonra oxuyanlar da xanım Fransuaza Barre-Sinussi haqqında yazdığımız ürəkdolusu sözlərə şərik çıxacaq, onu alqışlayacaqlar! ***Alqışlayacaqlar ki, o, QİÇS-in müəyyənləşdirilməsi və müalicəsi, bəşərin xilası üçün davamlı olaraq*** (və məhsuldarlıqla) ***çalışıb! - Çalışıb və uğurlar əldə edib, yeni uğurlara aparan cığırlar açıb!***







■ O, Kanadanın ilk və bugünə kimi yeganə qadın Baş naziridir! *(O cümlədən Britaniya Kolumbiyasında dünyaya gəlmiş yeganə Kanada baş nazirdir.)*

■ O, Kanadanın 19-cu hökumətinə başçılıq etmişdir (1993-cü il, iyunun 25-dən noyabrın 4-dək). Bundan öncələr isə üç fərqli nazirliyə rəhbərlik etmiş, o cümlədən, Kanadanın ilk qadın Ədliyyə naziri və Baş prokuroru olmuşdur!

■ Bu qadın, kanadalı siyasətçi, hüquqşünas, universitet professoru, diplomat və yazıçı Avril Phadra Douglas "Kim" Kempbelldir!

Onun 1996-cı ildə işıq üzü görmüş və "özkeçmiş"ini (həyat heykayəsini) əks etdirən "Vaxt və Şans" kitabını böyük maraqla oxumuşdum. Ən çox satılan kitablardan biri olan *"Vaxt və Şans"da "Kim" Kempbellin keçdiyi həyat yolu geniş şəkildə özü əksini tapıb. İnsana çox səmimi təsir bağışlayan kitaba bir lider, bir ictimai-siyasi xadim olan qadın Baş nazirin siyasət meydanında məhz qadın olduğu üçün üzləşdiyi çətinlikləri, haqsızlıq və ədalətsizlikləri görmək və hiss etmək o qədər də çətin deyil. Amma bütün bunlara baxmayaraq, heç vaxt sınmamaq, yolundan dönməmək, ümidlə irəliyə doğru addımlamaq, yorulmadan çalışmaq və uğurlar əldə etmək onun həyat yolu kimi kitabda da öz əksini tapır...*

Hər kəsə xüsusilə, siyasətdə olan və ya siyasətə gəlmək niyyətində olan qadınlara və qızlara oxumağı böyük məmnuniyyətlə məsləhət görərdim...





## Şəxsi həyatı

**Avril Phadra Douglas "Kim" Kempbell** 10 mart 1947-ci ildə doğulub. O, Britaniya Kolumbiyasında, Port Albernidə **Corc Tomas Kempbell** (George Thomas Campbell) və **Filis Liza Kukun** (Phyllis "Lisa" Cook) ailəsində dünyaya gəlmişdir. Kempbell 12 yaşında olarkən anası ailəni tərk etmiş və onunla bacısı Aliksin qayğısına ataları qalmışdır. Gənc yaşlarında Kempbell özünə, aktrisa Kim Novakın şərəfinə "Kim" təxəllüsünü götürmüşdür.

Erkən yaşlarında **Avril Phadra Douglas** "Kim" Kempbell CBS kanalının Uşaq televiziya klubunda aparıcı və müxbir kimi çalışmışdır. "Kim" Kempbell və ailəsi daha sonralar Vankuvere köçmüş və burada o, Uels şahzadəsinin adını daşıyan orta məktəbdə təhsil almışdır. O, məktəbin ilk qadın şagird prezidenti olmuş və buranı 1964-cü ildə bitirmişdir.



## Universitet illəri



O, Britaniya Kolumbiyası Universtetinin Siyasi elmlər fakültəsini 1969-cu ildə fərqlənmə ilə bitirmişdir. O, tələbə təşkilatlarında fəal iştirak etmiş və birinci kursların ilk qadın prezidenti olmuşdu. O, daha sonra universitetdə bir illik magistr kursunu bitirmiş və doktorluq səviyyəsində elmi fəaliyyətinə başlamışdır. "Kim" Kempbell 1970-ci ildə London İqtisadiyyat Məktəbinə daxil olmuş və burada Sovet İttifaqı sahəsində doktorluq işinə başlamışdır.







Bu vaxt ərzində o, 1972-ci ilin aprel-iyun aylarını keçmiş SSRİ-də keçirmişdir. O, bir neçə il ərzində rus dilini mükəmməl səviyyədə öyrənmişdir.

Xanım "Kim" Kempbell 1972-ci ildə **Natan Divinski** (Nathan Divinsky) ilə ailə qurduqdan sonra doktorluq təhsilini yarımçıq qoyaraq Vankuverə qayıdır. Bir neçə il sonra o, yenidən Britaniya Kolumbiyası Universitetinə üz tutur və 1983-cü ildə universitetin Hüquq fakültəsindən bakalavr dərəcəsi alır. Bir il sonra - 1984-cü ildə Britaniya Kolumbiyası Hüquqşünaslar Assosiasiyasına dəvət olunan "Kim" Kempbell, 1986-cı ilə kimi Vankuverdə hüquqşünas kimi çalışır.

## Ailəsi və ilkin siyasi kariyerası

Natan Divinskiylə evli olduğu illərdə "Kim" Kempbell Britaniya Kolumbiyası Universitetində və Vankuver İctimai Kollecində siyasi elmlərdən dərs deyirdi. Kempbell və Divinski 1983-cü ildə boşandılar, bundan üç il sonra o, **Houard Eddi** (Howard Eddy) ilə ailə həyatı qurdu. (Bu nikah onun Baş nazirlyinə az qalmış sona çatdı. Bununla da xanım Kempbell, **Pyer Trudodan** (Pierre Trudeau) sonra, Kanadanın ikinci boşanmış Baş naziri oldu).

"Kim" Kempbell hazırda aktyor, yazıçı, bəstəkar və konsert pianoçusu Hörşi Felderlə (Hershey Felder) vətəndaş nikahındadır. Uşağı olmasa da o, keçmiş həyat yoldaşı Natan Divinskinin qızı Pamela ilə yaxın (ana-bala misalı) münasibətdədir.)




***

1978-ci il Britaniya Kolumbiyasının qanunvericilik Assambleyasına keçirilən seçkilərdə "Kim" Kempbell Sosial Kredit Partiyasının Vankuver üzrə uğursuz namizədinə çevrildi. 1986-cı ildə həmin partiyanın rəhbərliyini keçmək üçün apardığı mübarizədə də uğursuzluğa düçar oldu. Ancaq həmin ilin oktyabrında Qanunvericilik Assambleyasına Vankuver Point-Qreydən üzv seçildi.





## Nazirlikdən nazirliyə...

İki ildən az müddət sonra "Kim" Kempbell Britaniya Kolumbiyası Qanunvericilik Assambleyasından istefa verdi və Vankuverdən Proqressiv Mühafizəkarların nümayəndəsi kimi 1988-ci il federal seçkilərinə qatıldı. O, qalib gəldi və tezliklə Nazirlər Kabinetinin tərkibinə qoşuldu. O, Hindularla iş və Quzeyin inkişafı üzrə nazir (1989 - 1990) oldu. Daha sonra Kanadanın ilk qadın Ədliyyə naziri və Baş prokuroru (1990 - 1993) oldu! 1993-cü ildə Milli Müdafiə naziri təyin edildi!



## Nazirlikdən Baş nazirliyə...




Xanım Kempbell Proqressiv Mühafizəkarlar (Progressive Conservative) partiyasının rəhbərliyinə qayıtmazdan əvvəl çox önəmli 4 fərqli sahəyə başçılıq etmişdi. Buna görə də onun partiya rəhbərliyinə gəlməsi üzvlər tərəfindən müsbət qarşılandı. Partiya rəhbəri və baş nazir olduqdan sonra, "Kim" Kempbell kabineti dəyişməyə başladı və islahatlar həyata keçirdi. O, nazirliklərin sayını 35-dən 23- ə endirdi. O,



bəzi nazirlikləri birləşdirərək Səhiyyə, Kanada irsi və İctimai Təhlükəsizlik adlı 3 yeni nazirlik yaratdı. Daha sonra o, uluslararası səviyyədə fəaliyyətə başladı və 1993-cü ildə Tokyoda keçirilmiş Böyük Yeddiliyin samitində Kanadanı təmsil etdi. Kempbell yay ərzində ölkəni qarış-qarış gəzərək növbəti seçkilərə yönəlik kampaniyasını davam etdirirdi. 1993-cü ilin avqustunda Gallupun keçirdiyi sorğularda Kempbell 51% səs topladı, bu nəticə son 30 ildə onu Kanadanın ən ünlü Baş naziri səviyyəsinə qaldırdı. Yayın sonlarına qədər onun şəxsi populyarlığı daha da artdı. Onun təmsil etdiyi Proqressiv Mühafizəkar Partiyasının da populyarlığı Liberallardan öndə gəlirdi.

## 1993-cü il seçkiləri

1993-cü ilin payız seçkiləri elan olunduqda partiya hakimiyyətdə qalmağa və ya ən azından Liberalların ən güclü rəqibi olacaqlarına ümid edirdi. Hökumət mandatının 5 illik müddətinin bitdiyinə görə Kempbellin seçkilərin vaxtını təyin etməyə səlahiyyəti çatmırdı.

* * *




Baxmayaraq ki, yayda ölkəni qarış-qarış gəzmiş, populyarlığını xeyli artırmışdı, bununla belə, ictimaiyyətlə əlaqələr sahəsində buraxılan müəyyən səhvlər də mövcud idi və bu da xanım Kempbell populyarlığını aşağı saldı. O, uğursuzluğunun səbəbini gender diskriminasiyasında görürdü! Xanım Baş nazirin fikrinə qüvvət, Yeni Brunsvik Universitetinin





professoru **Coanna Everit** (Joanna Everitt) yazırdı ki, əgər KİV, Kempbellin kişi rəqiblərinin apardığı kampaniyaları sadəcə xalqa çatdırırdısa, onun fəaliyyətində həmişə "niyə, nə üçün" deyə səbəb axtarmağa çalışırdı... Yəni onun fəaliyyəti bir çox hallarda insanlara lazımi səviyyədə, olduğu kimi çatdırılmırdı və kişi rəqiblərindən fərqli olaraq, onun addımlarında həmişə çatışmazlıqlar, nüfuzunu zəiflədən məsələlər axtarılır və təqdim edilirdi. Bu da təbii ki, təsirsiz ötüşə bilməzdi...



Beləliklə, kampaniyanın gedişində Mühafizəkarların populyarlığı getdikcə aşağı düşməyə başladı. Artıq oktyabr ayında məlum idi ki, "Kim" Kempbellin rəhbərlik etdiyi partiya seçkilərdə qalib gələ biməyəcək və seçkiləri Liberallar Partiyası udacaq. Buna baxmayaraq, sorğuların nəticələrinə görə "Kim" Kempbellin şəxsi populyarlığı hələ də digər namizədlərdən yüksək idi. Bu amildən yararlanmağa çalışan Mühafizəkarlar Liberalların nümayəndəsi Jan Çretiyenin (Jean Chretien) ünvanına xoşagəlməz video-çarxlar hazırladı. Sonrakı çıxışlarında "Kim" Kempbell bu işdə birbaşa məsulliyyət daşımadığını iddia etsə də, bu hərəkət seçijilər arasında nəinki mühafizəkarların dəstəyini artırdı, əksinə, ona çox böyük zərbə vurdu. Bundan sonra mühafizəkarlara seçici dəstəyi kəskin azalmağa başladı və bu seçkilərin nətijələrində özünü göstərdi.



25 oktyabr - seçki günündə Liberallar Mühafizəkarlara böyük fərqlə qalib gəldilər. Məğlubiyyətdən sonra "Kim" Kempbell partiya rəhbərliyindən də istefa verdi və onu Con Çerest (Jean Charest) əvəz etdi.





## Siyasətdən sonrakı kariyerası

Seçkilərdə məğlubiyyətinə baxmayaraq, "Kim" Kempbell Kanada qadın dərgisi "Chatelaine" tərəfindən 1993-cü ilin qadını adını aldı.

Xanım Kempbell Harvard Universitetində Siyasi elmlər üzrə bir neçə il dərs deməyə başladı. Şayiələr gəzirdi ki, onu Rusiyaya səfir göndərəcəklər. Ancaq bu baş vermədi. 1996-cı ildə Kempbelli məğlub edən Liberal hökumət onu Los Ancelesə konsul təyin etdi və o, bu vəzifəsində 2000-ci ilə qədər qaldı.



Kempbell "özkeçmiş"ini 1996-cı ildə *"Vaxt və Şans"* adı altında kitablaşdırdı. *"Vaxt və Şans"* işıq üzü gördükdən qısa müddət sonra Kanadada ən çox satılan kitablar siyahısına daxil oldu!

1997-ci ildə Kempbell, həyat yoldaşı **Hörşi Felderlə** (Hershey Felder) birlikdə Los Ancelesdə muziklin hazırlanmasında iştirak etdi.

2001 - 2004-cü illərdə, o, Harvardın Kennedi Məktəbində mühazirələr oxuyurdu. O, indiyədək, Kennedi məktəbinin fəxri üzvüdür. O, eyni zamanda, texnologiya və biotexnologiya sahəsində bir neçə ictimai təşkilatın direktorudur!



1999-2003-cü illərdə xanım "Kim" Kempbell Dünya Qadın Liderləri Şurasının katibi oldu. (Bəlli olduğu kimi, bu Şura prezident və ya Baş nazir olmuş qadınların birliyidir. Onu Şuranın katibi vəzifəsində İrlandiyanın keçmiş prezidenti Meri Robinson əvəz





etmişdir.)

2003-2005-ci illərdə o, baş qərargahı Vaşinqtonda yerləşən Beynəlxalq Qadınlar Forumuna başçılıq etdi!

"Kim" Kempbell Uluslararası Böhran Qrupunun və Federasiyalar Forumunun Direktorlar Şurasının üzvüdür, bundan başqa bir çox uluslararası təşkilatın məsləhət şurasında çalışır.

2004-cü ildə o, *"National Geographic Society"* nin tərtib etdiyi "Dünya Tarixi Almanaxı"nda tarixdə 50 ən vacib siyasətçi siyahısına daxil edildi.



Avil Faedra Duqlas "Kim" Kempbell Madrid Klubunun əsasını qoyanlardan biridir. (Klubun əsas məqsədi dünyada demokratiyani gücləndirməkdir. Bu kluba üzvlük yalnız dəvətlə olur və üzvləri keçmiş dövlət və hökumət başçılarından ibarətdir.) O, 2004-cü ildə bu uluslararası qurumun baş katibi seçilib!

## Avil Faedra Duqlas "Kim" Kempbellin ümidi



2004-cü il, noyabrın 30-da, xanım Kempbellin portreti Kanada parlamentinin Baş nazirlər Qalereyasında vuruldu. Portret Britaniya Kolumbiyasından olan rəssam Deyvid Qotli tərəfindən hazırlanıb. Portretlər sırasına baxan xanım Kempbell, Baş nazirlər arasında yeganə qadın olduğundan qürurlandığını gizlətmirdi: ***"Ümid edirəm ki, gün gələcək, burada daha çox qadının portreti asılacaq."***







## İslahatçı, seçən və sevilən ictimai-siyasi xadim

Xanım Avil Faedra Duqlas "Kim" Kempbell Ədliyyə naziri olarkən cinsi zorakılığa qarşı yeni qanun layihəsi irəli sürmüşdü. O, ümumiyyətlə, hökumətdəki fəaliyyəti dövründə, nazir olduğu zamanlar daim zorakılığa qarşı sərt mübarizlərdən biri kimi tanınmışdı. O, həmçinin şəxsin cinsi keçmişinin məhkəmə prosesində ortaya çıxmasına qadağa qoyan qanun layihəsi də hazırlamışdı. İnsan haqları, qadın haqları, zorakılığa qarşı mübarizə sahəsində daim fəal çalışan "Kim" Kempbell bu istiqamətdə yüksək fəaliyyətini bu gün də davam etdirir.

O, Tarixə Baş nazirliyi dövründə Kanada hökumətində etdiyi radikal dəyişikliklər, islahatlarla da düşdü. Onun baş nazirlik fəaliyyəti qısa olsa da bu müddət ərzində federal kabinetin tərkibini 75-dən 23-ə, kabinet komitələrinin sayını isə 11-dən 5-ə qədər azaltdı. O, Kanadalı Baş nazirlər arasında Senata nümayəndə təyin etməyən ilk şəxsdir.

Girişdə vurğuladığımız faktı bir daha xatırladaraq deyək ki, xanım Kempbell dünyada Baş nazirlik vəzifəsini yerinə yetirən ən gənc qadınlardan biri olub.

Kanadalı tarixçilər J.L. Qranatstayn (J.L. Granatstein) və Norman Hillmerin (Norman Hillmer) müəllifliyi ilə çıxan "Baş nazirlər: Kanada liderlərinin sıralaması" kitabında Kempbell Kanada tarixində ən məşhur 20 Baş naziri sırasında yer alır. O, çoxlu sayda orden və medalların sahibi, tanınmış universitetlər və mərkəzlərin fəxri üzvüdür.

O, CBS kanalının təşkil etdiyi, gənc və prespektivli liderləri seçən "Kanadanın sonrakı (növbəti) məşhur Baş naziri" (Canada's Next Great Prime Minister) televiziya proqramında münsif kimi çıxış edir. Yəni, ölkəsinin gələcəyi olan gənc liderlərin axtarılması, tapılması və onlara dəstək göstərilməsi istiqamətində bu gün də həvəslə çalışmaqda davam edir.

***Biz də ona can sağlığı, yeni-yeni uğurlar, Kanadanın sonrakı Baş nazirlərinə isə xanım Kempbellin ən yaxşı gələnəklərini yaşatmağı, inkişaf etdirməyi arzulayırıq.***



## Codi Uilyams



### «İdeal əsgər»ə qarşı yorulmaz savaşın sərkərdəsi






- O, piyadalar əleyhinə minaların qadağan edilməsi hərəkatının yaradıcısıdır! O, *"piyada əleyhinə minaların qadağan və ləğv edilməsi fəaliyyətinə görə"* Nobel ödülünə layiq görülüb! O, bir QADIN idi, bir müəllim idi və atması gərəkən addımı atdı. Piyada əleyhinə mərmilərin qadağan edilməsi hərəkatını yaratdı. Heç bir mükafat və qarşılıq gözləmədən... Təzyiqlərə də məruz qaldı, əziyyətlərə də, amma sevgilər də qazandı, özü də milyonlarla insanın... O, sözün əsl mənasında FƏDAKARdır! SÜLH fədakarı...
- Codi Uilyams (Jody Williams), 1950-ci ilin 9 oktyabrında Vermontda anadan olub. Onun ailəsi də bir çox amerikalılar kimi Vyetnamda aparılan müharibəyə qarşı çıxırdı. 1972-ci ildə Codi Uilyams Vermont Universitetində incəsənət sahəsində bakalavr dərəcəsi alır. Onun ingilis və ispan dillərinə böyük marağı var idi və 1974-cü ildə ispan dili, ikinci dil olaraq ingilis dilini tədris etmək üçün magistr dərəcəsini alır.
- Bundan sonra o, üz tutur düz Meksikaya və 2 il burada ingilis dilindən dərs deyir. Məhz orada da Codi Uilyams ilk dəfə 3-cü dünya ölkələrinin yoxsulluq problemi ilə üzləşir.
- 1984-cü ildə isə Codi Uilyams Vaşinqtonda Con Hopkins Universitetinin beynəlxalq araşdırmalar məktəbinin incəsənət və beynəlxalq münasibətlər sahəsi üzrə növbəti magistr diplomunu alır. ABŞ və Böyük Britaniyada müxtəlif məktəblərdə çalışan Codi Uilyams ən







yaxşı müəllim kimi tanınırdı. O, Vaşinqton və Böyük Britaniyada ingilis dilini ikinci dil kimi tədris edirdi. Amma o, təkcə pedaqoji fəaliyyətlə məşğul olmurdu. Codi Uilyams 11 il inkişaf etməkdə olan ölkələrə humanitar yardım sahəsində mütəxəssis kimi işləyərək, ABŞ ictimaiyyətinin diqqətini Mərkəzi Amerika ölkələrinə yönəltməyə çalışırdı. Get-gedə fəaliyyət dairəsini genişləndirən Codi Uilyams, 1984-1986-cı illərdə Nikaraqua və Hondurasda tədris layihəsinin koordinatoru işlədi. Hətta Codi Uilyams bu regionda müfəttiş qruplarına müəyyən müddət rəhbərlik edir. 1986-cı ildən 1992-ci ilədək Los-Ancelesdə Salvadora tibbi yardım mərkəzinin direktor müavini kimi çalışır.

## Dünyada beynəlxalq elçi kimi tanınan Codi!

Onun humanitar sahədə gördüyü işlər artıq çoxlarının diqqətini cəlb edirdi. Amerikanın Vyetnam Müharibəsi Veteranları Fondunun prezidenti Bobbi Müller Codi Uilyamsa piyada əleyhinə minaların qadağan edilməsinə dair yeni təşəbbüsə rəhbərlik etməyi təklif edir. Codi Uilyamsın rəhbərliyi altında bir sıra təşkilatların fəaliyyətlərini bir araya gətirən beynəlxalq hərəkatın fəaliyyət istiqamətləri daha da genişlənir və 1992-ci ildə Piyadalara qarşı minaların qadağan olunması uğrunda Beynəlxalq hərəkat yaranır! (International Campaign to Ban Landmines). Bu hərəka-















ta bir çox ölkələrin qeyri-hökumət təşkilatları və beynəlxalq təşkilatlar da qoşulurlar. Hərəkata qoşulmuş təşkilatlar minaların istehsalının və satışının qarşısını almaq üçün hökumətlərə təzyiq göstərir, minalı zonaların təmizlənməsi üçün hökumətlərin vəsait ayırmasını tələb edirdilər. 1990-cı illərdə Uilyamsın rəhbərlik etdiyi QHT-lər koalisiyası minalar probleminin beynəlxalq gündəmin birinci dərəcəli məsələsi olmağına nail olur!

Uilyams, ümumiyyətlə, 55 ölkədən 1000-dən çox ekologiya, qadın, uşaq, dini, tibbi təşkilatları bu kampaniyaya cəlb edə bildi! Ondan soruşanda ki, bu qədər çox təşkilatı birləşdirməyə necə nail oldunuz, Vilyams "e-mailin köməyi ilə" deyə cavab verir!

Amerikanın Veytnam Müharibəsi Veteranları Fondu, Əlillərin Beynəlxalq Təşkilatı, Medikal İnterneşnl, Britaniyanın Müharibəyə Qarşı Təşkilatı və s. təşkilatlar piyada əleyhinə minalardan istifadəyə, onların istehsalına, satışına və saxlanmasına qadağa qoyulmasını tələb edir, eləcə də mərmilərin təmizlənməsi və faciə qurbanlarına kömək üçün böyük məbləğdə vəsait ayrılması məqsədilə hökumətə təsir göstərməyə başladılar. Codi Uilyamsın rəhbərliyi altında qeyri-hökumət təşkilatları bu problemin beynəlxalq səviyyədə həll edilməsinə nail oldu. O, dünyanın 55 ölkəsindən müxtəlif millətlərin, dinlərin nümayəndələrini, fərqli peşə və yaş qruplarından insanları,







çoxlu sayda təşkilatları bu kompaniyaya cəlb edərək, rəhbərlik etdiyi qurumu beynəlxalq aləmdə böyük nüfuz qazanan hərəkata çevirdi! Uzun illər Codi Uilyams "piyada əleyhinə minaların qadağan edilməsi" kompaniyasının baş məsləhətçisi və təmsilçisi olur.

Əsirlərin ailələrinə qovuşmasında o, beynəlxalq elçi kimi tanınır. Müxtəlif ölkələrin hökumətləri, BMT-nin ixtisaslaşmış orqanları, Beynəlxalq Qızıl Xaç Komitəsi ilə sıx əməkdaşlıq içərisində çalışaraq Codi Uilyams ən böyük məqsədinə çata bildi. Belə ki, 1997-ci ildə Oslo Konfransında "piyada əleyhinə minaların istifadəsinin qadağan edilməsinə dair" Konvensiya imzalandı! Bu, onun və tərəfdarlarının zəhmətinin, əməyinin nəticəsi idi. Nobel mükafatçısı Codi Uilyamsın Osloda sülh konfransında deyirdi: *"Dövlətin vəzifəsi milyardlarla kaset bombaları ehtiyatlarını yox, dinc əhalini qorumaqdır. Dövlət suverenliyi bəhanəsinə son qoyub planetin dinc əhalisinin müdafiəsini təşkil etmək lazımdır!"*

Elə həmin il "piyada əleyhinə minaların qadağan və ləğv edilməsi" fəaliyyətinə görə Codi Uilyams Nobel Sülh mükafatına layiq görüldü!

Nobel mükafatının təqdimetmə mərasimindəki çıxışında o deyirdi: "Piyada əleyhinə minalar həmişə yeni qurbanlar yaratmağa hazırdır. O, ideal əsgərdir. ...Müharibə qurtarır amma mina öldürməkdə davam edir".




O, Nobel mükafatçısı kimi müharibə əleyhinə bütün kompaniyalarda fəal iştirak edirdi. Hətta Vaşinqtonda Ağ Evin yaxınlığında İraqda gedən müharibə əleyhinə etiraz nümayişində həbs olunsa da, yolundan dönmədi. O, sülh tərəfdarı kimi ABŞ hökumətinin siyasətini tənqid edərək belə bir faktı qeyd edirdi ki, Amerika Qərbdə piyada əleyhinə minalardan istifadəni qadağan edən sənədi imzalamayan yeganə ölkədir. (Bu Konvensiyaya ABŞ-la yanaşı, indiyədək Rusiya və Çin də qoşulmamışdır. Beləliklə, 147 ölkə



tərəfindən piyada əleyhinə minaların istifadəsinə qadağa qoyulmasına dair əsas razılaşma imzalandıqdan sonra da (2003-cü ilin may ayı) Codi Uilyams dünyanın bütün ölkələrinin bu sənədə qoşulması və başlıcası isə bu razılaşmaya əməl olunması kompaniyasını indi də davam etdirir!



Uzun illər boyunca Uilyams minaların qadağan olunması kampaniyasının baş strateqı və təmsilçisi olur. Əsrlərin qovuşduğu dövrdə Hərəkatın beynəlxalq elçisi və koordinasiya şurasının üzvü oldu. Amma yorulmadı, yolundan dönmədi, heç kəs, heç bir güc onu yolundan döndərə bilmədi! Dünya üçün, Bəşəriyyət üçün, İnsanlıq üçün, onun bu günü və gələcəyi üçün doğru bildiyi yolla prinsiplərindən bir addım belə çəkilməyərək, yürüməkdə davam edir. Və hər gün tərəfdarlarının sayı azalmır, əksinə, artır... **O, adını TARİXə yazmış bir QADIN, bir ŞƏXSİYYƏT, bir İCTİMAİ-SİYASİ XADİM, bir İNSAN olaraq hələ görəcəyi çox işlərin olduğunu deyir.**

**Uğurlar, Codi Uilyams...**










## Helen Elizabet Klark



## Dörd qızın böyük bacısı,

### animasiyalı filmə çəkilən baş nazir və BMT yetkilisi



■ O, üç dəfə Yeni Zelandiyanın baş naziri olaraq adını tarixə yazdı.

■ "Forbes" dergisinin dünyanın "100 ən güclü qadını" siyahısında 2006-cı ildə 20-ci, 2008-ci ildə 56-cı, 2009-cu ildə 61-ci yerlərin sahibi oldu.

■ 2008-ci ildə BMT Ətraf Mühit Proqramı tərəfindən təqdim edilən "Yer üzünün çempionu" mükafatını qazandı.

■ 2009-cu ildə Yeni Zelandiya dövlətinin Fəxri ödülünə layiq görüldü.

■ 2009-cu ilin yanvarında "Herald" (Yeni Zelandiya) qəzetinin internet sorğularına əsasən Helen Klark "Yaşayan ən möhtəşəm Yeni Zelandiyalı" seçildi. Hazırkı Baş nazir bundan təəccüblənməyərək **"O, Yeni Zelandiyanın Baş naziri kimi çox yaxşı xatırlanır"** - demişdi.

■ O, BMT-nin İnkişaf Proqramına başçılıq edən ilk qadın olaraq da adını TARİXƏ yazıb.

■ Bu qadın 1999-2008-ci illərdə 3 dəfə Yeni Zelandiyanın Baş naziri və 1993-cü ildən 2008-ci ilə kimi - düz 15 il Leyboristlər Partiyasının sədri vəzifəsini tutmuş, BMT-nin İnkişaf Proqramına başçılıq edən, bütün dünyada çox məşhur siyasətçi, ictimaiyyətçi, LİDER kimi adını dünya tarixinə əbədiyyən yazmış **Helen Elizabet Klarkdır!** (Helen Elizabeth Clark)

■ 1950-ci il fevralın 26-da Hamilton şəhərində dünyaya göz açmış Helen Klark Uayikato ailəsinin 4 qızından ən böyüyü idi. Onun İrland əsilli anası **Marqaret Makmurray** orta məktəbdə müəllimə işləyirdi. Atası Corc isə fermer idi. Helen Oklandda məktəbi (Epsom Girls Grammar School) bitirdikdən sonra Okland Universitetinə daxil olur. Burada politologiya sahəsi üzrə təhsil aldıqdan sonra 1974-cü ildə həmin Universiteti siyasi elmlər üzrə əla qiymətlərlə və magistr dərəcəsi ilə bitirir. Onun diplom işi çox maraqlı bir mövzu - əyalətlərdə siyasi mədəniyyət və təmsilçilik barədə idi. 1973-cü ildən doğma Universitetində siyasi araşdırmalarla bağlı mühazirə deməyə başlayan Helen Klark 1976-cı ildə Universitetin Qrant Komitəsinin verdiyi təqaüd hesabına xaricdə təhsil alır. 1977-ci ildə yenidən ölkəsinə qayıdır və 1981-ci ilə kimi (həmin il gerçəkləşən parlament seçkilərinə kimi) Okland Universitetində mühazirə deyir. Onun doktorluq dissertasiyası müxtəlif ölkələrdə münaqişələrin tənzimlənməsi kimi maraqlı bir mövzuya həsr olunmuşdu.





■ Helen çox gənc yaşlarından siyasətlə maraqlanmağa, həm də bilavasitə məşğul olmağa başlamışdı. Yeniyetməlik illərində o, fəal bir ictimaiyyətçi kimi Vyetnam müharibəsinə, Cənubi Afrikada aparteidə, Sakit okeanın cənub hissəsində nüvə sınaqlarının keçirilməsinə, həmçinin Yeni Zelandiya ərazisində xarici hərbi bazaların yerləşdirilməsinə qarşı kampaniyalarda aktiv iştirak edirdi.

■ Helen Klark həyatının böyük bir hissəsini Yeni Zelandiya Leyboristlər Partiyası üçün (bəlkə inandığı ideyalar üçün desək, daha doğru olar) çalışdı. 1971-ci ildə Okland Şəhər Konsulluğunda Leyboristlər Partiyasından olan nümayəndələrə assistentlik edən Helen Klark 1973-cü ildən Leyboristlər Partiyasının üzvü olur.

■ O, təhsil illərində Okland Universitetində Leyboristlər Partiyasının sədri kimi fəaliyyət göstərir. Leyboristlər Partiyasının Gənclər Şurasının prezidenti, Partiyanın Okland Regional Şurasının icraçı üzvü, Partiyanın Qadınlar Şurasının katibi və Siyasi Şuranın üzvü olan Klark Partiyada, demək olar ki, bütün vəzifə pillələrini keçmişdir.

■ O, 1981-ci ildə keçirilən parlament seçkilərindən öncə psixoloq Piter Deyvislə ailə həyatı qurdu. (Doktor Deyvis hazırda Okland Universitetində tibbi sosiologiya üzrə professor və Sosiologiya fakültəsinin rəhbəridir.)

■ Helen Klark Leyboristlər Partiyasını 1976, 1978, 1983 və 1986-cı illərdə Beynəlxalq Sosialist Qadınlar Konqresində, 1981-ci ildə Sosialist Təşkilatlar Konfransında və 1991-ci ildə Beynəlxalq Sosialist Liderlərin görüşündə təmsil etdi.





* * *

*Helen Klark ilk dəfə 1981-ci ildə Yeni Zelandiya parlamentinə seçiləndə parlamentdə təmsil olunan dörd qadın deputatdan biri idi. O, Oklanddan olan ikinci qadın deputat, ümumilikdə isə Yeni Zelandiya parlamentinə seçilmiş 17-ci qadın deputat idi. Parlamentdə ikinci dəfə təmsil olunduğu zaman (1984-87) xanım Klark Xarici Əlaqələr və Tərk-silah, həmçinin Silahlara Nəzarət Komitələrinə sədrlik edirdi. Xarici əlaqələr və Tərk-silah Komitəsinə rəhbərlik etdiyi dövrdə - 1984-1987-ci illərdə Helen Klark Yeni Zelandiyanın müasir antinüvə siyasətinin memarına çevrildi. Yeni Zelandiya özünü planetin nüvəsiz ölkəsi elan edən ilk dövlət oldu. Bu siyasəti birmənalı qarşılamayan Buş Administrasiyası Yeni Zelandiyanın statusunu aşağı salaraq, onu müttəfiqlikdən çıxarıb "dostlar" siyahısına daxil etdi. Helen Klark isə bu istiqamətdə fəaliyyətində nəinki geri çəkilmədi, hətta onu daha da genişləndirdi. 1986-cı ildə silahsızlasma və beynəlxalq sülhü dəstəkləyən fəaliyyətinə görə Danimarka Sülh Fondu tərəfindən Sülh ödülünə layiq görüldü.*




## Helen Klark Nazirlər Kabinetində

Klark 1987-90-cı illərdə müxtəlif nazir vəzifələrini tutdu. Öncə **mühafizə və evlə təminetmə məsələləri, əmək və səhiyyə naziri postlarında** çalışır. O, səhiyyə naziri olduğu zaman bir sıra ciddi islahatlar həyata keçirir, eyni zamanda, sağlam həyat tərzi ilə bağlı çoxlu tədbirlərin müəllifi olur. O, nazir olduğu dövrdə siqaret çəkmənin, tütün məhsullarının reklamının məhdudlaşdırılması ilə bağlı ciddi addımlar atır, hətta siqaret şirkətlərinin idman tədbirlərinə sponsorluq etməsini tamamilə azaldır. 1989-cu ildən baş nazirin müavini vəzifəsini tutan Helen Klark, həmçinin kabinetdə Sosial Bərabərlik üzrə Komitəsinə də sədrlik edir.











1989-cu ildə keçirilən parlament seçkilərində Milli Partiyaya məğlubiyyətdən sonra Leyboristlər Partiyası müxalifətə keçir. 1990-cı ilin oktyabrından 1993-cü ilin dekabrına kimi partiya sədrinin müavini, Sosial Xidmətlər və Əmək Komitəsinin üzvü kimi fəal şəkildə çalışır. Helen Klark 1993-cü ildə Leyboristlər Partiyasına sədrlik uğrunda mübarizədə Mayk Mura qalib gəlir və 1993-cü il dekabrın 1-dən müxalifətə başçılıq etməyə başlayır. 1993-cü ildə Leyboristlər Partiyasının sədri seçilən Helen Klark böyük bir ilkə imza atır. O, düz 15 il, yəni 2008-ci ilə qədər Leyboristlər Partiyasına rəhbərlik edir! Özü də uğurla rəhbərlik edir...





## Xanım Klarkın I dönəm Baş nazirliyi



Leyboristlər Partiyasının rəhbəri seçildikdən sonra o, müxalifətdə olan partiyasının iqtidara gəlməsi üçün yorulmadan çalışır və qısa zamanda istədiyinə nail olur. 1999-cu il seçkilərində Leyboristlər Partiyası qələbə qazanır və hakimiyyətə gəlir. O, Alyans Partiyası ilə koalisiya qurur və hökumətə rəhbərlik etməyə başlayır. Helen Klark Yeni Zelandiyanın



baş naziri vəzifəsi ilə yanaşı, incəsənət, mədəniyyət və milli İrs naziri vəzifəsini də icra edir. Sosial qanunvericilik və beynəlxalq münasibətlər məsələsinə xüsusi maraq və böyük diqqət göstərən Helen Klark Yeni Zelandiyanın nüvəsiz dövlət statusunun davam etməsi və sosial təminat sisteminin təkmilləşdirilməsinin tərəfdarı kimi çıxış edir və bu istiqamətdə addımlar atır. Amma onun ən böyük və tarixi xidmətlərindən biri ölkəsində qadınların dövlətin və cəmiyyətin idarə olunmasında, qanunverici hakimiyyətdə rolunun artırılmasına nail ola bilməsidir. Helen Klarkın Baş nazirliyi zamanı həm seçki, həm də təyinedilmə yolu ilə kifayət qədər qadın çox məsul vəzifələr (qubernator, nümayəndələr palatasının spikeri və baş hakim) tutur. Bu dövr Yeni Zelandiyada gender bərabərliyi sahəsində, sözün əsl mənasında, bir inqilab olur. Qadınların dövlətin və cəmiyyətin idarə olunmasında rolu ciddi şəkildə artır. Helen Klark bu addımı ilə adını ölkəsinin tarixinə qızıl hərflərlə yazmağı bacarır. Amma o, həmçinin çoxlu sayda İLKlərə, yeniliklərə və islahatlara imza atmışdı!

1999-cu ildə Baş nazir seçilən Helen Klark Yeni Zelandiyanın dünya silahsızlaşdırılma hərəkatında birinci yerdə durması ilə fəxr edir və vəd edirdi ki, onun hökuməti sülhün bərqərar olması işində nüvəsiz dövlətlər arasında ittifaqı möhkəmləndirməyə çalışacaq. Xanım Klark Amerikanın daxili işlər üzrə sabiq senatoru **Stüart Yudall** (1999) və Almaniya parlamentinin nümayəndəsi **Hans-Yozef Felldən** (2001) sonra "Nüvəsiz gələcək uğrunda" mükafatına layiq görülən üçüncü siyasətçidir!

Yeni Zelandiyanın nüvə silahsızlaşdırılması hərəkatının önündə getməsi ilə qürur duyan Helen Klark Robert Qrinin kitabına yazdığı ön sözdə aşağıdakı fikirləri səsləndirməkdə tamamilə haqlı idi: "Artıq uzun zamandır ki, Yeni Zelandiya dünyanın nüvə silahından azad edilməsi uğrunda beynəlxalq hərəkatın lideridir. Biz və bu məqsədin həyata keçirilməsinə səy göstərən bir çox insanlar, təşkilat və ölkələr xalqların ədavətlə deyil, qarşılıqlı hörmət və etimad əsasında əldə etdiyi sülh və əmin-amanlıq şəraitində yaşayacağı dünya yaratmağa çalışırıq".









Helen Klark həm də Dünya Qadın Liderlər Şurasının üzvüdür. Şuranın missiyası (qadınlar və ədalətli inkişaf üçün vacib olan məsələlər üzərində kollektiv fəaliyyət aparmaq, bunun üçün yüksək səviyyəli qadın liderləri səfərbərliyə almaq) təkcə onun vəzifəsinə deyil, eyni dərəcədə xarakterinə çox uyğun gəlir. Yəni o, təkcə ölkəsində deyil, beynəlxalq miqyasda da qadınların rolunun artması istiqamətində ciddi iş aparır.





***

2002-ci ildə Yeni Zelandiya qoşunlarının Əfqanıstandakı məlum müharibəyə göndərilməsi barədə fikir ayrılıqları nəticəsində parlamentdəki ittifaq ikiyə bölündü və Helen Klark təcili seçkilər çağırdı. Seçkilərdən dərhal sonra Klark Proqressiv Partiya ilə birlikdə koalisiya, ardınca da "Gələcək" və "Yaşıllar"ın dəstəyi ilə hökuməti qurdu. Hökuməti qurduqdan sonra açıqladı ki, o, Yeni Zelandiya müstəqil respublikasının varlığını labüd hesab edir və görünür, elə bu "hesab"ın nəticəsi idi ki, onun Baş nazirliyi dövründə milli özünüdərk istiqamətində ciddi addımlar atıldı. (Qeyd



edək ki, bu gün Yeni Zelandiyanın rəsmi rəhbəri Böyük Britaniya kraliçası hesab olunur. Kraliçanı ölkədə özünün təyin etdiyi general-qubernator təmsil edir). Baş nazir Klark bir çox dəyişikliklərə nail olaraq, dediklərinin yalnız quru söz olmadığını, onların əməli müstəvi üzərində maddiləşdiyini sərgiləyə bildi. Londondakı Ali Məhkəməyə müraciətləri aradan qaldırmaq məqsədi ilə Yeni Zelandiya Ali Məhkəməsinin yaradılması, habelə, Kraliça Şurasının Ali Şura ilə əvəz olunması buna misal ola bilər. Onun üçün ölkəsinin maraqları hər şeydən üstündür. Məsələn, o, Çinlə əməkdaşlığın genişləndirilməsi istiqamətində ciddi addımlar atdı. Belə ki, rəsmi Pekinin Beynəlxalq Ticarət Təşkilatına üzvlük məsələsi gündəmdə olan zaman o, ilk dəstək verənlərdən oldu. Çin Prezidenti **Cianq Zemin** "Piplz Deyli" dərgisinə verdiyi müsahibədə Klarka "köhnə dost" deyə müraciət etmişdi. O, XXI əsrdə ikitərəfli iqtisadi əlaqələrə, sağlam inkişaf üçün əməkdaşlığa ümid etdiyini demiş, Klark da öz növbəsində köhnə dostluğun tələbi gərəyincə, Çinin Beynəlxalq Ticarət Təşkilatına daxil olmasını dəstəkləmişdi.

Hökumətdə xidmət etdiyi zaman Helen Klark ölkənin iqtisadi, sosial, ətraf mühit və mədəniyyət, o cümlədən, ekoloji sabitlik və iqlim dəyişikliyi, çox mədəniyyətli və çox dinli cəmiyyətin inkişafı sahələrində qanunvericiliyin müzakirəsinə başçılıq etmişdir. O, hamı üçün əlçatan olan mənzil təminatı, Yeni Zelandiyanın unikal biomüxtəlifliyi, ilkin səhiyyə təminatı və ictimai səhiyyə sahələri və əmək təminatındakı gender bərabərliyi məsələlərini prioritetə çevirmişdir.







O, həmçinin ikitərəfli, regional və çoxtərəfli müstəvidə ölkəsinin beynəlxalq münasibətləri sahəsində fəal lider olub. Helen Klark Minilliyin İnkişaf Məqsədləri proqramının təkmilləşdirilməsinə böyük dəstək göstərib.

## Orijinal Baş nazir

O, həmişə cəsarətli addımları ilə dünya ictimaiyyətinin diqqətini cəlb edib. Məsələn, 2002-ci ildə Klark Samo adalarının müstəqilliyinin 40-cı ildönümü törənində canlı yayımla verilən televiziya çıxışında müstəmləkələr dövründə Yeni Zelandiyanın Samoya olan münasibətinə görə üzr istədi. 2003-cü ildə isə o, ABŞ-ın İraqa hərbi müdaxiləsini pislədi və bu addımı ilə dünyanın diqqət mərkəzində oldu.

O, sadəliyi, səmimiliyi, təvazökar həyat tərzi ilə də yeni zelandiyalıların və hər kəsin hörmətini qazanıb. Helen Klark Baş nazirlərin də sadə vətəndaşlar kimi qanunlara tabe olmasının tərəfdarı idi. Məsələn, 2004-cü il, iyulun 17-də Baş naziri Kraystçörç hava limanından Vellinqtondakı reqbi oyununa aparan maşın kortejinin sürəti 172 km/saat olduğuna görə sürücü məhkəməyə cəlb olundu. Klark arxa oturacaqda işlədiyi üçün sürətdən xəbərsiz olduğunu desə də, məsuliyyətdən yayınmadı.

Onun sadəliyi isə həmvətənlərinin dəyər verdiyi əsas keyfiyyətlərindən biridir. Məsələn, Klarkın Yeni Zelandiyanın BroToun adlı animasiyalı televiziya serialında qonaq aktrisa kimi iştirak etməsi onları nəinki təəccübləndirməmiş, əksinə, çox sevindirmişdi.

## Baş nazirliyin üçüncü dönəmi

Dalbadal bir neçə dəfə seçkilərdə uğurlar qazanmaq, iqtidara gəlmək bu dünya miqyasında çox az-az rast gəlinən hadisələrdəndir. Amma Helen Klark öz fəaliyyəti ilə buna nail ola bildi. Yeni Zelandiyalılar xanım baş nazirlərini üçüncü dəfə baş nazir olmasına məmnuniyyətlə razılıq verdilər!

2005-ci ilin 17 sentyabrında keçirilən parlament seçkilərində Leyboristlər 121 nəfərlik parlamentdə 50 yer qazandılar. Partiya "Proqressiv"lə anlaşaraq (digər mandatlı partiyalara Nazirlər Kabinetindən kənarda nazirlik vəzifələri verməklə onlardan da tam dəstək alaraq) öz koalisiyalarını yenilədilər. Helen Klark üçüncü dəfə hökumət qurdu və bir QADIN rəhbər olaraq ölkəsinin tarixində bir İLKə imza atdı! Bununla bərabər, Leyboristlər Partiyasının ən uzun müddət fəaliyyət göstərən (15 il) lideri Helen Klark 2008-ci ildə əsas seçkilərdə Con Kiyə güzəştə gedərək partiya sədrliyindən imtina etdi. Yenə bir İlk...



## Xanım Klark *Birləşmiş Millətlər Təşkilatında*

Amma ona dünyanın da çox ehtiyacı vardı. 2009-cu il aprelin 17-də Klark BMT İnkişaf Proqramının (BMT İP) rəhbəri təyin edildi və bununla da həmin təşkilata başçılıq edən ilk qadın kimi tarixə düşdü! BMT-nin Baş katibi Pan Ki





Mun BMT İnkişaf Proqramına Helen Klarkı rəhbər təyin edən zaman deyirdi: "Helen Klark gördüyü işlərə və uzun müddətli karyerasında əldə etdiyi çoxsaylı nailiyyətlərə görə bir sıra mükəmməl namizədlər arasından seçildi. Xanım Klark liderlik xüsusiyyətlərinə və beynəlxalq nüfuza malikdir ki, bu da ona sələflərinin qazandığı uğurlara istinad edərək, təşkilatın gələcəyini qurmaqda yardımçı olacaq. Eyni zamanda, o, özünün strateji baxışları ilə birlikdə dəyişikliklərə təkan verəcək yeni ideyalar da gətirəcək".

Öz növbəsində, Helen Klark bildirdi ki, təyin edildiyi vəzifənin öhdəsindən gəlmək çətin və maraqlıdır, BMT İnkişaf Proqramına çox ağır bir zamanda rəhbərlik etmək, eyni zamanda, ciddi bir məsuliyyətdir: "Mənim öhdəmə yoxsulluq və ədalətsizliklə mübarizə aparmaq vəzifəsi düşür və mən bunu beynəlxalq səviyyədə həll etmək imkanına malik olmanı böyük bir imtiyaz hesab edirəm".

Helen Klark inkişaf sahəsində çalışan bütün BMT fondlarının, təşkilatın proqram və şöbələrinin başçılarından ibarət olan BMT İnkişaf Qrupunun sədridir. O, həm də BMT İnkişaf Fondu İdarə Heyətində beş ölkənin (İran, Haiti, Serbiya, Niderland və Tanzaniya) dəstəyini qazanaraq, Baş Assambleyada Fondun başçısı kimi təsdiqlənib.

Qeyd edək ki, İnkişaf Proqramı BMT-nin müstəqil şəkildə maliyyələşən ən böyük agentliklərindən biridir və təşkilatın ifrat yoxsulluğun aradan qaldırılması, dünyada səmərəli idarəçiliyin dəstəklənməsi işini yönəldir və həyata keçirir.











Onun təşkilata rəhbərliyi dövründə, 2010-cu ilin yanvarında Haitidə dəhşətli zəlzələ baş verdi. Baş vermiş dəhşətli zəlzələnin nəticələrinin aradan qaldırılması məsələsinə BMT İP-in rəhbəri olaraq münasibət bildirən Helen Klark demişdi: "BMT təxirəsalınmaz humanitar ehtiyacları təmin etmək və uzun müddətli inkişaf perspektivlərinin həllinə uyğun erkən bərpa işlərini həyata keçirmək üçün bütün hökumətlərlə birgə fəaliyyət göstərir. Haitinin bu dəhşətli zəlzələdən sonra bərpası üçün böyük dəstəyə ehtiyacı var".

O şəxsən bu istiqamətdə yorulmadan çalışdı, beynəlxalq ictimaiyyətin bu məsələyə daha çox diqqət yetirməsinə və qayğı göstərməsinə çalışdı. BMT İP təşkilatın erkən bərpa qrupunun əlaqələndiricisi qismində dəymiş zərəri və ehtiyacları dəyərləndirmək, habelə bərpa planları işləyib hazırlamaq üçün Haiti hökuməti və digər tərəfdaşlarla birgə işlədi. Yardımlar, ilk növbədə uçmuş tikililərin qalıqlarını təmizləmək və əsas infrastrukturu bərpa etmək üçün işə görə nağd ödəniş formasında əməyi stimullaşdıran və çoxlu əmək qüvvəsi tələb edən digər tədbirlərə yönələcəkdi. Bu, zərər çəkmiş icmalarda sosial gərginliyin azalmasına kömək edəcək, həmçinin milli hakimiyyət orqanları ilə əlaqələndirilmiş şəkildə düzgün və vaxtlı-vaxtında bərpa və yenidənqurma tədbirlərinin əsasını qoyacaqdı. Məqsəd təqribən 1.050.000 nəfərə fayda verəcək 220.000







müvəqqəti iş yeri yaratmaq idi.

Onu da vurğulayaq ki, ehtiyac duyulan təcili yardımı göstərmək üçün təxirəsalınmaz tədbirlərdə xüsusilə israrlı olan xanım Klark dağılmış tikililərin qalıqlarının təmizlənməsi, küçələrin təmiri və elektrik enerjisi kimi əsas sosial infrastrukturların bərpasını ön plana çəkmişdi.

O, dünyada QİÇS-ə qarşı mübarizə sahəsində də fəal rol oynayır. Onun həm Yeni Zelandiyaya rəhbərlik etdiyi dövrdəki, həm də BMT-dəki fəaliyyəti beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilib və bir sıra mötəbər qurumlar tərəfindən mükafatlandırılıb. Məsələn, Solomon adalarında hüquq təminatı sahəsindəki xidmətlərinə görə Ada hökuməti Klarkı (Avstraliyanın 25-ci Baş naziri Con Hovardla birgə) "Solomon adaları Ulduzu" ödülü ilə təltif edib. 2008-ci ilin yanvarında Klark BMT Ətraf mühit Proqramı tərəfindən "Yer üzünün çempionu" ödülünə, 2009-cu ilin aprelində Okland Universitetinin "Fəxri Hüquq doktoru" adına,










2009-cu ildə yeni zelandiya dövlətinin Fəxri Ödülünə layiq görülüb.

Helen Klark həm də sadəliyi və səmimiliyi ilə insanların sevgisini qazanmağa nail olub. Əvvəlcə Yeni Zelandiyalıların, sonra dünyanın! Amma onun insan sevgisi, insana verdiyi dəyər, humanizm prinsipləri bir çox insanlardan, bir çox LİDERlərdən qat-qat çoxdur desək, yanılmarıq. O, dünyanın gələcəyini, insanlığın gələcəyini sadəcə düşünmür, onun üçün yorulmadan çalışır! Əməlləri ilə də bir TARİX yazır! Bu TARİXİN əsas qəhrəmanlarından biri də məhz onun özüdür. Helen Elizabet Klark! Dünya hələ bu adı çox eşidəcək, sonra isə unutmayacaq və daim xatırlayacaq.

***Bu, Bəşəriyyət və İnsanlıq üçün yaşayanların, ömrünü sərf edənlərin mükafatıdır!***





## Elfrida Yelinek





Çevrəsindəki acı ziddiyyətləri
**yaşam və yaradıcılığına**
həsr etmiş "Nobel"li yazar









■ **O, ədəbiyyata göstərdiyi böyük xidmətlərinə, ədəbiyyat üzrə nüfuzlu Nobel ödülünə layiq görüldüyünə görə adını ədəbiyyat tarixinə yazdı! Bu nüfuzlu ödül ona "toplum şablonundakı absurdu və hakimiyyətin sosial qəliblərini özünəözgü dillə ifşa edən əsərlərindəki musiqi polifonikliyinə görə" verilib!**

■ **Bu qadın, Avstriya yazıçısı, dramaturq, şair və ədəbi tənqidçi, ədəbiyyat üzrə Nobel mükafatı (2004), Henrix Böll mükafatı (1986), Georq Büxner mükafatı (1998), Henrix Heyne mükafatı (2002), Frans Kafka mükafatı (2004) laureatı, dünyanın böyük maraqla oxuduğu Elfrida Yelinekdir!**

*"Mənim vəzifəm deyilməsi mümkün olmayanı demək, ifadə edilməsi mümkün olmayanı ifadə etməkdir".*
**Elfrida Yelinek**

***Elfrida Yelinekin (Elfriede Jelinek)*** *"Sevgililər" (Die Liebhaberinnen,1975), "Mıxael. Korafəhmlər üçün təlimat" ("Michael. Ein Jugendbuch fuer die Infantilgesellschaft", 1972), "Bağlı qapı qarşısında" (Die Ausgesperrten, 1980), "Ehtiras" (Lust, 1989), "Ölülərin övladları" (Die Kinder der Toten,1995), "Pianoçu" ("La Pianiste", 2001), "Alp dağlarında" ("In den Alpen",2002), "Ölüm və qız" ("Der Tod und das Maedchen", 2003)* və b. əsərləri oxucular tərəfindən böyük maraqla oxunur. Onun hər bir yeni əsəri yüzminlərlə oxucunun HADİSƏ kimi qəbul etdiyi yaradıcılıq aktına (daxili azadlıq aktına) çevrilir.





*Əsərlərinin hələlik yalnız az bir qismini oxumaq imkanım olsa da, bu, mənə Elfrida Yelinekin maraqlı yaradıjılığından zövq almaq, onun qaldırdığı məsələlər barədə düşünmək imkanı verdiyini, deyə bilərəm. Neyləyəsən ki, əlahəzrət zaman, daha doğrusu, iş çoxluğu, vaxt qıtlığı amili, onun oxumağı çox-çox istədiyim neçə əsərini aylardır (hardasa, artıq "illərdir" deyə bilərəm) masamın üzərində oxu növbəsində gözlədir... Amma həmin kitabları masamın üstündən qaldırıb rəfə qoymağa da əlim gəlmir və "bu gün-bu gün" deyərkən, həftə, ay, il başa çatır... Və bilirsiz, bu yerdə nə düşünürəm - əgər bir oxucu bu (dediyimiz) gerçəkliklə üz-üzədirsə, o zaman bəlkə bir az da (biz oxucular) yazarlar barədə düşünək.!? Onların vaxt qıtlığı üzündən yaza bilmədikləri Əsərləri düşünək..! Bax, beləcə, "İş", "Zaman", "Vaxt" deyə-deyə "Özkeçmiş"imiz oluşur: yazıçının yazıçı kimi, oxucunun oxucu kimi... İstəyirsiz, bunun adına Qismət deyək... - Bəlkə bu fikirlər də elə Yelinekdən (və Yelinek haqqında) oxuduqlarımın yansımalarıdır.!?*

## "Özkeçmiş"i bəstələdiyi musiqi əsərlərində yansıyan yazıçı




Avstriya yazıçısı və dramaturqu **Elfride Yelinek** 20 oktyabr 1946-cı ildə ölkənin cənubunda, Sloveniya ilə sərhəddə yerləşən Ştiria torpağında, Mortsşlaqda (Murzzuschlag) doğulub. O, qarışıq yəhudi-çex ailəsinin övladı idi. Yazıçının soyadı da çex-slavyan mənşəlidir. "Elinek" çex dilində "maral" mənasını ifadə edir.

Onun yəhudi-çex mənşəli kimyaçı atası İkinci Dünya müharibəsi dövründə strateji əhəmiyyətli sənaye müəssisəsində işlədi-





yinə görə təqibdən canını zorla qurtara bilmişdi. O, Məhz peşəsinə zərurət olduğuna görə Hitlerin hakimiyyəti dönəmində yəhudi soyqırımından - Holokostdan salamat qurtara bilmişdi. Buna baxmayaraq, ailənin bir neçə üzvü Holokostun - yəni yəhudilərə qarşı həyata keçirilən soyqırımın qurbanına çevrildi. Elə atasının da aradan uzun illər keçəndən sonra psixikasının pozulması bunların nəticəsi idi. Beləki, müalicə Fridrix Yelinekə kömək etməmiş və o, 1972-ci ildə vəfat etmişdi.

Elfridanın tərbiyəsi anasının üzərinə düşmüşdü. Evdə "hakim mövqe tutan" anası Vyananın nüfuzlu ailələrindən birində tərbiyə almışdı. Uşaq vaxtı Elfrida ən çox Vyanada qadın monastırındakı Roma-katolik məktəbində olduqca məhdud təhsil almasından əziyyət çəkirdi. Vyananın köklü ailələrindən olan frau Olqa qızını vunderkind musiqiçi kimi görmək istəyirdi. Təhsil aldığı məktəbdə fortepiano, fleyta, alt və skripkada çalmaq öyrənən Elfrida artıq 13 yaşında Vyana konservatoriyasına daxil olmuşdu. Burada fortepiano və orqan ifaçılığına, habelə musiqi kompozisiyasına yiyələnmişdi. Eyni zamanda, Elfrida Yelinek Vyana Universitetində incəsənət tarixini və teatrını da öyrənirdi.

1967-ci ildə daimi qorxu hissi ilə müşayiət olunan əsəb pozğunluğuna tutulduğundan və kurslara müntəzəm davam edə bilmədiyindən, Elfrida tədqiqatlarını yarımçıq kəsməyə məcbur olur və bütöv bir ili evdə keçirməli olur. O, ilk əsərlərini də bu zaman yazır. Çox maraqlıdır ki, tənqidçilər Elfrida Yelinekin "özkeçmiş"inin çox vaxt onun musiqi əsərlərində əks olunduğunu qeyd edirdilər. O, 1970-ci illərin əvvəlində Qottfrid Hunqsberq (Gottfried Hungsberg) ilə ailə həyatı qurur.





***

Elfrida Yelinek lap gənc yaşlarından şeir yazmağa başlamışdı. Onun ilk şeirlər toplusu 1967-ci ildə çap olunan "Lizanın kölgələri" oldu. İctimai-siyasi həyatla daha yaxından maraqlanmağa başlayan Yelinek, alman tələbələrin solçu hərəkatına qoşulmuşdu. Nobel ödülü almazdan öncə onun əsərləri almandilli olmayan ölkələrdə kifayət qədər ün qazanmışdı.

Onun 1972-ci ildə yazdığı "Mixael. Korafəhmlər üçün təlimat" (1972) romanı müasir cəmiyyət həyatına xas olan mədəniyyətin kütləviliyi probleminin sərt tənqidi üzərində qurulmuşdu.

O, həmçinin dağıdıcı patologiyası və müşayiətçilik mövqeyi ilə görkəmli Avstriya dramaturqu Tomas Bernhardı xatırladırdı. Digər tərəfdən, onun əsərlərində (özünəözgü üslubu olmasına baxmayaraq) Robert Musil kimi ünlü Avstriya yazarının təsiri görünürdü. Hətta Elfrida Yelinekin məktublarında belə Avstriya ədəbiyyatı gələnəkləri dərindən kök salmışdı. Elfrida Yelinekin siyasi mövqeyi (özəlliklə də, onun feminist mövqeyi və partiya mənsubiyyəti) müəllifin əsərlərinə qiymət verilməsində həyati önəm kəsb edirdi.Elfrida Yelinekin yaşam və yaradıcılığı əslində onu əhatə edən acı ziddiyyətlərin bir parçası idi.

## Həyatın bütün keşməkeşlərindən qalib və üzüağ çıxan Yelinek



**Elfrida Yelinek** 1974-cü ildən 1991-ci ilədək Avstriyada Kommunist Partiyasının üzvü olub. O, ifrat dərəcədə protofaşist Azadlıq Par-





tiyası ilə kəskin mübarizəsi nəticəsində 1990-cı illərdə Avstriyada hər bir ailədə tanınan ünlü insana çevrildi. 1999-cu ildə Milli Şuranın seçkilərindən, Azadlıq Partiyasının və Avstriyanın Xalq Partiyasının tərəfdarlarından ibarət koalisiyalı kabinetin yaradılmasından sonra Elfrida Yelinek yeni kabineti tənqid edən şəxslərdən biri oldu. Azadlıq Partiyasının güman edilən milliyyətçiliyini və avtoritarizmini əllərində bayraq tutaraq Avropanın (ümumən xaricin) bir çox dairələri tez bir zamanda Avstriya hökumətini açıq şəkildə devirmək qərarına gəldilər. Kabinet ona qarşı tətbiq edilən sanksiyaları Avstriyaya qarşı yönəlmiş sanksiyalar hesab etdi və milli birliyə çağıran tədbirlər (Nationaler Schulterschluss) həyata keçirdi.

Elfrida Yelinek də daxil olmaqla dissidentlərin hakim koalisiya tərəfdarları tərəfindən satqınlıqda ittiham olunması prosesi başlandı. Buna baxmayaraq, onun yaradıcılıq yolu həyatın bütün keşməkeşlərindən, ictimai-siyasi münasibətlərin ziddiyyətlərindən qalib və üzüağ çıxdı.

Onun şöhrəti bütün dünyanı dolaşmağa başladı və böyük oxucu rəğbəti qazandı. Elfrida Yelinek imzasını artıq planetin hər yerində tanıyırdılar.

2004-cü ildə o, (artıq "giriş"də də dediyimiz kimi) Ədəbiyyat üzrə Nobel Ödülünə "toplum şablonundakı absurdu və hakimiyyətin sosial qəliblərini özünəözgü dillə ifşa edən əsərlərindəki musiqi polifonikliyinə görə" layiq görüldü. Bu "gərəkçə" açıq-açığına bir həqiqəti də çatdırır bizlərə - xanım Yelinekin musiqi təhsili, musiqiçi istedadı yazıçı kimliyi ilə, kamil yazıçı qələmi ilə şəkillənib və bu şəkillənmə, bu təzahür onu Nobelə layiq görənlərin diqqətindən də ya-





yınmayıb, təbii. Və gəlin, biz bu şəkillənmənin, onun sənətçi keyfiyyətlərinin daha bir ifadəsi barədə bu kiçik məqaləmizin sıradakı bölümündə danışaq:

## "Teatr səhnələri və kino kadrları ilə zəngin poeziya"

Onun yaradıcılığında feminizm və qadının toplumdakı sosial rolu ayrıca yer tuturdu. "Sevgililər" (1975) romanı isə Avstriya ədəbiyyatına marksist-feminist parodiya idi və Yelinekin simasında milli ədəbiyyata güclü və orijinal yazıçının gəldiyini göstərdi.

1980-ci ildə çap olunmuş *"Bağlı qapı arxasında"* adlı əsərində Yelinek Avstriya toplumunun ciddi çətinliklərindən birini - yaxşı ailələrdə böyüyən *"pis uşaqlar"* problemini ortaya çıxarmışdı. Səksəninci illərdə yazıçını maraqlandıran əsas mövzulardan biri də seksual azadlıq və cinslərin qarşılıqlı münasibətləri idi. *"Pianoçü"* (1983) və *"Şəhvət"* (1989) romanlarında qadına münasibət, seksual zorakılıq problemi qoyulmuşdu. Özəlliklə "Pianoçu"da müəllifin şəxsi həyatı ilə bağlı motivlər qabarıq şəkildə əks olunmuşdu. Hər iki roman Avstriya cəmiyyətində ciddi əks-səda doğurmuşdu. Yelinekin kitabı əsasında çəkilmiş ən ünlü film, Avstriya mənşəli rejissor Mixael Hanekin ekranlaşdırdığı *"Pianoçü"* ("La Pianiste") filmidir. "Pianoçu"nun motivləri əsasında tanınmış rejissor Mixael Xanakenin çəkdiyi eyni adlı radikal səciyyəli film bir sıra yüksək mükafatlar qazandı. Filmin qəhrəmanı Vyana Konservatoriyasının müəllimi - içində təzadlı seksual istəklərin təlatüm etdiyi Erikadır. 2001-ci ilin Kann festivalında bu film (filmin yaradıcı heyəti) üç nominasiyada ödülə layiq görüldü:

İzabel Yupper - ən yaxşı qadın roluna görə, Benua Majinel - ən yaxşı kişi roluna görə ödüllənərkən, rejissor Mixael Xanek də münsiflər heyətinin özəl ödülü ilə təltif olundu.





***

Yelinekin digər bir əsərində - "Lust" romanında da (1992) çağdaş mədəniyyətin və toplumun modeli kimi, qadınların seksual təcavüzə məruz qalması tənqid olunurdu...



Elfrida Yelinek kifayət qədər ziddiyyətli yazıçıdır. Elə bu səbəbdən də Avstriyanın ədəbi elitası arasında onun əsərlərini az qala bədiilik etolonu səviyyəsinə qaldıranlar olduğu kimi, adi və bayağı pornoqrafiyadan fərqləndirməyənlər də az deyildir.

2004-cü ildə **Elfride Yelinek** ***"yalnız bu müəllifə xas ehtiraslı dillə cəmiyyət həyatındakı cəfəng meylləri və hakimiyyətin sosial klişelərini ifşa edən roman və dramlarının musiqi polifonikliyinə görə"*** Nobel mükafatı aldı.

Müəllif özü təqdimat mərasimində iştirak edə bilməmişdi. Nobel mühazirəsini isə İsveç Akademiyasına videogörüntü şəklində göndərmişdi. Yelinek məhz özünün seçildiyi üçün çox sevindiyini, lakin ədəbiyyat Nobelinin populyarlığını daha da artırmasından və ictimai şəxsiyyətə çevirməsindən kədərləndirdiyini bildirmişdir.

Əslində o, təbiəti etibarı ilə şöhrətə can atan adam olmadığından adı və əsərləri ətrafında yaranan hər hansı ajiotajın fövqündə dayanmağı bacarır. Və yeni əsərlər üzərində işləyir.

İsveç Akademiyası qeyd edirdi ki, ***"Yelinekin mətnlərinin təbiətini***





***biranlamlı müəyyən etmək çətindir. Onlar poeziyadan nəsrə, himnlərə keçir, teatr səhnələri və kino kadrları ilə zəngindir".*** Yeri gəlmişkən, o, həmçinin bir neçə pyes, kinossenari və opera liberettolarının da müəllifidir.

Yelinek çağdaş almandilli ədəbiyyatın ən ciddi simalarından biridir. O, Avstriya ədəbiyyatının gədənəklərinin davamçısı kimi, Robert Muzilin kədərini və Frans Kafkanın yumor hissini özündə birləşdirə bilir.

Yelinekin yaradıcılığını anlamaq üçün onun siyasi baxışlarını bilmək lazımdır. O, 1999-cu ildə Avristriyada hakimiyyət koalisiyası yaratmış Yorqa Xayderin ultrasağ Azadlıq Partiyasının əsas tənqidçilərindən biridir. Onların hakimiyyətinə etiraz əlaməti olaraq, öz pyeslərinin Avstriyada tamaşaya qoyulmasını yasaqlamışdı. Hakim sağradikal qüvvələr, onu milli maraqları satmaqda ittiham edirdilər. Elə ona görə də, Avstriyada Yelinekin şəxsiyyətinə münasibət biranlamlı deyil, kimlərsə onunla fəxr edir, digərləri isə onu tənqid atəşinə tutur.

Yelinek öz dramaturgiyasında Brextin gələnəklərini inkişaf etdirir. Burada monoloqların polifoniyası personajların rolunu göstərməkdən daha çox, onların psixikasının müxtəlif qatlarını, eyni zamanda, səsləndirməyə imkan yaradır. Onun qələmindən çıxan əsərləri sırasında "Klara Ş." (1982), "Xəstəlik və ya çağlaş qadınlar" (1984),"Ehtiras, yaxud yol açıqdır" (1986), "Bulud. Ev" (1988), "Düşərgə, yaxud bu işlə hamı məşğul olur" (1994), "İdman" (1998), "O, özü olduğu kimi deyil" (2000) var ki, onlar Bonn, Hamburq, Vyana, Münhen, Sürix kimi şəhərlərin ən gözəl teatrlarının səhnələrində tamaşaya qoyulub. 1998-ci ildə Zalsburqda keçirilən ümumdünya teatr fes-






tivalının bütün repertuarı başdan-başa Elfride Yelinekin əsərlərindən tərtib edilmişdi. Həmin il o, Avstriyanın ən nüfuzlu ədəbi mükafatı sayılan Büxner ödülünə layiq görülmüşdü. 2002-ci ildə öz ölkəsində "İlin dramaturqu" adını, Almaniyada isə Henrix Heyne mükafatını qazanmışdı.

Yelinekin qələmindən müxtəlif janrlı 30-a yaxın ədəbi əsər çıxıb. Onun çap olunmuş ən son əsərləri 2002-2004-cü illərdə ictimaiyyətə təqdim olunan "Alp dağlarında" ("In den Alpen") pyeslər toplusu və "Ölüm və qız" ("Der Tod und das Maedchen") kitablarıdır.

Onun əksər əsərləri dünya dillərinə çevrilib. Yelinek 20-yə yaxın milli və uluslararası ədəbi ödülün laureatıdır.

Onun əsərləri bu gün oxucular tərəfindən böyük maraqla oxunur və yəqin, gələcəkdə də belə olacaq. O, öz ədəbi yaradıcılığı ilə əbədiyyat adlanan əngindikdə özünün yerini müəyyənləşdirmişdir!

***Xanım Yelinek! Dünən öz ədəbi yaradıcılığı ilə Nobelə layiq görülmüş, bu gün yaşayıb-yaradan ünlü qadın yazar, sabah da tarixdə və sevənlərinin könlündə yaşayacaqdır!..***









- O, Çili tarixində, ümumən Latın Amerikasında ilk qadın müdafiə naziri oldu.
- O, Çilinin tarixində ilk qadın Prezident oldu!
- O, 2008-ci ildə məşhur "Taym" jurnalının "Dünyanın 100 ən nüfuzlu adamı" siyahısında 15-ci yeri tuturdu.
- O, 2009-cu ildə ünlü "Forbes" jurnalının "Dünyanın 100 ən güclü qadını" siyahısında 22-ci yerə layiq görülüb.
- Bu qadın bu gün də dünyanın ən ünlü, ən nüfuzlu liderlərindən, siyasətçilərindən biri, Çilidə və ümumiyyətlə, Güney Amerikada ilk qadın prezident kimi tarixə düşmüş Mişel Baçeletdir.

*"Mənim qələbəm tək bir şəxsin zəfəri deyil..."*

**Mişel Baçelet**

- 1951-ci ildə Santyaqoda Baçelet Angela Jeria Gomez və Alberto Baçelet Martinezin ailəsində bir qızcığaz dünyaya gəldi. Ailənin ikinci övladı olan bu körpəyə Veronika adını verəndə valideynləri heç ağıllarına da gətirməzdilər ki, vaxt gələcək, onların balaca qızları böyüyüb dünya tarixinə öz adını yazan ən ünlü liderlərdən biri olacaq...
- Onun ulu babası Luis Cozef Baçelet Lapiyer fransız kökənli idi və 1860-cı ildə Parisli həyat yoldaşı ilə Çilinin güneyinə köçmüş, burada üzüm bağlarında şərab eksperti kimi işləməyə başlamışdı. Yunan əsilli ana babası isə Çilidə ilk aqronom mühəndisliyi dərəcəsi almış, sonra isə







ölkənin müxtəlif yerlərində kənd təsərrüfatı məktəbləri açmışdı. Veronika Mişel Baçeletin atası hərbçi olduğundan onun uşaqlıq illəri ailəsi ilə birlikdə Çilidə bir hərbi hissədən digərinə köçməklə keçmişdi. Ölkənin bir bölgəsindən digərinə köçməklə davam edən yaşam ritmi sanki onun gələcəkdə rəhbərlik edəcəyi ölkə ilə taleyin hökmünə uyğun ilkin zəruri tanışlığı, necə deyərlər, qarış-qarış gəzməsi idi... Oxuduqca görəcəksiniz, onun vəzifə pillələrində irəliləməsi də, sanki qəribə bir qanunauyğunluğa tabe olub: ardıcıl, təcrübə yığa-yığa və məqsədəmüvafiq qaydada...



- 1962-ci ildə **Mişel Baçelet** ailəsi ilə birlikdə ABŞ-a köçdü. Veronikanın atası Vaşinqtonda Çili səfirliyində hərbi missiyaya rəhbərlik etməyə başladı. Onlar Merilendə iki il yaşadılar və Mişel burada Vestern orta məktəbində təhsil aldı, üstəlik, ingilis dilini mükəmməl öyrənmək fürsəti əldə etdi. 1964-cü ildə isə Çiliyə qayıdaraq, təhsilini burada davam etdirdi. 1969-cu ildə qızlar üçün prestijli orta məktəbi "fərqlənmə" ilə bitirdi və 1970-ci ildə qəbul imtahanlarında ən yüksək nəticə göstərərək, Çili Tibb Universitetinə daxil oldu.





- Əslində, Mişel öncə sosiologiya və ya iqtisadiyyat üzrə ali təhsil almaq istəyirdi, amma atasının məsləhəti ilə qərarını dəyişərək, tibb təhsili almağa üstün tutdu. *(Xanım Baçelet daha sonralar verdiyi müsahibələrində, tibb təhsili alması barədə danışarkən, bunun Çilidə insanların ağrı-acısına yardım etmək və səhiyyəni inkişaf etdirmək üçün konkret yol olduğunu düşündüyünü ifadə etmişdi.)*







## İşgəncə və sürgün illəri

...Artmaqda olan ərzaq çatışmazlığını görən Salvador Alyende hökuməti Baçeletin atasını Ərzaq Paylama Şöbəsinə rəhbər təyin etdi. **Avqusto Pinoçet** hakimiyyətə gəldikdən sonra isə general Baçelet sürgünə getməkdən imtina etdiyinə görə xəyanətdə günahlandırılaraq, həbs edildi. Ancaq diktator ondan həbsxanada da əl çəkmədi və bir ay boyu tətbiq olunan işgəncələrə dözməyən general 12 mart 1974-cü ildə ürək çatışmazlığından vəfat etdi. 10 yanvar 1975-ci ildə, Baçelet və anası gözləri bağlanaraq, məxfi həbs mərkəzinə aparıldı və orada işgəncəyə məruz qaldılar. Bir neçə gün sonra onlar "Kuatro Alamos" adlı həbsxanaya göndərildi və yanvarın axırına qədər orada saxlanıldılar. Ancaq atasının hərbçilər arasındakı yaxın dostları onların tezliklə həbsxanadan çıxmasına və 1969-cu ildə Avstraliyaya -qardaşının yanına göndərilməsinə yardım etdilər...

1975-ci ildə Baçelet Şərqi Almaniyaya köçdü və Potsdamda yaşamağa başladı. Bir ay sonra isə anası da Almaniyaya - onun yanına gəldi və ana-övlad öz yaşamlarını Leypsiqdə davam etdirdilər.

1976-cı ilin oktyabrında Mişel Baçelet Şərqi Almaniya Universitetində təhsilini davam etdirə bilmək üçün Babelzberqdə klinikada işləməyə başladı. Bu zaman o, Çilidən olan memar **Jorge Leopoldo Davalos Cartesla** tanış oldu və bu tanışlıq az bir müddətdən sonra - 1977-ci ildə onların ailə qurması ilə sonuclandı. 1978-ci ilin yanvarında xanım Baçelet indiki Leypsiq Universitetində alman dilini öyrənməyə başladı. Həmin ilin iyununda cütlüyün ilk övladı Jorge Alberto Sebastian dünyaya gəldi. Sentyabrda o, yenidən tibb təhsilini davam etdirmək üçün Potsdama qayıtdı. Beş ay sonra isə ölkəsinə qayıda bilməsi üçün razılıq aldı. Həyat yenidən başlayırdı, daha doğrusu, həyatın yeni səhifəsi açılırdı - doğma ölkədə, doğma insanlar arasında...





## Doğma Çiliyə qayıdış

1979-cu ilin fevralında Baçelet Santyaqoya qayıtdı. Ancaq Tibb Universitetində onun Şərqi Almaniyada əldə etdiyi kreditlər qəbul olunmadığı üçün təhsilinə ölkəni tərk etməzdən öncə qaldığı yerdən davam etməyə məcbur oldu. O, 1983-cü ilin yanvarında doktorluq dərəcəsi aldı. Baçelet ən çox köməyə ehtiyac olan sahədə - dövlət sektorunda həkim kimi çalışmaq üçün müraciət etsə də, siyasi maraqlar əsas gətirilərək onun bu nəcib müraciəti qəbul olunmadı. Ancaq nailiyyətlərinə görə o, Roberto del Riyo xəstəxanasında pediatriya və ictimai səhiyyə üzrə ixtisaslaşmaq üçün şans qazandı.

1984-cü ilin fevralında, ikinci övladlarının dünyaya gəlməsindən bir müddət sonra Baçelet və əri rəsmi olaraq ayrıldılar.

Çiliyə qayıtdıqdan sonra o, həm də itkin düşmüş və işgəncəyə məruz qalmışların uşaqlarına yardım edən qeyri-hökumət təşkilatında işləməyə başladı, 1986-90-cı illər ərzində Fondun Tibb Şöbəsinin başçısı oldu.

1985-87-ci illərdə xanım Baçelet Manuel Rodriqez Vətənpərvər Cəbhəsinin katibi, mühəndis Aleks Vaoykoviçlə yaxın münasibətdə olmuşdur. Prezidentlik kampaniyası ərzində bu əlaqə xüsusi marağa səbəb oldu. Baçelet isə Vaoykoviçin ideyalarını heç vaxt dəstəkləmədiyini açıqladı.

1990-cı ildə Çilidə demokratiya bərqərar olmağa başladığı zaman Baçelet Səhiyyə Nazirliyində işlədi, Panamerika Səhiyyə Təşkilatı, Dünya Səhiyyə Təşkilatı və Texniki Əməkdaşlıq üzrə Alman Korporasiyası üçün məsləhətçi oldu.

















Milli QİÇS Komissiyası üçün işləyərkən o, həmkarı, Pinoçet tərəfdarı kimi tanınan Anibal Hernan Henriquez Markislə yaxın münasibətdə oldu və onların bu yaxınlığı - 1992-ci il doğumlu Sofia Catalinanın dünyaya gəlməsi ilə nəticələndi.. Amma yeni doğulmuş övladları da onların cəmi bir neçə ay sonra ayrılmalarının qarşısını ala bilmədi... Deyəsən, onun ailə sarıdan bəxti gətirmirdi: yaxud da onun ictimai-siyasi həyata, dövlət işinə marağı günbəgün artdıqca, eləcə də, liderlik keyfiyyətləri getdikcə daha çox büruzə verdikcə ailə daxilində belə "hakimiyyət savaşı", "maraqlar toqquşması" üzə çıxırdı...

Xanım Baçelet 1994-97-ci illər ərzində səhiyyə naziri müavininin köməkçisi işlədi.

Sivil-hərbi əlaqələrə olan maraq Baçeleti 1996-cı ildə Milli Strateji Elmlər Akademiyasında hərbi strategiya üzrə təhsil almağa vadar etdi. Təhsildə göstərdiyi fərqlənməyə görə o, Vaşinqtondakı İnter-Amerika Müdafiə Kollecində təhsilini davam etdirmək şansı qazandı. 1998-ci ildə kursu uğurla bitirərək Çiliyə qaydan Baçelet burada Müdafiə Nazirinin baş köməkçisi işləməyə başladı. Sonra isə Çili Ordusunun Müharibə Akademiyasından hərb elmində magistr dərəcəsi qazandı. Mişel Baçeletin bu işi həyatının yeni axarından xəbər verirdi, onun işi də, danışığı da sanki zabitəyə bürünmüşdü... Tale öz sözünü deyir - qəlbi arzularla dolu olan bir qadını getməli olduğu, gedəcəyi yerə aparırdı...

## Gizli və açıq mübarizələrlə dolu siyasi fəaliyyət illəri...

1970-ci ildə tələbəlik dövründə Baçelet Sosialist Gənclik Partiyasının üzvü və Populyar Birliyin fəal müdafiəçisi oldu. Sürgündən qayıtdıqdan sonra - 1980-ci illərin ortalarında isə o, yenidən siyasi cəhətdən fəal olmağa davam etdi və bu dəfə gizli şəkildə Çilidə demokratiyanın bərqərar olması üçün mübarizə aparmağa başladı. 1998-2000-ci illərdə Siyasi Komitənin fəal üzvü oldu.









Baçelet 1996-cı ildə Santyaqoda, Las Kondes əyalətinin meri postu uğrunda Cakin Lavinlə mübarizədə məğlubiyyətə uğradı və yığdığı səslərə görə ancaq 4-cü ola bildi.

Siyasi çalışmalardan yorulmayan Baçelet, 1999-cu ildə Demokratiya üçün Partiyalar Koalisiyasında Rikardo Laqosun namizədliyi üçün işlədi.



## Öncə səhiyyə, sonra müdafiə naziri



2000-ci il martın 11-də Baçelet Prezident Laqos tərəfindən səhiyyə naziri təyin olundu. O, ictimai səhiyyə sisteminin təhlilinə başladı və bir neçə il sonra yeni plan irəli sürdü. Xanım nazir prezident tərəfindən ictimai xəstəxanalarda gözləmə siyahısının ilk 100 gün ərzində ləğv edilməsi tapşırığını alarkən həmin tapşırığın bu müddət ərzində tam yerinə yetirilməsinin mümkünsüz olduğunu düşünərək istefa verdi, lakin Prezident onun istefasını qəbul etmədi. Səhiyyə naziri kimi fəaliyyətinin ikinci ilində o, yeni təyinat aldı. Belə ki, 2002-ci il yanvarın 7-də Baçelet müdafiə naziri təyin olundu və Latin Amerikasında bu postu tutan ilk qadın oldu! Bu dövr ərzində o, mülki əhali ilə ordu arasında barışıq yaratmağa çalışdı və







general Xuan Emiliyo Çeyenin sözlərindən istifadə edərək "bir də heç vaxt" Çilidə ordunun demokratiyaya qarşı çevrilməyəcəyinə söz verdi. Hərbi təqaüd sistemində islahatlar apardı, sülh müqavilələrində iştirak etməklə yanaşı ölkənin müdafiə sistemini yaxşılaşdırmaq üçün yeni (çağdaş) hərbi texnikalar aldı. Santyaqoda daşqınlar zamanı əhalini xilasetmə dəstələrinin başında şəxsən iştirak etməsi isə Başeletin prezidentliyə namizədliyində önəmli rol oynadı.

## General qızı prezidentliyə namizəd olur

2004-cü ilin sonlarında Sosialist Partiyası Baçeletin növbəti seçkilərdə namizədliyini irəli sürdü. Öncə, əsas karyera məqsədlərinə daxil olmadığı üçün buna etiraz etsə də, tərəfdarlarının ümidini itirməmək üçün təklifi qəbul etdi. Həmin ilin oktyabrında o, seçki kampaniyasını başlatmaq üçün işdən azad edildi və 2005-ci il yanvarın 28-də Sosialist Partiyasından prezidentliyə rəsmən namizəd oldu.

Baçelet mərkəz-sol görüşlü siyasətçi kimi tanınır. Təsadüfi deyil ki, o, prezident seçkilərində də solçu siyasi partiyalar - *"Demokratiya uğrunda partiyaların birləşməsi"* alyansının namizədi olaraq iştirak edib.

2005-ci ildə keçirilən ilkin seçkilərdə o, mərkəz-sağçı namizəd Sebastian Pinyera, sağçı namizəd Cakin Lavin və Çili siyasi üslubu ilə desək, uzaq-solçu namizəd Toman Hirşlə mübarizədə səslərin mütləq çoxluğunu toplaya bilmədi. Ancaq 2006-cı ilin yanvarında seçkilərin ikinci aşamasında xanım Baçelet mərkəz-sağ görüşlü biznesmen (milyarder) və keçmiş senator, müxalifətdə olan mühafizəkar blokun namizədi **Sebastian Pinyeraya 53.5% səslə qalib gələrək Çili tarixində ilk qadın prezident oldu! O, Latın Amerikasında əri hökumət başçısı və ya prezident olmadan prezident seçilən ilk qadın oldu!** (Mişel Baçelet 1990-cı ildə, hərbi diktaturaya son qoyulduqdan, ölkənin demokratik idarəçiliyə qayıdışının ardından mərkəz-solçu koalisiyadan seçilən dördüncü dövlət başçısıdır.)













## Onu birinci rəqibi təbrik etdi

Mişel Baçeletin platformasında əsas yeri Çilinin azad bazar siyasətini davam etdirmək, habelə yoxsul və varlılar arasında olan kəskin fərqi azaltmaq üçün sosial yardımların verilməsi tuturdu.

Baçelet və onun komandası, ilk növbədə, ümumiləşmiş şəkildə "100 gün, 36 vəd" adlı proqram həyata keçirəcəklərini açıqlamışdı. Bu proqrama, bir an öncə təqaüdlərin artırılması, yeni sağlamlıq mərkəzlərinin açılması və 60 yaşdan yuxarı vətəndaşlar üçün pulsuz tibb xidmətinin göstərilməsi daxil idi. Eyni zamanda, əsas diqqətin əhalinin təhlükəsizliyinə yönəldilməsi: küçələrdə polislərin sayının artırılması; orduda müqavilə əsasında xidmətə keçilməsi nəzərdə tutulurdu.

Qeyd edək ki, milyonçu Sebastian Pinyera prezident seçkilərinin ikinci turunda son nəticəni gözləmədən öz məğlubiyyətini etiraf etdi və onu birinci təbrik edən şəxs oldu. ...Öz tərəfdarları qarşısında çıxış edən Pinyera deyirdi: "Mişel Baçeleti qələbə münasibətilə təbrik edir və ona dövlət başçısı vəzifəsində uğurlar arzulayıram. Baş tutmuş seçkilərdə nə qalib, nə də məğlub olan var. Bizim hamımız demokratik ölkənin vətəndaşıyıq və indi ölkəmizin çiçəklənməsi naminə səylərimizi birləşdirməliyik".





## Xanım Prezidentin "balanslaşdırma" siyasəti

2006-cı il yanvarın 30-da prezidentliyi rəsmi şəkildə təsdiqləndikdən sonra Baçelet Nazirlər Kabinetinin tərkibini açıqladı və burada, kampaniyası dövründə söz verdiyi kimi, qadın və kişilərin sayını bərabər tutdu! Koalisiyanın tarazlıq gücünü saxlamaq məqsədi ilə Xristian Demokratlardan 7, "Demokratiya naminə" Partiyasından 5, Sosialist Partiyasından 4, Sosial-Demokrat Radikal Partiyasından 1, digər partiyalardan isə toplam 3 nəfəri nazir təyin etdi. Daha sonra gender bərabərliyi qaydasına riayət etməklə nazir müavinlərini və regional nümayəndələri təyin etdi. O, bu addımı ilə ölkəsində gender bərabərliyi istiqamətində, sözün əsl mənasında inqilab etdi!

Baçeletin rekord sayda xarici qonağın da qatıldığı andiçmə törəni Valparaisoda, Milli Assambleyadakı plenar iclas zamanı gerçəkləşdi.

Bu arada onu da deyək ki, həyat yoldaşından ayrılsa da, 3 övladını mətanətlə böyütməklə yanaşı, böyük uğurlara imza atan Mişel Baçeletin, üstəlik ispan, ingilis, fransız, alman və portuqal dillərində sərbəst danışması da Çili ictimaiyyəti arasında rəğbətlə diqqət ayrılan mövzulardandır...

## Ancaq irəli!



Baçeletin prezidentliyinin ilk 3 ayı seçkiöncəsi kampaniya zamanı söz verdiyi irili-xırdalı 36 əsas məsələnin həll edilməsinə həsr olundu. Keçmiş hakimiyyət dövründən qalan problemlərin sayı isə olduqca çox idi. Təsadüfi deyildi ki, o, seçkidən cəmi 2 ay sonra ilk siyasi böhranla üzləşməli oldu. Aprel ayında ölkə boyu dövlət məktəblərində keyfiyyətin artırılmasını tələb edən məktəblilərin etiraz aksiyaları başladı. Köhnə hakimiyyətin dövründən bu problemdən əziyyət çəkən insanlar yeni hakimiyyətdən vəziyyətin düzəldilməsini tələb edirdilər. Bu narazılığın aradan qaldırılması üçün Baçelet bir müddət sonra kabinetin tərkibində dəyişiklik etdi. 2006-cı ilin sonuncu aylarında isə keçmiş hakimiyyətin dövründə dövlət idman fondu tərəfindən ictimai fondların qeyri-düzgün istifadəsi məsələsi ortaya çıxdı. Bu qalmaqaldan sonra Baçelet noyabrda antikorrupsiya planını irəli sürdü.













Baçeletin ilk ildə üzləşdiyi çətinliklərə Pinoçetin vəfatı, yeni generalın təyin edilməsi barədə hökumətlə Konqres arasında yaranmış çıxılmaz vəziyyət və Santyaqoda yeni nəqliyyat sisteminin tətbiqindəki çətinliklər də əlavə olundu. Sonuncu məsələ onun nüfuzunun aşağı düşməsinə və kabinetin yenidən dəyişdirilməsinə səbəb oldu. Buna baxmayaraq o, keçmişdən yığılıb qalan və ölkəsinin inkişafına mane olan islahatları həyata keçirməkdən çəkinmədi - özü də yalnız Prezident səlahiyyətləri hesabına deyil, "özkeçmişi"nin verdiyi enerji ilə! Və bir çox hallarda bu islahatların həyata keçirilməsi ilk zamanlar onun reytinqinin aşağı düşməsinə səbəb olsa belə...



O, müxalifətlə də razılığa gələrək bəzi sahələrdə radikal islahatlar apardı və uğurlar əldə etməyə başladı. Məsələn, noyabr ayında bir aylıq müzakirələrdən sonra, Baçelet təhsil sahəsində və şəhər-





lərdəki cinayətlə mübarizə sahəsində müxalifətlə razılığa nail oldu.

O, ölkəsinin iqtisadi inkişafı istiqamətində də uğurlara imza atdı. Onun prinsipiallığı və səbrlə çalışmağı, Prezident məsuliyyəti ilə Qadın nəcibliyini birləşdirmək yetənəyi öz meyvələrini verməyə başlamışdı! Ancaq irəli baxmaq lazımdı və Çilidə bunu xanım Prezidentdən - ölkənin ağrı-acılarını ana nəvazişi ilə sarmağa çalışan Baçeletdən daha yaxşı görən və onun kimi dəyərləndirən kim ola bilərdi?!

2006-cı ilin avqustunda Baçelet Çin Xalq Respublikası ilə azad ticarət barədə saziş imzaladı. Eyni sazişlar daha sonra Yaponiya və Hindistanala da imzalandı. 2006-cı ilin oktyabrında Yeni Zellandiya, Sinqapur və Bruneylə, o cümlədən, Trans-Sakit Okean Strateji İqtisadi Birliyi ilə də eyni adlı sazişlər imzalandı. Regionda isə o, Panama, Peru və Kolumbiya ilə azad ticarət müqavilələri imzaladı. Ölkədə işsizlik faizi 1998-ci ildən bəri ən aşağı səviyyəyə düşdü, lakin Mərkəzi Bankda inflyasiya 4%-ə qalxdı. Buna səbəb, sərt qışdan sonra ərzağın qiymətlərinin yuxarı qalxması və son 8 ildə milli valyu-





tanın (pesonun) dəyərinin dollarla müqayisədə ən yüksək həddə çatması oldu. Hadisələrin gedişi sonucunda 2007-ci il ərzində hökumət Konqresin hər iki palatasında çoxluğu itirdi və koalisiyaya daxil olan bir çox deputat bitərəf oldu.







## Xanım Prezidentin xarici siyasətinə baxış

Prezidentliyinin ilk ilində Baçelet qonşuları Argentina və Peru ilə davamlı olaraq problemlərlə üzləşirdi. Bunun səbəbi ölkəsinin maraqları naminə heç kəsə güzəştə getməməsi idi. Məsələn, 2006-cı ilin iyulunda Çiliyə ixrac olunan təbii qaz üzərində tarif artımının ikitərəfli razılaşmaya zidd olduğu qənaətinə gələn Baçelet Argentina Prezidenti Kirşnerə etiraz məktubu göndərdi. Bir ay sonra isə Argentinanın yeni dən turist xəritələrində Çilinin güney ərazisindəki Buz sahələrini öz ərazisi kimi göstərməsi ilə iki ölkə arasındakı sərhəd məsələsi gündəmə gəlmiş oldu. 2007-ci ilin avqustunda Peruda Çilinin Sakit okean ərazisinin bir hissəsinin bu ölkəyə məxsus olduğunu "iddia edən" xəritənin çap olunmasına etiraz əlaməti olaraq Perudakı səfir geri çağırıldı. O, hər kəsə göstərdi ki, ölkəsinin maraqlarına zidd olan heç bir addımı qəbul etməyəcək və onun qarşısının alınması üçün ən sərt addımlara əl atılacaq...










***

Çilinin BMT-nin Təhlükəsizlik Şurasında 2006-cı il oktyabrın 16-da Qvatemala və ya Venesuelanın Şurada Latın Amerika ölkələri üzrə müvəqqəti yer tutması məsələsində verdiyi səs ölkədə ideologiya məsələsinə və Baçelet üçün sınağa çevrildi. Hakimiyyətdə olan koalisiya Venesuelaya səs verilməsini istəyən so-





sialistlər və bunun əleyhinə olan Xristian Demokratlar arasında bölünmüşdü. Səsvermədən bir gün öncə isə Prezident bir namizəd barədə regional razılığın olmadığını səbəb gətirərək



səsvermədə iştirak etməyəcəyini bildirdi. 2007-ci ilin martında Çilinin Venesueladakı səfiri Klaudio Huere "Telesur" kanalına verdiyi müsahibədə Baçeletin ona şəxsən "Venesuelaya səs vermək istədiyini, daha sonra isə durumun dəyişməsi ilə əlaqədar bu fikrindən daşındığı" barədə açıqlama verdi. Təbii ki, bu açıqlamanı verən səfir dərhal geri çağırılaraq istefaya göndərildi.

Xanım Baçelet ölkəsinin maraqları naminə ən cəsarətli addımları belə atmaqdan çəkinməzdi. Məsələn, 2009-cu ildə o, Kuba lideri Raul Kastronun dəvəti ilə 3 günlük rəsmi səfərlə bu ölkəyə getdi. Məsələ onda idi ki, bu son 37 ildə Çili rəhbərinin Kubaya ilk rəsmi səfəri idi. *(Son dəfə bu ölkəyə Çilinin sosialist Prezidenti Salvador Alyende 1972-ci ildə səfər etmişdi.)*

## Xidmət bitdi! Xidmət davam edir!

2009-cu il seçkilərində prezidentliyə namizəd olmayan Baçelet, 11 mart 2010-cu il tarixindən etibarən ölkənin birinci postunu yeni **Prezident Sebastian Pineraya təhvil verərək,** təqaüdə çıxdı. Amma ağıllı LİDER, bacarıqlı SİYASƏTÇİ və cəsarətli QADIN olan Baçeletə, onun fəaliyyətinə dünyanın ehtiyacı vardı və o, prezidentlikdən







ayrıldıqdan çox qısa müddət sonra (2010-cu ilin sentyabrında) BMT-nin baş katibi Pan Ki-Mun cənabları tərəfindən dünyanın 1 nömrəli uluslararası qurumunda Qadın məsələlərinə (head of UN Vomen) rəhbərlik etməyə dəvət olundu və o, bu vəzifəni qəbul etdi. Bu gün sözügedən missiyanı uğurla həyata keçirən Baçelet yenə də dünyada öz adından söz etdirir...



Dünən bir ölkənin məsuliyyətini daşıyan xanım Baçelet bu gün dünya miqyasında qadın problemləri ilə uğraşır. O, zəngin ictimai-siyasi təcrübəsinin, böyük qurbanlar hesabına diktaturadan demokratiyaya keçid etmiş bir dövlətin başçısı olaraq əxz etdiyi dəyərlərin beynəlxalq miqyasda təcəllasına çalışır.



O, bir general övladı idi. O, atası işgəncələrlə öldürülmüş bir insan idi. O, bir qadın idi, ana idi. O, səhiyyə naziri oldu - sanki ölkəsinin, xalqının yaralarını sarmaq, sarımaq istəyirdi! O, müdafiə naziri oldu! Vaxtı ilə atasının mənsub olduğu Orduya rəhbərlik etdi! Nəhayət, Prezident oldu! Zamanında həmin postu qeyri-qanuni tutan adam xalqı, şəxsən Baçelet ailəsini faciələrə sürükləmişdi. O, acı və ağrılarla dolu olan Çilinin qalxınması üçün yorulmadan çalışdı!







*Onun "həyat dəftəri"ni vərəqlədikcə, sanki yalnız bir məqsədə, bir ideala xidmət etmək üçün yaranmış (və başqa heç bir iddiası olmayan) məğrur insan görürsən: Özünü təsdiq etmək (başqa sözlə, qəbul etdirmək)! ...Və bu "təsdiq"i (bu "qəbul"u) gözəl qılan odur ki, həmin istək haqsızlığa qarşı dirənmək məzmunu ilə, ali niyyətlə yükümlüdür! Ünlü bir fəlsəfi deyimlə ifadə etsək, onun yükündən böyük fərəhi yoxdur...*







# Meri Patricia Makalis

## Türk comərdliyinə vəfa göstərən irland xanım



■ 1951-ci il iyunun 27-də Belfastda bir qızcığaz dünyaya göz açdı. Meri adı verilən bu körpə düz 46 il sonra İrlandiyanın səkkizinci prezidenti olmaqla yanaşı, ölkəsinin tarixində mühüm tarixi hadisələrin də əsasını qoyacaqdı...

■ O, bu postda İrlandiyanın ilk qadın prezidenti Meri Robinsonu əvəz etdi və İrlandiya dünya tarixinə ilk dəfə olaraq bir qadının başqa bir qadını dövlət başçısı kimi əvəz etdiyi ölkə olaraq düşdü.

■ O, tarixə Quzey İrlandiyadan olan ilk İrlandiya Prezidenti kimi düşdü.

■ O, Şri-Lanka Prezidenti Çandrika Kumaratunqadan sonra ən uzun müddət dövlət başçısı olan qadındır!

■ Atatürkün bir fotoşəkli onun uşaqlığı keçən evdə, İrland xalqının qəlbində və xatirələrində xüsusi yer qazanmış İrlandiyalı qəhrəmanların fotoşəkilləri arasında yer alır!

■ O, Türkiyəyə səfər edən ilk İrlandiya Prezidenti olaraq, xalqının türklərə əbədi minnətdarlığını açıq şəkildə dilə gətirdi. 1 milyon irlandiyalının yaşamını itirdiyi Böyük Aclıq dönəmində (1847) Osmanlı padşahının içi qida dolu üç gəmisini Droqedadakı limanlara yolladığını anlatdı: *"İrlandiya xalqı bu tayı-bərabəri az görünən aliçənablığı əsla unutmadı və bunun sonucunda sizin bayrağınızdakı simvolları, bu gözəl ulduz və ayı bölgənin simvolu halına gətirdilər. Hətta futbol komandasının formalarının üzərində də bu gözəl türk simvollarını görürsünüz..."*





■ O, fikirləri kilsə tərəfindən etirazla qarşılansa da qadınların da keşiş olmasına imkan verilməsi fikrini ən ciddi şəkildə müdafiə edənlər arasındadır.



■ O, tarixdə böyük qarşıdurmaların, qanlı hadisələrin və gərginliklərin yaşandığı bir məkanda bir dialoq körpüsü olacağını bəyan edir və bütün çətinliklərə baxmayaraq, sözünün üzərində dayanır.



■ Ünlü jurnalist və şərhçi Eoqhan Harrisin 1990-cı ildə "qəbilə saatlı bomba" (A tribal time bomb) adlandırdığı bu qadın liderlik etdiyi coğrafiyada gələcək üçün, barış üçün əlindən gələni edərək yeni bir mühit yaradır!



■ O, İrlandiyanın birləşməsinin əsas tərəfdarlarından biri kimi tanınır!

■ O, dünyada abortun və boşanmanın əleyhdarlarından biri kimi tanınır!

■ O, 3 may 2007-ci ildə - Amerikan İrland Fondunun Humanist ödülü (The American Ireland Fund Humanitarian Award) laureatı oldu!

■ O, 31 oktyabr 2007-ci ildə - Yeni Zelandiyanın Otaqo Universitetinin (University of Otago New Zealand) "Fəxri hüquq doktoru" adına layiq görüldü!



- O, 19 may 2009-cu ildə - **Kilkenni** (Kilkenny/İrlandiya) ödülü laureatı (O bu ödülü alan, həyatda olan üçüncü şəxsdir) adına layiq görülən şəxs kimi tarixə düşdü!
- O, Massaçusetsdəki Maunt Holyok Kollecinin (Mount Holyoke College, in South Hadley, Massachusetts) və bir sıra universitetlərin "fəxri hüquq doktoru" adına layiq görülüb!
- Dünya siyasətində özünəməxsus yeri olan bu qadın, **bu LİDER, bu Şəxsiyyət İrlandiya Prezidenti**, dünyada tanınmış ictimai-siyasi xadim **Meri Patricia Makalisdir**! (Mary Patricia McAleese)
- İrlandiyanın ikinci qadın Prezidenti olan Meri Makalis öncə hüquqşünas, jurnalist, habelə akademik kimi fəal ictimai-siyasi, elmi çalışmalarda bulunmuş, öz ölkəsinin ünlü ziyalılarından olmuşdur. 1997-ci ildə, Meri Robinsonun vaxtından öncə istefasından sonra prezident seçilən Makalis, **2004-cü ildə yenidən prezident seçildi.**
- Belfastda doğulub boya-başa çatmış Makalis ailədəki 9 qardaş-bacının ən böyüyüdür. Katolik dini inancına mənsub olan ailəsi Quzey İrlandiya münaqişəsi zamanı yaşadığı yerdən güclə qovulmuşdu. Xanım Makalis Müqəddəs Dominiks Məktəbində (St Dominics High School) təhsil almış, Belfast Kraliça Universitetini (Queens University of Belfast) və Dublində Triniti Kollecini (Trinity College Dublin) bitirmişdir. 1974-cü ildə Quzey İrlandiya Hüquqşünaslar Birliyinə





hüquqşünas kimi işləməyə dəvət olunmuş Makalis bu gün də İrlandiya Respublikasının Hüquqşünaslar Birliyinin üzvüdür. 1975-ci ildə Meri adaşının - Meri Robinsonun yerinə Triniti Kollecində cinayət hüququ, kriminalogiya və penalogiya üzrə professor kimi işə başlayır. Maraqlıdır, o Meri Robinsonu 20 il sonra bir də əvəz etməli olacaqdı. Özü də bu dəfə prezident kürsüsündə...





- 1979-cu ildə bu işindən ayrılan Meri, İrlandiya Radio və Televiziyasında (RTE) jurnalist və aparıcı kimi işləməyə başlayır, bir müddət isə həmin kanalın **"Bu gün, bu axşam"** verilişinin aparıcısı olur.

## Üfüqdə Prezident Sarayı...



1976-cı ildə ailə həyatı quran Makalis 1981-ci ildə yenidən universitetdə işləməyə başlasa da, dörd il ərzində RTE-dəki fəaliyyətini də davam etdirmişdir. O, 1984-cü ildə Yeni İrlandiya Forumunda Katolik Kilsəsinin Episkopial nümayəndə heyətinin üzvü kimi iştirak etmişdir. Eyni zamanda, 1996-cı ildə Mübahisəli Paradlar üzrə Quzey İrlandiya Komissiyasının Katolik Kilsəsindən nümayəndə heyətinin üzvü olmuşdur.



1987-ci ildə o, Kraliça Universitetinə qayıdır (Queens University) və Peşəkar Hüquq Elmləri İnstitutunun (İnstitute of Professional Legal Studies) direktoru olur. Həmin ildə o, ümumi seçkilərdə Fi-



anna Failin namizədi kimi iştirak etsə də, bu seçkilər onun üçün uğurlu olmur.

1994-cü ildə Belfastdakı Kraliça Universitetinin (Queens University of Belfast) prorektoru olur. O, bu postda təmsil olunan birinci qadın və ikinci katolik idi! İrlandiyada 1995-ci ildə Ticarət və İnvestisiya üzrə keçirilən "Ağ ev konfransı"nın, 1996-cil ildə isə Pitsburq konfransının nümayəndəsi olan Makalis, 1997-ci ildə prezident olanadək yuxarıda sadalanan ictimai-elmi vəzifələri ilə yanaşı, **"Kanal-4"** Televiziyasının direktoru, **"Quzey İrlandiya Eneriji"**nin direktoru, **"Xaricdə məhbus olan Vətəndaşlar"** komissiyasının qurucusu kimi də çalışır.

## Ailəsi

O, ixtisasca stomatoloq və mühasib olan **Martin Makalislə** evlidir. Martin öz həyat yoldaşına prezidentlik müddətində bir çox təşəbbüslərin irəli sürülməsində dəstək olub. Onların üç övladı var: böyük qızları Emma Dublin Triniti Kollecinin məzunudur. Onun əkiz olan qardaş və bacısı da ali təhsillidirlər. Castin Dublin Universitetindən mühasibatlıq üzrə magistr dərəcəsi, Saramai isə Oksford Universitetindən biokimya üzrə magistr dərəcəsi almışdır. Ailə fitnes fanatı sayılır.

Makalisin uşaqlarının hər üçü mediadan uzaqdır. Ancaq bir neçə dəfə onlar sənədli filmlərdə, o cümlədən, prezident Bill Klintonun İrlandiyaya səfəri zamanı efirdə görünüblər.

* * *

1997-ci ildə Makalis partiyadaxili seçkilərdə Taosiç Albert Reynoldsa (Taoiseach Albert Reynolds) qalib gələrək, Fianna Fail Parti-







yasının namizədi kimi İrlandiya prezidenti seçkilərinə qatıldı.

Meri Makalis partiyadaxili seçkilərdən sonra, əsas seçkilərdə Leyboristlər Partiyasının namizədi Mari Banotti Adi Roze və iki müstəqil namizəd - Dana Rosemari Skallon və Derek Nelli ilə mübarizə aparır. Həmin dövrlərdə Quzey İrlandiyadan olan Makalisin və Skallonun, eyni zamanda, İrlandiya prezidentliyinə namizədliyi bəzilərinin qəzəbinə səbəb olmuşdu.

O, seçkilərin ilk turunda səslərin 45,2 %-ni, ikinci turda isə 58,7%-ni yığdı. 1997-ci il noyabrın 11-də onun İrlandiyanın səkkizinci prezidenti kimi andiçmə mərasimi oldu və dünyada ilk dəfə olaraq bir qadın başqa bir qadını dövlət başçısı kimi əvəz etdi!

Ünlü jurnalist və şərhçi **Eoqhan Harris** 1990-cı ildə onu ***"qəbilə saatlı bomba"*** (A tribal time bomb) adlandırmışdı. Və... ***"bomba"*** artıq zirvədə idi...

Mari Makalis prezidentliyinin mövzusunun ***"körpülər qurmaq"*** olduğunu qeyd edib. Bir çox tənqidlərə baxmayaraq, o, tez-tez Quzey İrlandiyaya səfərlər edir və orada mövcud olan iki icmanın hər biri tərəfindən sevgiylə qarşılanır. O, həmçinin Kraliça II Yelizavetanın pərəstişkarıdır və ən böyük arzusu İrlandiyaya ilk dəfə



olaraq britaniyalı dövlət başçısının səfərini təşkil etməkdir. Xanım Prezident 1998-ci ilin mart ayında elan etdi ki, 12 iyul (Protestantların bayramı) və Ulster Protes-




tantları üçün vacib gün olan Müqəddəs Patrik günü rəsmi olaraq qeyd olunacaq. O, Anqlikan kilsəsi ilə yaxın münasibətlərə görə İrland Katolik iyerarxiyası tərəfindən tənqidə məruz qalsa da özünün - "körpü qurmaq" missiyasına uyğun olaraq qarşılıqlı dözümlülük və dialoqa çağıran addımlarını davam etdirir.

***

Makalisin 7 illik prezidentlik müddəti 2004-cü ilin noyabrında başa çatsa da həmin ilin sentyabrında o, ikinci dəfə prezidentliyə namizədliyini verəcəyini bildirdi. İrəli sürülmüş heç bir namizədin kifayət qədər səs toplaya bilməməsi sonucunda o, rəqibsiz qaldı və oktyabrın 1-də yenidən prezident elan edildi. Noyabrın 11-də ikinci dəfə prezident kimi rəsmi andiçmə törənindən sonra ikinci müddətə səlahiyyətlərinin icrasına başladı. Belə bir fikir mövcuddur ki, müxalif partiyaları seçkiyə qatılmaqdan, Makalisin işinin ictimaiyyət (seçicilər) tərəfindən həddindən artıq yüksək qiymətləndirilməsi faktı çəkindirmişdir.

2005-ci il yanvarın 25-də *"Auşvis"* ("Auschwitz") düşərgəsinin 60-cı ildönümündəki çıxışında Avropada yəhudilərə qarşı *"illərlə və nəsillərlə"* davam edən nifrəti Quzey İrlandiyada Protestant uşaqlarının Katoliklərə qarşı nifrətinə bənzətməsi narazılıqlara səbəb oldu. Meri Makalis daha sonra bu qeyri-korrekt çıxışına görə üzr istədi... O, həm də fikrinin düzgün başa







düşülməməsinə görə qəlbinə, ürəyinə, hissiyyatına toxunduğu insanlardan açıq şəkildə üzr istəməyi bacaran bir liderdir!



2005-ci il mayın 22-də Pensilvaniyadakı (ABŞ) Villanova Universitetinin məzun törənində çıxış edən xanım Makalis, bu dəfə oradakı çıxışı ilə mühafizəkarlar və Roman katolikləri tərəfindən etirazla qarşılandı. Çünki prezidentin homoseksualistlər əleyhinə çıxmaması və qadınların keşiş ola bilməsi ilə bağlı fikirləri onların düşüncələri ilə ziddiyyət təşkil edirdi.



2006-cı il mayın 21-də o, Notre Dame Universitetinin açılış nitqini söylədi. O, öz nitqində Notre Damenin İrlandiya irsi olmasından; habelə ***"Döyüşən İrlandlar"*** ("Fighting İrish") adı ilə tanınmalarından fəxr etdiyini vurğuladı.



## Hər yerdən görünən adam



O, 2005-ci ilin aprelin 8-də Papa II İohan Pavelin dəfnində, aprelin 24-də isə yeni Papanın - XVI Benediktin inauqurasiyasında iştirak edir.

2007-ci ildə prezident Makalis intiharın qarşısının alınması Beynəlxalq Assosiasiyasının keçirdiyi 24-cü Biennial Konfransda homofobiyaya qarşı çıxış edir.

2008-ci ilin dekabrında o, Hollivuda 7 günlük səfəri çərçivəsində İralnd kino və televiziyasının təbliği məqsə-



dilə İrland Film Palatasına (Enterprise Greland and the Grish Film Board) da baş çəkmişdi.

21 yanvar 2009-cu ildə o, Anglo-İrland Bank Korporasiyası Aktını (Anglo İrish Bank Corporation Act) imzalayaraq, Bankın milliləşdirilməsi məsələsini asanlaşdırdı.

2009-cu ilin noyabrında Milli Əmlak İdarə olunması Agentliyini (National Asset Management Agency) qanunla təsdiq etdi.

Prezident Makalis Qadın Dünya Liderləri Şurasının üzvüdür. Şura keçmiş və hazırkı qadın prezidentlərin, baş nazirlərin beynəlxalq şəbəkəsidir. Qurumun missiyası qadınlar və ədalətli inkişaf üçün vacib olan bir çox məsələlər üzərində kollektiv fəaliyyət aparmaq məqsədi ilə yüksək səviyyəli qadın liderləri səfərbərliyə almaqdır.

## Türkün comərdliyi, irlandın vəfası

Xanım Makalis Türkiyəni rəsmi ziyarəti zamanı iki ölkə və iki xalq arasındakı əlaqələrin dərinliyini anladarkən sıx-sıx tarixdən xatırlatmalar etməyi ilə diqqəti cəlb etdi *(Yeri gəlmişkən o, Türkiyəni ziyarət edən ilk İrland prezidenti oldu)*. Xanım Prezident bu xüsusda İrlandiyanın Droqeda komandasının ay-ulduzlu emblemini vurğu yapdı.

Meri Makalis ***"Avropanın iki ucunda yerləşən ölkələr olaraq coğrafi anlamda aramızda məsafələr ola bilər, amma buna baxmayaraq, aramızda kökləri keçmişə dayanan güclü bir bağ da var"*** dedi.

Prezident Makalis 1 milyon İrlandiyalının yaşamını itirdiyi Böyük Aclıq dönəmində (1847) Osmanlı padşahının içi qida dolu üç gəmisini Droghedadakı limanlara yolladığını anlatdı: "İrlandiya xalqı bu tayı-bərabəri az görünən əliaçıqlığı əsla unutmadı və bunun sonucunda sizin bayrağınızdakı simvolları, bu gözəl ulduz və hilalı bölgənin simvolu halına gətirdilər. Hətta futbol komandasının formalarının üzərində də bu gözəl Türk simvollarını görürsünüz..."













## Atatürk vurğunu Makalis

Xanım Prezident, qardaş ölkəyə ziyarəti əsnasında bir çox irlandiyalının İngilis imperatorluğu nəzdində Anzak uniformasıyla həlak olduğunu da xatırlatdı, "savaşanlar və orada həyatını itirənlər artıq bizlərin əmanəti olmuşdur" - deyən Atatürkə məhəbbətini ifadə etdi: ***"Bizlər buraya bu sürəci xatırlamaq üçün gəlirik, amma Atatürkün söylədiyi kimi məhz xatırlamaq üçün gəlirik. Burada yatan bütün əsgərlərin hər biri bizim oğullarımızdır, onların hamısının xatirəsini anmamız və gündəmə gətirməyimiz gərəkdir. Mustafa Kamal Atatürk savaşa və savaş qurbanlarına qarşı necə bir tutum sərgiləməyimiz gərəkdiyini hamımıza öyrətmişdir. Çanaqqala Savaşı bizim baxış bucağımızdan bir dönüm nöqtəsi oldu, özgürlüyümüzü qazanmaq və bu şüuru əldə etmək adına"*** - dedi.

Çanaqqala və Gelibolu ziyarətlərinin bu sürəcin bir parçası olduğunu bildirən irland dövlət başçısı, ***"Ümid edirik ki, bu sürəcin nəticəsində, bizə özlərini uzaq və***



*yad hiss edənlərlə yaxınlaşma fürsəti əldə edəcəyik. Beləcə, uşaqlarımız və nəvələrimiz tarixdəki xətaları təkrarlamayacaqlar"* - deyə əlavə etdi.

Onu da deyək ki, Atatürkün bir fotoqrafı, İrlandiya Prezidentinin uşaqlığı keçən evdə, irland xalqının qəlbində və xatirələrində xüsusi yer qazanmış irland qəhrəmanların fotoqrafları arasında yer almaqdadır.

***

*Onun Tarixə, Ədalətə, İnsan haqlarına, birgə yaşayış qaydalarına baxışı, münasibəti ona qarşı dünyanın hər yerində xoş hisslər doğurur. Meri Makalis adını TARİXƏ əbədiyyət yazmış bir **QADIN**, bir **LİDER**, bir **ŞƏXSİYYƏT**, bir **İNSAN** olaraq bu gün də ölkəsi və dünya üçün yorulmadan, fədakarcasına çalışır, milyonlarla gənc qızın, qadının daha inamlı yürüməsi üçün bir cığır açır... Və özünün də dediyi kimi tarixdə böyük qarşıdurmaların, qanlı hadisələrin və gərginliklərin yaşandığı bir məkanda bütün çətinliklərə baxmayaraq, sözünün üzərində dayanaraq bir dialoq körpüsü olmaqda davam edir!* **Və görünən odur ki, o missiyanı uğurla və yorulmadan, fədakarcasına davam etdirir!**





Cenni Şipli



## Kollec müəlliməsinin siyasətə sirli vidası



- O, **Yeni Zelandiyanın ilk qadın Baş naziri** kimi adını TARİXƏ yazdı!
- **O, Milli Partiyanın ilk və yeganə qadın lideridir!**
- **Parlament üzvü, nazir, Baş nazir...**
- **1975-ci ildə Milli Partiyaya qoşulan xanım Şipli 1987-ci ildə keçirilən parlament seçkilərində Eşburtondan deputat mandatı qazandı. O, həmin tarix üçün ölkəsinin ən gənc (35 yaşlı) deputatı idi. ...Və o, bu seçki dairəsini 2002-ci ilədək - siyasətdən gedənə qədər təmsil etdi.**
- **1990-cı il seçkilərində Milli Partiya qalib gəldi və xanım Şipli öncə Sosial Rifah naziri, sonra Qadın işləri üzrə nazir, daha sonra isə Səhiyyə naziri oldu.**

**Cenni Şipli** ***(Dame Jenny Shipley)*** *Sosial Rifah naziri olarkən, dövlətdən gələn müavinətləri azaltmaq kimi ziddiyyətli bir addım atması, 1993-cü ildə - Səhiyyə naziri olduqda isə ictimai səhiyyə xidmətini özəlləşdirmək üçün atdığı addımlarla ziddiyyətli bir ortamın yaranmasına səbəb oldu.*

*Milli Partiya lideri Cim Bolqerin koalisiyaların təsirinə məruz qalaraq addım atması Şiplinin xoşuna gəlmirdi. Ona görə də, o, tezliklə özünə dəstək toplamağa başladı. Bolqer Şotlandiyada rəsmi səfərdə olanda partiyadakı həmkarlarından onu dəstəkləmələrini istədi. Bolqer artıq partiyasında heç bir dəstəyin olmadığını gördükdə istefa verdi və Şipli onu əvəz etdi. Hakim partiyanın lideri kimi o, 1997-ci il dekabrın 8-də Baş nazir oldu!*

*Artan iqtisadi artıma baxmayaraq, Şiplinin hakimiyyəti qeyri-stabil oldu. Özəlliklə də Milli Partiya ilə Yeni Zelandiya Partiyası arasında əlaqələr kəsildi. Yeni Zelandiya Partiyasının lideri Piters tezliklə Şipli hökumətindən dəstəyini kəsdi. Ancaq bir çox "Yeni Zelandiya"çı koalisiyanı davam etdirmək istəyirdilər. Buna görə də onlar Piteri partiya liderliyindən uzaqlaşdırmaq niyyətində idilər. Bu cəhd alınmadıqda isə onlar partiyanı tərk edərək, ya müstəqil fəaliyyət göstərməli, ya da özlərinin partiyalarını yaratmalı idilər. Situasiya özü öz yolunu diqtə edirdi... Şipli isə Milli Partiyanı hakimiyyətdə saxlamaq üçün həmin deputatlardan kifayət qədər dəstək qazandı!*

*Şipli Milli Partiya üçün səs verənlərin sayını artırmaq üçün daha öncələr heç bir Baş nazirin atmadığı addımları atmaqdan belə çəkinməmiş, hətta mavilərin və lesbiyanların paradına qoşulmuşdu...*



## Məğlubiyyəti və istefası

1999-cu il seçkilərində Helen Klark liderliyindəki Leyboristlər Partiyası Milli Partiyanı məğlubiyyətə uğratdı. 2001-ci ilə kimi partiya lideri olmağa davam etdirən Şipli, bir müddət sonra parlamenti də tərk etdi. (2000-ci ildə səhhətində ciddi problemlər yaranan keçmiş Baş nazir infarkt keçirdi.)













## Bacarıqlı, cürətli və xeyriyyəçi Cenni Şipli

Cenni Şipli 2007-ci ildə maliyyə xidmətləri firmasında işləməyə başladı. O, Çinin 3-cü ən iri bankı olan Çin Tikinti Bankı Direktorlar Şurasının üzvüdür və bu şuranın üzvü olaraq Çin iqtisadiyyatı ilə yaxından maraqlanır. Onun bankdakı vəzifəsi kifayət qədər məsuliyyətlidir, çünki bankın həm kapitalı, həm də işçi qüvvəsi durmadan artır. Ancaq Şipli gələcək planlarından əmindir və tezliklə bankın yeni uğurlarını görəcəyini deyir.

Hələ iki il qabaq bankın bütün pul köçürmələrinin kağız üzərində edildiyini deyən Şipli hazırda bütün ölkə ərazisində pul maşınlarının quraşdırıldığını deyir. 3 il qabaq Yeni Zelandiya bank kartı ilə Çində pul çıxarmaq qorxulu nağıla bənzəyirdi, indi isə bunu Şanxayın hər bir küncündə etmək olar.

O, hətta ABŞ-la Çin arasında münasibətlərin düzəlməsində rolu olduğunu da qeyd edir. Xanım Şipli zamanında - Velinqtonda OPEK sammiti keçirilərkən, Çinin o vaxtkı Prezidenti Sianq Sameni ABŞ-ın o vaxtkı Prezidenti Bill Klintonla görüşdürmüşdür.

2002-ci ildə Şipli əri ilə birlikdə oğulları Benə Şanxayda Çin bazarına qatılmaq istəyən şirkətlərə yardım edən biznes qurumunun əsasını qoymağa kömək etdilər. Yaxın 25 il ərzində Çində biznes qurmaq üçün güclü şəbəkənin olmasının vacibliyini vurğulayan Şipli, burada çox az Yeni Zelandiyanın şirkətinin biznesə qoşulmasından şikayətlənir.





O, siyasətə qatılanda Çin Yeni Zelandiyanın əsas ticarət partnyorlarından deyildi, ancaq hazırda Çin onlar üçün ən vacib bazara çevrilib. O, hətta artıq Çində istehsal olunan məhsulların keyfiyyətinin yaxşılaşdığını da qeyd edir. Ancaq yenə istehlakçının istehsalçıdan daha çox standartlara riayət etməli olduğunu vurğulamağı da unutmur.

Ünlü xanım hazırda Asiya ölkələrinin daha yaxşı inkişaf etdiklərini və özlərinə daha çox əmin olduqlarını, ona görə də hazırda mövcud olan beynəlxalq institutlar qarşısında daha az məsuliyyət daşıdıqlarını deyir: ***"Mənim fikrimcə, hazırkı standartlara cavab vermək üçün beynəlxalq təşkilatların strukturu yenilənməlidir."*** O, son illərdə Çinli siyasətçilərin Şərqi və Mərkəzi Asiyanı və Yaxın Şərqi, bir sözlə, Çindən Türkiyəyə qədər olan əraziləri əhatə edən yeni bir blokun yaradılması barədə danışıqlarının şahidi olduğunu deyir.



Xanım Şipli deyir: ***"Bu ərazilərdə müşahidəçi olmaq çox maraqlıdır. Çünki mən buraya hər dəfə gedəndə Asiya haqqında nə qədər az bildiyimin şahidi oluram. İnsanlar mənim Asiya üzrə ekspert olduğumu düşünəndə mən sadəcə təəccüblənirəm, çünki mən sadəcə müşahidəçiyəm".***

* * *

...Namibiyaya səfəri "Cürətli Səfərlər" adlı televiziya verilişində yayınlanmış xa-







nım Şipli sonralar bu səfər zamanı rastlaşdığı bir məktəbə yardım etmək üçün xeyriyyəçiliyə başlamışdır.

Siyasətdən getdikdən sonra Şipli və ərinin əyalətə - Auklanda köçdükləri iddia edilirdi. Ancaq onlar hələ də Nyumarketdə yaşayırlar və Şipli burada iki hobbisini - üzgüçülük və alış-verişi - rahatlıqla həyata keçirir.

Bir maraqlı xüsusa diqqət çəkmək istərdik. Nədənsə, Şiplinin memuarları heç bir mətbu orqan üçün maraqlı olmayıb və çoxları bunu nəşr etməkdən yayınıblar. Ancaq Şipli özü ofisində hələ də bir çox maraqlı faktlarla dolu sənədlərin olduğunu deyir.

O, hazırda Yeni Zelandiya da daxil olmaqla 6 ölkədə fəaliyyət göstərən *"Moni İnterneşnl"* qrupunun sədridir. O, *"Momentum"* adlı insan qaynaqları şirkətinin Direktorlar Şurasının üzvüdür.









* * *

Xanım Şipli Madrid Klubunun və Qadın Dünya Liderləri Şurasının üzvüdür. O, istər klub, istərsə də şura üzvi olaraq, beynəlxalq əməkdaşlıq mühitinin gücləndirilməsi, mövcud imkanların səfərbərliyə alınması kimi fəaliyyətlərdə bulunur; hər il vaxtının ən azı 5 həftəsini bu qurumların tədbirlərində iştiraka sərf edir. Yeri gəlmişkən, 2001-ci ildə 70-dən çox keçmiş liderin təşəbbüsü ilə yaradılan Madrid Klubunun əsas məqsədi yeni gəlmiş siyasi liderlərə çətin məsələlərin öhdəsindən gəlməkdə yardım etməkdir. Bu kluba üzvlük dəvətlədir və Şipli dünyanın bu hissəsindən - Yeni Zelandiyanın aid olduğu geopolitik məkandan olan yeganə üzvüdür.

***"Mən çox şadam ki, bizim qüvvəmiz mən düşündüyümdən daha vacib rol oynayır, çünki biz asanlıqla Müsəlman liderlə Xristian lideri bir araya gətirir; mübahisəli məsələləri həll etməkdə liderlərə kömək edirik. Biz təcrübəli liderlərin təcrübəsini gənc liderlərə ötürürük."***

Onun qadınların statusu haqqında fikirləri də çox maraqlıdır və ...bir kitab mövzusu ola biləcək qədər genişdir. O, hələ də deputatlara müəyyən məsələlərdə yardım və məsləhətlər verməyə hazırdır: ***"Onlar bilirlər ki, mən Milli Partiyanı 100% dəstəkləyirəm, ancaq heç vaxt onları təqdir etmirəm."***





## Şəxsi həyatı

Cennifer Meri Yeni Zelandiyanın güney şəhəri olan Qorda da 1952-ci ilin 4 fevralında anadan olmuşdur. 1971-ci ildə Melburn Qızlar Kollecini bitirdikdən sonra 1976-cı ilə kimi ibtidai məktəblərdə müəllim işləmişdir. 1973-cü ildə o, **Borton Şilpi** ilə ailə qurmuş və Eşbotonda yaşamağa başlamışdır.

Cenni Şipli əri Bertonla birlikdə ailə həyatını və karyerasını necə uğurla gerçəkləşdirmənin mükəmməl modelini yaratmışdır. Londonda Nokia üçün kommunikasiya departamentinin direktoru işləyən qızları Anna tez-tez valideynlərinə baş çəkir.

Şipli ötən il vəfat etmiş anası üçün darıxır, ancaq Bertonun anası onları Yeni Zelandiyada saxlayan yeganə insandır.

***"Mənim Yeni Zelandiyada əvvəllər xoşladığım şeylər indi də xoşuma gəlir. Əgər bütün bunlardan bezsəm, onda bunu necə dəyişəcəyimi bilirəm..."***



# Bənəzir Bhutto



## Əlvida, Şahzadə!

*"İdarəçilər mənə, seçkilərdə iştirak etmək üçün istəyirlər icazə versinlər, istəyirlər yox; nə bahasına olur-olsun öz ölkəmə qayıdacağam. Baş nazir olmaq istədiyim üçün yox, xalqıma verdiyim vədi yerinə yetirmək üçün..."*

**Bənəzir BHUTTO**

*(Sui-qəsdə qurban getməmişdən qısa müddət əvvəl)*

**Bu yazını çox sevdiyim, dəfələrlə ziyarət etdiyim, həmişə Azərbaycanı yüksək səviyyədə dəstəkləyən Pakistan və pakistanlıların sevilmli liderlərindən biri, ölkəsinin və bütün müsəlman dünyasının ilk qadın Baş naziri Bənəzir Bhuttonun əziz xatirəsinə ittihaf edirəm!**

- **O, Pakistanın Baş naziri seçiləndə cəmi 35 yaşı var idi.**
- **O, Pakistan tarixində ilk qadın Baş nazir idi.**
- **O, bütün Müsəlman Dünyasında ilk qadın Baş nazir oldu.**
- ***"Times"* və *"Australian Magazine"* nın 1996-cı ildə tərtib etdiyi dünyanın ən nüfuzlu və güclü 100 qadını siyasında onun da adı yer tuturdu.**
- **1996-cı ildə *"Ginnesin yeni rekordlar kitabı"*nda onun adı dünyanın ən məşhur siyasətçiləri arasında vurğulanırdı.**
- **1953-cü ilin məhz belə bir gözəl iyun günündə (iyunun 21-də) doğulan bu qız son 20 ildə adı dünyanın gündəmindən heç düşməyən bir lider kimi həyatla vidalaşdı. Məğlub deyil, Qalib lider kimi kimi! Onu öldürsələr də, şöhrətini və nüfuzunu öldürə bilmədilər. Bu qadın ağlı, xarizması, cəsarəti, inadkarlığı, prinsipiallığı və keşməkeşli həyat hekayəsi ilə XX əsrdə təkcə Şərqdə deyil, bütün dünyada tanınan Bənəzir Bhuttodur.**
- **18 oktyabr 2007-ci ildə öz ölkəsinə qayıdan Bənəzir Bhutto 8 ildən sonra qayıtdığı Pakistanda böyük qələbəliklə qarşılanan zaman "Forbes" jurnalı yazırdı: "Hindistan subkontinentində başqa bir qadın tezliklə iqtidara geri qayıda bilər: Bu, Pakistanın keçmiş Baş naziri Bənəzir Bhuttodur".**





- **Bu əfsanə qadını yaxından tanımaq və söhbət etmək mənə də qismət olmuşdu və o, öldürülən zaman çox üzülmüşdüm. Onun vətəni haqqında, ölkəsi üçün planlarından, görəcəyi işlərdən danışan zaman sevgi ilə parıldayan gözlərini, həyatının keşməkeşlərindən danışan zaman gözlərindəki kədəri xatırlamışdım....**
- **Bəli, müsəlman dünyası onun simasında ilk qadın Baş nazirini qazanmışdı və bu müsəlman qadınları üçün önəmli bir stimul idi və ümumiyyətlə müsəlman, dünyasında yeni bir düşüncə dəyişikliyi mərhələsinin başlanğıcı kimi qiymətləndirilirdi. Onun faciəvi şəkildə qətlə yetirilməsi ilə müsəlman dünyası özünün ilk qadın Baş nazirini itirdi. Amma əfsanəvi Şahzadə bu gün də adı ilə ölkəsinin siyasi həyatında önəmli rol oynayan bir lider kimi yaddaşlardan itmədi...**





## Kim idi Bənəzzir Bhutto?

Pakistanın varlı və əsilzadə bir ailəsindən gələn Zülfüqar Əli Bhutto ilə iranlı bir biznesmenin qızı olan Begüm Nüsrətin ilk övladı olan bu qıza *"tayı-bərabəri olmayan"* anlamına gələn "Bənəzir" adı verildi. Bu adı ona tale özü seçmişdi. Bir neçə il keçəcəkdi ki, bütün dünya ondan - Pakistanın (bir Şərq ölkəsinin, bir müsəlman ölkəsinin) ilk qadın Baş naziri ola bilmiş Bənəzir Buhuttodan danışacaqdı!..



Torpaq ağası və əsilzadə bir ailəyə mənsub olduğu üçün atasının ənənəsinə sadiq qalaraq öncə Amerikada, sonra isə İngiltərədə təhsil aldı. Ailəsindən miras götürdüyü siyasət sayəsin-







də iki dəfə öz ölkəsinin Baş naziri oldu. Ancaq hər iki dəfə bu vəzifədə qısa müddət qala bildi. Bir dəfə hərbi çevriliş nəticəsində, bir dəfə isə qanunsuzluq iddiaları ilə vəzifədən uzaqlaşdırıldı. İslam dövlətlərində ilk qadın Baş nazir ünvanını alan cəsur siyasətçinin aqibəti də atasının aqibəti kimi qanlı oldu. Atası hərbi çevriliş, qardaşı isə sui-qəsd nəticəsində aradan götürüldü. Bütün bunlara baxmayaraq, ruhdan düşmədi. Öz ölkəsində hakimiyyəti bir dəfə də ələ almaq istəyirdi, fəqət bomba və güllələr onun da həyatına son qoydu. ...Rifah, əziyyət, sui-qəsd, siyasi mübarizə, uğur, çevriliş kimi kəlmələrlə ilmə-ilmə hörülmüş bir ömrün sahibiydi **Bənəzir Bhutto...**

Bənəzir Bhuttonun babası Şah Nəvaz Bhutto torpaq ağası idi. O, oğlu Zülfüqar Əlinin yaxşı təhsil almasını və siyasət səhnəsində nüfuz qazanmasını istəyirdi. Buna görə də Əlini əvvəlcə ingilislərin Hindistanda açdıqları "Katedral və Con Konnon" məktəbinə (Cathedral & John Connon School) verdi. Daha sonra isə Əli ABŞ-ın nüfuzlu universitetlərindən biri olan Berkli Universitetində oxumağa başladı. Tam o sırada, Pakistanda müstəqillik hərəkatı başlamış və Məhəmməd Əli Cinnah müstəqil Pakistanın təməlini qoymuşdu. O dövrdə Əli, atasının onun üçün müəyyənləşdirdiyi roldan da ilham alaraq siyasətə daxil olmaq qərarına gəldi.

Öz ölkəsinin aqibətini fikirləşən və müstəqillik hərəkatının təsiri altında qalan Zülfüqar Əli Bhutto Berkli Universitetində oxuyarkən sosializmlə maraqlanmağa başlamışdı. Bir yandan oxuyur, öyrənir, araşdırır, digər yandan isə öz fikirlərini yaymaq üçün konfranslar təşkil edirdi. O, daha sonra quracağı Pakistan Xalq Partiyasının toxumlarını da Berkli Universitetində oxuyarkən atmışdı. Berkli Universitetində siyasət elmi sahəsində təhsil alan Bhutto daha sonra İngiltərəyə gedərək Oksfordda beynəlxalq hüquq təhsili aldı. Universiteti böyük uğurla başa vuran və Londonda vəkillik etməyə başlayan Bhuttonun həyatında o dövrdə önəmli bir dəyişiklik oldu: o, demək olar ki, uşaq yaşında evləndiyi (daha doğrusu, evləndirildiyi) birinci həyat yoldaşından sonra başqa bir qadına aşiq olmuş və onunla evlənmək qərarına gəlmişdi.





Begüm Nüsrət Kəraçidə yaşayan varlı bir iranlı biznesmenin qızı idi. Onların izdivacından öncə ilk övladları Bənəzir, sonra birinci oğulları Mürtəza, ikinci qızları Sənəm və ikinci oğulları Şah Nəvaz doğuldu. Bir müddət sonra Zülfüqar Əlinin atası vəfat etdi və Londonda vəkillik edən Zülfüqar Əli vətəninə qayıdaraq ailə mirasının başına keçdi. O tarixdən etibarən Pakistan siyasətindən Bhutto soyadı əskik olmadı...

Bhutto 1957-ci ildə Pakistandan BMT heyətinə təyin edildi. Bu onun siyasətdə ilk addımı idi. Bir il sonra Pakistanda hakimiyyəti ələ keçirən Əyyub Xan Bhuttonu energetika naziri təyin etdi. Bhutto 30 yaşında olanda Pakistanın ən cavan naziri kimi tarixə düşmüşdü. O dövrdə Hindistan və keçmiş SSRİ ilə müxtəlif müqavilələr imzalayan cavan nazir 5 il sonra xarici işlər naziri postuna keçdi.



## Onun alın yazısı "yoxuşlarda susamaq..."

...Fəqət bu yüksəliş uzunmüddətli olmadı. 1965-ci ildə Pakistanla Hindistan arasındakı Kəşmir problemi üzündən Bhutto ilə Əyyub Xan arasındakı yaxşı münasibətlər korlandı. Bu, Bhutto üçün bir başlanğıc, bəlkə də "sonun başlanğıcı" idi. Eyyub Xan, müxalifət hərəkatını başladan və kəndbəkənd gəzərək konfranslar təşkil edən Bhuttonun həbs edilməsi haqqında əmr verdi.

1968-ci ilin noyabr ayında hərbçilər Bhuttonu evində həbs edərək apardılar. Bhutto üç ay həbsdə qaldı. Bu müddətdə küçələrə tökülən əhalinin sayı artmış və narazılıq daha da böyümüşdü. Əyyub Xan Bhuttonu azad etmək məcburiyyətində qaldı. Bhutto yenidən öz partiyası-



nın başına keçib müxalifət hərəkatını təşkilatlandırdı və xalqın təzyiqinə artıq dözə bilməyən Əyyub Xanın hökuməti istefaya getməli oldu.

Bənəzir Bhutto isə həmin vaxtlar yüksək təhsil almaqla məşğul idi. Atası onun yaxşı təhsil almasında çox maraqlı idi. 15 yaşında Karaçi şəhərindəki orta məktəbdən məzun olan Bənəzir Buhutto İngiltərənin Oksford Universitetində təhsil alırdı.

Xanım Bhutto 1973-cü ildə universitetdə lisenziya təhsilini alıb. 1977-ci ildə isə Oksford Universitetində fəlsəfə, politologiya, iqtisadiyyat, beynəlxalq hüquq və əlaqələr üzrə baş lisenziya təhsilini alıb.

Bənəziri çətin və həmişə göz qabağında olan bir ömür gözləyirdi: eniş-yoxuşlarla bəzənmiş, ölümlər, həbslər və sürgünlərlə formalaşmış bir ömür!..

## "Hökm"ün adı: edam..!

Pakistanda 7 dekabr 1970-ci ildə keçirilən seçkidə qalib gələn Bhutto Şərqi Pakistanın müstəqilliyi tələbi ilə çıxış edən Avami Partiyasının (Avami liq) lideri Mucibur Rəhmanla razılığa gələ bilmədiyi üçün koalisiya hökuməti qura bilmədi. İki lider arasında razılıq əldə oluna bilmədiyi üçün 1 mart 1971-ci ildə vəziyyət xeyli gərginləşdi. Camaat küçələrə töküldü və Şərqi Pakistan çalxalanmağa başladı. Ordu hərbi müdaxiləyə əl atdı və beləliklə, çox sayda adamın Hindistana köçmək, daha doğrusu, Hindistandan sığınacaq istəmək tələblərinin qarşısını almaq mümkün olmadı.

O əsnada Pakistanla Hindistan arasında müharibə başladı. Dekabrda Hindistan Şərqi Pakistanın böyük bir hissəsini işğal etdi. 22 dekabr 1971-ci ildə Hindistan ordusu geri çəkildi və onun yerini Şərqi Pakistanda





müstəqil bir dövlət olan Banqladeş İslam Xalq Respublikası tutdu. O zaman Pakistanın dövlət başçısı olan Bhutto 1973-cü ildən sonra öz fəaliyyətinə Baş nazir kimi davam etdi. Ancaq dörd ildən sonra hakimiyyəti ələ keçirən general Ziya-ül-Həqq, Bhuttonu tutduraraq həbsxanaya göndərdi. Bhutto ona qarşı müxalif olanları müxtəlif yollarla aradan götürməkdə ittiham edilirdi.

Bənəzir Bhuttonun siyasi macərası, əslində, atasının neçə il öncə başlayan fəaliyyətinin bir nəticəsi idi. Bənəzirin ömür yolunda müəyyənedici şəxs olan atası Zülfüqar Əli Bhutto müsəlman, eyni zamanda da marksist görüşlü bir lider idi.







Zülfüqar Əli Bhutto gənc və idealist bir lider olmasına baxmayaraq, öz ölkəsinin taleyini çox da dəyişdirməyə müvəffəq olmamışdı. Hərbi üsuli-idarə, yoxsulluq və daxili hərc-mərclik illərlə davam etdi. Bhutto demokratik bir idarə, sosialist bir iqtisadi siyasət və xalq hakimiyyəti istəyirdi. Siyasi həyata bu vədlərlə başlamış və sürətlə yüksəlmişdi. Çox varlı bir ailəyə mənsub olan Bhutto həm müsəlman, həm də marksist olduğunu deyirdi. Ondan müsahibə götürən jurnalistə fikirlərini belə izah etmişdi: "Mən iqtisadi siyasət sahəsində marksizm tərəfdarıyam. Ancaq bu, sadəcə iqtisadiyyat sahəsinə məxsusdur. Marksizmi, tarixi dialektika ilə şərh etməsini, məişət qaydalarını və Allahın varlığı barəsində mübahisə aparmasını qəbul etmirəm. Mən sadiq bir müsəlmanam və Allaha inanıram. Bu, səhv də olsa, düz də olsa, inanıram. Etiqad elə bir şeydi ki, o, ya var, ya da yoxdu. Varsa, bu barədə mübahisə eləmək mənasızdı. Mən öz etiqadımı daxilimdə saxlayıram. Marksizmin dini və fəlsəfi mövzulardakı mövqeyi uğrunda öz etiqadımdan əl çəkmək niyyətində deyiləm. Buna baxmayaraq, Pakistan kimi





geri qalmış bir ölkə üçün sosializmdən başqa bir çıxış yolu görmürəm."

Bu sözlərlə Bhutto nə üçün marksist olduğunu izah edirdi. Ancaq bu izahat müxalifətdəkiləri qane etmirdi. Bhutto, sözlərində səmimi olduğunu sübut eləmək üçün, keçirdiyi torpaq islahatı nəticəsində ailəsinin 4,5 min hektar torpaq itirdiyini nəzərə çatdırırdı. Bhutto ancaq marksist olduğu üçün tənqid edilmir, eyni zamanda, diktatorluqda da ittiham edilirdi.

Məhkəmə prosesi bir il çəkdi və nəhayət, hökm oxundu: **EDAM!**

Edam hökmü 4 aprel 1979-cu ildə Ravalpindi şəhərində icra edildi və Zülfüqar Əli Bhutto gözlərini həyata əbədi yumdu.

## Son və Başlanğıc!

Zülfüqar Əli Bhuttonun siyasi karyerasının sonu olan tarix onun qızı Bənazir Bhutto üçün siyasətdə atılan ilk addım idi. Fiziklərin dili ilə desək, bir dalğanın sönmə nöqtəsi, yeni bir dalğanın başlanğıc nöqtəsi oldu!

Harvard və Oksfordda təhsil almış Bənazir Pakistana qayıdan zaman həm onun siyasi karyerası, həm də bütöv ailəsi üçün kədərli hadisələr silsiləsi başlayırdı.



Hərbi çevrilişdən sonra həbs edilən atasının edamı ailəni yasa qərq etmişdi. Bənazir əvvəlcə anasıyla birgə Sihalada yeddi ay *"ev həbsi"*ndə qaldı. Daha sonra ona Kəraçiyə getmək üçün icazə verildi. Bənazir anasıyla birgə Kəraçidə 5 il sürgün və ev dustağı həyatı yaşadı. Eyni dövrdə onun qardaşları Mürtəza və Şah Nəvaz isə Kabilə və Dəməşqə göndərilmişdilər.





Kəraçidəki sürgün həyatı başa çatandan sonra Bənazir Londona getdi və atasının qurduğu Pakistan Xalq Partiyasının lideri oldu.

Faciələr burada da onun yaxasından əl çəkmədi. Atasının vəfatından yeddi il sonra o, qardaşı Şah Nəvazı Fransanın Kann şəhərində itirdi. Şah Nəvazın əfqanıstanlı həyat yoldaşı tərəfindən zəhərləndiyini, yoxsa sui-qəsd qurbanı olduğunu aşkara çıxarmaq mümkün olmadı. Məlum olmayan səbəblə 27 yaşında həyatla vidalaşan Şah Nəvaz, Bhutto ailəsinin ikinci itkisi idi. Bu kədəri də sinəsinə çəkən Bənazir qardaşının vəfatından bir il sonra Pakistana qayıtdı.



Əvvəlcə atasını itirməsi, sonra isə Kəraçi və Londonda yaşadığı sürgün həyatı Bənazirin həyata baxışına dərindən təsir göstərmişdi. O, hələ çox cavan idi və tez-tez izdivac təklifləri ilə qarşılaşırdı. Bir müddətdən sonra bu təkliflər təzyiqə çevrilməyə başladı. Elə bu dövrdə onun qarşısına Pakistanda geniş torpaq sahələrinə malik və ticarətlə məşğul olan Asif Zərdari çıxdı. London İqtisadi-Siyasi Elmlər Mərkəzində təhsil alan Zərdari inşaat və əmlak sektorunda fəaliyyət göstərirdi.



Bənazir Bhuttonun siyasi idealı var idi və həyatını bu idealı həqiqətə çevirməyə həsr etmişdi. İzdivac məsələsi isə onun zehnini qarışdırırdı. Digər tərəfdən, o, Şərq mühitində "ərə getməmiş bir qadın" kimi necə lider ola biləcəyini də fikirləşirdi. Jurnalistlərin *"Nə üçün ərə getmirsiniz?"* sualı da onu bezdirmişdi.



17 dekabr 1987-ci ildə Kəraçidə on minlərlə adamın iştirak elədiyi toy məclisi Bhutto ailəsi-



nə müxalif olan və Bənəzirin atasını edam etdirən Ziya-ül-həqqə qarşı bir etiraz aksiyası xarakteri də daşıyırdı.

Toy məclisi Zülfüqar Əli Bhuttonun ilk dəfə kütlə qarşısına çıxdığı idman sarayında keçirilmişdi. Baş nazir postunu tutmamışdan bir il əvvəl gerçəkləşən bu izdivac nəticəsində Bənəzirin üç uşağı dünyaya gələcəkdi: oğlu Biləvəl, böyük qızı Bəxtəvər və kiçik qızı Asifə.

## Bənəzir - Baş nazir!

17 avqust 1988-ci ildə Pakistan dövlət başçısı general Ziya-ül-Həqqin təyyarəsi havada partladı və bununla da, Pakistan üçün təzə bir səhifə açıldı. Bhutto öz adını bu səhifəyə yazdırmaq istəyirdi. 19 noyabr 1988-ci ildə keçirilən seçkidə qalib gələn Bənəzir yeni hökuməti qurmalıydı. Beləliklə o, İslam ölkələrində ilk qadın Baş nazir ünvanını da alırdı.

O, qısa müddət əvvəl - 1947-ci ildə müstəqillik əldə edən ölkəsində 35 yaşında Baş nazir postunu tutacaq olan bir qadın idi.

Güney Asiyada, müsəlman bir ölkədə cavan bir qadının ən yüksək çinli idarəçi olmasının nə qədər çətin olduğunu bilir, öz üzərinə götürdüyü məsuliyyəti başa düşürdü.



Əsasən kişilərin oyun sahəsi olduğu qəbul edilən siyasət meydanında uzun illər rol oynayan Bənəzir Bhutto Baş nazir seçiləndə 35 yaşında cavan bir qadın, eyni zamanda, iki körpə uşağı olan bir ana idi.





Birinci dəfə Baş nazir olduğu dövrdə cəmi bir neçə aylıq olan oğlunu daha uzun müddət görmək istəyən Bənəzir Bhutto hər səhər işə gedəndə oğlunu da özüylə aparırdı. Yolda oğluyla bir az məşğul olandan sonra dayələr uşağı təzədən evə qaytarırdılar.

***



1988-ci ildə Baş nazir postunu tutanda İslam ölkələrində ilk qadın baş nazir ünvanını alan Bənəzir Bhutto Azərbaycanda, Türkiyədə, Orta Asiyada (və bir çox digər ölkələrdə) sevilən və yaxından izlənən bir siyasətçi idi. 1993-cü ildə Tansu Çillər Türkiyənin ilk qadın Baş naziri olanda onu Bənəzir Bhuttoya oxşadırdılar *(Bhutto ilə Çillər, serblərin mühasirəsində qalan Sarayevoya birgə səfər etmişdilər)*.




Fəqət Bənəzirin ilk baş nazirlik karyerası qısamüddətli oldu. Digər tərəfdən, əvvəllər siyasət səhnəsində rol oynamayan əri Asif Zərdari də parlamentə girmişdi. Ancaq hökumət qurulduqdan 20 ay sonra hərbçilər tərəfindən dəstəklənən Qulam İshaq Xan seçkilərin yenidən keçirilməsi tələbi ilə hökuməti devirdi. Bhuttoların qismətinə bir də "devrilmək" düşmüşdü.



Bhutto vəzifədən uzaqlaşandan sonra əri Asif Zərdari də şantaj və qanunsuzluqda ittiham edilərək həbsə atıldı. Onu bank sahibi olan Mürtəza Buxaridən rüşvət istəməkdə



və istədiyini ala bilmədiyi üçün Buxarinin evinə bomba atdırmaqda günahlandırırdılar. Bu ittihamları sübuta yetirmək mümkün olmadı, ancaq Asif Zərdari üç il həbsxanada qaldı.

**Bənazir Bhutto 1993-cü ildə ikinci dəfə Baş nazir postunu tutdu.**



O, üç il hakimiyyətdə qaldı və bu dəfə dövlət başçısı Faruq Leqhari tərəfindən hakimiyyətdən salındı. İttiham yenə eyni idi - korrupsiya. Bhuttonun keçirdiyi islahatlar nəticəsində Pəncab bölgəsində torpaqlarını itirən ağalar və zadəganlar da onun hakimiyyətdən salınmasında rol oynadılar.



Asif Zərdari Bhuttonun ikinci dəfə Baş nazir olduğu dövrdə yenə də hökumətdə mövqe tutmuşdu. Həyat yoldaşı öz postunu itirəndən sonra yenə həbs edilən Zərdari bu dəfə korrupsiya və Bənəzirin qardaşı Mürtəzaya sui-qəsd təşkil etməkdə günahlandırılırdı. İstintaq və məhkəmə prosesi davam edərkən Asif Zərdari həbsə salındı və məhkəmənin nəticəsiz qalmasına baxmayaraq 8 il Ravalpindi həbsxanasında yatdı. Bənəzir Bhutto və onun həyat yoldaşı Asif Zərdari haqqındakı iddialar nəticəsiz qaldı. Asif Zərdari özü haqqında irəli sürülən iddiaları həmişə təkzib edir. Bənazir Bhutto da həyat yoldaşını müdafiə edirdi.





Ancaq onun dərdi yenə də qurtarmaq bilmirdi. 1996-cı ildə vəzifədən uzaqlaşdırılan Bənəzir Bhutto 1999-cu ildə general Pərviz Müşərrəf tərəfindən həyata keçirilən hərbi çevrilişdən sonra Pakistanı tərk etmək məcburiyyətində qaldı.





## Qürbət yolçuluğu



Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərinə köçən sabiq Baş nazir daha əvvəl Londonda keçirdiyi sürgün həyatının oxşarını orada keçirməyə başladı.



Pakistanı idarə edən Pərviz Müşərrəf Bhuttonun təzədən hakimiyyətə gəlməsinə mane olmaq məqsədilə 2002-ci ildə bir baş nazirin iki dəfədən artıq seçilməsini qadağan edən qanun çıxardı və beləliklə, Bənəzirin Pakistana qayıdaraq təzədən iqtidara gəlmək xəyalı puç oldu. Ancaq aradan 5 il keçəndən sonra Pərviz Müşərrəf öz mövqeyini yumşaltdı. Bənəzir Bhuttonun 2008-ci ildə keçirilməsi planlanan seçkilərdə müxalifət lideri kimi iştirak etməsinə icazə verildi.



Xanım Bhutto Pakistanı daha da inkişaf etdirmək, daha demokratik bir ölkəyə çevirmək xülyasıyla, iki dəfə uzaqlaşdırıldığı Baş nazir kreslosunda təzədən oturmaq üçün hərəkətə keçmişdi. Nə çəkdiyi əziyyətlər, nə çevrilişlər, nə də sürgünlər onu yolundan döndərə bilməmişdi. Ta ki bir sui-qəsdə qurban getdiyi 2007-ci ilin dekabrına qədər...





## "Üçüncü cəhd"ə qarşı "ikinci cəhd"...

18 oktyabr 2007-ci ildə öz ölkəsinə qayıdan Bənəzir Bhutto 8 ildən sonra qayıtdığı Pakistanda böyük qələbəliklə qarşılandı. "Forbes" jurnalı yazırdı: ***"Hindistan subkontinentində başqa bir qadın tezliklə iqtidara geri qayıda bilər: Bu Pakistanın keçmiş Baş naziri Bənəzir Bhuttodur".***

Onun ayağını Pakistana basması, eyni zamanda, bəzi gücləri də hərəkətə keçirmişdi. Elə o gün Bənəzir Bhuttoya qarşı bombalı sui-qəsd təşkil edildi. Kəraçi yaxınlığında həyata keçirilən sui-qəsddə 138 nəfər öldü, 248 nəfər isə yaralandı.

Bhutto böyük dağıntıya səbəb olan bu sui-qəsddən sağ-salamat qurtuldu.

İki dəfə sui-qəsdə məruz qalan və ikinci sui-qəsddə həyatını itirən Bənəzir Bhutto bir jurnalistin - ***"Sui-qəsdə məruz qalmaqdan qorxmursunuzmu"*** sualına belə cavab vermişdi: **"Qorxuram."** Fikrimcə (və yəqin doğrusu da budur), Bənəzir Bhutto kimliyinə (mənəvi keyfiyyətinə) sahib bir insan bu "qorxuram"la öz şəxsi təhlükəsizliyi barədə deyil, dövləti, ölkəsinin beynəlxalq imici, milləti, günahsız insanlar üçün keçirdiyi hissi ifadə edirdi.









...Seçki kampaniyasına davam edən Bhuttonun növbəti dayanacağı Ravalpindi şəhəri idi.

27 dekabr 2007-ci ildə Bənəzir Bhutto yenə qələbəlik qarşısında çıxış etməyə hazırlaşırdı. On minlərlə adam ona qulaq asmaq üçün toplaşmışdı. Onu hərarətlə qarşılayan kütləyə xitab edəndən sonra Bhutto maşının üstündə xalqı salamlayırdı.

Elə o əsnada bir adam Bhuttonun maşınına yaxınlaşaraq üç dəfə atəş açdı və öz bədəninə bağladığı bombaları partlatdı. Partlama nəticəsində başı zirehli maşının içinə zərblə dəyən Bhutto ağır yaralı halda xəstəxanaya aparıldı. Kəllə sümüyündəki qırıqlara əməliyyatla müdaxilə edilsə də, Bənəzir ağır vəziyyətdən çıxa bilmədi və Bhutto ailəsinin daha bir fərdi (bu ailənin övladı kimi doğulub böyük bir ölkənin anasına çevrilə bilmiş bir qadın, dünyanın marağına səbəb olmuş bir xanım siyasətçi) də faciəli şəkildə həyata gözlərini yumdu.

Atasından düz 28 il sonra, 54 yaşında sui-qəsd qurbanı olan Bhuttonun ölümündən sonra sui-qəsdin "əl-Qaidə" tərəfindən həyata keçirildiyi iddia edildi. Ancaq "əl-Qaidə" təşkilatının liderləri Pakistan Daxili İşlər Nazirliyinin bu iddiasını dərhal təkzib etdilər. Cənazəsi dəfn edilməmiş meydana atılan - **"Onu kim öldürdü?"** - sualı isə hələ də öz həqiqi cavabını tapmayıb. Ancaq bir məsələ aydındır: Bənəzir Bhuttonu hər kim öldürübsə, o, Xeyri təmsil etmir, firavan, daha tərəqqi etmiş, daha nüfuzlu Pakistanı istəmir... ...Və Bənəzirə yalnız Pakistan ağlamırdı. İki dəfə yarımçıq baş nazirlik etmiş bir qadını dünyaya sevdirən nə idi?





Bu, Bənəzirin qadın və siyasətçi adını bir



arada ustalıqla (və ləyaqətlə!) birləşdirmək qabiliyyətinin, onun xanımxatınlığının, cəfakeşliyinin, milli dəyərlərlə intelektuallığı və dünyəviliyi çox təbii şəkli ilə uzlaşdırmaq istedadının ifadəsi idi!..



Məncə, əlavə sözə ehtiyac yoxdur. Dünya siyasəti bir Şahzadəsini də itirdi. Ən əsası odur ki, o, dünyadan köçəndə onun üçün ağlayanlar və kədərlənənlər onu sevməyənlərdən dəfələrlə çox idi. Ölümündən sonra belə, onun adı və nüfuzu ölkəsində o qədər güclü idi ki, həyat yoldaşı **Asif Zərdari**nin Pakistan Prezidenti seçilməsində böyük rol oynadı. Pakistanın gələcəyi ilə bağlı arzuları reallığa çevrilə biləcəkmi? Bunu zaman göstərəcək... Amma bu, bir faktdır ki, Pakistan əbədilik öz Şahzadəsini xatırlayacaq. Bunu onu son mənzilə yola salan pakistanlıların gözlərindəki yaş və üzüntüdə görmək çətin deyildi... **Yüz minlərlə insan "Əlvida, Şahzadə!", "Sağ ol, Şahzadə!" deyirdi... Bu, yaşanan bütün acılara dəyərdi!**















- Onunla beynəlxalq tədbirlərin birində tanış olmuşdum. Xorvatiyanın ilk qadın baş naziri Yadranka Kosorla (Jadranka Kosor) ayaqüstü söhbətimiz çox maraqlı və səmimi alınmışdı. İki keçmiş jurnalistin söhbəti, deyəsən, tutmuşdu... Xanım Kosor da siyasi karyerasına başlamazdan əvvəl uzun müddət jurnalist işləyib. Keçmiş həmkarımın bu qədər böyük uğurları sözün həqiqi mənasında hörmətə layiqdir və onu böyük uğurlarına görə təbrik etməyi də, təbii ki, yaddan çıxarmadım. Azərbaycandan, Xorvatiyadan, Avropada baş verən proseslərdən və təbii ki, qadınların hüquqlarından, cəmiyyətdə qadının rolunun artmasının vacibliyi ətrafında söhbətlər edirdik. Elə ilk baxışdan insanda güclü, iradəli, qətiyyətli, ağıllı bir lider fikrini formalaşdırır Yadranka Kosor...
- Amerikanın *"Glamour"* jurnalı 2010-cu ildə onu "ilin qadını" elan edib. O, bu ada layiq görülən 18 qadından biri olub. Jurnal, xüsusilə onun korrupsiyaya, zorakılığa, gender stereotiplərinə qarşı sərt və amansız mübarizəsini xüsusi qeyd edib.
- Yadranka Kosor 1953-cü ilin iyulun 1-də Pakraçda anadan olub. Burada gimnaziya, Lipikdə isə orta təhsil alıb. O, Zaqreb Universitetinin hüquq fakültəsini bitirdikdən sonra 1972-ci ildən jurnalist fəaliyyətinə başlayıb. *"Veçerni List"*də və Zaqreb radiosunda jurnalist işləyib.
- Xorvatiyanın Azadlıq uğrunda Müharibəsi Yadrankanın həyatında dərin iz qoyur. Radio jurnalisti kimi o, müharibədə baş verənləri, qaçqınların və müharibədə əlil olmuş veteranların problemlərini işıqlandırırdı. Həmin dövrdə xanım Kosor, həmçinin bir müddət BBC kanalının müxbiri kimi çalışır. O, Xorvatiya Jurnalist Assosiasiyası tərəfindən media fəaliyyətinə görə, Avropa ictimaiyyətindən isə humanist fəaliyyətinə görə ödüllərə layiq görülüb.





- Yadranka Kosor 4 kitabın müəllifidir. Onlardan ikisi şeirlər kitabı, digər ikisi isə Xorvatiya azadlıq mübarizəsinə həsr olunmuş kitablardır. Bu kitablar onu, iç dünyasını, düşüncə və arzularını görməyə imkan verir! O, eyni zamanda gözəl bir anadır, xanım Baş nazirin Lovro adlı bir oğlu var.

## Jurnalistikadan Baş nazirliyə gedən yol!

Yadranka Kosorun siyasi karyerası 1995-ci ildən başlayıb. O, 1995-ci ildə Xorvatiya Demokratik Birliyinin (XDB) üzvü kimi Xorvatiya parlamentinin deputatı seçilir. Amma parlamentin sıravi üzvü olmur. Yadranka Kosor 2000-ci ilə qədər Xorvatiya parlamentinin sədr müavini vəzifəsini də tutur.



O həmçinin 1995-1997-ci illərdə Xorvatiya Demokratik Birliyinin də sədr müavini postunu tutur ki, bu da onun karyera yüksəlişində önəmli rol oynayır. Xanım Kosor eyni zamanda 1999-cu ildən 2002-ci ilə kimi XDB-nin Qadınlar Assosiasiyasının da prezidenti olur. 2002-ci ildən isə Yadranka Kosorun karyerasında növbəti yüksəliş mərhələsi başlayır. O, partiya sədrinin I müavini postunu tutur.

2003-cü ildə XDB-nin hakimiyyətə gəlməsi ilə onun siyasi karyerasında dönüş nöqtəsi olur. O, İvo Sanaderin hökumətində Ailə, Veteran-














lar və Nəsillərarası Həmrəylik naziri olmaqla yanaşı, Baş nazir müavini postuna da təyin olunur. Bu vəzifələr onun növbəti siyasi karyera yüksəlişində önəmli rol oynayır. O, öz fəaliyyəti və işi ilə Xorvatiya cəmiyyətinə, sözün əsil mənasında, nəyə qadir olduğunu göstərə bilir!

Bu illər ərzində Yadranka Kosorun Xorvatiya Demokratik Birliyi daxilində də nüfuzu çox artmışdı. XDB 2005-ci il Prezident seçkilərində onun namizədliyini irəli sürür. Mübarizə gərgin keçir. Ancaq seçkilərin ikinci turunda Yadranka Kosor rəqibi - o zamankı prezident Stepan Mesiçə uduzur. Lakin ruhdan düşmür. Onu yeni mübarizələr gözləyirdi...

2009-cu ilin iyulun 1-də Xorvatiyanın Baş naziri və XDB-nin sədri İvo Sanader istefaya gedən zaman bəyan edir ki, öz postunda əvəzedici kimi Kosoru görür. Kosor isə buna öz münasibətini bildirərək ***"Mən həm hökuməti, həm də partiyanı güclü qadın biləyi ilə idarə edəcəm"*** deyir. Və öz fəaliyyəti ilə dediyi sözü tutur!

## Müstəqil Xorvatiyanın ilk qadın Baş naziri

Xorvatiya prezidenti Stepan Mesiç Yadranka Kosora yeni koalisiya hökumətinin yaradılması barədə tapşırıq ver-



məsinin həmən ardınca (2009-cu ilin iyulun 3-də) o, Baş nazir səlahiyyətlərini icra etməyə başlayır. Xanım Kosor demək olar ki, yeni hökumətdə heç bir dəyişiklik etmir. Bu, bir tərəfdən hadisələrin sürətli gedişindən, digər tərəfdən hökumətdə təmsil olunanların tam əksəriyyətinin zatən onunla siyasi həmfikir olmasından qaynaqlanırdı.

İyulun 4-də XDB-nin sədrinin boş qalmış kreslosu artıq onu gözləyirdi. Bu dəfə əvəzedici kimi yox, bilavasitə sədr kimi. **İyulun 6-da isə Xorvatiya Parlamentində keçirilən səsvermədə 153 deputatdan 83-nün səsini qazanaraq Yadranka Kosor ölkənin ilk qadın Baş naziri kimi adını TARİXƏ yazdı!**

Yadranka Kosor Xorvatiya tarixində hökumətə rəhbərlik edən 3-cü qadındır. Müstəqil Xorvatiyanın qurulmasından sonra isə o, bu posta seçilən ilk qadın Baş nazirdir!

## Söz verdi, iş gördü, ad qazandı

O, hökumətinin proqramını açıqlayarkən prioritetləri konkret olaraq ifadə edilmiş (müəyyənləşmiş) oldu. Belə ki, makroiqtisadi sabitliyin təmin edilməsi, iqtisadiyyatın sağlamlaşdırılması, iqtisadi böhrandan çıxış üçün şərtlərin yaradılması; eləcə də korrupsiyaya və mütəşəkkil cinayətkarlığa qarşı mübarizə; səhiyyə, ədalət mühakiməsi və ictimai idarəetmə sahələrində islahatların aparılması xanım Baş nazirin üstünlük verdiyi sahələrdir. Yadranka Kosor veteranların, 45 yaşdan yuxarı işsiz qadınların, zorakılıq qurbanlarının maraqlarını müdafiə edəcəyi barədə də ictimaiyyətə verdiyi vədlər əməli fəaliyyət sahəsinə çevrilirdi. Onun bu istiqamətdə fəaliyyətinin müsbət nəticələri artıq Xorvatiyada açıq-aydın görünür. O,











əsas diqqətini ölkəsini iqtisadi böhrandan ağrısız çıxarmağa, iqtisadi inkişafına yönəldib. Amma onun prioritetləri arasında bir çox digər məsələlər də var...

## Avropa Birliyinə doğru!

Onun əsas məqsədlərindən biri Xorvatiyanın Avropa Birliyinə daxil olmasıdır. Yadranka Kosor Xorvatiyanın inkişafı və təhlükəsizliyi üçün Avropa Birliyinə daxil olmasını vacib sayır və ölkəsinin bu quruma daxil olması istiqamətində yorulmadan çalışır. Çünki Avropa Birliyinə gedən yol bir sıra ağrılı problemlərin həllindən keçir. Nəticələr isə yaxşıdır. Avropa Birliyinin komissarı, xanım Kosorun başçılıq etdiyi Xorvatiya hökumətinin korrupsiyaya qarşı mübarizədə uğurlarını, keçmiş Yuqoslaviya üzrə beynəlxalq məhkəmədə əməkdaşlığını və Sloveniya başda olmaqla qonşu dövlətlərlə ərazi mübahisələrini (problemlərini) həll etməsini ölkənin Birliyə üzvlüyü yolunda ciddi nailiyyət olaraq dəyərləndirib. Bu dəyərləndirmə, heç şübhəsiz, ilk növbədə Xorvatiya hökumətinin qadın başçısının işgüzarlığının, uğurlu siyasi kursunun, bacarıqlı rəhbər özəlliklərinin, diplomat keyfiyyətlərinin təzahürü (məhsulu) kimi diqqəti cəlb edir.





## Müzakirə: Mübahisədən mükaliməyə

Yadranka Kosor hakimiyyətə gəldikdən həmən sonra ölkəsi ilə qonşu Sloveniya arasında 18 ildir davam edən sərhəd mübahisəsinin həll olunması ilə bağlı bu ölkənin başçısı Borut Paşor ilə razılıq əldə etdi. İki ölkə arasında müzakirələr Sloveniyanın Xorvatiyanın Avropa Birliyinə daxil olması üçün danışıqlara mane olmasından sonra başladı. Yadranka Kosor isə bu əngəli ortadan qaldırmaq üçün Sloveniya ilə sərhəd mübahisələrinin həlli istiqamətində səylərini sürətləndirdi və bununla da ölkəsinin Avropa Birliyinə gedən yolunu tamamilə açmış oldu.

Yadranka Kosor ölkəsinin maraqları naminə bütün ölkələrlə əməkdaşlığı daha da genişləndirmək istiqamətində addımlar atır. Məsələn o, Rusiyaya səfər edərək Xorvatiyanın "Güney axını" qaz layihəsinə qoşulmasını da təmin etdi. Rusiya ilə Xorvatiya arasında hökumətlərarası sazişin Kosorun ölkəsi üçün iqtisadi cəhətdən nə qədər vacib olduğu, necə önəm daşıdığı onun rəqiblərinə də bəllidir...

## Öncə partiyanın içi, sonra çölü...



O, qətiyyətliliyi, prinsipiallığı ilə tanınır. Məsələn, Kosorun, keçmiş Baş nazir, keçmiş partiya sədri İvo Sanaderanın partiya sıralarından çıxarılacağı barədə qərarı bu baxımdan səciyyəvidir. Buna səbəb keçmiş Baş nazirin Kosoru kəskin tənqid edərək partiyada lider çatışmadığını və aktiv siyasətə geri qayıdacağını elan etməsi oldu. Kosor Sanaderanın bu cür açıqlamalarının partiyaya, şəxsən onun özünün işgüzar nüfuzuna (imicinə) zərbə vurduğunu, ümumiyyətlə, həqiqəti əks et-



dirmədiyini söyləyərək qəbul edilən qərarın doğru olduğunu vurğulayıb. Sanki, o, bu hərəkəti ilə deyirdi: ***"Cənab Sanader! Sədrlər passiv olmur, təmkinli olur! Buyur, heç təmkinli də olmur, prinsipial olur. Gəlməmişdən gedə bilərsiz!"***

Vaxtı ilə o, özünü, partiyasını yuxarı aparırdı, indi ölkəsini aparmağa çalışır: Daha Üstün Gələcəyə! O, ağıllı Qadın, yaxşı Ana, uğurlu Rəhbərdir. O, yeni Avropa tipli siyasətçidir. O, Baş nazir iqamətgahından Zaqrebə, Zaqrebdən Xorvatiyaya, Xorvatiyadan Avropaya, Avropa Birliyinə baxır! Bu baxış sonunda bütün dünya ilə qovuşur.

O, bu gün də öz fəaliyyətini yüksək səviyyədə davam etdirir. Ölkəsi üçün, xalqı üçün yorulmadan çalışır və ən əsası, minlərlə gənc qadına, qıza ən gözəl örnəklərdən biri olmaqda davam edir. Arxasınca yeni bir cığır açır....

*O, artıq adını təkcə ölkəsinin deyil, dünyanın **TARİXinə** yazmağa nail olub!* ***İllər keçəcək, nə zamansa siyasət meydanındakı fəaliyyəti də bitəcək, amma o unudulmayacaq.*** *Çünki Yadranka Kosor artıq adını dünyanın ən uğurlu və bacarıqlı **QADINlarından** biri, özü də **LİDER QADINlarından** biri kimi TARİXə yazmağı bacarıb!* ***Uğurlar Sizə, əziz keçmiş jurnalist həmkarım!***






# Cənub gözəli "şahzadə"nin zəfərinin sirri



*O, 1953-cü il, fevral ayının 19-da Buenos-Ayres əyalətində, Tolosada dünyaya gəlib. Kristina soyuq fəsildə, dünyanın həm də siyasi, geopolitik anlamda soyuq vaxtında doğulsa da, vaxt keçdikcə, özünün istiqanlılığı ilə adından bəhs etdirəcəkdi: əvvəl ailədə, sonra məktəbdə, əmək kollektivində, daha sonra ölkədə və nəhayət, dünyada!*

***

...Buenos-Ayresin kasıb əyalətlərindən birinin sakini, ekrana diqqət kəsilən bir gənc satıcı heyranlığını çevrəsindəkilərdən gizlədə bilməyərək, deyir: ***"Aman Allah, o necə də gözəldir! 54 yaşda da belə gözəl görünmək olar!? Xoş sima, uzun saçlar, dəbli geyim... Mən istəyirəm ki, Argentinanın Prezidenti məhz o olsun!"***

"El ağzı - fal ağzı" deyiblər. Seçkiqabağı mitinqdə xanım Kirşnerə çətinliklə yaxınlaşa bilən həmin gənc ona mütəvazi bir gül dəstəsi uzadır, qarşılığında ...həmişə ümumi auditoriyaya ünvanladığını gördüyü (və yalnız ekrandan seyr edə bildiyi), bu dəfə isə ona, yalnız ona ünvanlanmış ca-







zibədar bir təbəssüm alır. Bu hadisə gənc satıcının həyatının ən xoşbəxt anı olur... Sevinc, məmnunluq və həyəcan qarışıq hisslərin təzahüründən yaranmış göz yaşlarını saxlaya bilməyən argentinalı gənc qəhərlənmiş səsi ilə ancaq bu sözləri deyə bilir: ***"Çox sağ olun, xanım. Bütün ümidlərim Sizədir!"***



Bu, yüz minlərlə sadə insanın, Argentina seçicisinin bir gəncin dili ilə ifadə olunmuş arzusu idi... Doğrudan da, **Kristina Elizabet Fernandes Kirşner** (Cristina Elisabet Fernandez de Kirchner) təkcə bu gəncin deyil, argentinalıların kifayət qədər böyük hissəsinin pərəstiş etdiyi qadın siyasətçi, **LİDERDİR!**




Kristina Kirşner Argentinanın ilk seçilmiş qadın Prezidenti, əfsanəvi İzabel Martinez de Perondan sonra isə ikinci qadın Prezidentdir. O, 2009-cu ildə "Forbes" jurnalı tərəfindən dünyanın "100 ən güclü qadın"ı siyahısında o, 11-ci yerdə dururdu.



Kristina Kirşner Prezident seçilməzdən öncə Argentinanın birinci xanımı və senator olaraq ölkənin siyasi həyatında uzun illər aktiv rol oynamışdı. O, Argentinanın keçmiş Prezidenti Nestor Kirşnerin həyat yoldaşı idi. Hələ birinci xanım olan zamanlar onun reytinqi ölkə başçısının reytinqindən... ən münasib ifadə ilə desək, aşağı deyildi.



Çox zaman təkamülündə ciddi tarixi prosesləri, təlatümlər yaşayan millət bu tarixi unutmur, onu yaddaşına birdəfəlik həkk edir. Xalqın birliyinə nail olma təcrübəsi tarixi modelə çevrilir. Argentinada belə təcrübə sabiq Prezident **Peron** və onun ilk həyat yoldaşı **Evitanın** adı ilə bağlıdır. Evita dünyasını erkən dəyişdi, hərbçilər tərəfindən devrilən Peron isə



Argentinadan qaçmaq məcburiyyətində qaldı. Lakin çətin sınaqlar dövründə güclü Prezident və onun xeyirxah xanımının rəhbərliyi altında xalqın birləşməsi haqqında xatirələr dildən-dilə düşərək, əfsanəyə çevrildi. Həmin hadisələri əks etdirən neçə kitab yazıldı, onların əsasında Endryu Lloyd Uebber çox ünlü müziklini yaratdı, daha sonralar isə həmin motivlər əsasında kinofilm çəkildi.

Nadir hadisədir ki, 1973-cü ildə sürgündən qayıdan Peron ikinci həyat yoldaşı İzabella Martinesi də özünün vitse-Prezidenti və davamçısı elan etdi. Onun ölümündən sonra İzabella Prezident oldu.

Xalq üçün rəhbərlər və onların ailələri haqqında əhvalatlar həmişə maraqlı olub və bəlli olduğu kimi, müəyyən vaxt kəsiyindən sonra həmin əhvalatlar mifə çevrilir. Peron və Evitanın uğurlu təcrübəsinin şahidi olan argentinalılar da həmin tarixin təkrarlanması arzusuna sahib idilər. Onlar öz xanım prezidentlərinə böyük ümidlər bəsləyirlər. Kristina Fernandes Kirşner, özündən öncəki tarixin gözəl anlarını, bir çox hallarda faciələrə ürcah olan işıqlı istəkləri, barışçı, demokratik, rəvan həyat tərzini şəkilləndirməklə, gerçəkləşdirməklə yükümlüdür! O, özündən sonrakı nəslə yarıda qırılmış yol, ölüm gətirmiş diləklər qoymaq istəmir. O, Argentinanı acı göz yaşlarına deyil, sevinc yaşlarına boğulan ölkə kimi görmək istəyir. Və... artıq arxada qalmış Kirşnerli Argentina ictimai-siyasi həyatı göstərdi ki, o, bunu istəməklə yetinmir, o, bunun üçün əlindən gələni edir!

Yenə qayıdaq uzaq 1953-cü ilin soyuq 19 fevral gününə. Qayıdaq, Buenos-Ayres əyalətinə, La-Plataya. Həmin gün, orada - ispan kökənli avtobus sürücüsü **Eduardo Fernandesin** və alman kökənli evdar qadın **Ofeliya Ester Vilhelmin** ailəsində bir qız dünyaya gəlir. Bu, o zamanlar idi ki, Argentinanın əfsanəvi birinci xanımı, ictimai-siyasi xadim, argentinalıların böyük sevgi ilə Evita adlandırdıqları Eva Peron cəmi bir neçə ay əvvəl dünyadan köçmüşdü. Valideynləri heç ağıllarına belə gətirə bilməzdilər ki, illər keçəcək, Kristina adı verdikləri bu balaca qız əvvəlcə Argentinanın birinci xanımı, sonra isə ölkənin birinci şəxsi olacaq...

Onun atası radikal Vətəndaş Birliyinin, anası isə Peronist Partiyasının üzvü idi. Məhz bu iki qüvvə Argentinada təqribən 20 il hakimiyyətdə oldu.

Kristina başa düşürdü ki, malik olduğu bütün yaxşı cəhətləri ona valideynlərindən irsən keçib. Anası pərəstişkarı olduğu Evitanın şəkillərini







saxlayırdı. Kristinanın sözlərinə görə, bu şəkillərdə o, bir ilahəyə bənzəyirdi. Həmin dövrdə, demək olar, hər bir argentinalı ana öz qızının bu heyrətamiz qadına oxşamasını istəyirdi. Kristina özünü bu əfsanəvi xanıma başqa cəhətdən bənzətdi: səliqə ilə yığılmış saçları və gənc inqilabçılara xas jestlə - yumruğunu havaya qaldırmış ciddi qadın obrazı ilə...



Kristina Fernandes siyası karyerasına çox gənc yaşlarında başlamışdı. O, XX yüzilliyin yetmişinci illərində Sosial Ədalət Partiyasının Peronist (Keçmiş Prezident Xuan Peronun adı ilə bağlıdır) Gənclər Hərəkatına qoşulmuşdu. Kristinanın bütün ümidləri **"Eva Peron adına Antiimperialist Cəbhə"**yə idi. Onun fitrətində də bir Eva Peronluq vardı...





Kristina təhsil almağa La Plata Milli Universitetinin psixologiya fakültəsində başlamış, ardınca hüquq fakültəsinə qəbul olunmuşdu. 1970-ci illərin ortalarında, tələbəlik illərində o, **Nestor Kirşnerlə** tanış oldu. O zaman onların hər ikisi Gənclərin Peronist Təşkilatının fəal üzvləri idi.

Hələ o illərdən başlayaraq Kristina xarici görünüşünə xüsusi diqqət verən, gözəl və ağıllı qadın timsalına çevrilmişdi. İllər sonra Kristina onun həyatına həsr olunmuş "Şahzadə Kristina" kitabının yazarı Olqa **Vornaya** xatirələrini danışarkən ***"Cazibədar bir qadın, həm də ağıllı olduğunu isbat etməlidir. Bu, məni əsəbiləşdirir"*** - deyirdi. Vorna onu ***"savadlı, güclü, təmiz qəlbli, bəzən təkəbbürlü, şöhrətpərəst, çılğın bir insan, bununla bərabər səxavətli, sadiq, etibarlı yoldaş"*** kimi səciyyələndirirdi.

22 yaşlı Fernandesin gələcək həyat yoldaşı ilə tanış olduğu zamanlar Nestor Kirşnerin siyasi imici o qədər də müvəffəqiyyətli deyildi. Kristina onu təhsil almağa məcbur edir, ona pozitiv mühit yaratmağa çalışır: kafeyə, gitaraya meylini azaltmağa, əvəzində ədəbiyyata maraq oyatmağa çalışırdı. Beləliklə, qarşısına məqsəd qoyan ambisiyalı qadın kimi, Kristina Nestorun bir şəxsiyyət kimi formalaşmasına yardımçı oldu.

Yarım ildən sonra onlar evləndilər. Bu, 1976-cı il dövlət çevrilişi ərəfəsinə təsadüf edirdi.

1976-cı ildə Argentinada hakimiyyəti ələ keçirən hərbçilər repressiyaya başladılar. Bu zaman Kirşner cütlüyü paytaxtdan uzaqlaşıb, doğma əyalətləri Santa-Kruza yerləşdi. Burada onların oğlu Maksimo və qızları Florensiya dünyaya gəldi.

Kristina və Nestor Kirşnerlər Rio-Qalleqosda (Santa-Kruz əyalətinin paytaxtı) hüquqşünas kimi fəaliyyət göstərməyə başladılar. Burada onlar hüquqi təcrübəyə və kiçik mülkiyyətə sahib oldular. Siyasətdən uzaqlaşan Kristina siyasətə yenidən məhz burada, səksəninci illərdə qayıtdı. Onların siyasi karyerası 1983-cü ildən başlayaraq, yeddi illik qanlı hərbi diktaturanın ləğvi və demokratiyanın bərqərar olması ilə daha da aktivləşdi. Kristina 1989-cu ildə Santa-Kruz əyalət qanunverici orqanına nümayəndə seçildi.







## Maraqlı təbiət, maraqlı bənzətmələr, maraqlı nəticələr...





Rio-Qalleqos Pataqoniyanın Atlantik okeanı sahillərində ən böyük şəhərlərindən biridir. Bu yerlərə gəzinti təşkil edən turizm agentlikləri vəhşi təbiət həvəskarlarına cənnəti, açıq səma altında təbii zooparkı seyr etməyi vəd edirlər. Qəribə məməlilər və dəniz quşları, dəniz pişikləri koloniyası bu qumlu adalarda toplaşır. Balinalar çoxalmaq üçün adətən bu mözüzəli yerlərə üzüb gəlirlər.



Frak və ağ köynəkli Nestor Kirşnerin, sonralar - Prezident olduğu dövrlərdə *"pinqvin"* adlandırılması təsadüfi deyildi. Əvvəla, Nestora ərki çatanlar ona zahirən pinqvinlərə bənzədiyini deyirdilər.



İkincisi, o, əslən Magellan pinqvinlərinin yuva saldığı, Antarktidadan əlavə, milyonlarla pinqvin koloniyasının məskunlaşdığı ərazidən idi. Onları burada çox sevirlər, argentinalılar üçün "pinqvin" təhqiredici söz deyil, saflıq, sadəlik bildirən ləqəbdir. Amma nə qədər gözəl və maraqlı olsa da, Rio-Qalleqos kiçik bir əyalət şəhəriydi. Burada yalnız məcburiyyət qarşısında daldalanmaq və həyata keçəcəyinə dair hələ heç bir ümid olmayan şöhrətpərəstlik planları qurmaq olardı...

Beləliklə, gənc hüquqşünas Kirşnerlər Rio-Qalleqosda şəxsi vəkil kontoru açırlar. Onlar öz əlçatmaz planlarının həyata keçirilməsi üçün pul qazanmaq qərarına gəlirlər. Nestor əvvəlcə qubernator, sonra isə Prezident olacağını bildirdikdə və həyat yoldaşı onun niyyətinin ciddi olduğunu təsdiq etdikdə, dostları onların zarafat etdiyini düşünürdü. Lakin artıq bir il sonra Kirşnerlər şəhərin nəhəng sahibkarlarının işlərini aparır, müəyyən vaxtdan sonra isə Argentinanın güney neftçilərinin Həmkarlar İttifaqını rəsmi şəkildə təmsil edirdilər.

*"Pul: mülkiyyət - icarədən gələn gəlir - yüksək mənsəb əldə etmək üçün lazım olan kapital"*. - Onlar bu sxem əsasında hərəkət edirdilər. Beləliklə, Nestor Kirşner Rio-Qalleqosun meri, ardınca Santa-Kruz əyalətinin qubernatoru seçilir. Kristina ərinin hər iki seçki kampaniyasında fəal şəkildə iştirak edir. Nestor da öz növbəsində xanımının onun düşünən beyni və birinci məsləhətçisi olduğunu etiraf edir. Kristina özü isə bunun ardınca Santa-Kruz əyalət qanunverici orqanına seçilir. Artıq zaman yetişmişdi və o, müstəqil siyasətçi idi.

Beləcə, ambisiyalı qərarlar verməklə, bir-birlərini dəstəkləməklə Kirşnerlər karyera pillələrində irəliləyirdilər. Bəlkə də öz məramlarını dostlarına açıqlamaqda Kirşnerlərin əsas məqsədi bu yoldan çəkinməyin mümkünsüzlüyünü təsdiq etmək idi. Kristina isə etiraf edir: **"Siyasət - nə siyasi fəallıq, nə hobbi, nə də peşə deyil, o, mənim həyat tərzimdir. Nestorla mən eyni əqidədəyik. Siyasət bizim üçün cəmiyyəti dəyişmək vasitəsidir. Əvvəllər biz dünyanı dəyişməyə çalışırdıq, indi isə daha praktik bir şeylə kifayətlənirik: Argentinanı dəyişməklə..."**

1993-cü ildə yenidən Santa-Kruz əyalət qanunverici orqanına seçilən





Kristina Fernandes 1995-ci ildən Santa-Kruzu Senatda təmsil etməyə başlayır. 1997-ci ildə Nümayəndələr Palatasına seçilən Kristina Fernandes 2001-ci ildə yenidən Senata qayıdır.

## Nestor Kirşnerin uğur mələyi

O, həyat yoldaşına bütün siyasi karyerası boyunca dəstək oldu. Nestor Kirşner 2003-cü il Prezident seçkilərindəki qələbəsinin böyük hissəsini məhz ona borclu idi. Kristina həyat yoldaşının seçkiqabağı kampaniyasının əsas təşkilatçısı idi. Hadisələrin gedişi onun fitrətində Eva Peronluq olduğunu bir daha üzə çıxarırdı...

2003-cü ilin mayında keçirilən seçkilərin ikinci turunda o zamankı Prezident Karlos Menem Nestor Kirşnerlə mübarizədə məğlub oldu və onu yeni prezident kimi təbrik etdi. Maraqlıdır ki, həyat yoldaşı prezident seçilənə qədər Kristina Fernandes Kirşner Nestor Kirşnerlə müqayisədə daha ünlü siyasətçi idi.



Kristina - güclü, azad və xoşsifət qadın! İstər əri prezident olsun, istər özü, o həmişə həyat yoldaşının əsas dəstəkçisi oldu. Xalq, sadə seçici onu azad, komplekslərdən uzaq, ən əsası öz arzularının ifadəçisi kimi görür, ona güvənirdi. Onun müsbət aurası, enerjisi o qədər təsirli idi ki, bu, öncə həyat yoldaşının lehinə işlədi, sonra isə özünün prezident seçilməsi ilə nəticələndi.

## Birinci xanım kimi gəldiyi Saraydan Birinci şəxs kimi gedəcək...

Həyat yoldaşının prezidentliyi dövründə Kristina Kirşner ölkənin siyasi həyatında fəal şəkildə iştirak edirdi. O, siyasi tədbirlərdə çıxışlar edir və bu davranışı ilə Eva Peronu xatırladırdı.



Sonralar bu cür müqayisədən imtina etsə də, bir müsahibəsində xanım Kirşner bildirdi ki, o, özünü Evitanın ictimai xadim kimi obrazına daha çox bənzədir.

Nestor Kirşnerin Prezidentliyi dövründə o, sözün həqiqi mənasında hökumətin səyahət edən elçisinə çevrilmişdi.

Nestor Kirşner böyük nüfuz qazanmışdı. Argentinaya rəhbərliyə keçdiyi dövrdə ölkə 2001-ci il böhranından sonra çox ağır maliyyə böhranı yaşayırdı. Onun hakimiyyəti illərində iqtisadiyyatın inkişafı 50%-ə qədər yüksəldi və işsizlik ikiqat azaldı.

2007-ci ildəki Argentina Prezidenti seçkilərində gözlənilirdi ki, Nestor Kirşner yenidən prezidentliyə namizədliyini irəli sürəcək. Çünki onun prezidentlik fəaliyyəti uğurlu keçmişdi və yenidən seçilməsi üçün ciddi bir problem yox idi. Amma Kirşnerlər fərqli bir qərar verərək bəyan etdilər ki, 2007-ci il seçkilərində prezidentliyə namizəd ölkənin birinci xanımı Kristina Kirşner olacaq. Bu dəfə dəstəkləyən Nestor Kirşner, dəstəklənən isə həmişə onu var gücü ilə dəstəkləmiş Kristina Fernandes oldu... Qərara alındı - həyata keçirildi. Kristinanın növbəsi çatdı...

Kristina Kirşner 2007-ci ilin oktyabr ayında hakimiyyətdə olan Qələbə Cəbhəsi Partiyasından (Front for Victory Party) prezidentliyə namizədliyini irəli sürdü.

O söz verdi ki, həyat yoldaşının siyasətini davam etdirəcək. Bu isə o qədər də çətin deyil, çünki o, həmişə həyat yoldaşının əsas məsləhətçisi olmuşdu. Kristina Kirşnerin seçkiqabağı kampaniyasının "Dəyişikliklərin davamı!" kimi ifadə olunan əsas şüarı argentinalıların xoşuna gəldi. Belə ki, onlar dəyişiklik edilməsini istəyir, lakin siyasi kursun dəyişməsini istəmirdilər. Özünün seçkiqabağı kampaniyasını bacarıqla aparan Kristina seçicilərə bildirdi: "Bizim hər birimizin arzuları var, məqsədimiz onları həyata keçirməkdir".





## "Mübarizə bu gün də var, yarın da..."

2007-ci ildə keçirilən prezident seçkilərində o, rəqibləri Eliza Karrionu (Vətəndaş Koalisiyasından namizəd, 22% səslə) və İqtisadiyyat naziri Roberto Lavaqnanı (16% səslə) geridə qoyaraq, Argentinanın prezidenti seçildi. Səslərin 45.3 %-ni toplayan Kristina Kirşner qələbəsini təmin edib, ölkəsinin 55-ci prezidenti kimi tarixə düşdü.

Dediyimiz kimi, onun fitrətində bir Eva Peronluq vardı... Onu seçkilərdə daha çox əyalətdən olan işçi siniflər və azgəlirli şəhər əhalisi dəstəkləyirdi.

Hakimiyyətin əsas rəmzlərini - əsa və milli bayrağın rənglərindən ibarət lenti Kristinaya həyat yoldaşı təslim etdi. Keçmiş prezidentin hakimiyyəti öz xanımına təhvil verməsi törənini izləməyə dünyanın müxtəlif yerlərindən yüzlərlə qonaq gəlmişdi. Kristina Kirşner and içərək, Argentinanın ünlü musiqi qrupu ilə birlikdə xalq mahnısını ifa etdi. O, artıq birinci xanım yox, birinci şəxs idi!...

## Nestor Kirşner: "Həyat yoldaşım ölkəni məndən daha yaxşı idarə edəcək"

Prezident vəzifələrini icra etməyə başlayan kimi o, bir çox çətinliklərlə, o cümlədən, inflyasiya, qiymət artımı, həmkarlar ittifaqlarından daha yüksək maaş tələbi, əsas biznes sahələrində özəl yatırımın artırılması, kommunal xidmət dairələrindən xidmətə görə haqların artırılması tələbi, Paris Klubu ilə ödənilməmiş borclarla bağlı sövdələşmə və digər problemlərlə üzləşdi.



Kristinanı əri ilə müqayisədə daha müvazinətli, sabit siyasətçi hesab edirlər. O, Kirşnerin siyasətindən məmnun olmayan insanları partiyaya yenidən cəlb etdi, bəzi qonşularla, eləcə də bəzi xarici investorlarla pozulmuş münasibətləri bərpa etməyi bacardı. Kristina Fernandesin dövründə ABŞ-la münasibətlərin yaxşılaşacağı gözlənilirdi, lakin xanım Kirşner **Corc Buşla** dostluğu Venesuela rəhbəri Hüqo Çavezlə strateji ittifaqa dəyişdi.

Üstəlik, prezidentliyinin ilk günlərində ABŞ-Argentina münasibətləri ABŞ-ın prokuror köməkçisinin seçkiyə qeyri-qanuni yardım edilməsi barədə açıqlaması nəticəsində pisləşdi. Bu açıqlama "Maletinazo skandalı" adlandı. "Maletinazo skandalı" Venesuela-ABŞ vətəndaşı olan Quido Antonini Uilsonun 4 avqust 2007-ci ildə çantasından tapılmış 790 min ABŞ dolları ilə bağlı meydana çıxdı. Pulların qaynağı barədə Uilsonun yalan deməsi pulların xanım Kirşnerin seçki kampaniyasına sərf olunacağı barədə şübhələrə, yorumlara yol açdı.



Kristina Fernandes və Venesuela Prezidenti **Hüqo Çavez** bu açıqlamaları Latın Amerikası ölkələrini ayırmaq üçün ABŞ tərəfindən hazırlanmış sui-qəsd kimi qiymətləndirdilər. Kristina Fernandes dekabrın 17-də ABŞ böyükelçisinin fəaliyyətinə və onun Xarici İşlər Nazirliyi rəsmiləri ilə görüşlərinə qadağalar qoydu. Ancaq yanvarın 31-də xanım Kirşnerin ABŞ-ın Argentinadakı böyükelçisi Örl Antoni Ueynlə görüşü zamanı problem öz həllini tapdı. Böyükelçi bəyanatların ABŞ hökuməti tərəfindən verilmədiyini vurğuladı və bu barədə açıqlama verdi. Xanım Kirşner sübut etdi ki, argentinalılar təkcə futbol meydanında yaxşı oynamırlar, onların siyasət və diplomatiya meydanında da deməyə sözləri var...

26 aprel 2008-ci ildə Folklend müharibəsinin 26-cı ildönümündə Kirşner Argentinanın bu adalarda danılmaz hüququnun olduğunu bir daha açıqladı. Buenos-Ayreslə





London arasında münasibətlər Folklend (Malvin) adaları üstündə yenidən kəskinləşdi. Kristina hökuməti neftçiləri "Argentina yataqlarının istismarına cəhd edilməsinə görə" cinayət məsuliyyəti ilə təhdid etdi. Britaniya hökuməti isə Folklend adaları və onun su hövzəsi üzərində suverenliklərinin danılmaz olduğunu bildirərək, bu sularda neft kəşfiyyatının qanuni olduğuna dair öz mövqeyini açıqladı. Amma Kristina Fernandes də fikrindən dönmədi...




## Geniş üfüqlərin qadını

Prezident Kristina Kirşner həm də Dünya Qadın Liderləri Şurasının üzvüdür. Bəlli olduğu kimi, şura keçmiş və hazırkı qadın prezidentlərin, qadın baş nazirlərin uluslararası şəbəkəsidir və onun missiyası ədalətli inkişaf üçün vacib olan bir çox məsələlər üzərində kollektiv iş aparmaq məqsədilə yüksək səviyyəli qadın liderləri səfərbərliyə almaqdır.



29 iyun 2009-cu ildə Konqresə keçirilən seçkilərdə Kristina Fernandesin liderlik etdiyi Qələbə Cəbhəsi Partiyası hər iki palatada nəzərə çarpacaq sayda yerlər itirsə də, partiya yenə də səslərin çoxunu toplayaraq Konqresdə üstünlüyünü qoruyub saxlaya bildi. (Ondan öncə prezident olmuş həyat yoldaşı isə xanım prezidentin ölkə üçün daha yararlı işlər gördüyünü etiraf edir, onun işlərinə, çalışmalarına rəğbətini ifadə edirdi.)



Kristina Kirşner xalqın başını gözəl sözlərlə qatmır. Belə olan halda, təbii ki, Kirşnerlərin uzun müddət hakimiyyətdə qalması müm-




kün olmaz, olsa da qan-qada ilə müşayiət olunardı. O, belə demək mümkünsə, mənəviyyatla iqtisadiyyatı, gözəl sözlərlə gerçək imkanları birləşdirir, yerli və xarici yatırımçıları Argentina iqtisadiyyatına diqqət yönəltməyə təşviq edir, müsbət nəticələrə nail olur.

Ekspertlər xanım prezidenti kompleksiz lider adlandırırlar. Hələ birinci xanım olduğu dövrdə Kristina bioqrafina "Mənim adım şahzadə adıdır", - demişdi. Həqiqətən, Argentinada onu təkcə "pinqvin" yox, həm də "şahzadə Kristina" adlandırırlar. İspan Kralının Argentinaya səfəri zamanı onun xanımı Sofiyanı müşayiət edən Kristina jurnalistin "Şahzadə, Şahzadə!" çağırışına maraqlı reaksiya vermişdi: "Hansı şahzadəni nəzərdə tutursunuz?"

O, məharətlə özünün "şahzadə imici"ni yaradır, jurnalistlərə isə yalnız onunla hesablaşmaq qalır.

Kristina özünə qarşı çox həssas və tələbkar qadındır. Özünə həddindən artıq fikir verir: o, özəl, xəfif makiyajını etmədən heç yerə getməz. Aerobika ilə məşğul olmaq onun üçün mütləq vacib işlər sırasındadır. Siyasi rəqibləri prezidentin hər il qarderobuna böyük miqdarda pul sərf etməsinə etirazlarını bildirirlər. Onun ictimaiyyət arasına eyni qiyafədə çıxmadığı hər kəsə bəllidir. O isə bunu ölkənin birinci şəxsinin sadə insanlardan fərqli tərzdə geyinməsinin vacib olması ilə əsaslandırır.

Nəhayət, Nestor və Kristina Kirşnerlərin ailə bağlarının yalnız praqmatikliyə və siyasi məqsədlərə söykənib-söykənməməsi ilə bağlı "axtarış"lar öz "nəticə"sini verdi. Argentina inqilabının ildönümü şərəfinə keçirilən ziyafətdə iştirak edən bir jurnalist Kirşner cütlüyü barədə öz fikirlərini belə yazırdı: "...O, məni valeh etdi. İnanmazdım ki, hakimiyyətdə olan bir qadın belə füsunkar ola bilər. Mənə həmişə elə gəlirdi ki, belə qadınlar öz təravətini tez itirir. Kirşnerlərə baxdıqda onların bir-birini nə qədər sevdiyi aydın görünür. Bu, məni heyran etdi... Onlar dayanıb söhbət edirlər və birdən fərqinə varmadan mexaniki şəkildə bir-birlərinin əlindən tuturlar". Təbii ki, qarşılıqlı məhəbbət də bu maraqlı cütlüyün uğur əldə etməsi yollarında böyük rol oynayıb.







## Problem həmişə tapılır, onu həll edən də...





Amma təbii ki, xanım Prezidentin ölkə xaricində olduğu kimi, daxilində də həll edilməsi vacib olan problemləri az deyil. Çünki həm arzular tükənmir, həm də hər problemin həlli yeni problemlə müşayiət olunur. Başqa sözlə, hər zaman həllini gözləyən problemlər var. Yaxşı ki, xanım Prezident işi problemə çevirən yox, problemi işə çevirən dövlət başçısıdır. Qeyd etmək lazımdır ki, Argentina müxalifəti prezidentin hər hansı bir uğursuzluğunu, bəzi problemlərin həlli istiqamətində lazımlı və vaxtında addımlar atılmamasını,





korrupsiya və. s. halların çox olduğunu iddia edərək, onun istefasını tələb edir. *(Müxalifətdən olan deputat və 2011-ci il seçkilərində gözlənilən namizəd **Eliza Carrio** 2009-cu ilin iyul ayında açıqlanan maliyyə hesabatında Kirşnerlər ailəsinin mülkiyyətinin 2003-cü ildən bəri yeddi dəfə artdığını əsas gətirərək, prezidentin məhkəməyə cəlb olunmasını tələb etmişdi.)*

Müxalifət həmçinin Fernandesin KİV qanununa etdiyi dəyişiklikləri, hökuməti tənqid edən medianın səsini boğmaq üçün vasitə kimi qiymətləndirdi. Ümumiyyətlə isə Kirşnerlərin yerli KİV-lə münasibətləri həmişə qeyri-sabit olmuşdur. Nestor Kİşner kimi Kristina Kişner də prezidentliyi dövründə jurnalistlərə çox nadir hallarda müsahibələr verir. Kristina Fernandes isə onun fəaliyyətini tənqid edənlərə "bu, siyasətin qaydalarıdır, müxalifət həmişə iqtidarı tənqid edəcək" deyərək öz işini davam etdirir və Argentinanın inkişafı üçün əlindən gələni etməyə çalışır və əldə etdiyi uğurlar da az deyil...



***

...2010-cu ilin 28 oktyabrında Kristina Kirşnerin həyatında ən ağır günlərdən biri idi. Onu böyük məhəbbətlə sevən, hörmət edən və həmişə arxasında dayanan həyat yoldaşını, ən yaxın dostu və silahdaşı Nestor Kirşneri itirdi. Qəfil ürək tutmasından vəfat edən 60 yaşlı Nestor Kirşnerin itkisi Kristina üçün nə qədər ağrılı olsa da o, yaşamalı, çalışmalı, Argentina üçün yoluna davam etməli idi... Və o, məhz belə də edir. Adını ölkəsinin və dünyanın tarixinə yazmağı bacarmış Kristina Fernandes yenə də minlərlə Argentinalının sevimli **"şahzadə"**sidir.





Angela Merkel

# Dünyaya səs salan keşiş qızının uğurlu həyatı



- O, Almaniyanın ilk qadın (və hazırkı) Kansleri - Baş naziridir.
- O, Almaniya tarixində ən gənc nazir (36 yaşında) və ən gənc Kansler (51 yaşında) olmuşdur.
- O, nüfuzlu "Forbes" dərgisinin dünyanın "100 ən güclü qadın"ı siyahısına 2006, 2007, 2008 və 2009-cu illərdə liderlik etmişdir. O, son 4 ildə dünyanın ən güclü qadın lideri, siyasətçi elan edilib.
- "Taym" jurnalı da onu 2006, 2007-ci illərdə dünyanın 100 ən nüfuzlu şəxsi sırasına daxil edir.
- O, ünlü ingilis dövlət və ictimai-siyasi xadimi Marqaret Tetçerdən sonra böyük səkkizliyə sədrlik edən ikinci qadın olmuşdur!
- O, Böyük Avropa İnteqrasiyasına töhfəsinə görə, 2006-cı ildə "Avropa üçün Baxış" Ordeni ilə ödülləndirilmişdir!
- O, 21 mart 2006-cı ildə "İtaliya Respublikasına göstərdiyi xidmətlərə görə" "Böyük Xaç" Ordeni ilə təltif olunmuşdur!
- O, 2007-ci ildə Qüds (Yerusəlim) Universitetinin, 2008-ci ilin iyununda Leypsiq Universitetinin, həmin ilin sentyabrında isə Vroklau (Polşa) Universitetinin "Fəxri doktor"u adına layiq görülmüşdür!
- O, 2007-ci ildə Almaniyadakı Yəhudi Birliyi Mərkəzinin Leo Bek ödülünə layiq görülmüşdür!







- O, 11 yanvar 2008-ci ildə Horst Köler tərəfindən "Almaniya Federativ Respublikasına göstərdiyi xidmətlərə görə" "Böyük Xaç" Ordeni ilə təltif edilmişdir!
- O, 2008-ci ildə "Peru Günəşi" "Böyük Xaç" Ordeni ilə ödülləndirilmişdir!
- O, Avropa Birliyində təqdirəlayiq xidmətlərinə görə 2008-ci ildə Avropanın ən nüfuzlu ödüllərindən sayılan Böyük Karl (Karlspreis) ödülü ilə təltif olunmuşdur!

"Nev Statesman" 2010-cu ildə onu dünyanın ən nüfuzlu 50 şəxsiyyəti sırasına daxil edib!

- 2010-cu il noyabrın 17-də Ağ Ev açıqlama yaydı ki, prezident Barak Obama onu ABŞ-ın ən yüksək mükafatı olan Azadlıq Medalı ilə təltif edib!
- O, modern bir dövlət olmasından bu yana Almaniyanı idarə edən ilk qadın hökumət başçısıdır! (Kanslerdir). O, həm də 2-ci Dünya Müharibəsindən bəri alman şansölyesi olan ən gənc insandır!
- O, yalnız öz ölkəsinin və Avropanın deyil, ümumən dünyanın yaxşı tanıdığı Angela Merkeldir (ANGELA DOROTHEA KASNER)!

## Səssiz yüksəliş yollarında: balaca qızdan "balaca qız"a...



1954-cü il iyulun 17-də Hamburqda **Kasnerlər** ailəsində bir qızcığaz dünyaya gəldi. Ailəsi körpəyə Angela (Angela Doroti Kasner) adını qoydu. Angelanın atası **Horst Kasner** Lüteran keşişi, anası Herlind isə Almaniya Sosial-Demokrat







Partiyasının üzvü, ingilis və latın dili müəlliməsi idi. (Xanım Kansler 2000-ci ildə "Der Spigel" ("Güzgü") qəzetinə verdiyi müsahibədə dörddən bir yarıpolyak olduğunu demişdi.)

Anadan olmasından bir neçə həftə sonra onun ailəsi Hamburqdan Almaniya Demokratik Respublikasına (ADR) köçmüşdü. Onlar Berlinin 80 km quzeyində - şəhər kənarında yaşayırdılar.

Horst Kasner Heydelberq və Hamburq Universitetlərində teologiya dərsləri keçirdi. Üç il sonra, 1957-ci ildə Kasnerlər Ukkermarka - Templin şəhərinə köçürlər. Horst Kasner burada Kilsədaxili Tədris Mərkəzinin yaradılmasında iştirak edir. 1957-ci il iyulun 7-də Angelanın qardaşı Markus, 1964-cü il avqustun 19-da bacısı İrena dünyaya gəlir.

Templində Angelanın atası artıq pastor deyil, Pastorlar Kollecinin rəhbəri idi. Uzun müddət həmin vəzifədə çalışan Horst Kasner Berlin-Brandenburq lüteran kilsəsində nüfuzlu bir simaya çevrilmişdi. O, ADR hökumətinə və kilsəyə münasibətində Almaniya Vahid Sosialist partiyasının siyasətinə müxalif olmayan kilsə nümayəndələrindən idi. ADR-nın "Vaysenzee seksiyası"nın ilahiyyatçılar qrupuna daxil olan Kasner, dövlət rəhbərliyinin qənaətinə görə, kilsədə mütərəqqi qüvvələri təmsil edirdi. Kasnerlərə müəyyən imtiyazlar, o cümlədən, Qərbə getmək icazəsi verilmişdi. Lakin Herlind Kasnerə ADR təhsil sistemində ixtisası üzrə işləmək izni verilməmişdi. Herlind Kasner özünü uşaqlarına həsr etdiyi üçün Angela nə uşaq bağçasına, nə də məktəb hazırlıq qrupuna getməmişdi.

1961-ci ildə Angela Kasner Templində orta politexnik məktəbin 1-ci sinfinə gedir. Sinif yoldaşlarının və müəllimlərinin dediklərinə görə, Angela o qədər də gözəçarpan şagird olmasa da, sosial mühitə





tez uyğunlaşan bir qız idi. Təhsildə qazandığı uğurlar, özəlliklə rus dili və riyaziyyat fənlərindən əldə etdiyi nailiyyətlər diqqətəlayiq idi. Məktəb illərində əvvəllər pioner təşkilatının, sonralar Azad Alman Gəncləri Birliyinin üzvü olmuş Angela, orta məktəbin bütün buraxılış imtahanlarını "əla" qiymətlə verir.

Angela Kasner hələ məktəbli ikən, Karl Marks adına Leypsiq Universitetinin fizika fakültəsində təhsil almağı qərara alır və bu məqsədlə 1973-cü ildə Leypsiqə köçür. O, müxalif ruhlu gənclərin sırasına aid deyildi, lakin özünün dediyinə görə, bu illərdə çox bəyəndiyi dissident-yazıçı **Rayner Kuntse** ilə tanış olmuşdu və bu görüş ona böyük təsir göstərmişdi.

1973-cü ildən 1978-ci ilə kimi Leypsiq Universitetində fizika üzrə təhsil almış Kasner, tələbəlik illərində tələbələr tərəfindən təşkil olunan Moritzbas binasının qalıqlarının bərpası layihəsində iştirak edir. O zamankı ADR-də gözlənilməz hal sayılan bu hadisəyə qarşı çıxan ilk qurum Leypsiq Universiteti olur. Ancaq Almaniya Sosialist Birlik Partiyasının bu təşəbbüsü dəstəkləməsi layihənin həyata keçirilməsini təmin edir.

Təhsil aldığı dövrdə, Moskva və Leninqradın gənc tələbə-fizikləri ilə bilik mübadiləsi görüşündə (1974-cü il) o, ilk həyat yoldaşı fizik **Ulrix Merkellə** tanış olur. Onların nikah mərasimi 3 sentyabr 1977-ci ildə, Templin kilsəsində keçirilir.

***"Bərk mühitdə məkan korrelyasiyasının sadə bimolekulyar reaksiyalara təsiri"*** adlı diplom işini Angela Merkel 1978-ci ildə uğurla müdafiə edir. Təhsil aldığı dövrdə Angela Merkel Azad Alman Gəncləri Birliyinin fəaliyyətində də aktiv iştirak edirdi.



İlmenau Ali Texniki Məktəbindən işlə təminedilmə istəyinə etiraz cavabı alan Merkellər paytaxta köçürlər. O, Berlinin Adlersxof rayonunda yerləşən ADR Elmlər Akademiyası ya-



nında Mərkəzi Fiziki Kimya İnstitutunda işləməyə başlayır.

1981-ci ildə Angela Merkel həyat yoldaşından ayrılır. Övlad sahibi olmayan bu cütlüyün boşanması 1982-ci ildə rəsmiləşir. Ailə həyatı ilə bağlı o deyirdi: ***"Biz evləndik ona görə ki, hamı evlənirdi. Bu gün bu qəribə səslənə bilər, amma mən nikaha ciddi ehtiyac olmadığı halda girdim. Mən səhv etmişdim".***

1984-cü ildə Angela Merkel indiki həyat yoldaşı **İoaxim Zauerlə** tanış olur. Onlar 1998-ci ildə evlənirlər. Onların övladı olmasa da Angela Merkelin həyat yoldaşının əvvəlki evliliyindən iki övladı var.

Mərkəzi İnstitutun 650 nəfərlik ştatının 350 nəfəri alimlərdən ibarət idi. Angela Merkel nəzəri kimya şöbəsində çalışırdı. 8 yanvar 1986-cı ildə o, "Adi əlaqə kəsintisi ilə dağılma reaksiyasının mexanizminin tədqiqi və onun dəyişməyən sürətinin kimyəvi-kvant və statistik metodlar əsasında hesablanması" mövzusunda dissertasiya müdafiə etdi. Onun elmi rəhbəri Mərkəzi İnstitutda nəzəri kimya bölməsinin rəhbəri **Luts Tsülikke** idi. Angela Merkel təbii elmlər doktoru dərəcəsini aldıqdan sonra Klaus Ulbrixtin rəhbərlik etdiyi analitik kimya bölməsinə keçdi.

İşi ilə yanaşı, Angela Merkel ölkənin siyasi həyatında da fəal iştirak edirdi. Angela Merkel Azad Alman Gəncləri Birliyi rayon komitəsinin üzvü, təbliğat və təşviqat üzrə katib idi. Fəaliyyətinin bu sahəsini o, maarifçi-mədəni iş hesab edir və 1992-ci ildə verdiyi bir müsahibədə dediyi kimi, bu işi çox xoşlayırdı. Angela Merkel nə Almaniya Vahid Sosialist Partiyasının, nə də ADR-in demokratik blokuna daxil olan heç bir partiyaya üzv olmadı, müxalifət hərəkatında





iştirak etmədi. Lakin 1989-cu ildə Berlin divarı uçuruldıqdan sonra, Merkel demokratiyanın inkişafı hərəkatında fəal iştirak etdi və "Demokratik Oyanış" Partiyasına qoşuldu.

## "Demokratik Oyanış" Partiyası



1989-cu ilin payızında, Berlin divarının uçurulmasından sonra baş verən radikal dəyişikliklərin zəminində məlum oldu ki, bir tərəfdən ADR-də yeni demokratik partiyaların yaranması prosesi başlayır, digər tərəfdən ADR Elmlər Akademiyası bu şəkildə fəaliyyətini dayandırmalıdır. (Akademiya rəsmi olaraq, 31 dekabr 1991-ci ildə bağlanmışdır.) Bu zaman, Angela Merkel yeni yaradılan "Demokratik Oyanış" Partiyasında işə başlayır: 1989-cu ilin dekabrından müvəqqəti EHM administratoru, 1990-cı ilin fevralından etibarən partiyanın sədri Volfhanq Şnurun ştatında referent kimi çalışır. Bir müddətdən sonra ona partiya vərəqələrinin hazırlanması həvalə edilir, ardınca o, mətbuat katibi vəzifəsini tutur.

Angela Merkelin bioqrafı Gerd Lanqqut yazır ki, dostları və tanışları onun 70-80-ci illərdə Xristian Demokratik Birliyində siyasi karyera qurmasına təəccübləndilər, çünki Merkel baxışlarına görə "yaşıllar"a daha yaxın idi. Almaniyanın birləşməsindən sonra Angela Merkelin anası Almaniya Sosial Demokrat Partiyasında fəal iştirak edir, atası Horst Kasner də XDB-nə o qədər də böyük simpatiya ilə yanaşmırdı.

Bununla belə, gənc "Demokratik Oyanış" Partiyasının siyasi kur-



su bir neçə dəfə dəyişdi. Əvvəlcə onu "Yeni forum", "Bugünkü demokratiya" adlı başqa vətəndaş hərəkatları kimi solçulara aid etdilər, lakin az sonra partiya sosializm ideyasından açıq-aşkar imtina etdi. 1990-cı illərin əvvəllərində Qərbi Almaniyanın mühafizəkar siyasətçiləri ADR-in Xalq Palatasına 18 mart 1990-cı ildə keçiriləcək seçki kampaniyasında iştirak etdilər. XDB-nin Baş katibi Folker Ryue 5 fevral 1990-cı ildə yaratdığı "Almaniya Uğrunda İttifaq"a rəhbərlik etdi. Yeni vətəndaş hərəkatında "Demokratik Oyanış" önəmli rol oynadı: XDB-nin sədri və Federal Kansler Helmut Kol seçkiqabağı mübarizədə ümidlərini ADR demokratik blokundan yalnız XDB və XSB-yə yaxın olan Alman Sosialist İttifaqına bağlamamağı qərarlaşdırdı.

Parlament seçkilərindən bir neçə gün sonra partiya sədri Volfhanq Şnurun ADR Təhlükəsizlik Nazirliyi ilə əməkdaşlıq etdiyi bəlli olduğunda "Demokratik Oyanış"ın nüfuzu aşağı düşdü. Angela Merkel partiya rəhbərliyinin baş verənlərə qiymət verməsi məqsədilə mətbuat konfransı keçirdi və orada dedi: "Partiya üçün ən məsuliyyətli dönəm və danışan Angela Merkeldir!"

## "Almaniya Uğrunda İttifaq"

Xalq Palatasına 18 mart 1990-cı ildə keçirilən ilk azad seçki Angela Merkelin partiyasının məğlubiyyəti ilə başa çatdı: partiya səslərin cəmi 0.9%-ni toplamışdı. Lakin seçkiqabağı blokda təmsil olunan Şərqi Almaniyanın XDB-nin gözlənilməz nəticə nümayiş etdirməsi - 41% səs toplaması ilə "Almaniya Uğrunda İttifaq" seçkilərdə qalib oldu. Bu partiyanın siyahıda birinci nümayəndəsi Lotar de Mezyer, "Almaniya Uğrunda İttifaq" - sosial-demokratlar və liberallardan təşkil olunmuş koalisiya yaratdı. 12 apreldə Lotar de Mezyer ADR-in





Nazirlər kabinetinin sədri seçildi. Seçkiqabağı koalisiyanın üzvləri arasında aparılan vəzifə bölgüsü nəticəsində Angela Merkel ilk və son azad seçki əsasında seçilmiş ADR hökumətinin mətbuat katibinin müavini vəzifəsini tutdu. Bu seçki ADR üçün son seçki olsa da, tutduğu vəzifə xanım Merkel üçün bir başlanğıc idi...

Parlamentə seçkilərdən bir neçə həftə sonra ADR-in qaynar siyasi həyatında Almaniyanın birləşməsi kimi yeni bir məsələ gündəmə gəldi. Valyuta, iqtisadi və sosial ittifaqın yaradılması haqqında dövlət müqaviləsinin imzalanması hazırlıqları çərçivəsində 18 may 1990-cı ildə Bonnda keçirilən ilkin danışıqlarda Angela Merkel də iştirak etdi. Danışıqlarda ADR tərəfini Nazirlər Sovetinin sədri yanında parlamentin Baş katibi, Merkelə siyasi karyerasında irəliləmək üçün yardımçı olan Günter Krauze təmsil edirdi. 31 avqust 1990-cı ildə Krauze və AFR Daxili İşlər naziri Volfhanq Şoyble AFR və ADR-in birləşdirilməsi haqqında müqavilə imzaladılar.



Hökumətin mətbuat katibinin müavini kimi Angela Merkel Lotar de Mezyeri xarici səfərlərində müşayiət edirdi. O, Almaniyada vəziyyətin nizama salınmasına dair son tədbirlər haqqında müqavilənin ("İki üstəgəl dörd" müqaviləsi) bağlanmasında da iştirak etdi. Bu vaxtdan etibarən birləşmiş Almaniyanın siyasi həyatının başlanğıcının əsas tarixi məlum oldu: Bundestaqa ilk ortaq seçkilər 2 dekabr 1990-cı ilə təyin edildi.



## XDB-yə keçid

"Demokratik Oyanış" üçün Xalq Palatasına 1990-cı ilin martında uğursuz keçən seçkilər və növbəti aylarda yaranan durum, partiyanın XDB ilə yaxınlaşmasına səbəb oldu. 4 avqust 1990-cı ildə partiyanın növbədənkənar qurultayı Şərqi Almaniyanın eyni adlı partiyası ilə birləşməsindən sonra Qərbi Almaniyanın XDB-nin tərkibinə qatılmaq qərarını səs çoxluğu ilə qəbul etdi. Merkel 1990-cı ilin oktyabr ayının ilk iki günündə Hamburqda keçirilən XDB-nin birləşmiş qurultayında "Demokratik Oyanış"ı təmsil edən üç nümayəndədən biri idi. Qurultaydakı çıxışında Merkel özünü "Demokratik Oyanış"ın sabiq mətbuat katibi və Mezyer hökumətinin əməkdaşı kimi təqdim etdi. Angela Merkelin təşəbbüsü ilə XDB-nin həmin 38-ci qurultayı ərəfəsində onun XDB sədri ilə və Almaniyanın Federal Kansleri Helmut Kolla ilk şəxsi söhbəti baş tutdu.

Angela Merkelin ADR hökumətinin mətbuat katibinin müavini kimi fəaliyyəti 3 oktyabr 1990-cı ildə, Almaniyanın birləşdirildiyi gün başa çatdı. Merkel AFR Federal Mətbuat və İnformasiya İdarəsində nazir müşaviri vəzifəsinə təyin edildi.

Merkelin 12 il çalışdığı instituta qayıtması qeyri-mümkün idi. Belə ki, Almaniyanın birləşdirilməsi haqqında sazişdə ADR Elmlər Akademiyasının bağlanacağı bildirilmişdi. Federal Mətbuat və İnformasiya İdarəsində işlə təmin edilən Angela Merkel, Bundestaqın deputatı olmaq qərarına gəldi. Yeni federativ ərazi olan Meklenburq - Ön Pomeraniyada XDB bölməsinə rəhbərlik edən Günter Krauzenin vasitəçiliyi ilə, Merkel Ştralzund-Ryuqen- Quzey Ön Pomeraniya Seçki Dairəsindən Bundestaq deputatlığına "birmandatlı" namizəd oldu və eyni vaxtda partiya siyahısında altıncı xanada yer aldı.





## Qadın və Gənclərin Problemləri üzrə Federal nazir

2 dekabr 1990-cı ildə Bundestaqa ilk ümumalman seçkilərində Angela Merkel öz seçki dairəsindən səslərin 48,5%-ni topladı. Yeni çağırış Bundestaqın 20 dekabr 1990-cı ildə keçirilən ilk (təsis) iclasında Angela Merkel deputat mandatını aldı.

Seçkilərdə qələbə qazanan Helmut Kolla növbəti görüşdən sonra 1990-cı ilin noyabrında Angela Merkel Bonna Federal Kanslerin ofisinə dəvət edildi və o, Helmut Kolun dördüncü kabinetində nazir vəzifəsinə irəli sürüldü. Ləğv edilmiş gənclər, qadınlar, ailə və səhiyyə üzrə federal nazirlik üç yerə ayrılmışdı: Federal Səhiyyə Nazirliyi (Gerda Hasselfeldt), Ailə və Yaşlıların Problemləri üzrə Federal İdarə (Hannelore Rönş) və Qadın və Gənclərin Problemləri üzrə Federal İdarə. O qədər böyük olmayan, dar səlahiyyətə malik nazirliyə rəhbərlik 18 yanvar 1991-ci ildə nazir andı içən Angela Merkelə həvalə edildi.

Keçmiş ADR vətəndaşı Angela Merkel Qərbi Almaniyanın başqa yüksək rütbəli siyasətçiləri kimi XDB-də ictimai iş təcrübəsinə malik deyildi. Angela Merkelin partiya pillələri ilə sürətlə yüksəlməsi Federal Kanslerin himayədarlığı sayəsində mümkün oldu. O zamanlar onu tez-tez ***"Kolun qızı"*** adlandırırdılar. Merkelin partiyadaxili rəqibləri özlərinin ardıcıl karyerasını qurduqları vaxt, onun XDB daxilində hələ ki,






sözü keçmirdi. Vəziyyəti dəyişmək üçün o, 1991-ci ilin noyabrında, Brandenburqda XDB sədrliyi uğrunda keçirilən seçkilərdə namizədliyini irəli sürdü, lakin Ulf Finkə məğlub oldu. Nəhayət, 1991-ci ilin dekabrında XDB-nin Drezdendə keçirilən federal qurultayında Merkel XDB sədrinin müavini seçildi və bu postda **Lotar de Mezyeri** əvəz etdi. Lotar de Mezyer vəzifəsini tərk etdikdən və Federal Nəqliyyat naziri Günter Krauzenin avtobanda avtodayanacaq tikintisinə qeyri-qanuni lisenziya verməsi ilə bağlı yaranan qalmaqaldan sonra Angela Merkel XDB-də qalan ADR-li azsaylı deputatlardan idi ki, ləkələnməmiş "özkeçmiş"ə malik idi. 1993-cü ilin mayında Günter Krauzenin istefaya getməsi Angela Merkelə partiyada öz mövqeyini möhkəmlətmək üçün şərait yaratdı. Bu fürsəti dəyərləndirən **Merkel 1993-cü ilin iyununda Meklenburq - Ön Pomeraniyada XDB rəhbərliyinə keçdi.**

## Ətraf Mühitin Mühafizəsi üzrə Federal nazir

16 oktyabr 1994-cü ildə keçirilən növbəti Bundestaq seçkilərindən sonra Angela Merkel Helmut Kol hökumətində Ətraf Mühitin, Təbiətin Mühafizəsi və Nüvə Təhlükəsizliyi Federal naziri vəzifəsinə təyin edildi. Birmandatlı seçki dairəsində o, seçicilərin səslərinin 48,6%-ni toplamışdı. Kolun kabinetində ən gənc nazir olduğu üçün cənab Kol ona "Balaca qız" deyə müraciət edirdi.





Mühafizə nazirliyində onun sələfi XDB hüdudlarından kənarda da kifayət qədər tanınmış siyasətçi **Klaus Töpfer** olmuşdu. Lakin onun ətraf mühitin mühafizəsinə dair baxışları partiyanın iqtisadi qanadında, özəlliklə, XDB-nin koalisiyada tərəfdaşı olan Azad Demokratiya Partiyasının üzvləri tərəfindən etirazla qarşılandı. Beləliklə, onun vəzifəsini 17 noyabr 1994-cü ildən etibarən Angela Merkel icra etməyə başladı. (Töpferin Regional Planlaşdırma, İnşaat və Şəhər İnkişafı Federal naziri kimi yeni təyinatını isə ictimaiyyət onun siyasi məğlubiyyəti hesab etdi.)

* * *

1998-ci il 27 sentyabrda keçirilən Bundestaq seçkiləri XDB/XSB bloku və onun federal kanslerliyə namizədi Helmut Kol üçün uğursuzluqla nəticələndi. Partiya bloku seçkilərdə 1949-cu ildən bəri ən pis nəticəni göstərdi: ilk dəfə olaraq mövcud hökumət yeni müddətə səlahiyyət əldə edə bilmədi. Angela Merkelin birmandatlı dairədə göstəricisi 11 bənd aşağı düşdü və 37,3% səsdən ibarət oldu.



Helmut Kol zamanında "əbədi vəliəhd" **Volfhanq Şoyble** 1996-1997-ci illərdən etibarən dəfələrlə "namizəd" məsələsini qaldırmışdı: parlament seçkilərində federal kanslerliyə XDB-nin namizədi kim olacaq? Lakin Şoyble "Əbədi Kansler" Helmut Kola qarşı çıxa bilməzdi. Hələ namizəd seçimindən öncə Şoyblenin müsahibələrinin birində Kolun namizədliyinin tənqid olunduğu sezilirdi. Seçkidə









məğlubiyyətdən sonra XDB-nin Bonnda 7 noyabr 1998-ci ildə keçirilən federal qurultayında Şoyble, nəhayət, XDB sədri seçildi. Şoyblenin təklifi ilə Angela Merkel XDB-nin Baş katibi vəzifəsinə - artıq müxalifətdə dayanan partiyada məsul bir mövqeyə təyin edildi. **Helmut Kol** partiyanın fəxri sədri oldu, həmçinin XDB Rəyasət Heyətinə və partiyanın federal idarəsinə seçildi.

Merkel XDB-nin Baş katibi təyin olunduqdan sonrakı dönəmdə XDB-nin nüfuzu artmağa başladı. Növbəti aylar XDB yerli seçkilərdə daha uğurlu nəticələr əldə etdi, 1999-cu ilin iyununda Avropa Parlamentinə keçirilən seçkilərdə isə XSB ilə bir blokda 48,7% (1994-cü ildə 38,4%) səs topladı. Bu da XDB Baş katibi Angela Merkelin ictimai və partiyadaxili mövqelərini daha da möhkəmlətdi.

1999-cu ilin noyabrında XDB-nin qeyri-qanuni maliyyələşməsi xəbəri ilə bağlı qalmaqal yarandı. Helmut Kolun 16 dekabr 1999-cu ildə ZDF telekanalına verdiyi müsahibədən sonra bəlli oldu ki, AFR "Siyasi partiyalar haqqında" qanununa zidd olaraq, sabiq Federal Kansler və XDB-nin fəxri sədri, partiya üçün dəyəri milyonlarla hesablanan maliyyə vəsaiti alırmış. Helmut Kol onlara söz verdiyini bəhanə gətirərək, sponsorların adını çəkməkdən imtina etdi. 22 dekabr 1999-cu ildə Baş katib Angela Merkelin "Frankfurter Allgemeine Zeitung" qəzetində dərc etdirdiyi məqaləsində o, Helmut Kolun davranışlarını pislədi və partiya üzvlərini "köhnə qvardiya" ilə bütün əlaqələri kəsməyə çağırdı: ***"Partiya öz müstəqil addımlarını atmalı, sübut etməlidir ki, "yaşlı köhlən at" (Helmut Kol özünü tez-tez belə adlandırırdı) olmadan da rəqibləri ilə mübarizəsini davam etdirə bilir. Bir***





***yeniyetmə kimi o (partiya) valideyn himayəsindən ayrılmalı və öz yolu ilə getməlidir".***

18 yanvar 2000-ci ildə XDB Federal İdarəsi və Rəyasət Heyəti Helmut Koldan sponsorların adları bəlli olana qədər partiyanın fəxri sədrinin səlahiyyətlərinin icrasını dayandırmasını tələb etdi. Kol partiyanın fəxri sədri vəzifəsindən istefa verdi. Eyni vaxtda o, partiyanın sədri Volfhanq Şoyble ilə tədricən ictimai məsələyə çevrilən qızğın müzakirələrə başladı. Qalmaqalın zərbəsi Şoybleyə də dəydi. 10 yanvar 2000-ci ildə ARD kanalına verdiyi müsahibəsində Şoyble etiraf etdi ki, hərbi-sənaye lobbisi adından Karlxaynts Şnayberdən maliyyə vəsaiti qəbul etmişdir. Lakin bir ay əvvəl, 2 dekabr 1999-cu ildə keçirilən Bundestaq toplantısında o, bu fakta etirazını bildirmişdi. XDB xəzinədarı Brigitta Baumaysterin həmin faktın təfərrüatları haqqında deyilənlərə zidd ifadəsindən sonra, Volfhanq Şoyble partiya rəhbəri vəzifəsində qala bilməzdi. O, partiya və fraksiyanın sədrliyindən istefa verdiyini açıqladı.

16 fevral 2000-ci ildə Volfhanq Şoyble XDB/XSB parlament fraksiyalarında fraksiya lideri və partiya sədrliyi vəzifəsindən istefa verdiyini açıqladı. Partiya bir neçə həftə rəhbərsiz qaldı, Angela Merkel Baş katib kimi partiyada əsas söz sahibi oldu. Bu ərəfədə partiya 9 regional konfrans keçirdi. Konfranslarda maliyyə qalmaqalının nəticələri və onların aradan qaldırılması yolları sıravi partiya üzvləri ilə müzakirə edildi. Məhz bu yerli partiya iclaslarında Merkelin partiya sədrliyinə namizədliyini dəstəkləyən qüvvələr birləşdi. Angela Merkelin bəxti gətirmişdi: ictimaiyyətin və partiya üzvlərinin nəzərində o, ən təmiz adam idi.



XDB-nin 10 aprel 2000-ci ildə Essendə keçirilən federal partiya qurultayında




935 nümayəndədən 897-si Angela Merkelin sədr seçilməsinin lehinə səs verdi. Baş katib vəzifəsinə isə Ruprext Polents gətirildi. XDB/XSB parlament fraksiyasına Fridrix Merts rəhbərlik etdi.

2000-ci il aprelin 10-da Angela Merkel partiyasının ilk qadın sədri oldu! Onun partiyaya sədr seçilməsi bəzi müşahidəçiləri təəccübləndirdi. Belə ki, Merkel Quzey Almaniyadan olan protestant qadın idi, ancaq partiyanın əksəriyyətini sosial cəhətdən mühafizəkar olan kişilər təşkil edirdi, əsas tərəfdarları isə Qərbi və Güney Almaniyadan olan katoliklər idi...



Bu onun böyük qələbəsi idi. Artıq hər kəs onun uğurlu bir siyasətçi və lider olduğunu qəbul edirdi. Və partiyanın əksər üzvləri məhz bu qadının - Angela Merkelin rəhbərliyi altında partiyanın iqtidara gələ biləcəyinə və uğur qazanacağına əmin idilər və onun namizədliyinə səs vermişdilər. Bu uğura gələn yol asan keçməmişdi, böyük zəhmətlər, əziyyətlər, çətinliklər, sınaqlar... Amma o, bunların hamısından qalib kimi çıxmışdı və bununla da hər kəsə bir qadının Almaniyaya heç də kişilərdən pis deyil, hətta daha yaxşı rəhbərlik edə biləcəyini göstərirdi. Artıq onun bir siyasətçi, bir lider kimi uğurları, qabiliyyəti, peşəkarlığı ölkəsinin siyasi həyatında aktiv rol oynayan əksər kişilər tərəfindən etiraf, təsdiq edilirdi.

Yeni təyin olunmuş bu rəhbər üçlüyün çətin sınaqları iyulun 14-dən başladı. Baxmayaraq ki, qırmızı-yaşılların federal hökuməti (Almaniya Sosial-Demokrat partiyası-"yaşıllar") Bundestaqda çoxluq təşkil etmirdi, vergi islahatları layihəsinin səsverməsində onlar hökumətləri XDB-nin iştirakı ilə qurulan bir sıra federal əraziləri öz tərəflərinə çəkməyə nail oldular. Və hadisələri diqqətlə izləyən Merkel, artıq 2000-ci ilin noyabrında mülayim xislətli (mətbuat onu belə adlandırırdı) Ruprext Polentsi vəzifəsindən uzaqlaşdırmalı oldu, daha sərt təbiəti ilə tanınan Laurents Mayer onu əvəz etdi.





## Xristian Demokrat Birliyinin sədri!

2000-ci və 2001-ci illər seçkiləri Xristian-Demokratik Birliyinə böyük qələbələr gətirmədi. Qırmızı-yaşıllar hökuməti hakimiyyətdə öz mövqelərini möhkəmlətdi və müxalifətə heç bir fürsət vermədi. Bundan sonra 2002-ci ildə Bundestaq seçkilərindən öncə siyasi mübarizə başlandı. Öncə, 2001-ci ilin fevralında Fridrix Merts Federal Kansler vəzifəsinə namizədliyini irəli sürməklə məsələni kütləvi informasiya vasitələri ilə müzakirəyə çıxartdı. Angela Merkelin namizədliyini irəli sürməyə hazırlığı hamıya bəlli idi. Lakin o, partiyanın yüksək dairələrində lazımi səviyyədə dəstəklənmirdi, federal ərazilərin nazirləri və partiya bölmələrinin rəhbərləri kimi bir çox XDB üzvləri Bavariyanın Baş naziri və XSB-nin sədri Edmund Ştoyberə üstünlük verirdilər. Partiyanın 2001-ci ilin dekabrında Drezdendə keçirilən qurultayı namizədin müəyyən edilməsinə dair son qərarın qəbul edilməsini XDB Rəyasət Heyəti və Federal İdarəsinin Maqdeburqda keçirilən 11 yanvar 2002-ci il tarixli iclasına qədər təxirə saldı. Angela Merkel Ştoyberin yolunu kəsməməyi qərarlaşdırdı və yanvarın 11-i Bavariyada baş









tutan "Volfsrathauzen yeməyi" adlandırılan görüşdə onun xeyrinə namizədliyini geri götürdüyünü bildirdi. Merkel həmin addımı atmalı idi, bu, seçkilərdə labüd olan məğlubiyyətdən dolayı etimadsızlıqdan və yeni raundda partiya sədrliyinə namizədi müzakirə etməkdən qaçmaq üçün zəruri idi.

22 sentyabr 2002-ci il Bundestaq seçkilərini az səs fərqi ilə Herhard Şröder və Yoşka Fişerin rəhbərliyi ilə Almaniya Sosial Demokrat partiyası və Yaşıllar qazandı. Angela Merkel Ştoyberin məğlubiyyətinə tolerantlıqla yanaşdı. Şröderin qələbəsində 2002-ci ildə Elbada baş verən dəhşətli sel fəlakətinə hökumətin ildırım sürəti ilə münasibət bildirməsinin, daha güclü amil kimi İraq müharibəsinə kəskin reaksiyasının rolu oldu. Federal hökumətin qəti şəkildə "yox" cavabından fərqli olaraq, Angela Merkel Corc Buşun hərbi əməliyyatlar kursunu dəstəklədi.

## Müxalifətin xanım lideri

Bundestaq seçkilərində məğlub olan Angela Merkel Herhard Şröder hökumətinə qarşı çıxmağı qərara alaraq, Fridrix Mertsin yerinə XDB/XSB parlament fraksiyalarına rəhbərlik etmək istəyirdi. Mertsin öz mövqeyini əlindən buraxmaq fikri yox idi, buna görə də çıxışında Merkeli tənqid etdi. XDB Rəyasət Heyətinin həlledici iclasında Ştoyber də səsini Merkelə verdi. Merkellə Mertsin münasibətləri partiyadaxili rəqabətə əsaslanan münaqişələrlə müşayiət olunurdu. 2002-ci il 11-12 noyabrda XDB-nin Hannoverdə keçirilən federal qurultayında Angela Merkel partiya sədrliyinə yenidən seçildi. 796 səsdən 746-sı Merkelin lehinə verilmişdi. Bununla da Angela Merkel Bundestaqda müxalifətin lideri oldu!





Merkel Almaniyanın sosial-iqtisadi sistemi üçün vacib olan islahatlar gündəliyini dəstəkləyir və bəziləri partiyasının xəttinə uyğun görməsə də bazar yönümlü çıxışlar edirdi. O, Alman Əmək Qanununda işçilərin işdən çıxarılması və həftə ərzində iş saatlarının artırılmasının aradan qaldırılmasına yönəldilmiş dəyişiklikləri dəstəkləyirdi. Bunu həmin qanunların ölkədə rəqabəti aşağı salması və kampaniyaların əmək xərclərini lazımınca dəyərləndirə bilməməsi ilə əlaqələndirirdi.

O, Almaniyanın nüvə gücünün azaldılması mərhələsinin, Şröderdən fərqli olaraq, daha yavaş həyata keçirilməsini dəstəkləyirdi. Merkel güclü Transatlantika əməkdaşlığını və Alman-Amerikan dostluğunu dəstəkləyirdi. 2003-cü ildə o, Amerikanın İraqa hücumunu dəstəkləyərək, bunun qaçılmaz olduğunu deyir və Şröderi antiamerikançılıqda günahlandırırdı. Elə bu açıqlamalarına görə ona müxalif olan bəziləri onu "Amerikanın xidmətçisi" adlandırırdı. O isə dövlətinin maraqlarını hər şeydən üstün tutduğunu vurğulayırdı. Təəssüf ki, o, vaxtı ilə Almaniya hökumətinin Türkiyənin Avropa Birliyinə daxil olmasına dəstək verməsini tənqid edir (başqa sözlə, buna qarşı olanlarla həmrəylik nümayiş etdirir) və Türkiyənin Birliyə üzvlüyünün yalnız özəl bir statusla gerçəkləşə biləcəyini söyləyirdi. Onun bu fikirləri Türkiyə rəsmiləri və bu ölkədə yaşayan 3 milyon Türk tərəfindən ciddi etirazla qaşılanmışdı. (Həmçinin onun Almaniyanın daxili vəziyyəti və müsəlmanların cəmiyyətə inteqrasiyası məsələsinə münasibətində: *"Mültiməd əni cəmiyyət uğursuzluğa düçar olub"* ifadəsi də qarşı tərəfin ciddi etirazları ilə mü-









şayiət olundu. Amma o, bununla yanaşı, prezident Vulfun İslamın da xristianlıq və iudaizm kimi Avropanın bir hissəsi olması barədə fikirlərini dəstəkləyir və bildirir ki, immiqrantlar Almaniya cəmiyyətinə inteqrasiya etməyə, xüsusilə, alman dilinin öyrənilməsinə daha böyük səy göstərməlidirlər. Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın Almaniyada yaşayan türklərin ana dillərini öyrənmələri üçün Türk liseylərinin qurulmasının vacibliyi ilə bağlı fikirləri bu ölkənin bəzi siyasi dairələri, o cümlədən, onun tərəfindən isti qarşılanmamışdı. Onlar bunun türk kökənli gənclərin öz keçmişləri ilə daha çox ilgilənməsinə səbəb olacağı və erkən yaşda almanca öyrənmələrini əngəlləyəcəyini iddia edərək müsbət yanaşmamışdılar. Bu ölkədə yaşayan Türklər və Türkiyə hökuməti isə bu cür yanaşmadan razı qalmadılar və Almaniyada yaşayan türklərin öz ana dillərini öyrənilməsi imkanlarının yaradılmasının onların Almaniya cəmiyyətinə inteqrasiyasına heç bir əngəl təşkil etməyəcəyini vurğuladılar...)

2003-cü il, XDB və onun sədri üçün Hessen və Aşağı Saksoniyada keçirilən parlament seçkilərindəki qələbə ilə əlamətdar oldu. XDB-nin Bundesratda möhkəmlənməsi, müxalifəti təmsil etməsinə rəğmən, Angela Merkelə ölkənin idarə edilməsində çıxış etmək imkanı qazandırdı. XDB hökumətin sosial sistemin və əmək bazarının islahatlarına yönəlmiş "2010 Fəaliyyət Proqramı"nı dəstəklədi, razılaşdırma komissiyasında bir sıra əlavə tələblər irəli sürərək, Bundestaqda və Bundesratda qanunlara dəyişikliklər edilməsinə səs verdi. Həmçinin partiya səhiyyə islahatlarının və əmək bazarında çağdaş xidmət haqqında Dördüncü qanunun layihəsinin işlənib hazırlanmasında iştirak etdi.

2004-cü ildə fevral 6-da kansler Herhard Şröder Sosial-Demokrat Partiyası liderliyindən istefa verdi və onun yerini Frans Münteferinq





tutdu. Elə həmin ay XDB Hamburqda parlament seçkilərində qələbə qazandı. 2004-cü ildə prezident Yohannes Rayın prezidentlik səlahiyyəti müddəti başa çatdı. XDB və XSB-nin dəstəyinə ümid edən Volfhanq Şoyble prezidentliyə namizədliyini irəli sürdü. Angela Merkelin partiyadaxili rəqibləri **Roland Koks** və **Fridrix Merts**, eləcə də XSB lideri **Edmund Ştroyber** onun namizədliyini dəstəklədi. Xanım Merkelin dəstəklədiyi namizəd isə Horst Köler idi. Onun 2004-cü ilin 23 mayında Federal Məclisdə seçkilərdə qələbəsi Angela Merkelin gələcək mövqelərini də gücləndirdi.

2005-ci ilin mayın 22-də Şimali Reyn-Vestfaliya ərazisində keçirilən seçkilər Almaniya Sosial-Demokrat Partiyasının böyük məğlubiyyəti 2003-2004-cü illərdə yaşadıqları seçki məğlubiyyətləri seriyasının son mərhələsi oldu. Seçki məntəqələrinin bağlanmasından yarım saat sonra partiyanın lideri Frans Münteferinq, ondan sonra isə kansler Herhard Şroder 2005-ci ilin payızında Bundestaqa növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı niyyətlərini açıqladılar.

Mayın 30-da XDB və XSB Rəyasət Heyətlərinin birgə iclasında







Angela Merkel bu partiyalardan federal kanslerliyə namizəd seçildi. 18 sentyabr 2005-ci ildə Bundestaqa vaxtından qabaq keçirilən seçkilərdə Angela Merkelin rəhbərliyi ilə XDB/XSB bloku SDP-ya verilmiş 34,2% səsə qarşı 35,2% səs topladı.

Drezdendə Sosial-Demokrat Partiyası ilə aparılan danışıqlarda koalisiya yaratmaq barədə razılıq əldə edildi. Oktyabrın 10-u SDP, XDB və XSB arasında 16-cı çağırış Bundestaqında Angela Merkelin AFR Federal Kansleri vəzifəsinə seçilməsinə dair əldə edilmiş razılaşma mətbuatda dərc edildi!

22 noyabr 2005-ci ildə Angela Merkel 16-cı çağırış Bundestaqın 611 deputatından 397-nin səsini alaraq, AFR Federal Kansleri vəzifəsinə seçildi! O, AFR tarixində ilk xanım və ən gənc Kansler oldu! Merkel yeni federal ərazidən seçilən ilk Kansler olmaqla yanaşı, həm də təbiət elmləri üzrə təhsilə malik ilk hökumət rəhbəriydi.

Qadınların çoxu Angela Merkelin Federal Kansler seçilməsini onun şəxsi qələbəsi hesab edirlər. Görünüşcə Merkel orta təbəqəyə aid olan alman vətəndaşını xatırladır. Onun cazibəsinin sirri məhz bundadır. Həmçinin ambisiyası, ayıq-sayıqlığı və zəhmətsevərliyi bu xanımı bir çoxlarından fərqləndirir.

Onu da vurğulayaq ki, Merkel hökumət başçılığına namizəd olmasının ardından saç modelindən tutmuş geyiminə qədər (daha əlvan geyinməsi ilə) böyük bir imic dəyişikliyi etdi, o cümlədən, seçim kampaniyası boyunca sıx-sıx əfsanəvi rok-qrup "The Rolling Stones"un "Angie" adlı parçasının çalınmasını uyğun gördü.

2006-cı ilin martında Angela Merkel səlahiyyət müddətinin ikinci hissəsi üçün 8 bəndlik fəaliyyət proqramını irəli sürdü. Buraya federativ sistemin islahatları, bürokratiya ilə mübarizə, elmi tədqiqatlar, enerji siyasəti, büdcə və maliyyə siyasəti, ailə, əmək bazarı və səhiyyə sahəsində islahatlar daxil idi. Xüsusilə, səhiyyə xidmətində isla-





hatlar və gələcək enerji təhlükəsizliyi ilə bağlı məsələlərin onun üçün prioritet təşkil etdiyi qənaəti hasil olmuşdur.

Onun geniş fəaliyyəti ölkə əhalisi tərəfindən dəstəkləndi, beynəlxalq sahədə fəaliyyəti ilə isə dünyanın əsas diqqət mərkəzində olan simalarından birinə çevrildi.

Nüfuzlu "Forbes" dərgisinin dünyanın "100 ən güclü qadın"ı siyahısına 2006, 2007, 2008 və 2009-cu illərdə məhz o liderlik edir! "Taym" jurnalı da onu 2006-2007-ci illərdə dünyanın 100 ən nüfuzlu şəxsi sırasına daxil edir!

2006-cı ilin 27 noyabrında XDB-nin federal qurultayında Angela Merkel səslərin 93%-ni toplayaraq yenidən partiyanın sədri seçildi.

Müşahidəçilər xanım Kanslerin Yaxın Şərq və İran siyasətini birmənalı qarşılamasalar da, bu siyasət özü birmənalılığı (müəyyənliyi) ilə seçilir. KİV-in verdiyi məlumata görə, Merkel 2006-cı ilin avqustunda İran prezidenti Əhmədinejatdan aldığı məktuba, həmin məktubda "İsrail hökumətinin qərəzli şəkildə tənqid olunduğunu və yəhudilərin yaşamaq hüquqlarının sual altına alındığı"nı nəzərə alaraq, rəsmi cavab verməmişdir. O, eyni zamanda, İranın nüvə proqramına qarşı ən sərt mövqedə dayanan liderlərdən biridir.





2007-ci ilin sentyabrında isə xanım Kansler Berlində Dalay Lama ilə qeyri-rəsmi, təkbətək görüşü keçirildi. Bu görüş dünyada ciddi reaksiya yaratdı və Çin dövləti Almaniya ilə bütün rəsmi danışıqları təxirə saldığını açıqladı. Kanslerin beynəlxalq məsələlər üzrə köməkçii **Xristof Xoysqen** Çinin Almaniyadakı səfirinə ölkəsinin Çinlə münasibətlər və bu ölkənin ərazi bütövlüyü ilə bağlı məsələlərə baxışında və siyasətində dəyişiklik olmadığı barədə vədindən sonra gərginlik azalmağa başladı.






2007-ci ildə Merkel Avropa Birliyi və Böyük səkkizliyin sədri oldu. O, Lissabon müqaviləsinin və Berlin Bəyannaməsinin danışıqlarında fəal rol oynadı.

2007-ci il mayın 16-da İsrail dövlətinin 60-cı ildönümü münasibəti ilə İsrailə gedən Angela Merkeli hava limanında o vaxtkı Baş nazir Ehud Olmert şəxsən özü qarşılamışdı. Bu, İsrail Baş nazirinin hava limanında Corc Buşdan sonra şəxsən qarşıladığı ikinci qonaq idi.

18 mart 2008-ci ildə Angela Merkel İsrail Knessetində ivrit dilində başladığı nitqlə çıxış etdi. O, Almaniyanın İsrail qarşısında tarixi məsuliyyətini vurğuladı. Merkel xarici dövlətlərdən Knessetdə çıxış edən ilk qadın-rəhbər idi.







## Həm oxşar, həm fərqli...

Mərkəz-sağ görüşlü siyasətçi və kimyaçı qadın olan Merkel ingilisdilli mətbuatda Britaniyanın keçmiş Baş naziri **Marqaret Tetçerlə** müqayisə edilirdi. Bəziləri onu "Dəmir Ledi", "Dəmir Qız" və ya "Dəmir Frau" adlandırırdılar. Siyasi şərhçilər hətta onların siyasi gündəliklərindəki oxşarlıqları belə müzakirə edirdilər.



***

27 sentyabr 2009-cu il tarixdə Angela Merkelin Xristian-Demokrat və Xristian Sosialist partiyalarından ibarət bloku seçkilərdə səs çoxluğu qazanaraq Azad Demokratlarla yeni koalisiya yaratdı və onun başçılıq etdiyi yeni hökumət 2009-cu il oktyabrın 28-də öz işinə başladı. Bu seçkilərin ən önəmli sonucu o oldu ki, Angela Merkel artıq sosialistlər olmadan da koalisya yaratmaq imkanı əldə etdi. (Sosial-demokratlar bu seçkilərdə səslərin 23 faizini toplayaraq II Dünya müharibəsindən bu yana ən pis nəticələrini göstərdilər.) "Biz heyrətamiz nəticə göstərmişik" - deyə sevincini bölüşən Merkel, seçkinin ilkin nəticələri bəlli olarkən söyləyirdi: "Biz məqsədimizə çatmışıq. Biz Almaniyada Xristian Demokratlardan və Azad Demokratlardan ibarət yeni sabit hökumət yaratmaq imkanı əldə etmişik".

Alman iqtisadiyyatını inkişaf etdirmək, böyüyən işsizlik səviyyəsini azaltmaq, xarici siyasətdə ABŞ-la əlaqələri daha da gücləndirmək istəyən xanım Kansler Amerika-Almaniya münasibətlərinin inkişafının, Amerika siyasi kursunun tərəfdarı kimi tanınır. O, hələ müxalifətdə olduğu zamana dəfələrlə H.Şröderi V.Putinlə "ifrat" dostluğuna görə tənqid edir və bildirirdi ki, Kansler seçiləcəyi halda Rusiyaya qarşı daha sərt mövqe tutacaq. Bununla belə, Angela Merkelin AFR hökumətinə başçılıq etdiyi müddətdə Almaniya-Rusiya münasibətlərində xüsusi böyük dəyişiklik hələ ki, nəzərə çarpmır.

Angela Merkel keçmiş və hazırkı qadın Prezident və Baş nazirlərin uluslararası şəbəkəsi olan Qadın Dünya Liderləri Şurasının üzvü kimi Şuranın (qadınlar və ədalətli inkişaf üçün vacib olan bir çox məsələlər üzərində kollektiv fəaliyyət aparmaq məqsədilə yüksək səviyyəli qadın liderləri səfərbərliyə almaq) missiyasına uyğun çalışmalarda bulunur.



Angela Merkel ingilis və rus dillərində sərbəst danışır. O, bir sıra elmi məqalələrin və əsərlərin müəllifidir.

Onu ən ciddi narahat edən məsələlərdən biri Avropanın ümumi pul vahidi Avropanın gələcəyidir. Avropadakı iqtisadi-maliyyə böhranı və bundan sonrakı dönəmdə Avro ciddi problemlərlə üzləşmişdi və Merkel açıqlamasında **"Avro layihəsi çökərsə, Avropa layihəsi çökər"** deyərək bu prosesin baş verməməsi üçün ciddi addımların atılması gərəkdiyini vurğulamış və üzv ölkələrdə hər kəsi məsuliyyətə dəvət etmişdi.

Bir sözlə, dünyanın təkcə ən güclü Qadınlarından deyil, ən güclü Liderlərindən biri olan, adını TARİXƏ əbədiyyən yazmağı bacarmış və bu gün də fəaliyyəti və addımları ilə bir TARİXƏ yazmaqda davam edən Angela Merkel həm də arxasınca bir cığır açdı və açmaqda davam edir. Minlərlə qızın yürüyəcəyi bir cığır... Minlərlə gənc qızda, qadında özünə inam hissi yarada biləcək, onlara ***"bunu siz də bacara bilərsiniz, yetər ki, özünüzə inanın"*** - deyə yol göstərən bir cığır...

O, da sadə bir ailədən çıxmışdı, bu yazını oxuyacaq yüzlərlə gənc qızlardan biri kimi .. Keşməkeşli, əziyyət və zəhmətlə dolu bir yol keçmişdi və uğur qazandı. Çünki içərisindəki güc və özünə inam ona doğru yol, uğurun yolunu göstərdi... Və o yol yüzlərlə bu yazını oxuyacaq gənc qıza ***"Sən də bunu bacara bilərsən"*** deyir...

O, fəaliyyəti, addımları və uğurları ilə həm də hər kəsə göstərdi və göstərir ki, qadınlar heç bir sahədə bacarığına, qabiliyyətinə görə kişilərdən geri qalmır, sadəcə uzun zaman ərzində onlara bunu təlqin ediblər. Amma deyəsən o qədər uğur əldə edə bilməyiblər. **Çünki getdikcə Angela Merkel kimi örnəklərin artması əsrlərlə yaradılmış yalançı bir MİFİ darmadağın etməyə başlayıb...**







■ O, sözün əsl anlamında bir möcüzədir. Allah ona insanları maqnit tək özünə çəkmək kimi bir qabiliyyət verib. Onu "televiziya kraliçası" da adlandırmaq olar. 20 ildir ki, mavi ekranların ən çox sevilən siması olma statusunu heç kəslə paylaşmır. ABŞ prezidenti Barak Obamanın seçkilərdəki qələbəsinin əsas səbəbkarları arasında ön sırada durur. "Forbes" dərgisinin yaydığı məlumata görə, o, XX əsrin ən zəngin qaradərili amerikalısı və Maykl Ceksonun ölümündən sonra dünyada tək qaradərili milyarderdir. "Forbes"in yazdığına görə, o, 2,7 milyard dollarlıq bir sərvətin sahibidir. Dərginin hazırladığı "dünyanın ən nüfuzlu 100 qadını" siyahısında isə o, Amerikanın 1-ci xanımı Mişel Obama, Kraft Foods qida məhsulları şirkətinin baş direktoru İren Rozenfelddən sonra 3-cü yerdədir. 25 illik televiziya aparıcısı və media maqnatı son 5 ildə 1,35 milyard dollar qazanıb. O, dünyanın ən nüfuzlu 100 qadını siyahısında ölkəsinin dövlət katibi Hillari Klintonu və Almaniyanın kansleri Angela Merkeli qabaqlayaraq, 3-cü sıraya yüksəlib.

■ Amerikanın "Forbes" jurnalının illik ənənəvi 100 ən böyük təsirə malik şou-biznes nümayəndəsi ilə bağlı reytinq siyahısında 1-ci yeri amerikalı teleaparıcı, milyarder Opra Uinfri tutub. "Forbes"in hesablamalarına görə, son 12 ayda Opra 315 milyon dollar qazanıb. Onun bu uğurunda həyata keçirdiyi media layihələri önəmli rol oynayıb.

■ Qadın haqlarından danışmağı çox sevən və bu istiqamətdə fəal bir xadim olan Opra Amerika Televiziya Akademiyası tərəfindən elan edilən "Emmi" mükafatına layiq görülən ilk şəxs olub. 2007-ci ildə isə o, son 25





ildə dünyanın 25 nüfuzlu şəxsi siyahısına düşüb. Amerikalılar arasında keçirilən "Kim olmaq istərdiniz?" sorğusunda iştirakçı amerikalıların 25%-i məhz onun adını çəkib.

> *"Həyatda ən böyük sirr, əslində böyük bir sirrin olmamağıdır. Məqsədiniz nə olursa-olsun, ona ancaq çalışaraq çata bilərsiniz."*
>
> **Opra Uinfri**

■ Çoxlarının, xüsusilə də televiziya jurnalistlərinin böyük heyranlıq duyduğu bu qadını, milyonların sevimlisi Opra Uinfrinin proqramlarını, xüsusilə, onun bütün dünyada məşhur olan Opra Uinfri Şousunu (The Oprah Winfrey Show), çıxışlarını həmişə böyük maraqla izləmişəm. Məncə, o, böyük uğurlarını SƏMİMİLİYİ və İNSANLARA BÖYÜK SEVGİSİ ilə əldə edib. O, güvən verən baxışları və sözləri, "həyatınızda nəyisə dəyişdirin" çağırışı ilə milyonlarla insanın həyatını, həyata baxışını dəyişməyə müvəffəq oldu. Bu qüdrətli QADIN 20 ildən çoxdur ki, dünyanın ən məşhur qadınlarından biri kimi insanların sevgi ilə danışdığı Opra Uinfridir. Səmimi və xeyirxah Opra!

■ Onun baş rolda oynadığı filmlərə böyük ləzzətlə baxmışam. 1985-ci ildə dünyaca məşhur rejissor Stiven Spilberqin çəkdiyi "Bənövşəyi rəng" (The Color Purple) filmindəki Sofiya rolunu böyük məharətlə oynayan Opranın baş rol aldığı "Qadınlar qanadsız olanda" (1997) (Before Women Had Wings), "Burada uşaq yoxdur" (1993) (The Are No Children Here) , "Bryusterin qadınları" (1989) (The Women of Brewster Place) filmləri dünya kino tarixində özünəməxsus yer tutur. İzləməyənlərə böyük məmnuniyyətlə baxmağı tövsiyə edərdim. Xüsusilə də "Bənövşəyi rəng" (The Color Purple) filmindəki Sofiya rolunda Opranı izləməyə dəyər... Onu uğura aparan yolda ən böyük silahı sözün həqiqi mənasında Səmimiyyətidir! Məşhur "Ya göründüyün kimi OL, Ya da olduğun kimi Görün" ifadəsini məmnuniyyətlə ona şamil et-





mək olar. Olduğu kimi görünməsi və ya göründüyü kimi OLMASI Opranı qısa müddətdə milyonların doğmasına çevirdi!

■ Opra Uinfri sözün əsl anlamında medianın gücüylə dünyanı dəyişdirməyə girişən mələk adlandırıla bilər. Onun müəllifi olduğu "Opra Uinfri Şousu" 20 ildir ki, milyonlarla tamaşaçının sevimli proqramıdır. Şəxsən özünün hazırlayıb təqdim etdiyi, indiyə kimi xeyli ödülə layiq görülən "Opra Uinfri Şousu" ilə reytinqləri alt-üst edərək 20 ildir milyonlarla tamaşaçını əyləndirir, məlumatlandırır; bununla da kifayətlənməyərək, passiv televiziya tamaşaçılarından nəhəng bir xeyriyyə ordusu qurur. Bir media korifeyi, bir xeyriyyəçi olaraq o, adını tarixə yazmış əfsanədir. Onun proqramı Amerika televiziya tarixində ən çox izlənən proqram kimi tarixə düşüb. Onun amerikalılar arasında reytinqi bir çox hallarda hətta prezidentlərdən də yuxarı olur. Amerikalılar bu qadını yalnız sevmirlər, həm də ona güvənirlər. Opra isə uğurunun sirrini bircə cümlə ilə ifadə edir: "İşini mükəmməl səviyyədə yerinə yetir, səmimi ol və gördüyün işdə bir fayda axtar." O, məhz bu prinsipləri ilə adi bir ailədə doğulmasına və çətinliklərlə böyüməsinə baxmayaraq, dünyanın ən ünlü qadınlarından birinə çevrildi. O, bu gün televiziya jurnalistikası başda olmaqla milyonlarla qadının kumirinə çevrilib, milyonlarla qız məhz Opradan örnək götürərək, həyatda uğur qazanmaq üçün addımlar atırlar.







* * *

**Opra Uinfri** 1954-cü ildə orta sinfə mənsub olan cütlüyün nikahdankənar doğulan uşağı kimi dünyaya gəldi. Baptist məzhəbindən bir cütlüyün qızı olan Opranın atası və anası evlənməmişdi. Onun adının da maraqlı tarixçəsi var. Əslində, ona İncildə adı keçən Orpaya görə bu adı veriblər. Adının necə Opraya çevrildiyinə dair bir neçə fikirlər var. O, özü bir açıqlamasında deyib ki, doğulduğu günlərdə heç kim Orpanın necə doğru tələffüz ediləcəyini bilmədiyindən doğum kağızından fərqli olaraq, hər yerdə "p" hərfi yanlışlıqla "r" hərfindən öncə yazılıb. Amma doğum sonrasında sənədləşməni həyata keçirən şəxsin yanlışlıqla hərflərin yerini dəyişik yazması nəticəsində Orpanın Opraya çevrilməsini iddia edənlər də var. Anası **Vernita Lee** xidmətçi, atası **Vnmon Uinfri** isə mədənçi, bələdiyyə üzvü olmadan öncə isə bərbər idi. Opra doğulduğunda atası silahlı qüvvələrin bir üzvü idi. Onun doğulmasından sonra anası əyalətin şimalına köçdü və Opra həyatının ilk 6 ilini nənəsi Anita Maenin yanında yoxsulluq içərisində keçirdi. Anasıyla atasının arasında qalan balaca qızcığazın həmin çətin günlərində yeganə sığınacağı və sirdaşı kitablar oldu. O, təhsilin insanın taleyini necə dəyişdirməyə qadir olduğunu da elə o günlərdə başa düşdü. Opra öncə məktəbdə özünün qabiliyyəti, bacarığı, istedadı və zəhmətsevərliyi ilə diqqətləri öz üzərində cəmlədi. Sonralar media dünyasına girdi və ABŞ televiziyasında xəbərlər proqramının ilk zənci aparıcısı oldu. O, həm özü teleulduz oldu, həm də öz şöhrətiylə yeni ulduzlar kəşf etməyə, başqa sözlə, yeni ulduzların parlamasına şərait yaratdı. Nüfuzu, zəkası və xeyriyyə-





çiliyi ilə Amerikada və bütün dünyada təhsil səfərbərliyi başlatdı. Uzun illər dünyada milyonlarla adam **"Xanımlar və cənablar! Opra Uinfri sizin hüzurunuzdadı!"** anonsuyla hər həftə onu öz evində qonaq etdi. O, öz səmimiyyəti ilə milyonlarla evin, ailənin sevimlisinə çevrildi. İnsanlar ona güvənirdi, o isə uzun dövrü əhatə edən çalışmaları zamanı heç vaxt bu güvəni itirmədi, insanları xəyal qırıqlığına uğratmadı...

Uinfrinin uşaqlığı Missisipi əyalətinin Kosciusko qəsəbəsində kasıb bir evdə keçdi. Nənəsinin himayəsində yaşayan balaca Opra artıq üç yaşında olanda "İncil" oxuyur, kilsədə dini nəğmələr söyləyirdi. Əzbərdən "İncil"dəki ayələri oxuya bildiyindən hələ kiçik yaşlarında **"vaiz"** ləqəbi ilə tanınırdı. Anasıyla atasının arasında ...parçalanmış bir ömür sürən Opra yalqız idi və özünü, artıq dediyimiz kimi, ancaq kitablarla ovundururdu. Yoxsul olmalarına baxmayaraq, Opra iki sinfi 2 və 8-ci sinfi oxumadan daha yuxarı sinfə keçirildi. Çünki məktəbin ən yaxşı oxuyanı idi və 13 yaşında şəhərin ağdərili şagirdlərinin oxuduğu prestijli bir liseydə oxumaq üçün təqaüd almağa müvəffəq oldu. Məktəbdə uğurlar əldə edən Opranın üsyançı bir xarakteri var idi. Dəfələrlə evdən qaçdı. Nəhayət, 14 yaşı olanda anası onu Naşvillə, Tennessiyə atasının yanına göndərdi. Bununla yanaşı, o, məktəbdə diribaşlığı və zarafatcıllığı ilə şagird və müəllim kollektivinin diqqətini özünə cəlb edirdi. Hamı onun haqqında eyni şeyi fikirləşirdi:

## O başqalarından seçilir(di), özü də çox seçilir(di)!

**Opra Allahın sevimli bəndəsi idi.** Tale çətin uşaqlıq dövründən sonra onun üzünə gülməyə başlayırdı. Məktəbin ən yaxşı şagirdi olan Opra hətta məktəbdə keçirilən gözəllik müsabiqələrində belə fərqlənməyə,







Anadolulular demiş, adından söz etdirməyə başladı. Doğrudan da, "Hər ümidsizliyin arxasında bir ümid yatır" (C.Fletçer). Opra liseyin komandasının üzvü olaraq natiqlik yarışmasını qazandı, dramatik yorum sahəsində 2-ci yeri əldə etdi və bununla da Tennessi Əyalət Universitetində oxumaq üçün təqaüd əldə etdi. Opra 18 yaşındaykən "Miss Black Tennessee Beauty Pageant" (Qaradərili Tennessi gözəllik yarışması) qazandı.



Opra 17 yaşında olanda tale onu Naşvilldəki yerli radio stansiyasına gətirdi. Ona bir pyesi səsləndirmək təklif edildi. Səsini elə bəyəndilər ki, ona günün yeniliklərini oxumağı etibar etdilər. İki ildən sonra, Tennessi Dövlət Universitetinin ikinci kursunda oxuyanda, o, Naşvilldə ilk zənci aparıcı olaraq işə qəbul edildi. Ancaq bütün uğurlarına görə Allaha duaçı olmaqla yanaşı, öz böyük zəhmətinə də borclu idi. Çünki yorulmadan çalışdı, əziyyətlərə əyilmədi, uğurlarının ardınca əzm və inadla getdi! Universiteti bitirən kimi Opra Baltimorda bir televiziya kanalında müxbir olaraq çalışmağa başladı və xəbər dalınca qaçdı. Elə ilk gündən onun dəst-xətti başqalarınınkından seçilirdi. O zamankı qaydalara görə müxbirlər öz şəxsiyyətlərini







ön plana çıxarmamalı və nə olursa-olsun, özlərini soyuqqanlı aparmalı idilər. Opra isə kədərli xəbərlərdə göz yaşlarını saxlaya bilmir, gülməli xəbərləri isə gülə-gülə təqdim edirdi. Ekrandakı bu fərqli üslub getdikcə daha çox adamın diqqətini cəlb edirdi. Xalq televiziyadakı bu yeni simanı sevmişdi. Sadə insanlar onu özlərindən biri kimi qəbul edir və özlərinin ekran-efir dünyasındakı təmsilçisi olaraq görürdülər.

1983-cü ildə Opra İllinoys əyalətinin Çikaqo şəhərində populyar olmayan yarım saatlıq bir səhər tok-şousu olan AM Chicaqo-nu aparmağa başladı. Bir neçə ay içərisində proqram Çikaqonun ən reytinqli verilişinə çevrildi. Gedişat Opranın xəyallarına, düşüncələrinə bir aydınlıq gətirdi: o, öz proqramını yaratmaq qərarına gəlmişdi. Bununla da Opra adının televiziya tarixinə düşməsinə səbəb olan addımı atdı: səhərlər efirə çıxan bir "tok-şou" proqramı aparmağa başladı.

## "Cəsur insan möcüzəyə qadirdir!"

1986-cı ildə o, öz adıyla qoşalaşan **"Opra Uinfri Şousu"** proqramını təqdim etməyə başlayanda 32 yaşı vardı. Cəmi iki ildən sonra artıq bir çox bölgədə yayımlanmağa başlayan proqramı o dövrün televiziya ulduzu Filipp Con Donahuenin apardığı və ABŞ teleməkanında ilk tok-şou olan Donahuenin şousunu kölgədə qoymuşdu. Opra qısa müddətdə rəqiblərini asanlıqla "əzib" keçdi... Hamı mavi ekranların bu qaradərili qızından danışırdı... Onun proqramı gündüzlər yayımlanan ən reytinqli şouya çevrildi. TİME dərgisi çox aş insanın bu qədər qısa zamanda Opranın zirvəyə qalxaraq ən populyar tok-şou aparıcısı ola biləcəyini təxmin etdiyini yazırdı. Ağdərili kişilərin hakim olduğu bir sahədə o, qısa zamanda ən məşhurlardan oldu.





O, televiziya məkanında neçə (və necə!) tabular sındırdı, neçə yenilik gətirdi.

Sadəcə bir faktı göstərmək kifayətdir ki, yayımlanmağa başladığı 1986-cı ildən etibarən birinciliyini qoruyub saxlayan "Opra Uinfri Şousu", hər həftə sadəcə Amerikada 46 milyon (!) nəfəri ekran başına yığır və 134 (!) ölkədə yayımlanır.

## "Yanar ürək"



Opra elə bir nüfuz qazanmışdı ki, qadınlar ona heyranlıq bəsləməklə yanaşı, onu öz rəfiqələri sayırdılar. Opra **"söhbət, dərdləri paylaşmaq və yol göstərmək"** prinsipinə əsaslanan səmimi üslubu ilə televiziya məkanında yeni bir cığır açmışdı.

Opranın ən böyük uğuru ekranı **"sadə adamlar"**ın üzünə açması idi. Bu, həmin dövrdə bir inqilab idi. Zorlanmış, fəqət bunu hamıdan gizlədən insanlar, narkotik maddələr üzündən problemlərlə qarşıla-



şan çarəsizlər onun proqramında öz sirlərini açıb danışırdılar. Opra, "şou" qavramını adamlara daha yaxın, daha şəxsi bir qavrama çevirmişdi. Onun proqramı, bir növ, adamların öz günahlarını etiraf etdikləri bir mərkəz halına gəlmişdi. Proqramına çağırdığı qonaq kədərli bir əhvalat danışanda Opra ağlayır və onu qucaqlayırdı. O, bütün hərəkətlərində o qədər səmimi idi ki, hətta televiziya tənqidçiləri belə ona rəğbətlə yanaşırdılar. Tənqidçilər onun haqqında belə deyirdilər: "Opra Uinfri başqalarından daha kəskin, daha ağıllı, daha səmimi və tamaşaçılarına, bəlkə də bütün dünyaya daha yaxşı uyğunlaşmış bir televiziya ulduzudur."

O, öz proqramında həm maarifləndirir, həm də əyləndirirdi. İnsanlar onun proqramından müsbət emosiya aldıqlarını deyirdilər, ona inandıqlarını deyirdilər. O isə heç zaman bu inamı sınmağa qoymurdu (və qoymur!). Məsələn, "Dəli dana" epidemiyası yayıldığı vaxt, "Daha bir hamburqer yeməyimə mane olun!" deyən Opranı ət industriyası təmsilçiləri məhkəməyə verərək, ondan milyonlarla dollar kompensasiya tələb etmişdilər. Onlar Opranın bu açıqlamasının ət industriyasında işləri zəiflətdiyini, böhrana səbəb olduğunu iddia edirdilər. Ancaq Opra sadə insanları doğru olaraq maarifləndirdiyini iddia edərək, onların qarşısından geri çəkilmədi və məhkəməni uddu.

## "Həyatda nəyisə dəyişdirin!"

Opra, televiziyanın gücünü yaxşı bilirdi. Televiziya sehrbazı olan bu qadın öz şousunda ailənin bir fərdi kimi davranmağı və sanki evində qonaq olduğu rəfiqəsiylə birgə yemək yeyəndən sonra adi şeylər barəsində söhbət edirmiş kimi səmimi olmağı bacarırdı. O, adamların tənhalıqlarını bölüşürdü. Şöhrətinin bu mərtəbəsində Opra daha bir yeniliyin əsasını qoydu. Opra ona tamaşa edənlərə belə deyirdi: **"Həyatda nəyisə dəyişdirin!"**







...Və bu söz neçə tamaşaçının (düşünən insanın) həyat ritmini dəyişdi, işinə-gücünə harmoniya gətirdi; bir çox insanın içində yatıb qalmış (qalaqlanmış) hissləri oyatdı; ümumi bir cəmiyyət canlanması yaratdı! ...Bunu topsuz-tüfəngsiz, inzibati resursları olmayan, qara günlər görmüş bir qaradərili, bir qadın edirdi! Doğrudan da, ***"Televiziya, radio xalqın gözünü açır, insanları dünya ilə birləşdirir..."* (Heydər ƏLİYEV)**

Ancaq o, sadəcə məsləhət verməklə kifayətlənmirdi. Bir çoxlarından fərqli olaraq, Opra bunu populizm xatirinə etmirdi. O, özü insanlara bu istiqamətdə örnək kimi çıxış edirdi. Yanına milyonlarla insanı, Oprasevərləri alaraq həyatda nələrisə dəyişdirirdi!

O, hesab edirdi ki, ən vacib məsələ təhsildir. Opra özünün çətin şəraitdən çıxmasında böyük rol oynayan təhsili, "azadlığa açılan bir qapı" adlandırır, bu mövzunu daim gündəmdə saxlayır. Televiziyadan qazandığı pullarla təsis etdiyi Opra Uinfri Fondu sayəsində o, təhsil, ailə, qadın və uşaq mövzusunda yüzlərlə təşəbbüsə dəstək verir. Daha yaxşı təhsil almağa layiq olduqları halda buna imkanları olmayan şagirdlərin təhsil şəraitlərinin yaxşılaşdırılması üçün Opra milyonlarla dollar xərcləyir və məktəblər tikdirir. Təsisçisi olduğu "Opra Uinfri təqaüd proqramı" sayəsində öz təhsillərini Amerikada və xaricdə davam etdirmək istəyən tələbələrə təqaüd














verir və təkbaşına, demək olar, bütöv bir Təhsil Nazirliyi kimi işləyir!

O, televiziyada qazandığı populyarlıqdan, sözün yaxşı anlamında kütlələri hərəkətə keçirmək üçün istifadə etdi. Bu qaradərili ulduz hər kəsə sübut etdi ki, televizor yalnız "axmaqlar üçün qutu" deyil, lazım gəldiyində nəhəng bir xeyriyyəçilik vasitəsinə çevrilməsi mümkündür. Sadəcə istəmək (və işləmək) gərəkdir... O, bunu sübut edən işlərindən birini 2002-ci ilin dekabrında həyata keçirdi. "Güney Afrika milad mərhəməti - 2002" təşəbbüsü nəticəsində Güney Afrika Respublikasının çöllərindəki məktəblər təmir edildi, 50 min şagirdə ərzaq, paltar, idman ayaqqabısı, dəftərxana ləvazimatı, kitab və oyuncaqlardan ibarət sovqatlar paylandı. Yenə bu təşəbbüs çərçivəsində 63 məktəbdə kitabxana təşkil edildi və müəllimlərə təqaüd verildi. O, zəngin insanlar üçün "pullarınızın kiçik bir hissəsi ilə ehtiyacı olan minlərlə insanın yaşamını dəyişə, onları həyata qaytara bilərsiniz" ismarıcını verirdi. O, dünya zənginlərinə **"pulunuzun bir hissəsini ehtiyacı olanların təhsilinə, dünyanın gələcəyinə xərcləyin"** çağırışları edirdi addımları ilə...

O, Güney Afrikanın əfsanəvi dövlət başçısı **Nelson Mandelaya** verdiyi vədə sadiq qalaraq, orada 40 milyon dollara başa gələn Opra Uinfri Qız Liderlik Akademiyası açdı. Bu akademiya hələ də Afrika qitəsində ən yeni texnologiya ilə təmin edilmiş elm-təhsil mərkəzi olaraq, istedadlı qızlara ən yüksək səviyyəli təhsil almaq imkanı verir.

**O, xeyriyyə işlərinə ən çox pul xərcləyən biznesmenlərdəndir.** Onun televiziya tamaşaçılarının ianələri ilə fəaliyyət göstərən "Opranın





mələkləri şəbəkəsi" adlı Xeyriyyə Cəmiyyəti dünyanın müxtəlif bölgələrində məktəblər, qadın dərnəkləri və gənclik mərkəzləri inşa etdirir. İnsanlar onu o qədər sevir, o qədər etimad göstərirlər ki, məsələn, Opranın özünün internet səhifəsindəki kitab klubunda tanıtmaq üçün seçdiyi kitablar dərhal bestseller olur. Hər halda "Business Week" jurnalı hesab edir ki, onun kimi kitab satışını artıra bilən ikinci adam yoxdur. Onun kitab klubunun 1 milyon nəfər üzvü var. Bunun nə demək olduğu yəqin, hamı üçün aydındır. 2007-ci ildə tanınmış Amerika yazıçısı **Kormak MakKarti** ilk televiziya müsahibəsini ona verib. Opra onun "Yol" əsəri haqda veriliş hazırlayıb. Çox keçməmiş həmin əsər fantastika üzrə Pulitser Mükafatına layiq görülüb.

Yazıçı-jurnalist Katlin Runi özünün "Opra ilə mütaliə: Amerikanı dəyişən kitab klubu" məqaləsində yazır ki, Uinfri elektron mediadan - xüsusilə, televiziya və internetdən istifadə edərək milyonlarla kitab oxumayan insanda əlinə kitab alıb mütaliə etmək həvəsi yaradıb.

Opranın internet səhifəsinə (www.oprah.com) hər ay 6 milyon (!) nəfərdən çox istifadəçi orta hesabla 70 milyon (!) dəfə baş çəkir və hər ay 1.3 milyon (!) nəfər elektron məktub göndərir. Bu çox az insana nəsib olan böyük bir xoşbəxtlikdir. Şəxsi media şirkətinin
















çıxardığı "Opra maqazin" adlı qadın jurnalı ayda orta hesabla 2,3 milyon (!) tirajla nəşr edilir ki, bu da dünya praktikasında çox nadir göstəricilərdəndir. Opranın 1988-ci ildə qurduğu "Harpo studiyası" isə ABŞ-da əyləncə sektorunda üçüncü yerdədir. Ünlü "Forbes" dərgisinin yazdığına görə o, XX yüzilin ən varlı qaradərili amerikalısı və dünyadakı nadir qaradərili milyarderlərdəndir (hərdən mənə elə gəlir, geniş çaplı, yerindən-yurdundan, məşğuliyyətindən, dərisinin rəngindən, yaşından-başından asılı olmayaraq milyonları qapsayan çalışmaları yüzillər öncə Anadoludan dünyaya (bu günə!) səslənmiş **Mövlana Cəlaləddin Ruminin** düşüncə sistemini, dünyagörüşünü şəkilləndirir qaradərili Amerikalı qadın! - ***"Gəl, kim olursan ol, gəl, dinsizsən gəl, imansızsan gəl, isəvisən gəl, musəvisən gəl, yüz kərə tövbəni pozmuş olsan yenə gəl! Bizim könül bağçamızda hər kəsə yer var - yetər ki, gəl!"***

**Allah ona hərtərəfli bir istedad verib!** Opra Uinfrinin uğurlu aktrisalıq karyerası da var. 1985-ci ildə Stiven Spilberqin çəkdiyi "Bənövşəyi rəng" filmindəki Sofiya rolu ilə Opra istedadlı aktirisa kimi də dünyada ün qazanmağa başladı. O, böyük məharətlə yaratdığı Sofiya roluna görə hətta "Oskar", habelə "Qızıl qlobus" ödüllərinə namizəd də göstərilmişdi. "Qadınlar qanadsız olanda" (1997) filmi isə Opranı istedadlı aktirisa






kimi daha da məşhurlaşdırdı. İşlərinin çoxluğuna baxmayaraq, Opra "Burada uşaq yoxdur" (1993), "Bryusterin qadınları" (1989) adlı filmlərdə oynadığı rolları ilə də tamaşaçıların rəğbətini qazanmış və adını kino tarixinə də yazmışdır. "Həyatınızda nəyi isə müsbət istiqamətdə dəyişdirmək üçün səy göstərin" deyən bu bənzərsiz televiziya ulduzu, heyranlıqla qarşılanan missiyasını hələ də davam etdirməkdədir. Opranın 2011-ci ildə öz proqramını bitirəcəyi ilə bağlı xəbərlər onun milyonlarla tamaşaçını dərindən narahat edir. Onlar ailələrinin əziz üzvünə çevrilmiş Oprahın proqramını dayandırmasını istəmirlər. Təkcə ABŞ-da hər həftə 42 milyon insanın izlədiyi məhşur talk-show programı, 145 ölkədə də göstərilmiş və təxminən 20 ildir ən çox izlənən söhbət proqramıdır.

***Onun haqqında bütün dünya danışır. O, isə görünür, ömrünün sonuna qədər, hələ gəncliyində qazandığı "sevimli, əziz Opra" "titul"unu əldən verməyəcək. Adını tarixə (yalnız mədəniyyət tarixinə deyil, eyni zamanda, ümumən, insanpərvərlik tarixinə) yazmış bu əfsanə qadın bütün qızlar üçün (özəlliklə ümidsiz qızlar üçün!) gözəl bir örnək olmaqla yanaşı, keçdiyi həyat yolu ilə qadınlara uğura gedən yolu da göstərir...***





Kondaliza Rays

**Keçmişdə dərisinin rənginə görə sıxışdırılan keçmiş dövlət katibi**



## "Cəngavər Şahzadə"nin "üç nöqtə"li YAZIsı...

- **O, ABŞ tarixində ilk qaradərili qadın (Madlen Olbraytdan sonra ikinci qadın) Dövlət katibi və (Koelin Paueldən sonra) ikinci qaradərili Dövlət katibi oldu!**

- **2004 və 2005-ci illərdə nüfuzlu "Forbes" dərgisi onu dünyanın ən nüfuzlu qadını elan etdi. *(2006-cı ildə isə o, həmin siyahıda yer alırdı və adı fəxri 2-ci yerdə dayanırdı!)***

- **O, *"Taym"* dərgisinin "dünyanın ən nüfuzlu 100 adamı" siyahısına daxil olan iki afroamerikalıdan biridir!**

- **Onu bütün dünya tanıyır. Bu ünlü qadın görkəmli ictimai-siyasi xadim Kondaliza Raysdır!**

## Şirinliklə başlayan həyat

**Kondaliza Rays** (Condoleezza Rice) - italyan dilində *"Con dolcezza"*, yəni *"şirinliklə"* anlamını verən musiqi terminindən götürülmüşdür) 14 noyabr 1954-cü ildə ABŞ-ın Alabama ştatında, Birmingemdə dünyaya gəlmiş və uşaqlığını Titusvil yaxınlığında keçirmişdir. Valideyinləri - Con Uesli Rays (Cohn Wesley Rice) və Anjelina Rey Rays (Angelena Ray Rice) orta təbəqənin nümayəndələri idi. Kondalizanın atası Ulman məktəbinə rəhbərlik etməklə yanaşı, həm də atası tərəfindən əsası qoyulmuş kilsədə rahib işləyirdi. Kondaliza





Raysın anası Anjelina Rey Rays isə adıkeçən məktəbdə musiqi və nitq mədəniyyəti müəlliməsi olaraq çalışırdı.

## Ehtiraslı, amma qeyri-sentimental...

Valideyinləri Kondalizanı hərtərəfli, gözüaçıq, üfüqügeniş böyütmək istəyirdilər. Bu istəyin nəticəsi idi ki, o, 3 yaşından başlayaraq, fransız dili, musiqi, xizək sürmə və balet öyrənməyə başladı. Kondaliza hələ kiçik yaşlarından ətrafdakılara həddindən artıq istedadlı və qabiliyyətli qız təsiri bağışlayırdı.

O, artıq 5 yaşında oxumağı və yazmağı bacarırdı, ona görə də ata-anası onu məktəbə vaxtından öncə göndərdilər. Kiçik yaşlarından anası ona fortepianoda çalmağı öyrətdi, müsiqi və sənət dünyasını daha yaxından tanımağına şərait yaratdı. Kondaliza artıq 15 yaşında peşəkar piano dərsləri alırdı. O, Denver Simfonik Orkestri ilə birlikdə Motsartı ifa edirdi. Kondaliza musiqiçi olmadı, amma tez- tez piano çalır və musiqi truppasında iştirak edirdi. Xanım Rays diplomatik görüşlərdə, o cümlədən, **Kraliça II Yelizavetanın** şərəfinə *"Milli İncəsənət Medalı"* törənində (skripkaçı Yo Yo Ma ilə birlikdə) səhnədə çıxış etmişdir. Onun sevimli bəstəkarı Brahmsdır. Çünki Brahmsın musiqisi ***"ehtiraslı olsa da, sentimental deyil."*** Sevimli musiqi qrupu isə "Led Zepelin"dir.



O, həmçinin Elton Con, Arti Franlin, Kream, U2, Selebreyşn, Kool və Qanq quplarının yaradıcılığını izləyir; klassik musiqi





zövqü isə Motsart, Bethoven və təbii ki, Brahmsın yaradıcılığına indekslənib.

Kondaliza hələ uşaqlıq illərindən irqi ayrı-seçkiliyin nə demək olduğunu şəxsi təcrübəsində yaşayır, bəzən də qanunsuzluqların, yaxud qanunların ədalətsiz olduğunun şahidi olurdu. Lakin o, ictimaiyyət arasında özünü təmkinli aparır, "rənglilər" üçün nəzərdə tutulan təhqiredici xidmətlərdən istifadə etməməyə çalışırdı. Bununla belə, Rays dərisinin rəngi ilə bağlı başına gələn bir çox sıxışdırılma hallarını xatırlayır: dükandan geyim aldıqda, geyinib baxması üçün onu anbara göndərir, istirahət parkında sirkə baxmağa qoymur, oteldə yer vermir, restoranlarda qarşısına yeyilməyən yeməkləri qoyurdular...

Valideyinləri bütün gücləri ilə onu alçaldılmaqdan və təhqir olunmaqdan qoruyurdular, lakin Kondaliza özü də uşaqlıqdan vətəndaş hüququnun və Cim Krounun ayrı-seçkilik salan qanunlarının nə demək olduğunu anlamağa başlamışdı. Qonşuları Culiemma Smit xatırlayırdı: ***"Bir gün Kondi bizə gəlmişdi. Mənə yaşına uyğun olmayan bir sualla müraciət etdi: "Eşitdiniz, bu gün Bel Konnor nə dedi?" Təəccübümü gizlədə bilmirdim. Üstəlik, belə hallar tez-tez təkrarlanırdı. Halbuki o, balaca bir qızcığaz idi. Kondinin nə soruşa biləcəyini təxmin edib gündəlik qəzetləri diqqətlə oxumalı olurdum."***

1963-cü ildə, rəfiqəsi Deniza Mak-Ner afroamerikan Baptist kilsəsindəki partlayışda həlak olan zaman, Kondalizanın cəmi 8 yaşı vardı. Rays bu hadisəni belə xatırlayır: ***"1963-cü ildə Birmingemin 16-cı küçəsindəki Baptist kilsəsində baş verən partlayış yadımdadır. Mən hadisəni öz gözlərimlə görmədim, ancaq eşitdim və hiss etdim. Bu, atamın kilsəsinin bir neçə addımlığında baş vermişdi. O səsi mən heç zaman unutmayacağam. Həmin partlayış rəfiqəm Deniza Mak-Nerlə birlikdə dörd qızın həyatına son qoydu. Cinayətkarlar alovlanan qığılcımları, böyüyən ümidləri söndürməyə çalışdılar. Onlar buna nail olmadılar, heç vaxt da nail olmayacaqlar."***





Rays şəxsiyyət kimi irqi seqreqasiya mühitində formalaşmışdı. O, çətinliklərlə üz-üzə dayanmağa alışdığından, ***"ikiqat xeyirxah və ikiqat yaxşı olmaq"*** şüarı artıq onun üçün yeni anlam kəsb edirdi.

Seqreqasiya Raysda silah gəzdirmək hüququnun zəruriliyinə əminlik yaratmışdı. Axı, silahların qeydiyyata alınması məcburi olsaydı, atasının silahı müsadirə edilər, onlar Ku-Kluks-Klan basqınçılarının qarşısında aciz qalardılar..!

1967-ci ildə onun ailəsi Koloradonun Denver şəhərinə köçdü. Kondalizanın atası Denver Universitetində rəhbər vəzifəyə təyin olundu. Özü isə katolik qadınlar üçün olan Müqəddəs Məryəm Akademiyasında təhsil almağa başladı. Aspen Musiqi Festivalındakı çıxışından sonra Rays atasının dekan yardımçısı işlədiyi Denver Universitetinə daxil oldu. Raysın təhsil aldığı fakültənin dekanı rasizmin qatı əleyhdarı və Vyetnamdakı müharibəyə qarşı çıxanlardan biri idi. Rays Cozef Korbelin (gələcək Dövlət katibi Madlen Olbraytın atası) uluslararası siyasət kursunda dərs alırdı. Bu, onun Sovet İttifaqına və uluslararası siyasətə marağını artırmışdı. Təsadüfi deyil ki, xanım Rays Cozef Korbeli öz həyatının mərkəzi fiqurlarından biri adlandırır.

1974-cü ildə, 19 yaşında ikən Kondaliza Denver Universitetindən siyasi elmlər üzrə bakalavr dərəcəsi aldı və universitetin **"Fi Beta Kappa"** fəxri cəmiyyətinin üzvü oldu. 1975-ci ildə o, Notr-Dam Universitetindən siyasi elmlər üzrə magistr dərəcəsi aldı.



1977-ci ildə Kondaliza Rays Dövlət Departamentində, Karter Administrasiyasında Təhsil və Mədəni İşlər şöbəsində təcrübəçi kimi işə başladı. 1981-ci ildə, 26 yaşında ikən Denver Universitetinin Cozef Korbel Uluslara-



rası Əlaqələr Məktəbindən doktorluq dərəcəsi alan Raysın dissertasiyası, "Çexoslovakiyada hərbi qanunvericilik və siyasət" mövzusunu əhatə edirdi.

* * *

**26 yaşlı doktorant Kondaliza Rays** uluslararası tədqiqatlar proqramı çərçivəsində Polşada qısamüddətli dayanacaqla Sovet İttifaqına yeddi həftəlik səfərdə oldu. Bu, o dövrün gerçəkləri və Kondalizanın yaşı baxımından adi hadisə deyildi. Qaradərililər ona - gənc elmlər doktoruna qibtə edir, onunla ilk dəfə qarşılaşan ağdərililər isə zəncilərin əqli cəhətdən zəif olduğunu düşünüb, onun qabiliyyətlərini düzgün qiymətləndirmir, şübhə və tərəddüd nümayiş etdirirdilər. Lakin Kondaliza hər kəsə bunun əksini sübut edir, qərəzli münasibət bəsləyən insanları belə zəkasına heyran qoyurdu.

Həyat öz axarında gedir, hər şey yaxşılığa doğru cərəyan edirdi və keçən hər gün onu ümidli sabaha daha da yaxınlaşdırırdı. Günlərin axarında o, bir gün Uluslararası Tədqiqatlar İnstitutunun nəzdindəki Stenford Ululsararası Təhlükəsizlik və Silahlanmaya Nəzarət Mərkəzindən tədqiqatlarını orada davam etdirmək təklifi aldı. Mərkəzə gəlişindən bir ay sonra, Rays Politologiya kafedrasında məruzə ilə çıxış etdi. **Tam o sırada ixtisaslaşmış qaradərili mütəxəssisə ehtiyac olduğundan Kondalizanı kafedraya müəllim kimi dəvət etdilər və ona, SSRİ və uluslararası münasibətlər kursununun tədrisini həvalə etdilər.**








Mühazirə demək, tələbələrlə işləmək, onun müəllim üslubu, tədris metodu isə tələbələrin xoşuna gəlirdi. Qaradərili gənc xanım harmonik bir mühit yaratmışdı. Məsələn, müharibə ilə futbolu müqayisə etmək kimi qeyri-adi müqayisə üsullarına müraciət edən Raysın mühazirələrini tələbələr dərsdən sonra da müzakirə edir, ona öz rəğbətlərini ifadə edirdilər. Yəqin ki, müəllimlik sənətinə məhəbbət (və bu sənətdə uğurlarını şərtləndirən xarakterik xüsusiyyətlər) ona özləri də müəllim olan valideynlərindən keçmişdi.

Stenfordda keçirdiyi müddət ərzində Kondaliza Rays siyasət və tarixə dair üç kitab yazdı və hətta onlardan biri ödülə layiq görüldü. Beləliklə, 1981-ci ildə, 26 yaşında ikən politologiya doktoru olan xanım Raysı artıq yalnız universitetdə deyil, həmçinin bir xeyli kənar çevrələrdə də tanıyırdılar!

## İlk siyasi baxışları

1982-ci ilə kimi Rays demokrat idi, ancaq Cimmi Karterin xarici siyasətinə etiraz edərək partiya ilə əlqəsini kəsdikdən sonra respublikaçılığı üstün tutdu. O, siyasi təyinatının müəyyənləşməsində demokratlıqdan respublikaçılığa keçən atasının da rolu olduğunu deyirdi. 2000-ci ildə respublikaçıların toplantısında çıxış edən xanım Raysın aşağıdakı sözləri də bunu təsdiqləyirdi: ***"1952-ci ildə Alabamada demokratlar atamı səs vermək üçün qeydiyyata almadıqlarından o bizim partiyamıza üz tutdu. Respublikaçılar isə onu qeydiyyata aldılar."***









## Elmi kariyerası

1981-1987-ci illərdə Rays ilk akademik vəzifələrini icra etdi: Stenford Universitetinin politologiya sahəsində dosenti oldu, ardınca adyunkt-professor dərəcəsini almağa nail oldu (1987-1993), 1993-cü ildə isə o, artıq professor idi. Bu vaxtdan 2000-ci ilə qədər Universitetin prorektoru, büdcə müdiri və elmi işlər üzrə dekan səlahiyyətlərini icra edən xanım Rays, həmçinin Frimen Spoyli Uluslararası Tədqiqatlar İnstitutunun böyük üzvü və Huver İnstitutunun (Hoover Institution) böyük üzvü dərəcələrinə layiq görüldü. O, SSRİ tarixi üzrə mütəxəssis olaraq ötən yüzilin 80-ci illərinin ortalarında Stenford və Berkli Universitetlərinin birgə proqramı çərçivəsində, professor Corc Breslauerin rəhbərliyi ilə mühazirələr dedi. Bu ərəfədə o, Tolstoy və Dostoyevskinin əsərlərini - onun dünyaya baxışlarını dəyişdirən əsərləri mütaliə etdi.

Doktor Rays, həmçinin Universitetin çoxmilyonlu büdcəsinə görə məsuliyyət daşıyırdı. Vəzifəsinin icrasına başladığı vaxt universitet büdcəsinin 20 milyon dollar kəsiri var idi. Rays söz verdi ki, iki il ərzində bu problemi aradan qaldıracaq. Stenford Universitetinin direktor müavini Koyt Blekker deyirdi ki, maliyyə işlərinin düzgün aparılmadığı üçün bu müəssisənin büdcəsində kəsirin olması gözlənilirdi, onun aradan qaldırılması isə mümkünsüz idi. Lakin iki ildən sonra Raysın təşkil etdiyi toplantıda universitetin büdcə kəsirindən nəinki qurtulduğu, üstəlik büdcəyə 14,5 milyon dollar əlavə gəlir gəldiyi də elan edildi!.

Prorektor Rays müəssisədaxili fəaliyyətlə yanaşı, eləcə də başqa təhsil müəssisələri ilə əlaqələrin qurulması, müxtəlif tələbə təşkilatları ilə (məsələn, Venesuela tələbə təşkilatı ilə) dostluq münasibətlərinin yaradılması işinə də əmək sərf edirdi. Kondaliza Rays universitetin tarixində ilk ən gənc, ilk qadın və ilk afroamerikalı prorektor olmuşdur.








Doktor Rays Amerika Elm və İncəsənət Akademiyasının üzvü, Morhauz Kollecinin (1991), Alabama Universitetinin (1994), Notr-Dam Universitetinin (1995), Missisipi Hüquq Məktəbinin (2003), Luizvil Universitetinin, Miçiqan Dövlət Universitetinin (2004), Boston Hüquq Məktəbinin (2006)... fəxri doktorudur. O, ingilis dilindən savayı rus, alman, fransız və ispan dillərini (fərqli səviyyələrdə) bilir.

Rays *"Birləşmiş Almaniya və dəyişmiş Avropa"*, *"Qorbaçov dövrü"*, *"Qeyri-müəyyən loyallıq"* kitablarının müəllif və həmmüəlliflərindən biridir.

O, öz elmi-pedaqoji fəaliyyəti dövründə ictimai əlaqələrə xüsusi diqqət ayırırdı. Kaliforniya Məktəblərinə Dəstək Fondunun əsasını qoymuş Kandoliza Rays həm də ***"Amerika qız və oğlan klubları"*** gənclər təşkilatının vitse-prezidenti olub. Eləcə də, Milli Şuranın Sovet İttifaqı və Şərqi Avropanın öyrənilməsi bölməsində, Stenford yarımadasının şəhər sovetində, Vudro Vilson Mərkəzində fəaliyyət göstərb.




1985-ci ildə Gerald Fordun Milli Təhlükəsizlik məsləhətçisi olan Brent Skaukroft Stenfordda Silah nəzarəti ekspertlərinin görüşündə Raysla tanış olmuş və onun fəaliyyəti Brentin diqqətini cəlb etmişdi. Ata Corc Buşun prezident seçilməsi ilə Ağ Evin Milli Təhlükəsizlik məsləhətçisi olan Brent Skaukroft Raysa onun Təhlükəsizlik Şurasında Sovet İttifaqı üzrə eksperti olmağı təklif etdi. **Nikolas Börnzün** (R. Nicho-







las Burns) dediyinə görə, çox keçmir ki, nəinki cənab Brent, Prezident Buş özü də Raysın təsiri altına düşür. Onlar Qorbaçov və Yeltsinlə əlaqələrində tamamilə onun məsləhətlərinə güvənirdilər...

Bununla belə, xanım Rays iki ildən artıq yerində olmayacağı təqdirdə Stenforddakı işini itirəcəyini nəzərə alaraq, 1991-ci ildə yenidən Stenforda qayıtdı. O, Reyqanın Dövlət katibi Şultsun (George P.Shultz), belə demək mümkünsə, qanadları altında fəaliyyət göstərirdi. Şults onu hər həftə uluslararası siyasəti müzakirə etmək üçün toplaşan intellektuallar klubunun heyətinə daxil etmişdi.

*"Şevron"* korporasiyasının idarə heyətinin üzvü olan Şults Raysı heyətdəki boş yer üçün məsləhət görüncə, Qazaxıstanda 10 milyon dollarlıq inkişaf layihəsi nəzərdə tutan korporasiya Raysın şəxsində Qazaxıstan prezidenti Nursultan Nazarbayevi, Avrasiya məkanını yaxşı tanıyan güclü sovetşünas qazanmış oldu. O, 1993-cü ildə "Şevron"un adından Qazaxıstana səfər etdi və "Şevron" da bu işinin qarşılığında 129 min tonluq tankerə Kondaliza Rays adını verdi (sonralar müəyyən ziddiyyətlər nəticəsində tankerin adı dəyişdirilərək Altay Voyacar adlandırılmışdır). Bu dövr ərzində Rays Transamerika Korporasiyasının (Transamerica Corporation və Heulet Pekerdin (Hewlett-Packard) idarə heyətlərinə seçildi.

## Stenforda ikinci qayıdış

2008-ci ilin dekabrında Dövlət katibi vəzifəsi ilə vidalaşarkən verdiyi müsahibəsində Rays *"Missisipiyə-aid olduğum yerə"* - deyə, Stenford Universitetinə və Huver İnstitutuna qayıdacağını dilə gətir-







mişdi. Ancaq bu dəfə o, dünyanın ən güclü dövlətini yönəltmiş insanlardan biri kimi dönürdü və insanlar onun rolunun yazmaq və dərs deməkdən başqa daha nədən ibarət olacağı barədə düşünür, sual verirdilər. O, isə bu barədə danışmadı, təbii... Nəhayət, 2009-cu il martın 1-də Stenforda və Huver İnstitutuna siyasi elmlər üzrə professoru kimi qayıtdı.

## Özəl sektordakı özəl vəzifələri

O, yuxarıda dediyimiz korporasiyalardan başqa Karnegi, Çarlz Şvab, Rend korporasiyaları və digər təşkilatların Direktorlar Şurasının üzvü olmuşdur.

1992-ci ildə Rays Kaliforniyada İst Palo Altoda və Menlo Prakda orta məktəb təhsili alanların sayını artırmaq məqsədi ilə Yeni Nəsil Mərkəzi adlı hazırlıq proqramı yaratdı. 2009-cu ildə dövlət katibliyi vəzifəsini başa çatdırdıqdan sonra Raysa "Pak-10" konfransının xüsusi səlahiyyətli üzvü olmaq təklif olunsa da o, bu təklifi qəbul etmədi və yuxarıda dediyimiz kimi, Stenford Universitetinə siyasi elmlər professoru kimi qayıtmağı üstün tutdu.



*(Xanım Raysın özəl sektordakı vəzifələrindən danışarkən qeyd etməliyik ki, o, (yuxarıda da vurğuladığımız kimi) 2001-ci il, yanvar ayının 15-nə kimi "Şevron"un ictimai siyasət komitəsinə rəhbərlik etmişdir.)*



## Erkən siyasi kariyerası








1986-cı ildə Xarici Əlaqələr Şurasının uluslararası əlaqələr üzrə əməkdaşı olan Rays, icraçı direktorun assistenti vəzifəsində işləmişdir. O, 1989-cu ildən 1991-ci ilə kimi Prezident Corc H.Buşun administrasiyasında direktor kimi, daha sonra Milli Təhlükəsizlik Şurasının Sovet İttifaqı və Şərqi Avropa üzrə Baş direktoru və Milli Təhlükəsizlik İşləri prezidentinin xüsusi assistenti vəzifələrində çalışmışdır. Bu vəzifədə Rays Prezident Buşun və Dövlət Katibi Ceyms Bekerin Almaniyanın birləşməsini dəstəkləyən qanun layihələrinin hazırlanmasında yaxından iştirak etmişdir. O, Buşu özünə heyran qoymuşdu. Təsadüfi deyil ki, Buş Raysı Qorbaçova təqdim edərkən: "Sovet İttifaqı haqqında bildiyim hər şeyə görə bu xanıma borcluyam" deyirdi...

2000-ci ildə ABŞ Prezidenti postuna keçirilən seçkilərdə xanım Rays oğul Corc Buşun kampaniyasında xarici siyasət üzrə müşavir kimi fəaliyyət göstərdi: necə deyərlər, Buş dəyişdi, ancaq Kondaliza Raysa münasibət (ehtiyac!) dəyişmədi.

Onun başçılıq etdiyi məsləhətçilər qrupu Alabamanın Birmingem şəhərindəki Vulkan heykəlinin şərəfinə özlərini "vulkanlar" adlandırırdılar.








## Milli Təhlükəsizlik müşaviri

2000-ci il dekabrın 17-də Rays Milli Təhlükəsizlik müşaviri təyin olundu (bu vəzifədə 2005-ci ilədək çalışdı) və Stenforddakı vəzifəsindən imtina etməli oldu. O, bu vəzifəyə təyin olunan ilk qadın idi! Xanım Raysın güclü əsəbini və incə maneralarını nəzərə alaraq onu "Cəngavər Şahzadə" adlandırırdılar!

2000-ci ildə, respublikaçıların qurultayında çıxış edərkən o, deyirdi: ***"ABŞ-ın silahlı qüvvələri qlobal polis deyil. Onlar dünyanın 911-i deyil".***



Rays 2001-ci ilin yayında Mərkəzi Tədqiqatlar Bürosunun (MTB) direktoru Corc Tenetlə görüşdü. Bu iki önəmli isim anti-amerikan qüvvələrin hücumunun mümkünlüyü və onun qarşısının alınması barədə müzakirələr apardı. Mətbuat məlumat verdi ki, Tenet 2001-ci il iyulun 10-da Əl-Qaidədən gələ biləcək hücum barədə Ağ Evə məlumat vermək üçün Rays və Milli Təhlükəsizlik Şurası ilə görüş keçirib. Rays da öz növbəsində Tenetdən məsələ ilə bağlı müdafiə naziri Donald Ramsfeldə və Baş hakim Con Eşkrofta bilgi verməsini xahiş edib.








2006-cı il ildə ondan sözükeçən görüşlər barədə soruşulduqda, həmin dövrdə təkrarən Tenetlə terror təhlükəsi barədə görüşdüyünü deyərək, bununla bağlı xüsusi bir görüş keçirdiklərini xatırlamadığını bildirdi. O, həmçinin 2001-ci il 11 sentyabr hadisələrinin baş verəcəyi barədə iki ay öncə bilgili olmasının da "anlaşılmaz" olduğunu qeyd etməyi üstün tuturdu. Ancaq bu "məsum"luğa baxmayaraq, həmin məlum olaydan sonra ABŞ-ın Silahlı Qüvvələrinin sanki qlobal polis misalı hərəkətlərdə, "çıxarma"larda bulunduğu da mətbu müzakirələrdə vurğulanan fikirlərdən idi...

Dövlət katibi Kondaliza Rays terrorizmə qarşı mübarizə siyasətini cəzalandırıcı metod kimi deyil, müdafiə metodu kimi qiymətləndirirdi. 2005-ci il, dekabrın 18-də KİV-ə müsahibəsində xanım Rays bildirirdi: ***"Biz unutmamalıyıq ki, terrorizmə qarşı mübarizə hər hansı bir cinayətə qarşı mübarizəyə bənzəmir. Belə ki, burada cinayət edildikdən sonra kimsə məsuliyyətə cəlb olunmur. Əgər cinayət "uğurla" həyata keçirilirsə, deməli yüzlərlə, hətta minlərlə insan həlak olur. Buna görə də terrorun qarşısını almaq üçün kəşfiyyat vacib rol oynayır."***

Rays terrorizmlə mübarizənin önəmli hissəsi olan kəşfiyyatı ictimaiyyət arasında bilgi mübadiləsinin zəif olması baxımından tez-tez tənqid edirdi. 2000-ci ildə Bin Ladenin "Taym" qəzetinə: "ABŞ-a qarşı mübarizə dini borcdur" açıqlamasından bir il sonra (11 sentyabr olaylarından bir il öncə) Rays Deytroit radiosu ilə xəbərdarlıq edirdi: ***"ABŞ-da terror təhlükəsinin qarşısını almaq üçün kəşfiyyat agentlikləri daha yaxşı təşkil olunmalıdır. Problemlərdən biri də***







***xarici kəşfiyyatla (CİA) daxili kəşfiyyat (FBİ) arasında vəzifə bölgüsüsnün olmasıdır. Onların arasında daha möhkəm işbirliyi olmalıdır, çünki biz bir gün Üsama bin Ladenin bizim ərazimizdə uğurla terror hücumu həyata keçirdiyini görmək istəmirik."***

* * *

Senat Tədqiqatlar Komitəsinin məlumatına görə, Rays 2002-ci il, iyulun 17-də MTB direktoru Corc Tenetlə şəxsən görüşərək, ona Əl-Qaidə lideri Əbu Zubeydanın Buş administrasiyası tərəfindən təsdiq olunmuş sudaboğma metodu ilə cəzalandırılması tapşırığını vermişdir. Hadisə Doktor Raysın Doktor Tenetlə görüşündən sonra Ədliyyə Departamentinin sirr kimi saxladığı 1 avqust memorandumunda öz əksini tapmışdı. Sudaboğma metodunu (əgər buna "metod" demək olarsa) hüquq ekspertləri, müharibə veteranları, hərbi hakimlər, insan hüquqları müdafiəçiləri, bir çox ABŞ rəsmiləri, o cümlədən Prezident Obama sərt işgəncə növü hesab etmişlər.

2003-cü ildə Rays vitse-prezident Dik Çeyni və Baş prokuror Con Aşkroft MTB ilə bir daha görüşərək, sudaboğma, bir həftə yuxudan məhrumetmə və stres vəziyyətlərindən istifadə etmə "metod"larını müzakirə etmişlər.

Senatın hesabatında qeyd edilir ki, xanım Raysın bu işlərdə rolu Senatın Silahlı Xidmətlər Komitəsinə təqdim olunmuş hesabatında yazılanlardan daha çox olmuşdur. O, Komitəyə yazılı açıqlamasında MTB ilə görüşlərə getsə də, proqramı təsdiqləməsinə dair bilgiləri təkzib edib.

Kondaliza Rays 2009-cu ilin aprelində Stenford Universitetində tələbələrlə söhbətində MTB-yə genişləndirilmiş sorğu vasitələ-







rindən istifadəyə icazə vermədiyini açıqlayıb: ***"Mən heç nəyə icazə verməmişəm. Mən Prezident Administrsiyası tərəfindən təqdim olunmuş qanun layihəsini Ədliyyə Departamentinin nəzərinə çatdırmışam. Bu, Prezident tərəfindən təsdiq olunmuşdu."***

## Onu məhkəməyə çağırırlar...

2004-cü ilin martında xanım Rays ABŞ-a terrorçuların hücumları barədə Milli Komissiya qarşısında ifadə verməkdən imtina etdi. Ağ Ev hakimiyyətin bölünməsi barədə Konstitusiya qanununa istinadən ona güzəşt etdi. Ancaq Buş təzyiqlər nəticəsində ifadə verməsinə icazə verdi. (Buş administrasiyası birbaşa Konqres qarşısında məsuliyyətli olmadığına görə Raysın 2004-cü il aprelin 8-də Komissiya qarşısında çıxış etməsinə icazə verdi.) Bununla o, daha bir "ilk"ə imza atdı: siyasi məsələlərə görə ifadə verən ilk Milli Təhlükəsizlik müşaviri...

* * *

Klondaliza Rays İraqa hücumun - hərbi əməliyyatların tərəfdarlarından idi. 2002-ci il, dekabrın 8-də İraq BMT-yə kütləvi qırğın silahları haqqında hesabat verdikdən sonra Rays "Nyu York Tayms" qəzetinə ***"Biz İraqın nə üçün yalan dediyini bilirik"*** adlı məqalə təqdim etdi.

O, Səddam Hüseyn hakimiyyətinin 11 sentyabr olayları ilə birbaşa əlaqəsi olmadığını bildirsə də, İraq məsələsinin Yaxın Şərqdə "11 sentyabr"a səbəb olan qeyri-sabitliyin bir hissəsi olduğunu açıqladı.

İşğaldan sonra İraqda kütləvi qırğın silahlarının olmadığı ortaya çıxdıqda tənqidçilər Raysın iddialarını "hiylə" və "demaqoq qorxutma taktikası" adlandırdılar. "Vaşinqton Post" yazırdı: "Ya o Təhqiqatlar Bürosunda İraqdakı kütləvi qırğın silahları barədə iddialara dair gələn bilgiləri gözardı etmiş, ya da ictimaiyyətə bilərkdən yalan məlumat vermişdir."







...Kaliforniyalı demokrat Senator Barbara Bokser Raysı İraq müharibəsi ilə bağlı tənqid edənlərdəndir. O, deyirdi: "Mən şəxsən inanıram ki, sizin bu əməliyyata göstərdiyiniz loyal münasibət və müharibəni dəstəkləməyiniz həqiqətə olan inamınıza üstün gəlib".

2007-ci il yanvarın 11-də Bokser İraq müharibəsi ilə bağlı debatda deyirdi: "İndi məsələ kimin cavab verməsindədir. Mən buna görə cavab verməyəcəm. Mənim uşaqlarım çox böyükdür, nəvələrim isə hələ çox gəncdir. Başa düşdüyüm qədər sən də ailənlə buna cavab verməyəcəksən. Onda kim cavab verəcək, Amerika hərbiçiləri və onların ailələri?!."

"Nyu-York Post" dərgisi və Ağ Evin mətbuat katibi Toni Snou bunu Raysın subay olması və uşağının olmadığına görə ona qarşı edilmiş təhqir kimi qiymətləndirincə (Snounun şərhinin davamı olaraq), Rays özü deyirdi: "Mən elə zənn edirdim ki, subaylıq və uşaqlarımın olmaması dövlətin xeyrinə qərarlar qəbul edilməsinə mane olmur." (Bokser isə: "Onlar bunu mənim demədiyim bir sözlə əlaqələndirmək istəyirlər. Mən əslində onun da mənim kimi olduğunu - yəni heç birimizin ailəsində hərbiçi olmadığını demək istəmişdim" cavabını vermişdi.)

* * *




Kondaliza Rays 2004-cü ilin prezident seçkilərinə hazırlıq zamanı prezident üçün kampaniya aparan ilk Milli Təhlükəsizlik müşaviri oldu. 2004-cü il, noyabrın 16-da Buş Dövlət katibi vəzifəsinə xanım Kondaliza Raysın namizədliyini





irəli sürdü. 2005-ci il yanvarın 26-da Senat onun namizədliyini təsdiqlədi. Raysın namizədliyinin əleyhinə olan səslər, "Doktor Rays və Buş administrasiyası İraqdakı və terrorizm əleyhinə müharibədəki uğursuzluqlarına görə məsuliyyət daşımalıdır" deyən senatorlardan gəldi. Senator Robert Börd Raysın əleyhinə səs verməsini onun müharibə zamanı Konstitusiyanın ona verdiyindən daha çox səlahiyyətə malik olması ilə əlaqələndirirdi...

* * *

...2005-ci ilin yanvarında Buşun ikinci andiçmə törəni zamanı Kondaliza Rays dünyada barışa və insan haqlarına təhlükə olan ölkələri "tiranlıq yuvaları" adlandırmış və belə ölkələr siyahısına Kuba, Zimbabve, Birma və Belarusu aid edərkən, o cümlədən İran və Quzey Koreyanı da "siyahı"sına əlavə etməyi unutmamışdı.

Xanım Rays hesab edirdi ki, terrorizmlə mübarizə yalnız hökumətlər və təşkilatlara qarşı deyil, onlara təsir edən ideologiylara qarşı da olmalıdır. O, 2005-ci il, iyulun 29-da mətbuata verdiyi açıqlamada ABŞ-ı terrorçuların hücumlarından qorumağın qanun həyata keçirməkdən daha vacib olduğunu deyir və əlavə edirdi: "Biz demokratiya və azadlığı dəstəkləməklə yanaşı, həm də xarici cəmiyyətlərdə bizə qarşı olan nifrət ideologiyalarına qarşı mübarizə aparmalıyıq."

Xanım Dövlət katibi demokratik hökumətlərin tərəfdarı kimi çıxış edirdi. Rays 11 sentyabr olaylarının "əsarət və ümidsizlik"dən qay-







naqlandığını bildirərək, "ABŞ Yaxın və Orta Şərqdə demokratik islahatları genişləndirməlidir" qənaətini dilə gətirirdi.

Rays həm Departamenti, həm də ABŞ siyasətini, anadolular demiş, adəta yenidən qurdu. Dövlət katibliyinə başladıqda o, Yaxın Şərqdə demokratiya yaratmaq məqsədi ilə Transformativ diplomatiya qanununun əsasını qoydu. Raysa görə, Transformativ diplomatiya ABŞ-a partnyorları ilə işləməkdə, daha yaxşı idarə olunan, xalqının ehtiyaclarına cavab verən və özlərini uluslararası düzeydə məsuliyyətli aparan hökumətlər qurmaqda yardım edəcək. Onu da deməliyik ki, "Həmas"ın Fələstində keçirilən seçkilərində qalib gəlməsi, Səudiyyə Ərəbistanında və Misirdə ABŞ-ın dəstəyi ilə avtoritar rejimlərin qalması onun demokratik yolla seçilən hökumətlərə dəstək siyasətinə mane olurdu.



18 yanvar 2006-cı ildə özünün "Transformativ diplomatiya" proqramının Corctaun Universitetində təqdimatı zamanı hədəflər, qarşıda duran işlər və gözlədiyi nəticələr barədə ətraflı məlumat verdi.

Dövlət katibi kimi Rays çoxlu səfərlər edərək, Buş administrasiyası adından bir çox diplomatik addımlar atdı. Onun hərtərəfli prezident dəstəyi alan diplomatiyası bu özəlliyinə görə keçmiş respublikaçı katiblər Henri Kesincer və Ceyms Barkerin diplomatiyasını xatırladırdı.



## "Mədəni" terror: abort

Rays deyirdi: ***"Əgər xatırlayırsınızsa, mən 2000-ci ildə prezident seçkiləri kampanıyasında bu məslənin liberal həllinin tərəfdarı olduğumu bildirmişdim. Mən valideyin seçıminin tərəfdarıyam. Həm də gecikmiş abortun qadağan olunmasının tərəfdarıyam. Mən bunların insanları birləşdirdiyinə inanıram və düşünürəm ki, biz hamımız bu fikirdə olmalıyıq. Mən federal hökumətin bu və ya digər tərəfi qəti şəkildə dəstəkləməsinin əleyhinəyəm."***






O, 1997-ci ildə Hərbdə Gender Yönümlü Təlim üzrə Federal Məsləhət Komitəsinin üzvü olmuşdur.

## 2008-ci il Prezident seçkiləri kampaniyası dövrü

... Rays onun 2008-ci il prezident seçkilərində namizədlyini irəli sürəcəyi barədə fərziyyələrə "Meet the Press" dərgisinə müsahibəsi ilə son qoydu; belə bir fikirdə olmadığını açıqladı. Həmin ilin martında "Vaşinqton Post" qəzetinə müsahibəsində Rays vitse-prezidentlikdə də maraqlı olmadığını etiraf etdi.

2008-ci ilin aprelində Den Senor ABC kanalına müsahibəsində Raysın "son zamanlar vitse-prezidentlik üçün kampaniya apardığını" iddia etdi. Amma bu "iddia"nın ardınca, Raysın mətbuat katibi həmin fikri təkzib etdi.









2008-ci ilin avqustunda Makkain Qubernator Sara Pelini özünə vitse-prezident təyin etdikdən sonra Makkein-Rays fərziyyəsinə də son qoyulmuş oldu.

2008-ci il, dekabr ayının əvvəllərində xanım Rays, yeni prezident seçilmiş Barak Obamanın Dövlət katibi vəzifəsinə Hillari Klintonu seçməsinə, **"O, möhtəşəm qadındır"** sözləri ilə olumlu münasibət bildirərək, bu seçimi alqışladı. Bu, bir qadının başqa bir qadını alqışlamağından daha ziyadə, bir liderin başqa bir lideri, bir intellektualın başqa bir intellektualı alqışlamağı idi...

## Tərifdən tənqidə, tənqiddən tərifə...

Buş administrasiyasında xidmət etdiyinə görə Rays həm daxildə, həm də xaricdə tənqidlərə məruz qalırdı. Amma əleyhdarları ilə yanaşı, tərəfdarları da vardı və o, dünyanın ən güclü ictimai-siyasi xadimlərindən biri kimi hətta onu sevməyənlərin bir çoxu tərəfindən də etiraf olunurdu...

Kondaliza Rays "Taym -100" və "Taym" dərgisinin "Dünyanın 100 ən nüfuzlu şəxsi" siyahısına 4 dəfə düşən 9 nəfərdən biridir. Məqalənin girişində dediyimiz kimi, o, 2004-2005-ci illərdə "Forbes" dərgisi tərəfindən dünyanın ən




güclü qadını seçilmiş; 2006-cı ildə isə həmin siyahıda Almaniya kansleri Angela Merkeldən sonra ikinci yerə sahib olmuşdur.

Heç vaxt ailə həyatı qurmamış və övlad sahibi olmamış Rays bütün həyatını işinə həsr etmişdir.

***

...Belə! Zəngin çalışmalarla dolu daha bir qadın ömrünü vərəqlədik. Kondaliza Rays! - Acılardan keçmiş bir ailənin övladı! Ağ kişi xeylaqlarının qurduğu dövlətdə çox önəmli dövlət vəzifəsi daşıyaraq şöhrətin zirvəsinə qalxmış bir qaradərili qadın!

Bütün hallarda, Kondaliza Rays ABŞ siyasi tarixində, xarici siyasət kitablarında, dünya lider qadınları aləmində (təkcə qadınlar deyil, ümumiyyətlə, liderlərin dünyasında) həmişə xatırlanacaq bir isimdir! Və bizim **"Kondaliza Rays hekayəti"**miz bitsə də, **Kondaliza Rays hekayəsi** (gerçəkliyi!) **hələ bitməyib...**

Adını dünya tarixinə yazmağı bacarmış bir qadın, ünlü ictimai-siyasi xadim olaraq o, bu gün də öz fəaliyyəti ilə Tarix yazmaqda davam edir. O, öz həyat hekayəti ilə bir çoxlarına mümkünsüz görünən uğurları öz zəhməti ilə əldə edərək yüzlərlə gənc qız üçün, belə deyək, ümidsizlər üçün örnək olub. **"Mümkünsüz dediyiniz UĞURLARI əslində mümkün edə bilərsiniz, əldə edə bilərsiniz yetər ki, bunu istəyin və arxasınca yorulmadan gedin"** deyir yüzlərlə gənc qıza onun həyat hekayəti. **...Və bundan sonra uzun illər də bu mesajı verməkdə davam edəcəkdir!**





Dalia Qribauskaite



**Basketbolçu, maliyyəçi, komissar,**

# prezident xanım



- **O, Litvanın ilk qadın Prezidenti kimi adını TARİXə yazdı.**
- **O, ölkəsinin Avropa Birliyinə inteqrasiyasında mühüm rol oynayıb. Avropa Komissarı vəzifəsini tutub.**
- **O, 2005-ci ildə "Avropa Birliyinin xərclərini tədqiqat və inkişaf kimi sahələrə yönəltmə cəhdlərinə görə" "İlin Komissarı" elan olunmuş və ödülə layiq görülmüşdü.**
- **O, Litvalı Böyük Sərkərdə Qyadiminas ordeninin (25 iyun 2003-cü il) komandorudur.**
- **O, 2008-ci ildə Litvada "ilin adamı" mükafatına layiq görülüb.**
- **O, Böyük Vyatautas ordeni ilə təltif edilib.**
- **Bu qadın əvvəllər Litvanın Xarici İşlər Nazirinin müavini, maliyyə naziri və Maliyyə Planlaması və Büdcə üzrə Avropa Komissarı kimi önəmli vəzifələri tutmuş, 2009-cu il iyulun 12-dən bəri isə Litvanın ilk qadın dövlət başçısı olan, çox vaxt "Dəmir Ledi" kimi çağırılan Dalia Qribauskaitedir!**

**Dalia Qribauskaite** 1956-cı ilin martın 1-də Vilnüsdə fəhlə ailəsində dünyaya göz açıb. Anası Vitaliya Qribauskene satıcı, atası Polikarpas Qribauskene isə sürücü işləyirdi. Salomey Neris orta məktəbində oxuduğu illərdə, 11 yaşında idmanla məşğul olmağa başlayan Dalia, xüsusilə basketbola böyük maraq göstərsə də həyatını peşəkar idmana bağlamır. Məktəbi bitirdikdən sonra - 1975-ci ildən 1976-cı ilədək təxminən bir il Litva SSR Dövlət Filarmoniyasında kadrlar şöbəsinin inspektoru vəzifəsində çalışan Dalia sonralar Leninqrad Dövlət Universitetinin axşam şöbəsində siyasi iqtisad üzrə təhsil alır.



Təhsil aldığı illərdə o, 1 saylı Leninqrad xəz fabrikində (hazırda *"Rot-front na Smolenske"* MMC) işləyir. 1983-cü ildə universiteti bitirdikdən sonra həmin il də Sovet İttifaqı Kommunist Partiyasına daxil olan Dalia Vilnüsə qayıdır. 27 yaşlı Dalia Elmlər Akademiyasında işə düzəlir. Amma akademiyada işin azlığına görə o, Vilnüs Partiya Ali məktəbində 1990-cı ilədək siyasi iqtisad və qlobal iqtisadiyyatdan dərs də deyir. 1988-ci ildə Moskvada, Kommunist Partiyasının Mərkəzi Komitəsinin Sosial Elmlər Akademiyasında *(indiki Rusiya Dövlət Qulluğu Akademiyası)* doktorluq dissertasiyası müdafiə edir və 1990-cı ildən 1991-ci ilədək İqtisadiyyat İnstitutunun elmi katibi vəzifəsində çalışır.







Litvanın dövlət müstəqilliyi əldə etməsi ilə bağlı qapılar açılır və ölkə müstəqil şəkildə xarici siyasət aparmağa başlayır, Avropaya inteqrasiya siyasəti yürüdülür. Bir çox gənc insanlar üçün yaxşı fürsətlər və imkanlar yaranır. Onlar öz təhsillərini dünyanın nüfuzlu universitetlərində almaq və ya təkmilləşdirmək imkanı qazanır və aktiv siyasətə qoşulur. Dalia da onlardan biri idi. O, məşhur Corctaun Universitetinin Beynəlxalq İqtisadi Əlaqələr İnstitutunda *(Vaşinqton)* rəhbərlər üçün nəzərdə tutulmuş xüsusi proqramı bitirir.

## Yüksəliş yollarında





Dalia Qribauskaite aktiv siyasətə çox gənc yaşlarından başlayıb. 1990-1993-cü illərdə xarici siyasət sahəsində karyerasına başlayan Dalia Qribauskaite 1991-1993-cü illərdə Beynəlxalq İqtisadi əlaqələr Nazirliyinin Avropa Şöbəsinin direktoru olur. Bundan sonra o, Xa-



rici İşlər Nazirliyində İqtisadi Əlaqələr Departamentinin direktoru vəzifəni tutur və Litva ilə Avropa Birliyi arasında azad ticarətə dair müqavilə ilə bağlı danışıqlara rəhbərlik edir. Tezliklə Litvanın Avropa



Birliyindəki missiyasının fövqəladə və səlahiyyətli elçisi təyin edilən xanım Qribauskaite burada AB-nin Avropa Sazişi müzakirələrində sədr müavini və Brüsseldə Milli yardım Koordinasiya qrupunda təmsilçi kimi çalışır.

1996-cı ildə xanım Qribauskaite ABŞ-ın Litvadakı səfirliyinə səlahiyyətli nazir təyin edilir. O, bu vəzifədə 1999-cu ildə Litva Maliyyə Nazirinin müavini təyin edilənə kimi çalışır. Bu vəzifəsinin bir hissəsi kimi o, Litvanın Dünya Bankı və Beynəlxalq Valyuta Fondu ilə müzakirələrinə rəhbərlik edir. 2000-ci ildə Dalia Qribauskaite xarici işlər nazirinin müavini, 2001-ci ildə isə Alqridas Brazauskas hökumətində maliyyə naziri olur. Onun nazir olduğu dövrdə Litvanın büdcə kəsiri 8,5 faizdən 1,2 faizə düşür və təbii ki, burada onun böyük xidmətləri olur.

## Litvalı Avropa komissarı

2004-cü il mayın 1-də Litva ən vacib məqsədlərindən birinə nail olur. Ölkə Avropa Birliyinə daxil olur və elə həmin gün Dalia Qri-





bauskaite Avropa Komissarı olur. 2004-cü ilin 11 noyabrına qədər Təhsil və Mədəniyyət üzrə Avropa Komissarı olduqdan sonra xanım Qribauskaite Jose Manuel Barrozonun rəhbərlik etdiyi komissiyanın nəzdində maliyyə planlaşdırılması və büdcəyə məsuliyyət daşıyan yeni vəzifəyə - Avropa komissarı vəzifəsinə təyin olunur. Onun bu vəzifədə aktiv və effektli fəaliyyəti özünü çox gözlətmədi. 2005-ci ilin noyabrında Dalia "İlin Komissarı" elan olundu. O, bu ödülə "Avropa Birliyinin xərclərini tədqiqat və inkişaf kimi sahələrə yönəltmə cəhdlərinə görə" layiq görüldü. Xanım komissar özü isə bunu belə şərh edirdi: ***"Mən adətən müsabiqələrdə iştirak etmirəm, ona görə də bu mənim üçün xoş sürpriz oldu. Bu sadəcə mənim işimin deyil, Avropa Birliyinə yeni perspektiv gətirən, irili-xırdalı bütün Birlik dövlətlərinin işinin qiymətləndirilməsidir. Bu, həmçinin, acı həqiqəti dilə gətirmək və Avropada siyasi ritorikanın real qiymətləndirmə cəsarətinə görə verilən ödüldür. Ancaq biz hələ də nəticələri gözləməliyik. 2007-2013-cü illər üçün Avropanın həqiqi ehtiyacı olan büdcə üzrə razılıq əldə edilməsi çox vacibdir."***



Maliyyə və büdcə komissarı kimi o, Avropa Birliyinin büdcəsini tənqid edərək onu *"XXI əsrə uyğun olmayan büdcə"* adlandırıb. AB-nin büdcəsinin çox hissəsi kənd təsərrüfatı proqramlarına sərf edilirdi. Dalia Qribauskaite 2008-ci ildə AB-nin büdcəsini təqdim edərkən, onun tarixində ilk dəfə olaraq, büdcədə artım və işlə təminat üzrə xərclər kənd təsərrüfatı və təbii sərvətlərdən də çox pay tuturdu.

O, tez-tez Baş nazir Gediminas Kirkilasın başçılıq etdiyi Litva hökumətini gözlənilən maliyyə böhranına vaxtında cavab



verməməkdə günahlandırırdı. Bu vəzifədə çalışan zaman xanım Qribauskaite həm Litvada, həm də onun hüdudlarından kənar böyük məşhurluq qazanmışdı. 2008-ci ildə o, Litvada "ilin adamı" mükafatına layiq görüldü. Bununla yanaşı, Qribauskaite Litva hökumətinin yürütdüyü iqtisadi siyasəti qəti şəkildə tənqid edən şəxslərdən biri olaraq qalmışdır.

## Komissar prezidentliyə namizəd olur

26 fevral 2009-cu ildə Daliya Qribauskaite rəsmi olaraq müstəqil namizəd kimi Prezidentliyə namizədliyini irəli sürdü. Onun namizədliyini irəli sürməsi həm mətbuat, həm də onun özü tərəfindən 2009-cu ilin yanvar ayında Litva Seyminin binası qarşısında iğtişaşlara gətirib çıxarmış iqtisadi durumun pisləşməsi ilə əlaqələndirilirdi. O, xüsusi açıqlamasında deyirdi: ***"Litva xalqı mənim Litvada olmağıma ehtiyac duyursa, mən ölkəmə qayıtmağa hazıram. Hesab edirəm ki, ölkəmizdə həqiqətin, şəffaflığın və məsuliyyətin bərqərar olmasını hamımız arzulayırıq. Hamımız qorxusuz, özümüzə, bir-birimizə və sabaha inamla yaşamaq istəyirik. Mən vətəndaşların dövləti olan və vətəndaş tərəfindən idarə olunan Litva yaratmaq və mənəviyyat, siyasət və iqtisadiyyatdan qara kölgələri uzaqlaşdırmaq üçün təcrübə, bilik və bacarıqlarımı tətbiq edə bilərəm***







***və bunu istəyirəm. Buna görə də prezidentliyə namizədliyimi irəli sürürəm."***

Avropa komissiyasının qaydalarına uyğun olaraq, aprel ayının ortalarından xanım Qribauskaite Avropa komissarı vəzifəsinin icrasını dayandırdı. Artıq 2009-cu ilin fevral ayının rəy sorğularında o, reytinqinə görə birinci idi. Müstəqil (bitərəf) namizəd olmasına baxmayaraq, Mühafizəkarlar Partiyası və QHT-lərin çoxu onu dəstəkləyirdi. Dalia Qribauskaitenin namizəd kimi platforması, əsasən yerli məsələlər üzərində cəmlənmişdi. Belə ki, güclü iqtisadi inkişafdan sonra Litva iqtisadi göstəricilərdə iki rəqəmli azalma ilə müşayiət olunan dərin iqtisadi böhranla üzləşmişdi. Mart ayında işsizlik səviyyəsi 15.5%-ə qalxmış və hökumətin azalmaya verdiyi cavaba qarşı yanvar ayının küçə etirazları daha kəskin xarakter almışdı.



Gerçəkliklərə uyğun xətt götürən Qribauskaite, seçki kampaniyası dövründə az gəlirliləri müdafiə etməklə, bürokratik sistemi sadələşdirməklə və hökumətin investisiya proqramını yenidən gözdən keçirməklə maliyyə problemlərinin öhdəsindən gəlməyin mümkünlüyünü vurğulayırdı. Bundan başqa o, Litva Prezidentinin ilkin vəzifəsi olan xarici siyasət sahəsində də yeni (daha balanslaşdırılmış) yanaşma irəli sürürdü.














Prezident seçkiləri 17 may 2009-cu il tarixdə keçirildi. Dalia Qribauskaite 68.18% səs toplayaraq əksər səs çoxluğu ilə qalib gəldi. Seçkilərdə qalib gəlməklə Dalia Qribauskaite yalnız Litvanın ilk qadın prezidenti olmadı, o həm də ölkəsində prezident seçkilərində ən çox səs toplayan namizəd kimi tarixə düşdü!

Siyasi analitiklər Qribauskaitenin asan qələbəsini onun maliyyə sahəsində peşəkarlığı, nüfuzu və yerli qalmaqallardan uzaq olmaq bacarığı ilə bağlayırdılar.

O, Litvanın ilk qadın prezidenti olaraq and içdi. Tərəfdarlarının böyük həyəcanla izlədiyi mərasimdə prezident deyirdi: ***"Mən and içirəm ki, Litva Respublikasını, onun xalqını və konstitusiyasını qoruyacaq, qanunlara hörmət göstərərək, onlara əməl edəcək və Litvanın torpaq bütünlüyünü müdafiə edəcəyəm; and içirəm ki, öz vəzifəmi vicdanla, namusla yerinə yetirəcək, hər kəsə bərabər hüquqlar tanıyacağam. and içirəm ki, bütün gücümü Litvanın müstəqilliyinə, Vətənə xidmətə həsr edəcək, demokratiya və Litva insanının yaxşı yaşamasına yönəldəcəyəm. Tanrı mənə yar olsun!"***

Andiçmə mərasiminin sonunda, parlament binasının yanında artıq yeni prezidentin onlarla pərəstişkarı durmuşdu. "Ölkə etibarlı əllərdədir" - bəziləri əllərində bu cür sözlər yazılan plakatlar tutmuşdular. Əksər vətəndaşlar Kafedral meydanına doğru axışırdılar, burada əsgərlər parada hazırlayırdılar. Bəzi qoşun rəhbərləri yeni Ali Baş komandanın gəlişi öncəsi nəzərəçarpacaq dərəcədə həyəcanlı idilər. Bu, xüsusilə də özünü Qribauskaitenin rəis və generallarla tanışlığı zamanı büruzə verirdi. Bəziləri prezidentin yalnız barmaqlarının ucunu yüngülcə sıxırdılar, sanki onlar büllurdan idilər və möhkəm əl sıxmadan ovulub töküləcəkdilər, bəzi cəsarətlilər isə ölkənin rəhbərinin uzadılmış əlini cəsarətlə sıxırdılar. Onların özü üçün də çox maraqlı idi. İlk dəfə Ali Baş Komandan qadın olacaqdı!







Prezident sarayının şpilindən Valdas Adamkusun şəxsi bayrağı salınıb, Dalia Qribauskaitenin bayrağı asıldığından, eks-prezident öz reqaliyalarını ölkənin yeni rəhbərinə təqdim etdikdən və qədim topdan atılan yayım atəşlərindən sonra dövlətin yeni başçısı tam şəkildə vəzifənin icrasına başladı. Xalqına müraciətlə: ***"Mənim bu vəzifəni tutmağım sizin istəyinizin və mənim öz müqəddəratımı təyin etməyimin nəticəsidir. Hakimiyyətə şöhrət və ya pul naminə gəlmirlər. Siyasət - biznes növü deyildir. Bu, istəkdir! Mən insanlara rəhbərlik etmək üçün deyil, onlara xidmət etmək üçün gəlmişəm! Həyatı yaxşılaşdırmaq və Litvanın möhkəmləndirmək - mənim üçün böyük mükafat və məqsəddir"*** - dedi.

O, artır prezident kimi Litvanın gələcəyi üçün hər kəsi daha məsuliyyətlə olmağa və birlikdə çalışmağa dəvət edirdi. Eyni zamanda, ölkə ilə bağlı bugünkü və gələcək düşüncələrini də açıq şəkildə cəsarətlə deyirdi: ***"Azadlıq və demokratiya coşqusu ürəkdə yaranır. Dövlət də ürəkdə yaranır.***



***Necə dövlət istədiyimizi, özümüzün necə olduğunu dərk etməmiz üçün min il kifayət idimi? Bu gün məni əhatə edən və bütün Litvadan gəlmiş hörmətli bayraqdarlar! Şəhər və qəsəbələrimizdə hakimiyyətin insana olan nifrətinin, qanuna hörmətsizliyinin, ədalətsizliyin kifayət qədər olduğunun özünüz şahidisiniz.***

***Gəlin dövləti özümüz quraq! Gəlin özüldən - yerli hakimiyyətdən başlayaraq.***

***Merləri və ağsaqqalları gəlin birbaşa seçək, gəlin yerli siyasətçiləri öz seçiciləri qarşısında hesabat verməyə məcbur edək. Lakin gəlin yanlış yola dönməyək. Əgər biz boş vədlərə səs versək, yaxud açığa, aldatmaya şirniksək, yaxud özümüz satın alsaq - onda demokratiya parodiyaya çevriləcəkdir.***

***Əziz həmvətənlər! Litvanı gəzərkən mən insanların bir-birinə olan nifrətini, özünü məhv etməsini gördüm. Yoxsulluq və cah-calal arasında böyük uçurum mövcuddur. Litvada qarşıdurma hökm sürür. Mən Litvanı barışığa çağırıram! Biz bir xalq, bir dövlətik. Yalnız birgə zəhmətlə biz Litvanı iqtisadi, siyasi və mənəvi tənəzzüldən xilas edə bilərik".*** Andiçmə mərasimindən bir neçə gün sonra əksər siyasətçilərin qeyd edirdilər ki, prezidentin çıxışı kifayət qədər konkret idi və bir sıra vədlər verirdi və yeni lider xalq arasında həqiqətən də fantastik məşhurluğunu qoruyub saxlamaq istəyirsə, bu vədlərə indi əməl etməsi lazımdır. Onun xalqa vədləri isə böyükdür və onların yerinə yetirilməsindən prezidentin özünün də dediyi kimi sözün əsl mənasında Litvanın gələcəyi asılıdır!

Prezident səlahiyyətlərini 12 iyul 2009-cu ildə qəbul edən Dalia







Qribauskaite ilk olaraq öz məvacibini azaltdı. O, öz prezident məvacibinin yarısını (312.000 lit) qəbul etdi. O, hələ az müddət keçməsinə baxmayaraq, verdiyi vədlərin həyata keçirilməsi istiqamətində ciddi addımlar atır və uğurlar əldə edir. Ölkəsinin beynəlxalq aləmdə nüfuzunun qaldırılmasını özünün prioritetlərindən biri elan edən prezident ölkəsinin beynəlxalq arenada daha aktiv rol oynaması istiqamətində əlindən gələni edir. Məsələn, Litva Prezidenti "Dondurulmuş" münaqişələrin nizamlanması proseslərinin Litvanın ATƏT-ə sədrliyi dövründə prioritet olacağını vurğulayıb. Dalia Qribauskaytenin nümayəndəsi bəyan edib ki, ***"Prezident və xarici işlər nazirinin Qafqaz regionuna və digər qaynar nöqtələrə səfərləri nəzərdə tutulub. Oradakı vəziyyəti öyrənmək, araşdırmaq və ümumilikdə ATƏT üçün həllini tapmaq lazımdır".***



Dalia Qribauskayte isə bəyan edib ki, Litva təşkilata sədrliyi dövründə "dondurulmuş" münaqişələrin həllində tərəqqiyə nail olmaq, yeni təhlükələr, o cümlədən, enerji, izolyasiyası və kibernetik təhlükələrlə mübarizədə əməkdaşlığı möhkəmləndirməyə çalışacaq.



**"Litvanın Dəmir Ledisi"** ölkəsində ən çox səs toplamış bir prezident kimi xalqın ona ümidlərini və etimadını qoruyub saxlamaq və ilk Qadın Prezident olaraq ölkəsində qadınların hakimiyyətin ən yüksək postunu gələcəkdə də tutması üçün daha uğurlu cığır açmaq istiqamətində yorulmadan çalışır!

*Öz doğma dili ilə yanaşı, ingilis, rus, fransız və polyak dillərini də bilən Dalia Qribauskaite, Marqaret Tetçeri və Mahatma Qandini özü üçün siyasi örnək hesab edir. Natiqlik qabiliyyətinə və karatedə "qara kəmər" sahibi olmasına görə beynəlxalq mətbuat onu "Litvanın Dəmir Ledisi" adlandırır! Bu ad Marqaret Tetçer kimi onun da xoşuna gəlir və özünün aktiv və uğurlu fəaliyyəti ilə* ***"Litvanın Dəmir Ledisi" adını TARİXə yazmış Dalia Qribauskaite bir LİDER olaraq həm də TARİX yazır!***



## Laura Çinçilla Miranda



■ O, Kosta Rikanın ilk qadın prezidentidir.

■ O, Latın Amerikasının tarixində beşinci qadın prezident kimi adını tarixə yazıb.

■ Tərcümədə "zəngin, varlı sahil" adlanan Kosta Rikanın prezidenti Laura Çinçilla Miranda (Laura Chinchilla Miranda) 1959-cu ilin 28 martında Kosta Rikanın paytaxtı San Xosenin fəhlə vilayəti sayılan Desam Paradosda anadan olub. O, Rafael Angel Chinchilla Fallas ilə Emilce Miranda Castillonun dörd uşağından ən böyüyü və yeganə qız övladı idi. Laura ölkənin siyasi həyatını yaxından təftiş edən atasını izləyərək böyüyür.

■ Onun ölkəsi Mərkəzi Amerikanın ən kiçik ölkələrindən biridir. Nikaraqua və Panama Respublikaları ilə həmsərhəd olan Kosta Rika sahillərini güney və qərbdə Sakit Okean, şərqdə isə Karib Dənizi yuyur. Kosta Rika dünyada ilk ölkədir ki, 1949-cu ildən, yəni vətəndaş müharibəsindən sonra ordunu ləğv edib.







■ O, Kosta Rika Universitetini bitirdikdən sonra ABŞ-ın Corctaun Universitetində inzibati idarəetmə üzrə magistr dərəcəsi alır. 1982-ci ildə Mario Alberto Madrigal Diazla ailə həyatı qursa da, cütlük 1985-ci ildə yollarını ayırırlar. O, təkrar 2000-ci ildə Jose Maria Rico Cueto ilə ailə həyatı qurur və bir oğulları var.

■ Siyasi karyerasına 1990-cı illərdə başlayan Laura Çinçilla həmin illərdə müxtəlif beynəlxalq hüquq təşkilatlarında institusional islahatlar sahəsində məsləhətçi kimi çalışır. Onun fəaliyyətində məhkəmə hüququ və dövlət təhlükəsizliyi sahəsində islahatlar xüsusi yer tuturdu. Həmin zamanlar o, müxtəlif beynəlxalq proqramlarda, o cümlədən, BMT-nin proqramlarında iştirak edirdi. Laura Çinçillanın fəaliyyətində vacib istiqamətlərdən biri Latın Amerikası ölkələrində, o cümlədən, Kosta Rikada polis sisteminin islahatları oldu. Onun məhkəmə hüququ, ictimai təhlükəsizlik və polisdə islahatlarla bağlı çoxlu məqalələri, monoqrafiyaları da var.



■ 1994-cü ildə O, Xose Maria Fiqueres Olsen administrasiyası dövründə ictimai təhlükəsizlik nazirinin müavini vəzifəsini tutur. 1996-cı ildə isə ictimai təhlükəsizlik naziri təyin olunur və 1998-ci ilə kimi bu sahədə çalışır. 2002-ci ildən Milli Assambleyada San Xose əyalətini təmsil edərək, 2006-cı ilə qədər parlamentdə aktiv fəaliyyət göstərir.

■ O, Kosta Rikanın ünlü prezidenti, Nobel mükafatı laureatı, Oskar Ariyasın hakimiyyəti dövründə vitse-prezident və ədliyyə naziri olub. Laura Çinçilla Prezidentin yaxın silahdaşlarından hesab olunurdu.



## Uşağını döymə, cəzalanarsan!

Onun nazirliyi dövründə Kosta Rika hakimiyyəti valideynlərə uşaqları fiziki yolla cəzalandırmağı qadağan edən qanun qəbul etdi. Qanunu şərh edərkən vitse-prezident Laura Çinçilla deyirdi: ***"Qanun valideynləri uşaqlarını fiziki cəzalandırma yolu ilə deyil, sevgi və qayğı ilə tərbiyə etməyə məcbur etməyə yönəlib".*** Qanun təkcə valideynləri deyil, məktəbəqədər müəssisələrdə, məktəblərdə müəllim və tərbiyəçiləri də nəzərdə tuturdu. Qanuna görə, uşaqlar valideynlərindən Uşaq Milli Düşərgəsinə şikayət edə bilərdi. Həmin təşkilata bu cür qanun pozuntularını araşdırmaq tapşırığı verilmişdi. Qanunu pozan ailəni böyük cərimələr gözləyir. Qanunun qəbul olunmasında ölkənin hüquq müdafiəçiləri böyük rol oynamışdılar. Ölkədə uşaqların 65%-nin valideynləri tərəfindən fiziki güc tətbiqinə məruz qaldığını vurğulayan hüquq müdafiəçiləri, 5 il ərzində qanunvericiləri bu birmənalı qəbul edilməyən qanunun vacibliyinə inandıra bilmişdilər. Qanunun qəbul edilməsində Laura Çinçillanın müstəsna rolu var idi!





## İstefa və ...hazırlıq

O, 2008-ci ildə Oskar Ariyasın administrasiyasından istefa verərək, 2010-cu il seçkilərinə hazırlaşmağa başladı. Prezidentlə eyni partiyada təmsil olunan Laura Çinçillanın namizədliyini prezident Oskar Arias da dəstəkləyirdi. Laura Çinçilla 2009-cu ilin iyununda Milli Azadlıq Partiyasının ilkin seçkilərində 15% səs fərqi ilə rəqibini geridə qoyaraq, prezidentliyə namizədliyini irəli sürdü.



Laura Çinçillanın Milli Azaqlıq Partiyası *"daha yaxşı dünya üçün irəliləyən siyasət"* adı altında fəaliyyət göstərən Beynəlxalq Sosialist Təşkilatının üzvüdür.

## Mənəviyyatlı siyasətçi



2009-cu ilin noyabrında Laura Çinçilla kilsə liderləri ilə birgə "Həyat və Ailə üçün yürüş"ü dəstəkləyərək, yenicə qəbul olunmuş abortun qanuniləşdirilməsi və eynicinsli nikah haqda qanunlara qarşı çıxırdılar. Çünki Laura Çinçilla özü də abortun və eynicinsli nikahların əleyhdarlarından biridir. Bu hərəkat, yürüş bir çox Kosta Rikalı hüquq müdafiəçiləri arasında narazılığa səbəb olsa da Çinçilla bu yürüşün heç bir qrupa qarşı yönəlmədiyini bildirdi.



## Dünyəvi, amma dindar...



O, Kosta Rika Konstitusiyasında kilsə və hökumətin ayrılmasını təmin edəcək hər hansı bir əlavə və dəyişikliyin edilməsinə qarşı çıxır. Ha-

zırkı Konstitusiyaya əsasən Kosta Rika katolik dövlətdir. Bu məsələdə onun mövqeyi ölkədə dünyəviliyi dəstəkləyən keçmiş prezident Oskar Ariasın əksinədir. Onların bir çox məsələlərdə baxışları üst-üstə düşsə də bu məsələdə fikirləri ziddiyyət təşkil edirdi...

## Səs verən də gəlsin, səs verməyən də

Laura Çinçilla 7 fevral 2010-cu ildə keçirilən prezident seçkilərində hakim partiyanın namizədi kimi qalib gəlir. Kosta Rika Milli Azadlıq Partiyasından namizədliyi irəli sürülən xanım Çinçilla, səslərin 46.7%-ni toplayaraq, prezident postuna yüksəlir. Mətbuat yazır ki, Laura Çinçilla heç zaman prezident olmağı və ilk qadın prezident kimi Kosta Rika tarixinə düşməyi arzulamayıb. Amma oldu! 2010-cu ildən başlayaraq, o, 4 il



dövlətin başçısı olacaq. Minlərlə tərəfdarının toplaşdığı qələbə mitinqində çıxışı zamanı Laura Çinçilla Kosta Rikalıların ona olan etimadını itirməmək üçün əlindən gələni edəcəyini açıqladı.

Onu seçməklə ölkə vətəndaşları Prezident Oskar Ariasın kursunun davam etməsini dəstəkləyiblər. 50 yaşlı Laura Çinçilla prezident Oskar Ariasın davamçısı kimi qəbul edilir. Qeyd edək ki, Oskar Arias özü onun namizədliyini irəli sürüb.





***"Mənim administrasiyamın qapısı Kosta Rikanın bütün vətəndaşlarına açıqdır. Bu o deməkdir ki, biz bizi seçkilərdə dəstəkləməyənlərin səslərini diqqətlə dinləyəcəyik. Biz onlardan kömək və əməkdaşlıq xahiş edirik"*** - o, qələbə münasibəti ilə təşkil edilən mitinqdə çıxışında belə deyib. Laura Çinçilla, xüsusilə ölkəsinin qadınlarına böyük minnətdarlıq edib. Çünki onun hakimiyyətə gəlməsində, qələbəsində qadınların müstəsna rolu olmuşdu: ***"Mən bütün qadınlara təşəkkür edirəm. Bir neçə il əvvəl Kosta Rika siyasətinin qapılarını zərif cinsin üzünə açan qadınlarımıza təşəkkür edirəm".***



Amma onu təkcə qadınlar dəstəkləmirdi. Minlərlə kişi tərəfdarı da onun ölkəyə yaxşı prezident olacağını vurğulayaraq, ona dəstək vermişdilər. Onun qələbəsini minlərlə tərəfdarı San-Xose küçələrində bayram etməklə qeyd etdilər. Qələbə qazanan prezidentin sevinc içərisində həyat yoldaşına təşəkkür öpüşünün şəkli isə nəinki Kosta-Rikanın mətbuat səhifələrində, dünyanın bir çox KİV-də, internet saytlarında geniş yayılmışdı.



Prezident kimi xanım Çinçillanın ilk təşəbbüslərindən biri qadınlar üçün həftədə 3 istirahət gününün verilməsi idi. O, həftənin 5-ci gününün də qadınlar üçün istirahət günü kimi verilməsini təmin etdi: ***"Biz güclüyük, hətta bəzən zəif görünsək də. Biz çox şeyi bacarırıq, biz inadkarıq və heç zaman geri çəkilmirik. Mən Kosta Rikanın ilk qadın prezidenti olaraq qadınlar üçün həftədə 3-cü istirahət günü (ona qədər Kosta Rikada həftədə 2 istirahət günü var idi) verilməsini istəyirəm".***










Qadın haqlarının mübarizi kimi o, qadınların hüquq-mühafizə orqanlarında geniş təmsil olunması istiqamətində də addımlar atmağa başladı. Ümumiyyətlə, Kosta Rika da daxil olmaqla, Latın Amerikasının bir çox ölkələrində gender bərabərliyi problemi cəmiyyətlərin və dövlətlərin əsas diqqət mərkəzindədir. Böyük siyasətdə, dövlətin idarə edilməsində qadınların rolu sürətlə artmağa başlayıb. Onlar dövlətin ən yüksək postları uğrunda kişilərlə fəal rəqabət aparırlar və uğurlu nəticələr əldə edirlər. Kosta-Rikada məhz bu ölkələrdən biridir. Kosta Rikalılar öz prezidentlərinin təkcə gözəlliyi ilə deyil, ağılı, savadı və gördüyü işlərlə də qürur duyduqlarını deyirlər.

Laura Çinçillanın parlamentdə də böyük iş təcrübəsi olduğu üçün ölkənin bütün siyasi partiyaları ilə dialoq yarada biləcəyi bildirilir. Onun partiyası yeni parlamentdə əksəriyyət təşkil etmədiyi üçün bu çox vacib və önəmlidir.

## Qadın rəhbərin ilk addımı: səhiyyə, təhsil...

50 yaşlı Laura Çinçilla özünün 4 illik hakimiyyəti dövründə əhaliyə göstərilən səhiyyə və təhsil xidmətlərinin keyfiyyətinin daha da yaxşılaşdırılmasına və ictimai təhlükəsizliyin yüksəldilməsinə xüsusi diqqət göstərəcəyini açıqlayıb və bu istiqamətdə verdiyi vədə əməl etməyə başlayıb.

***

Prezidentliyə qədərki fəaliyyəti dövründə Laura Çinçilla həmişə təhlükəsizlik, mütəşəkkil cinayətkarlığa və narkotrafikə qarşı mübarizə sahəsinə böyük diqqət göstərmişdi. O, ölkəsində narkomafiyanın qatı düşməni kimi tanınıb. Bu sahələr prezident kimi də onun prioritetləri arasındadır. Ölkə əhalisinin çoxu təhlükəsizliyi ölkənin daha kəskin problemi





hesab edir və prezident onlara bu sahədə durumu yaxşılaşdırmaq üçün bütün qüvvəsini sərf edəcəyini vəd edib. O, deyib ki, narkomafiyaya qarşı mübarizə, xarici yatırım cəlb etməklə iş yerlərinin yaradılması, ekoloji təmiz enerji istehsalı, azad ticarət (siyasəti) onun siyasətinin əsasını təşkil edəcək və fəaliyyətində də vəd etdiyi kimi bu sahələrə böyük diqqət göstərir.

Laura Çinçillanın siyasi platforması Kosta Rikanın artmaqda olan təhlükəsizlik probleminin həlli kimi anti-cinayət qanunvericiliyin vurğulanması idi. Onun həmçinin öncəki hökumətin azad ticarət siyasətini davam etdirməsi gözlənilir.



Laura Çinçillanın əsas diqqət mərkəzində olan mövzulardan biri də dünyanı narahat edən iqlim dəyişikliyi problemləridir. O, bu istiqamətdə beynəlxalq əməkdaşlığın daha da genişlənməsinin vacibliyini vurğulayaraq, bu istiqamətdə hər kəsin üzərinə düşən məsuliyyəti dərk edərək yerinə yetirməsinin vacibliyini də önə çəkir.



## Yeni nəslin nümayəndəsi



Laura Çinçilla yeni nəsil Kosta Rika peşəkar qadınlarının bir nümayəndəsidir. Kosta Rika prezidentini ölkəsində bu üç sözlə təsvir edirlər: **Səmimi! Ciddi! Lider!**

Onun fəaliyyəti və keçmişi bu tərifi təsdiqləyir. O, bu yaraşdırmanı haqq edib. Bir dövlət başçısı, özü də bir qadın prezident üçün bu üç sözün deyilməsi, onun siyasi simasının bu sözlərlə ştrixlənməsi diqqətəşayan, təqdirəlayiq bir





haldır. Siyasi şərhçilər, analitiklər hesab edir ki, onun fəaliyyəti xanım prezidentin yalnız əvvəlki hakimiyyətin siyasi varisi olmaqla kifayətlənmək niyyətində olmadığını, sövq-təbii bir istəklə (və qabiliyyətlə!) daha irəli hədəflərə yürümək, zaman-zaman özünəməxsus yeni siyasət şəkilləndirmək olduğunu deməyə əsas verir.

O, artıq adını nəinki ölkəsinin, dünyanın TARİXinə yazmış bir qadındır. İndi əməlləri ilə bir TARİX yazır! Hədəfi isə yazılan TARİXdə müsbət bir qəhrəman kimi, bir LİDER kimi qalmaqdır! O istəyir ki, Kosta Rikalılar və dünya daim onu isti sözlərlə, müsbət fikirlərlə yad etsinlər, gələcəkdə isə xatırlasınlar... O, bunun üçün yorulmadan çalışır. Üstəlik, ölkəsinin ilk qadın prezidenti kimi onun çox önəmli bir missiyası da var. O, elə çalışmalıdır ki, açdığı cığırla Kosta Rikalı qızların yürüməsinə inam yaratsın. Həm onların özlərində, həm də seçicilərdə... Və gələcəkdə hər kəs onun yerini tutmaq istəyən bir QADIN LİDER haqqında "niyə də olmasın? Laura Çinçilla göstərdi ki, bir qadın ölkə üçün kişidən heç də pis prezident olmadı, əksinə, daha yaxşı bir prezident oldu" desin. Maraqlıdır ki, o, artıq buna nail olur. Hələ prezidentliyinin yenicə başlamasına baxmayaraq...

**Qarşıda isə onu bir LİDER üçün vacib olan illər və sınaqlar gözləyir...**





■ **Luiza Diaz Dioqo. Mozambikin ilk qadın baş naziri. Onunla 2008-ci ildə Vyetnamda, Hanoyda keçirilən Ümumdünya Qadın Sammitində tanış olmuşdum. Sammitdəki çıxışı, həyata keçirdikləri layihələr, bu günə və gələcəyə baxışlarına dair fikirləri xoşuma gəlmişdi. Sammitin prezidenti İrene Natividad bizi tanış edərkən, "xanım baş nazir, maraqlı çıxış etdiniz" dedim. O da gülümsəyərək, "elə siz də" - dedi. Yaxından tanışlığımız belə başladı. Əslində, onu qiyabi tanıyırdım, ölkəsi və Afrika qitəsi üçün gördüyü önəmli işlərdən, böyük əziyyətlər, zəhmət hesabına qazandığı uğurlardan xəbərim vardı və onunla yaxından tanış olmaqdan məmnun idim. Söhbət etdik Azərbaycandan, Mozambikdən və dünyadan...**



■ **"Taym" jurnalına görə, "qara qitə"dəki kasıb bir ölkənin xanım baş naziri dünyanın ən ali liderləri siyahısındadır və o, "bir zamanlar dövlət kimi mövcudluğu iflasa uğramış ölkənin iqtisadi artımını Asiya ölkələri səviyyəsinə gətirən şəxsiyyət" kimi dəyərləndirilib! Təbii ki, belə bir şəxsiyyətlə, liderlə, qadınla söhbət çox xoş idi.**

■ **Afrikanın cənub-şərqində yerləşən Mozambik əhalisinin 70 faizdən çoxunun yoxsulluq səviyyəsindən də aşağı (!) yaşamasına görə dünyanın ən kasıb ölkələrindən biri sayılır. Bu azmış kimi, ölkədə həm də tez-tez quraqlıq, daşqınlar müşahidə olunur. 2004-cü ildə isə Mozambikin - 17 il davam edən vətəndaş savaşının acı izlərini hələ də "yaşadan" bu balaca ölkənin üstünə gün doğmağa başladı - Luiza Diaqo Mozambikin baş naziri oldu.**

## Mozambik tarixinin ilk qadın Baş naziri

Ölkədə 1975-ci ildən bəri hakim olan FRELİMO-nu ("Mozambik Azadlıq Cəbhəsi" Partiyası) təmsil edən Xanım Dioqo 2004-cü ilin













fevralından 2010-cu ilin yanvarına kimi Mozambikin Baş naziri olub. Luiza Baş nazir olmazdan əvvəl, 2005-ci ilin fevralına kimi nazir vəzifəsində çalışıb. O, öncəki 9 il ərzində baş nazir olmuş Paskal Mokumbini əvəz etmişdir.

1958-ci ildə Mozambikdə anadan olan **Luiza Dioqonun** gəncliyi Mozambikin çox ağır dövrünə düşmüşdü. 1980-ci ildə, hələ universitetdə oxuyarkən o, Mozambikin Maliyyə Nazirliyində işləməyə başlamışdı. Bu, ölkə üçün çox ağır zamanlar idi: ***Mozambik siyasi və hərbi çevrilişlər dövrünün keşməkeşlərini yaşayırdı...***

## Portuqallar getdi, dərdlər getmədi...

Bu ölkə 1975-ci ildə Portuqaliyadan müstəqillik əldə etmiş və Mozambik Xalq Respublikası olmuşdu. Lakin Respublika, Müstəqillik və Sülh... yaxşı nemətlər olsa da, bu sevincin ömrü uzun çəkmədi. Mozambikdə vətəndaş savaşı başladı - ölkəni portuqallardan xilas edən, anti-portuqal mövqeli, kommunist yönümlü ***"Mozambik Azadlıq Cəbhəsi"*** (FRELİMO) və anti-kommunist ***"Mozambik Milli Müqavimət"*** Partiyası (RENAMO) arasındakı ədavət 17 (!) il davam etdi və milyonlarla (!!!) insanın həyatına son qoydu...



## FRELİMO-RENAMO, RENAMO-FRELİMO...

FRELİMO ölkədə birpartiyalı sosialist sistem yaratmışdı, ancaq tez-tez RENAMO-nun müqaviməti ilə rastlaşırdı. Partizan dəstələri körpüləri yandırır, elektrik xətlərini kəsir və yolları bağlayırdı. Bu da ərzaq və dərman çatışmazlığını, işsizliyi, yoxsulluğu artırırdı. Ölkə iqtisadiyyatı dayanmış vəziyyətdə idi. 22 yaşlı Dioqo - bu vətənpərvər qız, bütün olub-bitənlərə cavab axtarırdı. Həyəcanı, axtarışları, eşqi, təlaşı onu Sabaha səsləyirdi. Eduardo Mondleyn Universitetini iqtisadiyyat üzrə bakalavr dərəcəsi ilə bitirən Luiza Dioqo tezliklə nazirlikdə irəli gedərək, 1986-cı ildə şöbə müdiri, 1989-cu ildə isə milli büdcə direktoru oldu. 1992-ci ildə isə London Universitetindən Maliyyə iqtisadiyyatı üzrə magistr dərəcəsi aldı. Daha sonralar o, Dünya Bankında Mozambik üzrə layihə rəhbəri kimi çalışmağa başladı. 1994-cü ildə prezident Çissano hakimiyyətə gəldikdən sonra artıq istedadlı mütəxəssis, perspektivli kadr kimi diqqəti cəlb etmiş Luizanı FRELİMO hökumətində maliyyə nazirinin müavini vəzifəsinə dəvət etdi. Təklifi qəbul edən Dioqo həmin vaxt 36 yaşında idi.










Dioqo maliyyə nazirinin müavini kimi hökumətin 5 illik inkişaf planının həyata keçirilməsində çox vacib rol oynayırdı. Ölkə hələ də vətəndaş savaşının "nəticəsiz nəticə"sindən - "qalıqlar"dan əziyyət çəkdiyinə görə əsas məqsəd sərhədlərin möhkəmləndirilməsi idi. 1999-cu ilə kimi ikinci inkişaf planı artıq sırf iqtisadi sahəyə yönəlmişdi. Həmin ildə Dioqo maliyyə naziri təyin olundu və o, necə deyərlər, *"qollarını çırmalayaraq"* Mozambikin əsas problemlərini, vəzifələrini çözməyə davam etdi.





## Afrika üçün "ilin maliyyə naziri"



Xanım nazir yoxsulluğu aradan qaldırmaq və iqtisadi inkişafa nail olmağı özünün, ümumən, mənsub olduğu hökumətin prioriteti kimi dəyərləndirərək, bu istiqamətdə olumlu addımlara imza atdı. Günü-gündən artmaqda olan nüfuzundan istifadə edən enerjili nazir bir çox beynəlxalq fondlardan, o cümlədən, Dünya Bankından və Beynəlxalq Valyuta Fondundan qrantlar almağa nail oldu. 2000-ci illərdə maliyyə yardımı Mozambikin dövlət büdcəsinin 60%-ni təşkil edirdi. Dioqo təkcə 2004-cü ildə dünya bankından 790 milyon dollar almışdı. Bu yardımlar iqtisadiyyata gərəkli təşəbbüslər






etməyə imkan verdi. Buna telekommunikasiyada yeniliklər, kənd təsərrüfatı məhsulunun həcminin artırılması və QİÇS-lə mübarizə proqramının maliyyələşdirilməsi daxil idi. Bütün bu uğurlar Dioqonun adı ilə bağlı idi! ***"The Banker"*** jurnalı 2004-cü ilin yanvar buraxılışında Dioqonu ***"Afrika üçün ilin maliyyə naziri"*** elan etdi!

Yollar, açıq-açığına yuxarı - daha yuxarı aparırdı! Bunu artıq onun rəqibləri də, rəğbət qrupu da görür və barışırdılar.

## Xanım Baş nazir!

2004-cü ilin fevralında Mozambikin baş naziri **Paskal Mokumbi** Beynəlxalq Səhiyyə Təşkilatında işləmək üçün vəzifəsini tərk etdi. Prezident Çisanno isə Dioqoya Baş nazirlik vəzifəsini təklif etdi. Mozambik Konstitusiyasına görə prezident hökumət başçısıdır və beş ildən bir seçilir. Prezident Baş nazirin təyin edilməsi üçün məsuliyyət daşıyır. ***"Dioqnun baş nazir təyin edilməsi, çubuğun azadlıq üçün mübarizə aparanlardan azadlıqdan sonrakı dövrdə təlim görmüşlərə ötürülməsi idi"*** - Regional İqtisadi İnkişaf və inteqrasiya hesabatında Bonifaçio Antonio elə beləcə də deyirdi...

Dioqonun ilk addımlarından biri ölkəni 20 ildən artıq müddət ərzində ağuşuna almış QİÇS-ə qarşı mübarizə oldu. 2004-cü ilin hesabatlarına görə 18 milyonluq Mozambik əhalisinin 1,4 milyonu immun çatışmazlığı virusundan əziyyət çəkirdi və hər gün 500 nəfər bu virusa yoluxurdu. Afrika Xəbərlər Xidmətinin hesabatına görə, Dioqo mətbuat konfransında ***"bütün bu ölçülərə baxmayaraq, xəstəlik ölkədə hələ də artmaqdadır. Biz hazırda Mozambikdə yaranmış vəziyyəti qəbul***








***edə bilmərik"*** - deyə, vəziyyətə strateji münasibətini açıqlayırdı. 2004-cü ilin iyulunda Dioqo QİÇS proqramını açıqladı. Proqramın məqsədi insanları QİÇS barədə bilgiləndirmək; xəstəliyə yoluxmuş insanları və onların ailələrini əlavə gəlirlə təmin etmək; xəstəliyə yoluxmuş insanlar, yaxud bu xəstəlik ucbatından yetim qalmış uşaqlar üçün qayğı mərkəzlərinin yaradılması idi.



O, təhsil və səhiyyə xidmətlərini də genişləndirməyə söz verdi. Bundan əlavə, Dioqo bir çox başqa sahələrdə, o cümlədən, ədliyyə və polis sistemində islahatlar edəcəyinə söz verdi. Bütün bunlarla yanaşı, 2005-ci il mayın 15-də keçirilən mətbuat konfransında əsas məqsədinin ölkədə yoxsulluğun səviyyəsinin azaldılması olduğunu dedi.



Qadın lider kimi Dioqo bütün Afrika ölkələrinin səhiyyə nazirlərini qitə ərazisində reproduktiv və cinsi sağlamlıq xidmətlərinin pulsuz verilməsinə çağırdı və bu, çox önəmli bir hadisə oldu. Bu xidmətlərin uşaq ölümünü 2/3 qədər, ana ölümünü 3/4 qədər azaldacağı proqnozlaşdırılır. Bu proqramın QİÇS-in yayılmasının qarşısını alacağına və gender bərabərliyi istiqamətində müsbət töhfələr verəcəyinə ümid bəslənir. BMT buna 2015-ci ilə qədər nail olmağı hədəfləyib.





## Bir qadının başlatdığı Yeni Era

2004-cü ilin dekabr seçkilərindən sonra prezident Çissano FREMİLO namizədi Armando Quebuza ilə əvəz olundu. Dioqo baş nazir vəzifəsində qalırdı, ancaq maliyyə naziri öhdəliklərindən imtina edərək, hökumət işləri ilə daha yaxından məşğul olmağa başlamışdı. Ünlü "Tayms" jurnalının gəldiyi qənaətə görə, onun beynəlxalq arenada nüfuzunun artması hamının diqqətini cəlb edirdi.



2004-cü ildə qəbul olunmuş növbəti 5 illik planda texniki və ali təhsilə də geniş yer ayrılmışdı. Dioqo 2004-cü ilin yanvarında bəyan etdi ki, inkişaf etməkdə olan ölkələr biliklərini və innovasiyalarını dərinləşdirməli, yoxsulluğun aradan qaldırılması üzrə qanunları, plan və proqramları yaratmalı, həyata keçirməli, qiymətləndirməli və uyğunlaşdırmalıdırlar: ***"Nəzərdə tutduqları strategiyanın uğurla həyata keçirilməsi üçün bütün bunları etmələri vacibdir"***. O bəyan etdi ki, Mozambik xalqı baş nazirin verdiyi sözlərə görə məsuliyyət daşımasına nəzarət edəcək. Dioqo hökumətin strategiyalarını qiymətləndirmək üçün vətəndaşlardan və media nümayəndələrindən ibarət ***"yoxsulluq observatoriyası"*** təşkil etməyə başladı. Baş nazir 2004 -cü ildə *"The Banker"* jurnalına açıqlamasında deyirdi ki, mətbuat və mediya çatışmazlıqları hökumətdən daha tez görür və ölkənin inkişafı üçün birgə çalışmaq lazımdır. O, buna əlavə edərək "Mozambikdə demokratiya dönməzdir" deyə açıqlama verdi.

2004-cü ilin oktyabrında xanım Dioqo BMT-nin baş direktorlarının görüşünə dəvət olundu. O, dünyanın bütün inkişaf etməkdə olan ölkə-









lərini təmsil etmək üçün seçilmiş az sayda liderdən biri idi! 2005-ci ilin sentyabrında Britaniya Leyboristlər Partiyasının konfransında beynəlxalq natiq kimi çıxışa dəvət olunan Luiza Dioqo, 2007-ci ilin avqustunda yoxsulluğa qarşı mübarizə və sağlamlıq üzrə müdafiəçi kimi özünü təsdiqləmiş bu Lider Qadın "Forbes" jurnalının ***"100 Ən Güclü Qadın"*** siyahısna düşdü. Dioqo ***"Qadın nazirlər və Parlamentarilər şəbəkəsi"*** (MUNİPA) vasitəsilə gender bərabərliyi və qadın hüquqlarının təbliğatında fəal iştirak etməyə başladı. MUNİPA-nın əsas məqsədi qəbul olunmuş qanunların gender bərabərliyinin tələblərinə və qadınların hüquqlarının təminatına uyğun gəlməsidir. Onun baş nazirliyi dövründə kişilər və qadınlar arasında bərabərliyin təmin edilməsi Mozambik hökumətinin əsas məqsədlərindən birinə çevrildi. O, bu qısa zaman ərzində ölkəni müəyyən qədər də olsa çətin vəziyyətdən çıxarıb, insanların öləziməkdə olan ümidlərini qaytara bilib. Bunu edən fədakar bir QADIN, bir LİDERdir.








Baş nazir Luiza Dioqo Qadın Dünya Liderləri Şurasının üzvü kimi də fəal çalışmaları ilə seçilir. Qeyd edim ki, şura keçmiş və hazırkı qadın prezidentlərin və baş nazirlərin beynəlxalq şəbəkəsi olub, qadınlar və ədalətli inkişaf üçün vacib olan bir çox məsələlər üzərində kollektiv fəaliyyət aparmaq üçün yüksək səviyyəli qadın liderləri səfərbərliyə almaq missiyasını daşıyır.



## Ölkəcanlı, ailəcanlı, sənətcanlı

**Mozambikin yorulmaz lideri həm də gözəl ailə sahibidir.** Mozambikin məşhur hüquqşünaslarından olan Albano Silvanın həyat yoldaşı olan Luiza Dioqonun Nelson, Joao Nuno və Laura Solanq adlı 3 övladı var. Xanım lider bu gün də vaxtının çoxunu həyatını sərf etdiyi ölkəsinin problemlərini həll etməyə yönəldir. Onun əsas məqsədi Mozambiki və bütün inkişaf etməkdə olan ölkələri öz-özünü təmin etməyə yönəltməkdir. Katolik olan xanım Dioqo portuqal, ingilis və nyunqve dillərində danışa bilir. Boş vaxtlarında kitab oxumağı, musiqi dinləməyi, ailəsi və dostları ilə vaxt keçirməyi xoşlayan Luiza Dioqoya bu gün də ölkəsində, Afrika qitəsində və dünyada bir Lider olaraq, bir Qadın olaraq böyük rəğbət bəslənilir və o, bu gün də İNSANLIĞa xidmət istiqamətində fədakarcasına çalışmaqda davam edir...





- **O, Nobel ödülünə layiq görülən ən gənc insan kimi Tarixə düşdü! "Nobel" alarkən onun cəmi 33 yaşı var idi!**
- **O, Nobel ödülünə, "Qvatemalada yerli xalqların hüquqları uğrunda apardığı mübarizəyə, eyni zamanda, sosial ədalət və etnokültür çalışmalarına görə" layiq görülüb!**
- **Bu qadın hüquq müdafiəçisi, Qvatemalalı siyasi xadim, YUNESKO-nun xoşməramlı elçisi, Riqoberta Mençu Tumdur!**
- **Onun şöhrəti dünyaya yayılmış "Mən, Riqoberta Mençu" kitabını böyük maraqla oxumuşdum və bu FƏDAKAR QADINa, sözün həqiqi anlamında heyran qalmışdım. Ailə üzvlərinin çoxunun qətlə yetirilməsinə baxmayaraq, xalqının hüquqları uğrunda yorulmadan mübarizə aparmaq; və dəfələrlə üzləşdiyi ÖLÜMün gözünün içinə dik baxmaq!.. Bu çox az adama qismət olan YÜKSƏK İNSANLIQ HALIdır...**
- **O, bütün bü işlərə başlayanda hələ heç 20 yaşı tamam olmamışdı və gəncliyinə, xanım olmasına baxmayaraq, böyük işlərin, inqilabi dəyişikliyin əsasını qoydu!**

## O, mübarizələrdə mətinləşdi!

Qvatemalalı hüquq müdafiəçisi və siyasi xadim, Mərkəzi Amerikada yaşayan yerli xalqların hüquqlarının ünlü müdafiəçisi, dünyanın ən gənc Nobel ödülçüsü olmuş **Riqoberta Mençu Tum**, 1959-cü ilin 9 yanvar tarixində Maya xalqının "Kiçi"(Kijhe) etnik qrupuna (Qvatemala) mənsub olan yoxsul bir ailədə dünyaya göz açmışdır. O, bir sıra katolik məktəblərdə ibtidai təhsil almış, uşaqlıqdan Qvatemaladakı katolik kilisəsinin sosial proqramlarında iştirak etmişdir.

Məktəbi bitirdikdən sonra ölkədə 1960-cı ildən 1996-cı ilədək davam edən vətəndaş savaşı zamanı Qvatemalanın silahlı qüvvələri tərəfindən törədilən və insan hüquqlarının kobud şəkildə pozulması ilə müşahidə olunan olaylara qarşı çıxan fəalların sırasına qoşulur.

Onun valideynləri və qardaşları hərbiçilər tərəfindən vəhişicəsinə qətlə yetirilir, amma başına gələn bu faciəvi hadisə onu nəinki yolundan döndərir, tam tərsinə, mübarizliyini daha da artırır!.. Hələ yeniyetmə çağlarında qadınların hüquqları uğrunda mübarizə hərəkatının üzvü olmuş və demək olar ki, bütün həyatını Qvatemalanın yerli xalqlarının, vətəndaş savaşı zamanı və savaşsonrası dövrdə (1960-1996) üzləşdiyi acınacaqlı həyatı dünya ictimaiyyətinin diqqətinə çatdırmağa və ölkədə yerli xalqların hüquqlarının qorunmasına həsr edib.









O, 1979-cü ildə hind icmasının öz hünquqlarını qorumaq uğrunda yaratdığı kəndli birliyi komitəsinə (KBK) daxil olur və sonralar həmin qrupa rəhbərlik edir.



1981-ci ildə radikal "31 yanvar" Xalq Cəbhəsinə daxil olaraq, hərbi diktaturanın zülmünə qarşı mübarizə məqsədi ilə kəndlilər arasında təşviqat işi aparır. O vaxtdan gizli iş şəraitinə keçnməyə məcbur olan Riqoberta Mençu Tum sonda Meksikaya qaçır.

## Riqoberta xunta ilə mübarizədə

Vətənindən kənarda da o, Qvatemaladakı hərbi diktaturaya müqavimət hərəkatının əsas təşkilatçılarına və hindu kəndlilərin hüquqları naminə mübarizə aparan ən fəal şəxsə çevrilir. 1982-ci ildə o Qvatemala müxalifətinin Birləşmiş Nümayəndəliyinin təşkilində iştirak edir.

1982-ci ildə verdiyi müsahibə əsasında tərtib edilmiş və avtobioqrafik faktlara əsaslanan, orijinal adı ilə desək, ***"Mənim adım Riqoberta Mençudur. Bu cür də mənim vicdanım yarandı"*** (Me llamo Rigober-



ta Menchu y asi me nacio la conciencia) kitabı işıq üzü gördü. Kitabın tərtibatçısı və redaktoru Venesuelalı antropoloq və jurnalist **Elisabet Burqos** idi. Kitab ingilis dilinə *"Mən, Riqoberta Mençu"* adı ilə çevrilmiş və müəllifinə uğur gətirmişdir.

Riqoberta Mençu kitabında göstərirdi ki, ailəsi Avropa mənşəli-zəngin qvatemalılar və Qvatemala xuntası tərəfindən yerli xalqların köləyə döndərilməsinə qarşı fəal mübarizə aparırdı. Atası Visente Mençu Kəndli Birliyi Komitəsi kimi tanınan kəndli hərəkatının əsasını qoymuşdu.

Epizodların birində Mençu, kiçik qardaşı Petrosinyonun Qvatemala hərbiçiləri tərəfindən diri-diri yandırıldığını, onun və ailəsinin qəsəbə meydanında bu qətlin şahidi olduğunu göstərir. Onun hər iki valideyni, iki qardaşı, qardaşının həyat yoldaşı və üç övladı xunta tərəfdarlarının əli ilə qətlə yetirilmişdir.

Mençu tərəfindən söylənən tarixçənin məqsədi ondan ibarət idi ki, o, Qvatemala ordusuna qarşı uluslararası qınağa nail ola bilmişdi...

1986-cı ildə Riqoberta Mençu KBK-nın Milli Koordinasiya Komitəsinin üzvü olur, onun kitabları müntəzəm çap olunmağa başlayır və bu da müəllifə getdikcə böyük şöhrət gətirir. Dünya onun yazdıqları ilə Mayya xalqının üzüntülərini daha geniş şəkildə öyrənməyə başlayır.

Riqobertanın sevənləri artırdı. 1987-ci ildə *"Dağlar lərzəyə gələndə"* sənədli filmində müəllif adından mətni oxuyan aktyor qismində çəkilən Mençu bir daha dünya ictimaiyyətinin əsas diqqət mərkəzində oldu. Sənədli film Mayya xalqının acınacaqlı həyatından bəhs edirdi.

1991-ci ildə Mençu BMT-nin "Yerli xalqların Hüquqları haqqında Deklarasiya"sının (Decnlaration on the Rights of Indigenous Peoples) hazırlanmasında iştirak etdi! Bu işdə onun yaxın köməkçisi Sesar Montes oldu.

Artıq bəlli olduğu kimi, Riqoberta Mençu Tum **1992-ci ildə Qvatemalada yerli xalqların hüquqları uğrunda apardığı mübarizəyə görə** Nobel ödülünə layiq görüldü. Qvatemalada vətəndaş müharibəsi bitdikdən sonra Riqoberta Mençu Tum İspaniya məhkəmələrində, Vətənində ağır ci-







nayətlər törətmiş xunta üzvlərinin məsuliyyətə cəlb olunması kompaniyasına başladı. 1999-cu ildə o, Qvatemalada cinayətkarların həbs edilməsi ilə əlaqədar İspaniya məhkəməsinə şikayətlə müraciət etdi. Ərizəçinin Qvantemalada ədalət məhkəməsinin bütün imkanlarından istifadə etmədiyi əsas gətirilərək, İspaniyada şikayəti rədd edildi. 2000-ci ildə artıq "Nobel" laureatı kimi Qvatemalada 1962-ci ildən 1996-cı ilədək hakimiyyətdə olmuş hərbi rejimlərin liderlərinə ( - generallar Efraim Rios Mont, Oskar Umnberto Mexias, Fernando Romeo Lukas Qarsiyaya - ) qarşı ittiham irəli sürdü. Bəllidir ki, onların hakimiyyəti dövründə 150 min insan qətlə yetirilmiş, 45 min nəfər itkin düşmüşdür. Bu insanları, üsyan hərəkatındakı fəaliyyətlərinə görə deyil, adicə şübhəyə əsasən, yaxud da sadəcə olaraq müstəqil düşüncələrinə görə (və başqalarını da qorxutmaq məqsədi ilə) qətlə yetirirdilər. Bu məsələləri sübut etmək üçün çoxlu sayda şahid ifadələri toplayaraq, Qvatemalada baş vermiş soyqırıma qarşı məhkəmə işinə başlamaq məqsədi ilə, o, təkrarən İspaniya məhkəməsinə müraciət etdi. (Qvatemalanın cinayət məcəlləsində soyqırım haqqında maddə mövcud deyildi. Buna görə də bu ölkədəki hüquq müdafiəçiləri keçmiş diktatorlara qarşı məhkəmə işini İspaniyada həyata keçirməyə məcbur idilər.) Sözügedən istintaqa xüsusi gərginlik gətirən məsələ isə Qvatemalada prezident postuna namizədliyini irəl sürən şəxsin həmin ölkə diktatorunun yardımçısı və müşaviri general Efraim Rios Montinin olması idi. Bütün bu çətinliklərə baxmayaraq, Riqoberta Mençunun fəal siyasi mövqeyi, Qvatemalada hərbiçilərin soyqırım törətmələri faktını uluslararası toplumun diqqətinə çatdırmağa və həmin cinayətlərin toplum tərəfindən mühakimə olunmasına səbəb oldu. İspaniya ali məhkəməsi belə qərar çıxardı ki, xaricdə törədilmiş soyqırım hətta onların İspaniya vətəndaş-





larına aidyyəti olmasa da məhkəmə tərəfindən mühakimə oluna bilər. Mençu öz məqsədinə nail oldu. Qaldırılan ittihamlarda Maya xalqının soyqırımına da toxunulurdu!

## Qvatemala tarixində prezidentliyə namizəd olmuş ilk hindu qadın!

Hindu əhalisinin soyqırımını həyata keçirən Qvatemalanın hərbi xuntasına qarşı mübarizə apararaq onların uluslararası tribunala verilməsinə nail olan Riqoberta Mençu Tum bir hindu qadın olaraq, Qvatemala tarixində ilk dəfə prezdentliyə namizəd də oldu. O, 1992-ci ildə Aborigen Xalqların Uluslararası İlinin qeyd olunması zamanı xoşməramlı elçi qismində aktiv çalışmalarda bulundu, BMT-nin bütün dünyada aborigen xalqların problemlərinin həll olunması üzrə işçi qrupunun yaradılmasına nail oldu.

"Mən bu dünyada tək başına salamat qalmış bir insanam və mənim ölkəmdə baş verən vəhşilikləri dünyaya çatdırmaq missiyası mənim öhdəmə düşmüşdür" sözlərini söyləyən Riqobertanın sayəsində dünya ictimaiyyəti Qvatemaladakı yerli xalqların durumu barədə bilgilər əldə etdi və bu problemə diqqət yönəltdi!

1996-cı ildən YUNESKO-nun xoş məramlı elçisi kimi çalışan Riqoberto Mençu Tum, 1998-ci ildə Asturia şahzadəsi ödülünə layiq görülür. Mençu 2006-cı ildə Nobel sülh ödülü Laureatları Cody Williams, Şirin Ebadi, Wangari Maathai, Betty Williams və Mairead Corrigan Maguire ilə birgə təsis etdikləri Nobel ödüllü Qadınların Təşəbbüsü Hərəkatının əsas simalarından biridir. Təşəbbüs Hərəkatı Quzey və Güney Amerikanı, Avropanı, Yaxın Şərqi və Afrikanı təmsil edən altı qadının ədalət və bərabərlik uğrunda səylərini birləşdirmək istəyinin nəticəsidir. Hərəkatın məqsədi bütün dünyada qandınların hüquqlarına yardım edən fəaliyyətlərə dəstək vermәkdən ibarətdir!

Riqoberta həm də ümdə məqsədi "malik olduqları ruh yüksəkliyini, bacarığı və müdrikliyi gələcək nəslə ötürən "Nobel"li sülhpərvərlərdən ilham almaqla özlərində, toplumlarında və dünyada müsbət dəyi-







şiklik yaratmaq istəyən gənc liderlərin formalaşması olan PeaceCam Təşkilatının üzvüdür. O, PeaceCam konfransları vasitəsilə dünyanı gəzərək gənclərlə söhbətləşir, fikir mübadiləsi aparır.



O, xeyriyyəçilik sahəsində də çalışaraq, ehtiyacı olan insanlara daim dəstək göstərirdi. Məsələn, *"Salud para Todos"* ("Hamı üçün sağlamlıq") və "Farmacias Similares" kimi Meksika şirkətlərinə rəhbərlik etməklə kasıblar üçün dərmanların ucuz satılmasını təmin edirdi.



O, bütün yerli xalqların hüquqları uğrunda mübarizə aparır. Riqoberta Mençu bütün həyatını yerli xalqların haqlarının qorunması uğrunda mübarizəyə həsr edib. Onun bacısı Anita danışırdı ki, minimal uşaqlıqdan məhrum olmuş Riqoberta, həyat eşqini və sevinci həmişə özündə saxlaya bilmişdi... Riqoberta ona verilən hər şeyə sevinir və heyrətlənir - suya, günəşə, çağdaş texniki başarılara... Bu onun uşaqlıqda məhrum olduğu şeylərə doğru can atımıdır. Deyilənlərə görə o, həm də yaxşı aşbazdır.



Bütün dünya mədəniyyətlərinin qarışdığı yaşıl Latın Amerikası materikində, siyasi rəhbərliyin yeniləşməsi prosesi gedir. Hakimiyyətə orta və aşağı təbəqə nümayəndələri gəlir. Bu sürəcdə qadınlar da önəmli rol oynayır. Latın Amerikalılar deyir, ***"bizdə qadın əsri başlayıb"...***

2007-ci il, fevralın 12-də Mençu yerli xalqların Encuentro por Guatemala adlanan siyasi partiyasını yaratdığını və Qvatemalada keçirilən prezident seçkilərinə öz namizədliyini irəli sürdüyünü açıqlayır. Seçilmiş olsaydı, Mençu Meksikalı Benito Cuarez, Perulu Alecandro Toledo və Bolivialı Evo Moralesdən sonra Latın Amerikanın yerli xalqlar arasından seçilmiş dördüncü prezidenti olacaqdı.



Seçkilər zamanı Riqoberto Mençu Tum qalib gələ bilmədi. Partiyasının bir neçə namizədinə hədə-qorxu gəlindi, onlardan ikisi qətlə yetirildi və təbii ki, bütün bunlar seçkilərə və nəticələrə öz təsirini göstərdi. Bütün bunlara baxmayaraq, seçkilərdən sonra Riqoberta Mençu televiziya vasitəsilə sülh müraciəti göndərdi. 2009-cu ildə o, yeni təsis edilmiş Winaq Partiyasında aktiv fəaliyyətə başladı.)

Riqoberto Mençu Tum bu gün də, insanlıq üçün fədakarcasına çalışır. Onu nə ailəsinin qətli, nə də təzyiqlər, əziyyətlər, bir sözlə, heç bir şey öz yolundan döndərə bilmədi. Çünki bu yol İNSANLIĞa xidmət YOLudur.

O, hər bir insanın layiq olduğu kimi yaşamasını istəyir və bunun üçün çalışır.

***O, xalqının fədakar bir qızı kimi yorulmadan onun haqları uğrunda mübarizə aparır. O, yorulmadan haqqı tapdalanan hər bir insan üçün mübarizə aparır, dünyanın daha gözəl gələcəyi üçün sözün əsl anlamında savaşır. Özü də artıq tək deyil. İndi onun çoxlu sayda tərəfdarları və arxasınca yürüyən minlərlə insan var. O, adını Tarixə əbədiyyən yazmış ŞƏXSİYYƏT, MÜBARİZ QADIN, ÜNLÜ İCTİMAİ-SİYASİ XADİM olaraq özgü yol açıb. İndi bu yolla təkcə onun neçə illərdir başı müsibətlər çəkmiş xalqının qızları deyil, irqindən, milliyyətindən, dinindən asılı olmayaraq minlərlə gənc qız və qadın yürüyür... Şair demiş, ...alın yazıları yoxuşlarda susamaq olsa da...***





## Doris Lutard

# Atasının qızı!








■ Doris Lutard (Doris Leuthard) İsveçrəli siyasətçi və hüquqşünasdır. 1999-cu ildən 2006-cı ilə kimi İsveçrə Milli Şurasının üzvü olub və Xristian Demokrat Xalq Partiyasına başçılıq edib. 2006-cı il avqustun 1-dən İsveçrə Federal Şurasının üzvü və iqtisadiyyat naziri olub.

■ 2010-cu ildə İsveçrənin Prezidenti seçilib!

■ Doris Lutard 1963-cü ilin aprelin 10-da Merenşvand, Arqauda dünyaya gəlib. O, İsveçrə üçün tipik olmayan böyük bir ailədə böyüyüb. Valideynləri, üç qardaşı, nənəsi və yaxın qohumlarının əhatəsində böyüyən Dorisin uşaqlıq illəri çox maraqlı keçib. Atası peşəkar siyasətlə məşğul olub. Xanım Lutard özü bu haqda danışarkən deyirdi: "İş günlərində atam evə günorta saatlarında gəlir, nahar edir, 12.30-da radioda xəbərləri dinləyir və qısa fasilədən sonra işə qayıdırdı. Amma bazar günlərini atam ailəsinə həsr edirdi və bizim aramızda sözün həqiqi mənasında intellektual döyüş gedirdi... Məsələn, atam qadınlara uşağın qayğısına qalmaq üçün analıq məzuniyyəti verilməsinin əleyhinə idi". (Bu yerdə qeyd edək ki, Doris Lutard qadınlar üçün bərabər imkanlar uğrunda mübariz kimi tanınıb).

■ Atası haqqında fikirlərinə davam edən Doris əlavə edir: *"Onun*







*üçün qadının rolu sadəcə evdə qalmaq, ev işləri ilə məşğul olmaq və uşaq böyütməklə yekunlaşırdı. Digər fikir ayrılığı İsveçrə ilə Avropa Birliyinin münasibətləri idi. Mən İsveçrənin Avropa Birliyinə daxil olmasının tərəfdarı idim, ancaq atam buna qarşı çıxırdı. O, Avropanı pis tanıyırdı. Atam kilsə şurasının üzvü idi və dinin, Papanın tənqid olunmasını qətiyyən qəbul etmirdi. Anam azad birgə yaşamağa və kontrasepsiya əleyhinə olan kilsəyə tənqidi münasibəti, özünün açıqfikirliliyi, mühakimələri ilə mənə daha yaxın idi".*

## "Bütün bunlara baxmayaraq, atam idealım idi"

- deyən Lutard, atasının xristian-demokrat siyasi xəttinə daim sadiq qaldığını, işçiləri və sosial ədaləti müdafiə etdiyini, heç zaman intriqa ilə məşğul olmadığını vurğulayır. *"O, başqalarını provokasiyaya cəlb etmədi və həmişə başqalarını öz fikirləri, sözləri ilə yaralamamağa cəhd edirdi. Çox sadə həyat yaşadı, buna baxmayaraq, o, çox səxavətli adam idi və həmişə başqaları üçün həyəcan keçirirdi. Atamın dürüst və səmimi davranışı mənim üçün həmişə ideal idi. Mənim düşüncəmə görə, bu etimad qazanmaq və siyasətdə nəyəsə nail olmaq üçün yeganə yoldur".*



*"Federal Sarayda siyasətlə bu cür məşğul olmaq tərzinə indiyədək ina-*







*nırsınızmı?"* - 2006-cı ildə seçkilərdən dərhal sonra jurnalistlər ona belə bir sualla müraciət etdilər.

***"Bəli, mən bu cür hesab edirəm".*** - Doris Lutard cavab vermişdi. İntriqalardan, hiylələrdən və kollegiallıq qaydalarına sayğısızlıq göstərilməsindən imtina etmədən, düşündüklərini axıradək söyləmədən işləri başqa cür irəlilətmək mümkün deyil. Atamın bu prinsipləri mənim də şəxsi prinsiplərimə çevrilib. Hər zaman güzgüyə vicdan əzabı çəkmədən baxmaq istəyirəm!

## Tarixə dönən illər

Doris Lutard 1991-ci ildə Sürix Universitetinin hüquq fakültəsini bitirərək, vəkil diplomu aldı. 1993-cü ildə Myuridə









(Arqau kantonunda) Xristian-Demokratik Partiyasının məktəb komissiyasının üzvü qismində öz siyasi fəaliyyətinə başladı.

1997-ci ildə Arqaunun (kanton hökumətinin) Böyük Şurasına seçildi.

1999-cu ildə İsveçrə Milli Şurasına seçildi və 2006-cı ilə qədər burada fəal çalışdı.

2004-cü ildən 2006-cı ilə qədər o, İsveçrənin Xristian Demokratlar Partiyasına başçılıq etdi.

1 avqust 2006-cı ildən İsveçrə Federal Şurasının üzvüdür. Elə həmin zamandan Doris Lutard iqtisadiyyat naziri, yəni İqtisadi İşlər üzrə Federal Departamentin başçısı vəzifəsində çalışıb.

Cozef Deisin Federal Şuradan istefasından sonra - 2006-cı il iyunun 14-də Xanım Lutard onun davamçısı seçilib. O, 234 səsdən 133-nü qazanıb və Federal Şuranın 109-cu üzvü (5-ci qadın üzvü) olub.

Deyirlər ki, Doris Lutard Federal Şurada "heç bir psixi dram" olmadan, asanlıqla və yüngül şəkildə seçilmiş ilk siyasətçi olub. Onun özü isə hesab edir ki, sadəcə olaraq hökumətə daha bir qadının seçilməsi lazım olduğu anda gəlib çıxıb. *"Mənim kişi həmkarlarım da yəqin ki, öz namizədliklərini irəli sürmək istəyiblər, lakin qadın qatili imicindən qorxublar, necə deyərlər, baxtım gətirdi"*, - o gülür...



2009-cu ildə Doris İsveçrə Konfederasiyasının vitse-prezidenti seçilir və o, lazım gəldikdə prezident **Hans-Rudolf Mersi** postunda əvəz etmək səlahiyyətinə malik olur (başqa sözlə, prezident öz səlahiyyətlərini icra edə bilmədikdə, yaxud istefa verdikdə onun səla-



hiyyətləri yeni prezident seçilənə qədər ona - vitse-prezidentə keçirdi).

...Bern. İsveçrənin iqtisadi və xalq təsərrüfatı naziri Doris Lutard könüllü şəkildə bir işsizin xeyrinə öz illik əmək haqqının on faizindən imtina edir. Maraqla sual olunurdu: "Bu "layihəyə daxil edilmiş" xoşbəxt insan kimdir?"

Tessin kantonunda televiziya ilə çıxışında kütləvi informasiya vasitələri ilə əlaqəyə məsul olan Annet Bundi nazirin fikrini səsləndirir: "Bu şəxs ali məktəbin məzunu ola bilərdi..." Bu 40 min frank sayəsində iqtisadiyyat departamentində əlavə iş yeri açmaq mümkün idi. Paralel şəkildə bu müqavilənin qüvvədə olma müddətini 1 ilə məhdudlaşdırmaq təklif olunur və təbii, yenə sual olunur, yenə maraq gəlir: "Digər nazirlər Doris Lutardın atdığı addımı təkrarlayacaqlarmı?"

## "Mən heç bir vəchlə kiməsə təsir göstərmək istəmirəm"

Politoloq Requla Ştempfli xanım Lutardın bu təşəbbüsündən olduqca ruhlanıb: "Nəhayət, kimsə gerçək siyasətlə məşğul olmağa başlayıb". Doğrudur, iqtisadiyyat nazirinin bu jesti simvolik xarakter daşıyır, lakin hələ bu vaxtadək heç bir bankir, heç də kasıb olmayan heç bir şəxs bu cür jesti





göstərmək niyyətində olmamışdı.

2009-cu ildə Lutard İsveçrənin vitse-prezdienti seçilməsi 2010-cu il seçkilərində onun qələbə qazanmasına şərait yaratdı.

## İsveçrənin üçüncü qadın (və ilk gənc) Prezidenti

Xanım Prezident öz işinə - səlahiyyətlərinin icrasına başlamadığı vaxtlar, ictimai fikirdə belə bir mülahizə vardı ki, "2010-cu ildə İsveçrə prezidentinin iştirak edəcəyi bütün beynəlxalq səfərlər və siyasi tədbirlər zamanı bütün qəzetlərin birinci səhifəsində və bütün telekanalların xəbər reportajlarında yer alacaq. 2010-cu ildə keçiriləcək tədbirlərin baxımlı və yaddaqalan olmasında Doris Lutard kimi gözəgəlimli qadının və ehtiraslı siyasətçinin böyük rolu olacaqdır..."

Maraqlıdır ki, Lutard özü atasının qanuni nikah haqqında vəsiyyətlərini pozmaqdan qorxmamış və uzun müddət qeyri-rəsmi nikahda yaşamışdı. Yalnız 1999-cu ilin son günündə - 31 dekabrda o, köhnə dostu və siyasi tərəfdaşı, fizika sahəsi üzrə alim **Roland Hauzinlə** ailə həyatı qurdu. Onlar artıq 20 il idi ki, bir-birini yaxından tanıyırdılar. Buna görə də İsveçrə prezidentinin rəsmi adı tam olaraq - Doris Lutard Hauzindir.



Hauzin adı Doris Lutardın Milli Şurada işlədiyi ilk illər istifadə edilirdi, sonralar evlilikdən uzun müddət qabaq tanındığı və demək olar ki, siyasi karyerasını yaradan qızlıq soyadına üstünlük verilərək bu soyad bir balaca kənara qoyuldu. Rəsmi



qəbullarda siz indi Roland Hauzin soyadına rast gələ bilməzsiniz; internetdən də bu cütlüyün şəkilləri yığışdırılıb. Bəlkə də bu cür məxfiliyin sayəsində, xanım prezidentin ailə həyatında hər şeyin öz qaydasında olduğu məlumdur.

## Buddizmə sayğılı katolik

Rəsmi şəkildə Doris Lutard katolikdir, lakin bundan başqa o, buddizmlə də yaxından maraqlanır. Buddizmə etiqad edən əhalinin yaşadığı Tailanda, Vyetnama, Kambocaya, Malayziyaya və digər ölkələrə səfəri haqda məmnuniyyətlə söhbət açır. Onun fikrincə, onlar avropalılardan daha xoşbəxtdirlər və maddi nemətlərə o qədər də böyük önəm vermirlər. *(Doğrudur, bu barədə onunla mübahisə etmək olar, lakin hərənin bir fikri var. Ayrıca, inanclı insanın mövqeyi hörmətə layiqdir).*

## Poliqlot kimi...

Xanım Lutardın doğma dili alman dilidir, sevimli dili isə fransız dili. Gimnaziyanı bitirdikdən sonra o, bir müddət öz əmisi qızının yanında Parisdə yaşayıb və







burada dil kurslarına gedib. O, həm də italyan dilində danışır, ailənin bir hissəsi Tiçinoda yaşayırdı və valideynləri uşaqları çox vaxt tətil zamanı oraya göndərirdilər. Beynəlxalq ünsiyyət üçün rəsmi dil olan ingilis dilindən Lutard ərinin bir vaxtlar müqavilə üzrə çalışdığı Kanadada yaşadığı zaman istifadə etmişdi. Xanım siyasətçi ingilis dilini sevmədiyini, gizlində də olsa etiraf edir. Özü üçün isə vaxtı ilə latın dilini öyrənmişdi.

İsveçrədə məktəb təhsilinə gəldikdə isə, Lutard məktəblilərin ilk öncə öz ölkələrinin dilini öyrənmələrinə üstünlük verir. Məsələn, ölkənin almandilli hissəsinin uşaqları fransız dilini, fransızdillilər isə alman dilini öyrənsinlər. Yalnız bundan sonra onlar ingilis dilini öyrənməyə başlasınlar. Bu süjet son illər İsveçrə ictimaiyyəti arasında müzakirə olunmaqdadır, prezidentin mövqeyinin dillər barədə sualın həllinə təsir göstərib-göstərməyəcəyini görmək maraqlı olardı.



Təəssüf ki, Doris Lutardın siyasi fəaliyyəti zamanı onu İsveçrənin Roman dilinin daşıyıcıları yaşayan hissəsində nadir hallarda görüblər. Ölkənin bütün hissələrində federal məsləhətçi xanıma qarşı böyük simpatiyaya baxmayaraq, Roman dilinin daşıyıcıları yaşayan hissədə o, naməlum olaraq qalır. Bununla bağlı onun özü İsveçrənin fransız dilinin daşıyıcıları yaşayan hissəsini Avropa ilə, xüsusilə də Cenevrə kimi beynəlxalq şəhərlə bağlı daha açıq he-



sab edir. Öz prinsipial məramı ilə prezident postunda Lutard artıq İsveçrənin əvvəlki imicinə qayıtdığını və tarixən Konfederasiyanın müttəfiqləri olan ölkələrlə qarşılıqlı əlaqələrin bərpa olunduğunu (və sürətləndiyini) açıqlayıb.









## 6 əsas problem

"Le Matin" qəzetinin proqnozuna (şərhinə) görə Doris Lutardın prezidentliyi dövründə (özəlliklə, ilk ildə) xarici siyasətdə üzləşəcəyi 6 əsas problem var:

**Fransa ilə bağlı:** - Roman Polanskinin həbsi; - İsveçrədə öz ölkələrində vergilərdən yayınan müxtəlif ölkələrin çoxlu sayda vətəndaşlarının yaşaması və banklarda hesablara malik olmaları ilə bağlı "Vergi müharibəsi"; - Erve Falçianinin işi və bankdan dosyenin oğurlanması.

**Almaniya ilə bağlı:** - Yenə həmin "vergi müharibəsi"; - İsveçrəlilər və öz evlərində işsizlik şəraiti ucbatından pul qazanmaq üçün İsveçrəyə gələn almanlar arasında qarşılıqlı münasibət.

**Bütün Avropa İttifaqı ilə bağlı:** - İsveçrədə bank sirrinin ləğv edilməsi və ya saxlanması.

**ABŞ-la bağlı:** - Xatırladaq ki, İsveçrə diplomatik vasitəçilik qismində Ameri-







kanın maraqlarını Kuba və İranda təmsil edir və bu işinə görə hər növ hörmətə layiq ola bilərdi. Lakin Amerikanın vergi idarələri 2009-cu ildə İsveçrənin UBS bankına qarşı məhkəmədə iddia irəli sürdükdən sonra və Roman Polanski ilə bağlı prosesin necə inkişaf edəcəyinin müəmmalı qalması səbəbindən İsveçrə və ABŞ arasında münasibətlər kifayət qədər gərgin olaraq qalmaqdadır.

**Liviya ilə bağlı:** - Prezident Mers və polkovnik Qəddafi arasında sonuncunun oğlunun Cenevrədə həbs edilməsi və ilyarım Liviyada saxlanılmış iki İsveç girovunun işi ilə əlaqədar yaranan və indiyədək miras qalmış qarşıdurma.

**Və nəhayət, bütün ərəb ölkələri ilə bağlı:** - Müsəlman aləmində İsveçrədə keçirilən və minarələrin tikilməsinə qadağan qoyan noyabr referendumu çox pis qarşılanıb. Doris Lutard siyasi durumu yaxşılaşdırmaq üçün bu və ya digər ərəb ölkəsinə səfər etmək zərurətini istisna etmir.



Və nəhayət, Doris Lutard o qadın liderlərdəndir ki, onun haqqında yalnız keçmişdə deyil, onun ancaq keçmişi haqqında deyil, həm bu günü, həm də gələcəyi haqqında danışa bilərik. Aydın olduğu kimi, buna






onun yaşı, xarakterik xüsusiyyətləri, perspektiv imkanları şərait yaradır. Lutardın tarix baxımından o qədər də böyük olmayan keçmişi nə vəd edir? Bu "vəd"in formalaşmasında iştirak edən amillər - ailə, tərbiyə aldığı mühit, təhsili, düşüncələri, gənc yaşında əldə etdiyi böyük siyasi nəticələr daha nəyi ehtiva edir? Onun perspektivi necə bir şəkillənməyə doğru gedir? 5-6 ildən sonra onun haqqında yazanlar "siyasət sonrası həyatı"nımı, yoxsa yeni siyasi uğurlarınımı qələmə alacaq?!

**Yaşayarıq görərik!**

*Hələlik isə, artıq adını TARİXƏ yazmış bu ağıllı, savadlı, işgüzar, prinsipial QADINA, ŞƏXSİYYƏTƏ, LİDERƏ uğurlar arzulayırıq! İnanırıq ki, dünya hələ ondan çox danışacaq!*



## Mehriban xanım Əliyeva













■ *Həqiqətən də onun dünyadakı yeri və rolu yeganə və bənzərsizdir.* **Mehriban Əliyeva** – ***Azərbaycanın Birinci Xanımı, millət vəkili, Azərbaycan-Amerika Parlamentlərarası Dostluq Qrupunun rəhbəri, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, fəlsəfə elmləri doktoru və 3 gözəl övladın anası!*** *Onun təkcə Azərbaycan üçün deyil, Türk Dünyası, Müsəlman Dünyası və ümumiyyətlə, dünyamız və insanlıq üçün xidmətlərini göz önündə canlandıranda görürük*





*ki, o bu gün Türk və Müsəlman Dünyasının şəriksiz qadın lideridir. Mehriban Əliyeva bir müddət əvvəl "XXI ƏSRİN BÖYÜK QADINI" FƏXRİ TİTULUNA NOMİNANT kimi irəli sürülmüşdü. Onu bu nominasiyaya irəli surənlərin Kanada vətəndaşları olmaları Mehriban Əliyevanın fəaliyyətinə beynəlxalq aləmdə verilən qiymətin göstəricisi kimi qəbul edilir. Kanada Beynəlmiləl Universal Bəşəri Dəyərlər Mərkəzinin İdarə Heyətinin üzvləri bu təkliflə Amerika Bioqrafiya İnstitutunun prezidenti cənab Evansa müraciətlərində Mehriban xanımın öz ölkəsinin mədəni sərvətlərinin inkişafına, Şərq və Qərb mədəniyyətlərinin yaxınlaşmasına yönəlmiş geniş fəaliyyətini vurğulayıblar. Müraciətdə Mehriban Əliyevanın bütün sahələrdə gördüyü böyük işləri, beynəlxalq miqyasda fəaliyyətini qeyd edən müəlliflər onun bu nominasiya üçün ən münasib namizəd olduğunu qeyd ediblər. Sənəddə deyilir:* **"Xanım Əliyevanın təşəbbüsü ilə Niaqarada Azərbaycan Muğamı Günlərinin keçirilməsi, Niaqara Festivalının təşkilati strukturu çərçivəsində *"İpək yolu"* komitə-**















**sinin yaradılması Şimali Amerikanın mədəni həyatında əlamətdar hadisəyə çevrilib. Qədim İpək yolu üzərində yerləşən ölkələrin musiqisinin və bütün mədəniyyətinin inkişafına kömək məsələsində xanım Əliyevanın rolu nəzərə alınaraq, ona Niaqara Festivalının yüksək mükafatı - dünya mədəniyyətlərinin və sivilizasiyaların yaxınlaşması və inteqrasiyası üzrə nəcib missiyanı həyata keçirən insanın qədim rəmzi olan *"Sülh qızılgülü"* mükafatı təqdim edilib..."**

■ *Qeyd edim ki, Azərbaycanın birinci xanımını XXI əsrin tanınmış görkəmli qadınları olan müasirlərimiz sırasına daxil etmək təklifi ilə Amerika Bioqrafiya İnstitutunun ünvanına daxil olmuş digər müraciəti Niaqara şəhər meri lord Qeri Borrou imzalayıb. Əslində, Mehriban Əliyevanın həyatı, fəaliyyəti, dünyaya baxışı gənc qızlar və qadınlar üçün gözəl bir örnəkdir. O, Türk və Müsəlman qadınının bütün dünyada yüksək səviyyədə tanınması və qəbul edilməsi üçün, sözün əsl mənasında, fədakarlıq göstərir. O, gözəlliyi və ağlı, həyat tərzi və fəaliyyəti ilə nəinki ölkəsində, eləcə də Avropada, Qərbdə və Şərqdə böyük nüfuz qazanıb.* ***Azərbaycan Prezidenti İlham Əliyevlə Londona səfəri zamanı bəzi Qərb mətbuatı Fransa və Böyük Britaniyanın birinci xanımını onunla müqayisə edir və üstünlüyü Mehriban Əliyevaya verirdi.*** *Çünki o, təkcə gözəlliyi, zövqü və birinci xanım olması ilə deyil, səmərəli və humanist fəaliyyəti ilə də artıq dünyada geniş tanınır. Xarici səfərlər zamanı onun Azərbaycan haqqında nə qədər yüksək fikir formalaşdırdığının dəfələrlə şahidi olmuşuq. Mehriban Əliyeva ilə görüşmüş dünyaca ünlü siyasət, ictimaiyyət, mədəniyyət sahəsinin insanlarından onun haqqında daim müsbət fikirlər eşidirik.* **Demək olar ki, hamının da fikri yekdildir! Azərbaycanın bəxti gətirib! Bu, inkar olunmaz bir həqiqətdir!** *Hətta Türkiyənin televiziya kanallarından birinin məşhur xanım*













*aparıcısı efirdə onun haqqında* **«Mənim "First Lady"m»** *deyəndə bundan çox qürurlanmışdım. Bir müddət sonra Türkiyədə söhbətimiz zamanı həmin aparıcı ölkəsində nə qədər insanın Mehriban Əliyevaya heyran qaldığını, onunla qürur duyduğunu, Türk millətini və Türk dünyasını ən yüksək səviyyədə təmsil etdiyi üçün ona böyük hörmət və sevgilərinin olduğunu deyəndə çox təsirlənmişdim. Əslində, bunun belə olduğunu özüm də bilirdim. Çünki tez-tez olduğum qardaş Türkiyədə görüşdüyüm insanların demək olar ki, hamısı onun haqqında soruşur, müsbət fikirlərini deyir. Bu cür fikirləri dünyanın çox ölkələrində eşitmək olar.*





## Mehriban Əliyeva - YUNESKO-nun xoşməramlı səfiri!

2004-cü ildə Azərbaycan şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsində yorulmaz səylərinə görə Mehriban Əliyeva YUNESKO-nun xoşməramlı səfiri adına layiq görülüb. Ümumiyyətlə isə o, gördüyü işlərə görə YUNESKO-nun ən fəal xoşməramlı səfirləri sırasındadır. Onun fəaliyyəti nəticəsində YUNESKO-nun qərargahında Azərbaycanın böyük şəxsiyyətlərinin yubileyləri qeyd olunur, Azərbaycan mədəniyyətini təbliğ edən çoxlu sayda tədbir keçirilir. YUNESKO-nun baş katibi Koişiro Masuuranın iştirakı ilə Azərbaycanla təşkilat arasında təhsil sahəsində əməkdaşlığa dair Memorandum imzalanıb. Paytaxtda YUNESKO ilə birlikdə təhsil sahəsində beynəlxalq konfrans keçirilib. Bakıda Beynəlxalq Muğam Mərkəzi yaradılıb. Azərbaycanın bu ecazkar musiqisinin inkişafı, dünyaya tanıdılması istiqamətində ciddi addımlar atılıb. Azərbaycanda dünyanın müxtəlif bölgələrindən gələn muğam ifaçılarının iştirakı ilə Beynəlxalq Muğam Müsabiqəsi keçirilib.





















Muğamın daha geniş təbliği nəticəsində dünya bu böyük musiqi ilə daha yaxından tanış olmaq imkanı qazanıb. Azərbaycanın qədim musiqisi olan əsrarəngiz Muğam *"YUNESKO-nun qeyri-maddi irs"* siyahısına salınıb. Mehriban xanımın rəhbərliyi ilə hazırlanan və məşhur muğam ustalarının valehedici ifalarının toplandığı *"Qarabağ Xanəndələri albomu"* bu gün bütün dünyada onu bircə dəfə dinləyənləri ömürləri boyu öz sehrində saxlayır. Hazırda Azərbaycanın, Türk millətinin qədim musiqisi olan aşıq sənəti, milli bayramımız olan Novruz bayramının *"YUNESKO-nun qeyri-maddi irs"*'i siyahısına salınması istiqamətində ciddi işlər görülür. Azərbaycanın dünyanın ən qədim yaşayış məskənlərindən biri olduğunu açıq şəkildə göstərən Qobustan abidələrinin *"YUNESKO-nun dünya mədəni və təbii irsin qorunması"* siyahısına daxil olmasında da onun böyük xidmətləri var.

O, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması işində əsl fədakarlıq göstərir.

Mehriban Əliyevanın YUNESKO xətti ilə keçirilən tədbirlər çərçivəsində Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində Azərbaycan xalqına məxsus tarixi, mədəni və dini abidələrin dağıdılmasını qeyd etmədiyi bir çıxışını belə xatırlamaq çətindir. O, təkcə çıxışlarında deyil, rəhbərlik etdiyi təşkilatların fəaliyyətində də Azərbaycan həqiqətlərinin dünyaya çatdırıl-







ması istiqamətində böyük işlər görür. Dünya xalqlarının demək olar bir çox dilində Azərbaycan həqiqətləri adlı kitablar nəşr olunub ki, burada Qarabağın tarixi, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi, Xocalıda törətdikləri soyqırımı, erməni terror təşkilatlarının dinc azərbaycanlılara, Türk insanına qarşı etdiyi vəhşiliklər barədə geniş məlumatlar öz əksini tapır. Bundan başqa, Heydər Əliyev Fondu Ermənistanın Xocalı şəhərində törətdiyi soyqırımı dünya ictimaiyyətinə çatdırmaq üçün bir neçə dildə film də hazırlayıb. **Dünyanın bir çox ölkəsində Fondun dəstəyi ilə Xocalı soyqırımının ildönümündə böyük tədbirlər keçirilir**. Xocalı soyqırımını anladan foto və *"Xocalı uşaqların gözü ilə"* adlı rəsm sərgiləri nümayiş olunur. Mehriban Əliyevanın rəhbərlik etdiyi Fond erməni iftiralarını, Azərbaycan həqiqətlərini, Ermənistanın işğal etdiyi ərazilərdə törətdiyi vəhşilikləri, təkcə Azərbaycana deyil, bütün insanlığa məxsus olan dini, tarixi və mədəni abidələrin dağıdılmasını özündə əks etdirən çoxlu kitab nəşr etdirərək, dünya ictimaiyyətinə doğru məlumatların çatdırılması istiqamətində böyük işlər görür.















## Mehriban Əliyeva - İSESKO-nun xoşməramlı səfiri!

Mehriban Əliyeva YUNESKO ilə yanaşı, həm də Müsəlman dünyasını özündə birləşdirən İslam Konfransı Təşkilatının ən böyük qurumu olan İSESKO-nun da xoşməramlı səfiridir və bu vəzifədə də müsəlman dünyasını layiqincə təmsil edir. Sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara göstərdiyi diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşdırılmasına, təhsilə, həmçinin İslam aləmində görülən işlərə böyük dəstəyinə görə 2006-cı il noyabrın 24-də İSESKO-nun xoşməramlı səfiri adına layiq görülmüş Mehriban Əliyevanın gördüyü işlər təşkilat tərəfindən ən yüksək səviyyədə qiymətləndirilir. Azər-





baycanın paytaxtı Bakı şəhəri 2009-cu ildə *"İslam Dünyası Paytaxtı"* elan edildi. Azərbaycanın bu gün Qərblə Şərq, Qərblə İslam dünyası arasında önəmli, etibarlı körpü rolu oynaması, sivilizasiyalar və mədəniyyətlərarası dialoqla bağlı Azərbaycanın bir çox ölkəyə nümunə olması haqqında dünyada yaranan müsbət təsəvvürün formalaşmasında Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, onun da böyük xidmətləri var. Amerika Birləşmiş Ştatlarının nüfuzlu *"WASHİNGTON TİMES"* qəzetinin onun haqqında dərc etdirdiyi məqalədə deyilir: **"AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA MÜSƏLMAN DÜNYASI QADINLARI ÜÇÜN ƏN YAXŞI NÜMUNƏDİR!"** O, dünyanın 10-a yaxın ölkəsinin birinci xanımının və planetin 60-dan çox ölkəsindən gəlmiş lider qadınların iştirakı ilə "Mədəniyyətlərarası Dialoqda Qadınların Rolunun Genişləndirilməsi" adlı beynəlxalq konfransın həm təşəbbüsçüsü, həm də təşkilatçısı olub. Dünyanın iki önəmli təşkilatı, **YUNESKO** və **İSESKO**-nu da bu böyük tədbirə cəlb edərək **DÜNYAMIZIN GƏLƏCƏYİ ÜÇÜN ƏN ÖNƏMLİ MƏSƏLƏ OLAN MƏDƏNİYYƏTLƏRARASI DİALOQDA QADINLARIN ROLUNUN GENİŞLƏNDİRİLMƏSİNİN VACİBLİYİNİ VƏ ƏLDƏ EDİLƏ BİLƏCƏK NAİLİYYƏTLƏRİ BİR PLATFORMA KİMİ ORTAYA**














QOYDU! Afrikadan tutmuş Avropaya, Asiyadan tutmuş Amerikaya və İslam ölkələrinə qədər bir çox ölkənin birinci xanımının və dünyanın 6 qitəsindən gələn və öz ölkələrinin ictimai-siyasi, mədəni həyatında böyük rol oynayan qadınların, İslam Konfransı Təşkilatının Baş katibi Ekmeleddin İhsanoğlunun rəhbərliyi ilə təşkilat rəsmilərinin, Avropa Şurası rəsmilərinin və dünyanın bir çox nüfuzlu beynəlxalq təşkilatlarından olan təmsilçilərin iştirakı ilə keçən müzakirələrdə qonaqlar Azərbaycanın bir türk və müsəlman ölkəsi kimi Mədəniyyətlər və Sivilizasiyalararası dialoqla bağlı gördüyü böyük işləri yerində görməklə yanaşı, Bakının Qərblə müsəlman dünyası arasında önəmli bir qapı oynaya biləcəyi böyük rolu xüsusi vurğuladılar. O, həm də fəaliyyəti ilə Mədəniyyətlər və Sivilizasiyalararası dialoqa necə nail olmağın yolunu, qadınların bu sahədə nə qədər böyük rol oynaya biləcəyini göstərir. Onun təşəbbüsü ilə ***"Tolerantlığın ünvanı - Azərbaycan"*** layihəsi çərçivəsində Azərbaycanda məscidlərlə yanaşı, kilsələr və sinoqoqlar da təmir olundu və insanların ibadət etməsi üçün yaxşı şərait yaradıldı. O, Azərbaycan nümunəsində göstərdi ki, Mədəniyyətlər və Sivilizasiyalararası dialoqa yalnız qarşılıqlı hörmət və dözümlülüklə nail olmaq olar. Mehriban Əliyevanın keçdiyi həyat yoluna nəzər saldıqda qısa zaman ərzində gördüyü böyük işlər insanı valeh edir. Bu, sadəcə, SEÇİLMİŞLƏRƏ verilən bir istedad, ağıl və güc sayəsində mümkündür! **O, 1995-ci ildə təsis etdiyi Azərbaycan**





**Mədəniyyətinin Dostları Fondunun prezidenti kimi də mədəniyyətimizin geniş təbliğ olunması istiqamətində böyük işlər görüb.** Məsələn, Mehriban Əliyevanın 1996-cı ildə təsis etdiyi və 3 dildə (Azərbaycan, ingilis və rus) çap olunan "Azərbaycan - İrs" jurnalı Azərbaycan mədəniyyətinin təbliğ olunması istiqamətində önəmli bir addım olub.

2009-cu ilin noyabrında Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilən Azərbaycan Mədəniyyəti Günləri də, xalqımızın yaratdığı mənəvi sərvərlərin dünyada tanıdılmasında mühüm addım oldu. Mədəniyyət günləri çərçivəsində Azərbaycan rəssamlarının əsərləri, etnoqrafik miniatürlər, qədim tətbiqi sənət və xalçaçılıq ənənələrini əks etdirən eksponatlar və Heydər Əliyev Fondunun nəşrlərindən ibarət geniş ekspozisiya sərgilənmişdir. Mehriban Əliyeva yalnız Azərbaycan mədəniyyətinin xaricdə tanınması istiqamətində deyil, dünya sənət incilərinin ölkəmizdə təbliğ olunması istiqamətində də mühüm işlər görür. Azərbaycanda keçirilən Qəbələ Musiqi Festifalı, F. Şopen, D. Şostakoviç, M. Rostrapoviçin yubiley gecələri gənc nəslin musiqi zövqünün formalaşmasına və hərtərəfli inkişafına xidmət edir.


















## Mehriban Əliyeva - Azərbaycan Gimnastika Federasiyasının prezidenti!

O, həmişə işin asanından deyil, çətinindən tutur. O, bütün dünyaya göstərdi ki, Azərbaycan qızı, yəni Türk-Müsəlman qızları öz gözəllikləri və təravəti ilə idmanın gimnastika sahəsində də böyük uğurlar əldə edə bilərlər. 2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilmiş Mehriban Əliyevanın fəaliyyəti nəticəsində Azərbaycan qızları qısa zaman ərzində Avropa və Dünya çempionatlarının medallarını qazanmağa nail oldular. O, Azərbaycan qızlarının idmanın bu növündə də böyük uğurlara imza atmağa qadir olduğunu nümayiş etdirdi. Bu gün gimnastika sahəsində Azərbaycan qızları əldə etdikləri uğurlarla nəinki Türk və Müsəlman dünyasında liderdir, eləcə də bir çox Avropa və Qərb ölkəsini belə, arxada qoyur. Bu, onun zəhmətinin bəhrəsidir. Cəmi bir il sonra onun gördüyü böyük işlər və beynəlxalq aləmdə artmaqda olan nüfuzu sayəsində **Beynəlxalq Gimnastika Federasiyası Bədii Gimnastika üzrə 2003-cü və 2004-cü il Dünya Kuboku yarışlarının və 2005-ci il Dünya çempionatının Azərbaycanda keçirilməsinə dair qərar qəbul etdi. 2007-ci il iyunun 29-da isə Bədii Gimnastika üzrə 23-cü Avropa çempionatı Azərbaycanda keçirildi.** Bu cür mötəbər yarışların bir-birinin ardınca Azərbaycanda keçirilməsi, Mehriban Əliyevanın fəaliyyətinə verilən qiymət və ona olan etimadın göstəricisi idi. Çox yüksək səviyyədə təşkil olunmuş bu yarışlar Azərbaycanın dünyada nüfuzunu və müsbət imicini daha da artırdı.














## Mehriban Əliyeva - Heydər Əliyev Fondunun prezidenti!

Dünyada tanınan Heydər Əliyev Fondunun cəmi 6 il əvvəl yarandığına bir çox xarici qonaqlar da ilk əvvəl inana bilmirlər. Cəmi 6 il və bu qədər nailiyyət! Heydər Əliyev Fondu bu gün artıq dünya miqyasında qəbul olunan bir təşkilata çevrilib. Onun bir çox ölkədə nümayəndəlikləri fəaliyyət göstərir və qurum çoxsaylı layihələri ilə artıq təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da böyük işlər görür. O deyir: ***"Mən insanlara kömək göstərmək istəyirəm. Konkret problemləri həll etmək, yardım edə bildikdə sevinc hissi keçirmək və səndən asılı olmayan səbəblər üzündən nəsə edə bilmədikdə təəssüflənmək, qəzavü-qədər, sağalmaz xəstəlik qarşısında bütün gücsüzlüyünü dərk edərkən əziyyət çəkmək, xilas edilmiş bir uşağın təbəssümünü gördükdə isə bir daha sevinmək istəyirəm. Bu, mənim seçimimdir".*** Xeyirxahlıq və Humanizm! Bəli, bu, onun bütün fəaliyyətinin ana xəttini təşkil edir. Onun rəhbərlik etdiyi Fond maddi vəziyyəti ağır olan minlərlə xəstənin əməliyyat və müalicə olunaraq yenidən həyata qayıtmasına yardım edib. O bu kasıb insanların müalicə olunaraq sağlamlıqlarına qovuşmasına dəstək göstərməsindən mənəvi rahatlıq tapır və öz timsa-





lında bu önəmli ənənələrin cəmiyyətdə daha da möhkəmlənməsində böyük rol oynayr. Sizə ehtiyacı olanların yanında olacaqsınız! Yardımınıza ehtiyacı olanlara əl uzadacaqsınız! Bu, bir insanlıq vəzifəsidir. Budur, onun həyat fəlsəfəsi və cəmiyyətə aşıladığı müsbət dəyərlər! Yoxsul insanlar daim onun rəhbərlik etdiyi Fondun diqqət və qayğısındadır. Onun qapısını döyən hər bir kəsə kömək edilir. Əslində, bu gün Azərbaycan Prezidentindən sonra insanların ən çox müraciət etdiyi şəxsin Mehriban Əliyeva olması insanların ona böyük inam, etimad və sevgisinin göstəricisidir. Bu gün sadə insanlar ona mərhəmət, xeyirxahlıq və humanizm simvolu kimi baxırlar!

## Müstəqil Azərbaycanın Xeyriyyəçilik İnstitutunun təkanvericisi!

O, 1991-ci ildə yenidən müstəqilliyinə qovuşan Azərbaycanda Xeyriyyəçilik İnstitutunu fəal inkişaf etdirdi. Çünki azərbaycanlıların tarixi xeyriyyəçilik ənənələri Sovet dövründə aşınmaya məruz qalmışdı. Məlum ideoloji və sosial-siyasi səbəblər üzündən həqiqi xeyriyyəçilik fəaliyyətinin əhatə dairəsi son dərəcə












məhdudlaşdırılmış, praktik olaraq, yalnız məişətdə kömək formasında qalmışdı. **O, müasir Azərbaycanda ictimai həyatın xüsusi bir sektoru olan Xeyriyyəçilik İnstitutunun yenidən formalaşıb inkişaf etməsində böyük rol oynadı.** O, müasir dünyada və müasir anlamda xeyriyyəçiliyin daha geniş anlam daşıdığını bəyan etdi və bir məktəbin əsasını qoydu. O deyir: ***"Müasir anlamda xeyriyyəçilik daha geniş məna daşıyır, cəmiyyətin rifahı naminə hər cür təmənnasız könüllü fəaliyyəti əhatə edir. Bu fəaliyyət həm konkret fərdlərə və zəif müdafiə olunan qruplara, həm də ictimai həyatın müxtəlif sahələrinin - təhsilin, elmin, mədəniyyətin, incəsənətin inkişafının dəstəklənməsinə yönəldilə bilər. Xeyriyyəçilik fəaliyyəti müəyyən əmlakın, o cümlədən pul vəsaitlərinin verilməsi, müəyyən işlərin görülməsi, xidmətlərin təqdim edilməsi formasında həyata keçirilə bilər. Həmin fəaliyyətin nədən ibarət olmasından və məhz kimin tərəfindən həyata keçirilməsindən asılı olmayaraq, əgər əvəzsiz və könüllü şəkildə yaxşılıq edilirsə, nemətlər yaradılırsa, bu fəaliyyətin xeyriyyəçilik kimi qəbul edilməsi tamamilə düzgündür. Başqa sözlə desək, xeyriyyəçilik - insanların hər hansı direktivlər və göstərişlər əsasında deyil, öz qəlbinin və vicdanının səsi ilə öz vəsaitlərini, qüvvələrini, vaxtını və enerjisini sərf edərək gördüyü xeyirxah işdir".*** Bəli, o, həm də əsl xeyriyyəçidir! Öz qəlbinin və vicdanının səsi





ilə qüvvəsini, vaxtını və enerjisini xeyirxah əməllərə, cəmiyyət və dünya üçün vacib məsələlərə təmənnasız sərf edir! **O, Azərbaycanda xeyriyyəçi insanların da dəstəyi ilə *"Yeniləşən Azərbaycana yeni məktəb"* layihəsi çərçivəsində yüzlərlə məktəb tikdirərək uşaqların daha yaxşı təhsil almaları üçün əlindən gələni edir.** Təhsili millətin gələcəyi üçün ən önəmli məsələ hesab edən Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun əsas diqqət mərkəzində olan məsələlər arasında təhsil ön sıradadır. Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi nəticəsində məcburi köçkün düşmüş ailələrdən birinci sinfə gedən övladlar artıq neçə ildir ki, Fond tərəfindən lazımi məktəb ləvazimatları ilə təmin olunurlar. Azərbaycan torpaqlarının müdafiəsi uğrunda əlil olmuş insanlar arasında mənzilə ehtiyacı olanların təminatına yardım edilir. Qarabağ müharibəsində əlil olmuş insanlar, şəhid ailələri, veteranlar, qaçqın və məcburi köçkünlər, onların problemləri daim onun diqqəti mərkəzindədir. O, tibb məntəqələri yaxşı olmayan bölgələrdə belə obyektləri tikdirərək insanların sağlamlığına xidmət edir. Ona görə yox ki, **o, həm də gözəl həkimdir,** ona görə ki, millətin gələcəyinin sağlam gənclikdən asılı olduğunu gözəl bilir və bunun üçün əlindən gələni











edir. Onun təşəbbüsü ilə tikilən məktəblərdə gənclərin yüksək səviyyədə təhsili, inkişafı üçün lazım olan bütün şərait yaradılır. Gənclərin boş vaxtlarının zərərli meyllərə yönəlməsinin qarşısının alınması, bu vaxtın daha səmərəli istifadə olunması, gənclərin bir vətəndaş kimi yetişməsi də daim onun diqqət mərkəzindədir və bu sahədə də çoxsaylı layihələr həyata keçirilir. O, daim çətin vəziyyətə düşən insanların yanındadır. Kasıb dializli xəstələrin bahalı dializ prosedurlar almasında problemlər yaranan zaman o, xaricdən ən yüksək səviyyəli avandanlıqlar alaraq onların istifadəsinə verir. Görmə qabiliyyətindən məhrum uşaqlarla görüşündə onlar üçün oxumağın və təhsilin çox önəmli olduğuna diqqət çəkir və bundan dərhal sonra onun dəstəyi ilə bu insanların oxuya bilməsi üçün yüksək səviyyəli mərkəz qurulur, ən yüksək səviyyəli xüsusi avadanlıqlarla təchiz edilib istifadəyə verilir. O bu uşaqların saçlarını sığallarayaq kövrəlir, onların əldə etdikləri şəraitdən necə sevindiyini görüb sevinir. Azərbaycanda ata və ana himayəsindən məhrum olan uşaqlar ona Mənəvi Ana kimi baxırlar. Bu da səbəbsiz deyil. Çünki o, uşaq evlərini, internat məktəblərini himayəsinə alaraq onların normal böyüməsi üçün əlindən gələni edir. **O, işlərinin çoxluğuna baxmayaraq, valideyn himayəsindən məhrum olan və bu evlərdə, məktəblərdə böyüyərək ailə həyatı quran gənclərin toy mərasimlərini yüksək səviyyədə təşkil edir, həmin**





**mərasimlərdə iştirak edir, onlarla sevinir, oynayır, şənlənir və onların özlərini tənha, kimsəsiz hiss etmələrinə imkan vermir.** Tez-tez bu uşaqlara baş çəkir, onların fikirləri, problemləri və arzuları ilə maraqlanır, bir ana kimi tövsiyələrini verir. Ata-ana himayəsindən məhrum olan uşaqların qaldığı evlər, internat məktəbləri ən yüksək səviyyədə təmir-bərpa edilib, hər cür avadanlıqla təchiz olunub. Buradakı uşaqlar normal ailələrdə böyüyən uşaqlar kimi hər şeylə təmin ediliblər. O, hər məsələylə şəxsən maraqlanır. Bir ana, bir valideyn kimi... tez-tez bu evlərə, məktəblərə baş çəkərək uşaqlarla vaxt keçirir, onlara məhrum qaldıqları sevgini hiss etdirməyə çalışır. Ən önəmli bayramlarda onlar üçün məclislər təşkil edir və onlarla birlikdə əlamətdar günləri qeyd edir, sevinir, əylənir. O gözlərdəki işıq onun üçün ən gözəl hədiyyədir. O bu uşaqların ata-analı uşaqlar kimi böyüməsindən ötrü yorulmadan çalışır və minlərlə uşaq üçün ana vəzifəsini yerinə yetirmək kimi şərəfli bir missiyanı həyata keçirir. Amma o, heç nəyin ata-ana məhəbbətini əvəzləmədiyini bəyan edərək, insanları daha məsuliyyətli və daha həssas olmağa çağırır. O, uşaqların ailə mühitində böyüməsi üçün həyata keçirilən bütün layihələrin təşəbbüsçüsü və dəstəkçisi olur. *"Talassemiya"* adlı
















irsi qan xəstəliyindən əziyyət çəkən uşaqlar da onun himayəsindədir. Məhz Mehriban xanımın fəaliyyəti nəticəsində Azərbaycanda könüllü donorluq daha da inkişaf edib və bu uşaqların pulsuz qanla təminatı problemi aradan qaldırılıb. İnsanlar arasında təmənnasız şəkildə qan verməklə *"talassemiya"* və *"hemofiliya"* kimi irsi qan xəstəliklərindən əziyyət çəkən insanların pulsuz qanla təmin olunmasına kömək göstərilməsi ənənəsinin cəmiyyətdə möhkəmlənməsində onun böyük rolu var. Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə Azərbaycanda Avropa səviyyəli Talassemiya Mərkəzi yaradılıb ki, bu da talassemiyalı insanlara kömək etməklə yanaşı, ölkədə *"talassemiya"* xəstəliyinin azaldılması istiqamətində də rol oynayacaq. Azərbaycanda şəkər xəstəliyindən əziyyət çəkən uşaqlar da onun himayəsi altındadır. Vaxtaşırı bu uşaqlar Heydər Əliyev Fondu tərəfindən lazımi dərmanlarla təmin olunurlar. Bu uşaqların çöhrəsində, gözlərində yaranan hər bir gülüş onun üçün bir dünyadır. O deyir: ***"Xeyriyyəçiliyin ictimai əhəmiyyətindən danışarkən vurğulamalıyıq ki, bu cəmiyyətdə mənəvi-psixoloji ab-havanın yaxşılaşmasına şərait yaradır, insanlar arasında münasibətləri humanistləşdirir, onların daha xeyirxah, səmimi və həssas olmasına müsbət təsir göstərir. Axı çətin məqamda başqalarından dəstək almış insan özü də imkan daxilində başqalarına kömək göstərməyə daha çox meyl edəcək".***





Xeyriyyəçilik fəaliyyətində iştirak məsələsi insanın rütbəsindən, dərəcəsindən, vəzifəsindən, maddi vəziyyətindən asılı olmamalıdır. ***"İnsan öz xeyirxah niyyətlərini, istəklərini, imkanlarını və qabiliyyətlərini tətbiq etmək sahəsini həmişə tapa bilər"*** deyən Mehriban Əliyeva cəmiyyətdə bu düşüncənin əməllərlə daha da möhkəmlənməsi üçün geniş fəaliyyət göstərir. Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi sahəsində Azərbaycanın bir çox qədim tarixi, dini və mədəni abidəsi yüksək səviyyədə bərpa olunub. Cavad Xan Türbəsi, Comərd Qəssab Türbəsi, qədim dövrlərə aid Hamam Kompleksi və bir çox tarixi, dini və mədəni abidəni buna misal göstərmək olar. O, Azərbaycan gəncliyinin öz tarixinə, mədəniyyətinə bağlı yetişməsi və buna sahiblənməsinin, gəncliyin yüksək vətənpərvərlik ruhunda yetişməsinin böyük önəm daşıdığını daim vurğulayaraq, bu istiqamətdə çoxsaylı layihələrə dəstək verir. O, hesab edir ki, hər bir vətəndaş dövlətinin və cəmiyyətinin inkişafı üçün təmənnasız kömək etməyi nəinki bacarmalı, bunu özü üçün bir vətəşdaşlıq borcu kimi qəbul etməlidir. **"Həmişə özünə və prinsiplərinə sadiq olmaq!"** O bu həyat devizi ilə yaşayır və uğurları bir-birini əvəz edir!















## Mehriban Əliyeva - millət vəkili!

Azərbaycanın hansı bölgəsinə getsəniz, hamı Mehriban Əliyevanın məhz oradan millət vəkili olmasını arzulayır. Millət vəkili kimi təmsil etdiyi Əzizbəyov rayonu hər gün yenidən qurulur, inkişaf edir. Sadə insanlar bu qədər geniş fəaliyyət dairəsi olan bir insanın tez-tez onlara baş çəkərək problemləri, istəkləri ilə maraqlanmasını yüksək qiymətləndirir və bundan qürur duyurlar. Çünki onları təmsil edən millət vəkili təkcə bölgəsi üçün deyil, dövləti və milləti üçün böyük işlər görən bir insandır. İnsanlar ona humanizmin simvolu kimi baxırlar. Millət vəkili olduğu dövrdə iki dəfə parlamentə Amnistiya aktı ilə bağlı qanun layihəsi təqdim etmiş və millət vəkillərinin də dəstəyi ilə öz səhvini başa düşmüş və cəzasının bir hissəsini çəkmiş minlərlə məhbus azad edilərək öz ailəsinə qovuşmuşdur. Cinayət törətmiş qadınların çox hissəsi həbsxanalardan azad edilərək öz övladlarına, yaxınlarına qovuşmuşdur. Bu humanist aksiya cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. O, ***"biz səhvini başa düşən insanlara yenidən şans verərək, kömək edərək onları cəmiyyətimizə yararlı vətəndaşlar kimi qazandırmalıyıq"*** deyərək yeni bir yanaşma tərzini ortaya qoydu. O, qadınların bütün sahələrdə rolu-





nun daha da genişləndirilməsinə böyük diqqət verir. Yadımdadır, ABŞ-a səfəri zamanı bu ölkənin ictimai-siyasi xadimləri ilə görüşündə Azərbaycan qadınlarının seçib-seçilmək haqqını nəinki Müsəlman Şərqi, hətta Birləşmiş Ştatların qadınlarından əvvəl 1918-ci ildə Müstəqil Azərbaycan Xalq Cümhuriyyəti dövründə əldə etdiyini xüsusi vurğulayan Mehriban Əliyeva Azərbaycan qadınının təhsilinə, inkişafına, cəmiyyətin müxtəlif sahələrində, dünyada daha yüksək səviyyədə təmsil olunmasına böyük dəstək verir. O, parlamentdə Azərbaycan-Amerika kimi çox vacib bir Parlamentlərarası Dostluq Qrupuna rəhbərlik etmək missiyasını da uğurla həyata keçirir. ABŞ-a səfərlərindən biri zamanı onu müşayiət edənlər arasında idim və dünyanın bu "superdövləti"ndə görüşdüyü adamlarda böyük təəssürat yaratdığını görmək çətin deyildi. O, iki ölkə arasında əlaqələrin və əməkdaşlığın daha da genişlənməsi, Amerikanın Azərbaycanı daha yaxından tanıması, Azərbaycan həqiqətlərinin, mədəniyyətinin daha geniş təbliğ olunması istiqamətində ciddi addımlar atır. Birləşmiş Ştatların bir neçə məşhur qeyri-hökumət təşkilatı ilə Heydər Əliyev Fondu arasında imzalanmış əməkdaşlıq müqavilələri də


















əlaqələrin inkişafı üçün önəmli addımlardandır. Çoxlu sayda senator, konqresmen, ictimai-siyasi xadimlər, jurnalistlər və müxtəlif sahələrin təmsilçilərinin iştirak etdiyi axşam yeməyində onun çıxışından sonra masa arxasında bu Azərbaycan qadınının ağlı, dünyaya baxışı ilə yanaşı, gözəlliyi də hər kəsin müzakirə mövzusu idi. Qadınlar onu gözəllik etalonu hesab edirlər. **O isə hesab edir ki, əsl gözəllik insanın xarici və daxili gözəlliyinin vəhdətindən yaranır.**

Onun ən gözəl xüsusiyyətlərindən biri təvazökarlığıdır. Bu qədər böyük fəaliyyətə baxmayaraq, özü haqqında danışmağı qəti sevmir. **O öz işi ilə insanların sevgisini qazanır!** Qardaş ölkə olan Pakistanda zəlzələ nəticəsində Müzəffərabad şəhərində məktəb tamamilə dağılmışdı. Uşaqlar çadırlarda ağır şəraitdə oxuyurdular. Məhz onun təşəbbüsü ilə Heydər Əliyev Fondu Pakistan qızlarının yüksək səviyyədə təhsil alması üçün dünya standartlarına uyğun, ən müasir texnologiyalarla təmin olunmuş böyük məktəb tikərək istifadəyə verdi. Bu, nə qədər gənc müsəlman qızın yaxşı təhsil alması deməkdir! Bu nə qədər gənc müsəlman qızın gələcəyi deməkdir! Azərbaycandan kənarda yaşayan soydaşlarımız da daim onun diqqət mərkəzindədir. Gürcüstanda, öz tarixi ata-baba torpaqlarında yaşayan 500 min Azərbaycan türkünün təhsilini, öz mədəniyyətini qoruyub saxlaması istiqamətində çoxlu sayda la-





yihə həyata keçirilir. Artıq neçə illərdir ki, Gürcüstan azərbaycanlılarının birinci sinfə gedən uşaqları məktəb ləvazimatları ilə təmin olunurlar. Azərbaycan türklərinin gürcü dilini, kompyuter texnologiyalarını yaxşı bilməsi üçün çoxlu sayda kurs açılıb. Yüksək səviyyəli mərkəz tikilərək istifadəyə verilib. Onun rəhbərlik etdiyi Fondun dəstəyi ilə Azərbaycan türklərinin yüksək səviyyəli musiqi, rəqs qrupları qurulub ki, indi onlar millətimizi təkcə Gürcüstan səviyyəsində deyil, ən beynəlxalq səviyyəli müsabiqələrdə də təmsil edirlər. Mehriban Əliyevanın rəhbərlik etdiyi Fondun dəstəyi ilə soydaşlarımızın yaşadığı bəzi kəndlərdə yeni məktəblər tikilir, məscidlər bərpa olunur, su xətləri çəkilir. Bir sözlə, onların həyat şəraitlərin yaxşılaşdırılması istiqamətində böyük işlər görülür. Leyla Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi isə bu ölkədə yaşayan, təhsil alan insanlarımızın təhsili, mədəniyyətimizin qorunması və təbliği, gənclərin vətənpərvərlik ruhunda yetişməsi, bu ölkədə layiq olduqları yeri tutması üçün böyük işlər görür. O cümlədən Fondun Rumıniya və Türkiyə nümayəndəliyi də çox fəal şəkildə fəaliyyət göstərir.














**O, təkcə birinci xanım deyil, həm də prezident İlham Əliyevin ən yaxın silahdaşıdır.** Azərbaycanın inkişafı, gələcəyi uğrunda onunla çiyin-çiyinə mübarizə aparan ən yaxın silahdaşı... O, Azərbaycanın köklü bir ailəsinin qızı, o birinin isə gəlini olaraq Vətənə, Millətə xidmətin başlıca məqsəd olduğu bir mühitdə həyata addımlarını atdı. Babası məşhur Azərbaycan yazıçısı və alimi Mircəlal Paşayev SSRİ-nin ən ağır dönəmlərində belə milli düşüncə ruhunu gənclərə aşılamaq üçün ədəbiyyatdan bir silah kimi istifadə edib. Ana babası isə məşhur jurnalist, gözəl ziyalı **Nəsir İmanquliyev** idi. O, Azərbaycan aviasiyasının inkişafında böyük xidmətləri olan, məşhur alim, Aviasiya Akademiyasının rəhbəri **Arif Paşayevin** və təkcə Azərbaycanda deyil, keçmiş SSRİ məkanında və dünyada hörmətlə xatırlanan məşhur ərəbşünas alim Aida İmanquliyevanan tərbiyəsi ilə böyüyüb. İkinci böyük və çox önəmli məktəbi isə Azərbaycanın **Ümummilli lideri Heydər Əliyevin** ailəsində keçib. O, hər zaman ailəsinin adını daha da yüksəkliklərə qaldırıb. Mükəmməl övlad, mükəmməl gəlin, mükəmməl həyat yoldaşı, mükəmməl ana və mükəmməl nənə oldu. Ən əsası isə, o, Millətinə və Vətəninə mükəmməl bir övlad oldu! Mehriban Əliyeva qadının ailəni karyeraya, karyeranı ailəyə qurban vermədən uğurlar əldə edə bilməsinin gözəl bir nümunəsi, həm də örnəyidir. O, gənc qızlar və qadınların kumiri-











nə çevrilib. Ona oxşamaq istəyənlərin, onun fəaliyyətindən ruhlananların sayı həddindən artıq çoxdur! Bu gün dünya ondan danışır. **Azərbaycanın FİRST LADY-sindən! O, sözün həqiqi mənasında, bu gün bütün türk və müsəlman dünyasının lider qadınıdır.** 2005-ci ildə Azərbaycanda keçirilən sosioloji sorğuya əsasən, Mehriban Əliyeva *"İlin qadını"* adına layiq görülüb. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 may tarixli sərəncamı ilə Mehriban Arif qızı Əliyeva Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə Heydər Əliyev Mükafatı ilə təltif edilib. Lakin onun fəaliyyəti təkcə Azərbaycanda deyil, bütün dünyada qiymətləndirilir. 2005-ci il iyunun 9-da ictimai, mesenatlıq və xeyriyyəçilik fəaliyyətinə görə, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfələrinə görə Rusiyanın ***"Yüzilliyin mesenatları"*** Beynəlxalq Xeyriyyə Fondunun ***"Yaqut Xaç"*** ordeninə layiq görülüb. Bundan başqa, Dünya Səhiyyə Təşkilatının (DST) İcraiyyə Komitəsi 2007-ci il yanvarın 29-da Cenevrədə keçirilən 120-ci sessiyasının yekdil qərarı ilə ana, uşaq və ailə sağlamlığının qorun-





ması və möhkəmlənməsi işində müstəsna xidmətlərinə görə Mehriban Əliyevanı bu beynəlxalq təşkilatın mükafatı ilə təltif edib. Genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinə, bəşəriyyətin ali ideallarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə 2007-ci ilin mayında Mehriban Əliyeva ***"Qızıl ürək"*** beynəlxalq mükafatına, **ÜMUMDÜNYA ƏQLİ MÜLKİYYƏT TƏŞKİLATININ İSƏ QIZIL MEDALINA**, 2010-cu ilin fevralında Fransanın ali mükafatı olan ***"Fəxri legion ordeni"***nə, 2010-cu ilin iyulunda YUNESKO-nun ***"Qızıl Motsart"*** medalı"na layiq görülüb. O öz fəaliyyəti ilə önəmli bir tarix yazır. Onun yazdığı tarixin hər sətri insanlara sevgi ilə doludur. O, deyir: ***"Xoş söz, xoş niyyət, xeyirxah əməl"***. Mehriban Əliyeva təkcə rəsmi statusuna görə **Birinci Xanım** deyil, həm də bu dəyərlərinə və düşüncələrinə, təkcə Azərbaycan dövləti və xalqı üçün deyil, **bütün insanlıq üçün etdiklərinə görə sözün əsl mənasında BİRİNCİ XANIMdır.**

## Kitabın içindəkilər


Ön söz ........ 3
Bənzərsiz həyat yolları ........ 5

"Dövrümüzün 50 qəhrəman"ından biri, Azad Ruhlu "Birma Xanımı" ........ 7
37 il yaşadığı saraydan çıxarılan prezident xanımı, prezident... ........ 23
Türkiyənin ilk qadın Xarici İşlər naziri, ilk qadın Baş naziri ........ 33
İtaliyan qızı olan hind gəlini ........ 43
Atasının devrildiyi kresloya 36 il sonra əyləşən qızın film kimi həyatı ........ 55
Braziliyanın İnqilabçı Qadın Prezidenti ........ 69
"Bunu indi et!" ........ 81
"Hər şey unudulur" amma "Heç nə yaddan çıxmır" ........ 93
İlk "Nobel"li müsəlman qadın ........ 101
Bir dəstə çiçək, ardıcıl çevrilişlər və prezident qızı prezident... ........ 117
Divana çəkilən, haqlı çıxıb hakimiyyətə gələn Şeyx qızı ........ 131
Ürəyini dinləyən dövlət katibinin bitməyən arzuları ........ 141
Fransuaza- Dünyaya səs salan Fransız qızı ........ 171
Vaxtlı və Şanslı, və də "Vaxt və Şans"lı qadın ........ 181
"İdeal əsgər"ə qarşı yorulmaz savaşın sərkərdəsi ........ 191
Dörd qızın böyük bacısı, animasiyalı filmə çəkilən
Baş nazir və BMT yetkilisi ........ 197
Çevrəsindəki acı və ziddiyyətlər yaşam və yaradıcılığına
hopmuş "Nobel"li yazar ........ 211
Yetim qalan general qızının işgəncədən başlayıb
BMT-də davam edən ömür yolu ........ 221
Türk comərdliyinə vəfa göstərən İrland xanım ........ 237
Kollec müəlliməsinin siyasətə sirli vidası ........ 249
Əlvida, Şahzadə! ........ 257
Avropanın ortasında güclü qadın biləyi... ........ 273
Cənub gözəli "Şahzadə"nin zəfərinin sirri ........ 281
Dünyaya səs salan keşiş qızının uğurlu həyatı ........ 297
Maykl Ceksondan sonra tək o qaldı... ........ 323
Keçmişdə dərisinin rənginə görə sıxışdırılan keçmiş Dövlət katibi ........ 339
Basketbolçu, maliyyəçi, komissar, prezident xanım ........ 361
Bir qələbənin təşəkkür öpüşü... ........ 373
"Qara qitə"nin İşıqlı Ulduzu ........ 383
Həyat eşqini və sevinc hissini həmişə özündə
saxlaya bilmiş acıhəyatlı qadın ........ 393
Atasının qızı! ........ 401
Birinci Xanım! ........ 413

Kitabın hazırlanmasına texniki dəstək göstərmiş
**Arzu Məmmədovaya**, **Ayla Quliyevaya** və
**dr. Arzu Hacıyevaya** minnətdarlığımızı bildiririk

Dizayner: İ.Nizamioğlu

Çapa imzalanmışdır: 01.03.2011.
Kağız formatı: 70x100 1/16
Fiziki çap vərəqi: 27.75.
Sifariş: 31.
Sayı: 1000

CBS POLYGRAPHIC PRODUCTION
mətbəəsində çap olunub

Akf-261323